**Vahid Qazi**

# RUHLAR ŞƏHƏRİ

## Yurd yazıları

**Üçüncü nəşr**

© "Təhsil", 2023
© "MHS - poliqraf", 2011
© "Təhsil", 2010

Redaktor: Hikmət Sabiroğlu

Publisist Vahid Qazinin “Ruhlar şəhəri” kitabı Ağdama həsr olunub. Amma bu kitab tək Ağdamı, Qarabağı, Azərbaycanı yox, bütövlükdə dünyanı nişan verir – işıqlı və qaranlıq günləri ilə, sevinci və ağrı-acısı ilə. “Ruhlar şəhəri” yalnız bir ağdamlının, qarabağlının, azərbaycanlının uşaqlıq, yeniyetməlik, cavanlıq xatirələri deyil, həm də dünya tarixinin bir səhifəsidir. Tarixin bu səhifəsi – Ağdam səhifəsi payız yarpağı rəngindədir: Günəşin qızartısı rəngində, həsrətdən solmuş bəniz rəngində, qan rəngində...

Müəllif kitabın üçüncü nəşrinə ilk iki nəşrdən sonra Ağdama həsr olunan esse və məqalələrini də, gündəliyində qeyd elədiyi xatirələrini də, “Ruhlar şəhəri” haqqında məqalə, resenziya, məktub, mesaj və SMS-lərdən seçmələri də əlavə edib.

V.Qazi 1968-ci ildə Ağdamda doğulub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Əsərləri Azərbaycanın, Kanadanın, Ukraynanın, Polşanın, İsveçin, Rusiyanın, Qırğızıstanın, Belarusun ədəbi dərgilərində dərc olunub. Kitabları – “Ruhlar şəhəri”, “Yaddaş ləpirləri: demokratiya yazıları”, “Çamayra. Kuba dəftəri”, “Çöl Qala”, “Озоновые люди” (“Ozon adamlar”) Bakıda, “Бейсбол на шахматной доске” (“Şahmat taxtasında beysbol”) Moskvada, isveçcə “Hyresgäster” (“Kirayənişinlər”) Göteborqda – nəşr olunub.

İsveçdə yaşayır.

***Atamın və anamın xatirəsinə ithaf olunur***

# İçindəkilər

Müəllifdən........................................................... 6

*“Ruhlar şəhəri”*

Ön söz. Ramiz Rövşən: “Mümkünsüz qayıdış”ın əzabı.............. 7
Birinci esse. On yeddi............................................................ 9
İkinci esse. Heyva qoxulu zirzəmi........................................... 11
Üçüncü esse. Çəpər................................................................ 13
Dördüncü esse. Xilaskar ölüm marşı........................................ 15
Beşinci esse. Ağ gecənin yuxusu.............................................. 17
Altıncı esse. Vaxt olmayan yer................................................ 19
Yeddinci esse. Novruz sabahının pəncərəsi............................... 23
Səkkizinci esse. Yusif üzlü kitablar.......................................... 27
Doqquzuncu esse. Rəngsiz kino.............................................. 30
Onuncu esse. Azan oxuyan göyərçin........................................ 33
On birinci esse. Hökumətə məhkumlar..................................... 37
On ikinci esse. Sümük abidə.................................................... 41
On üçüncü esse. Toz adamlar.................................................. 45
On dördüncü esse. Sağ qalan ləpirlər....................................... 48
On beşinci esse. Xəyal memarı................................................. 52
Son söz. Rafiq Əliyev: “Qiyamətə qalmış 4 dəqiqə”................ 55

*“Ruhlar şəhəri”nin ilk iki nəşrindən sonra yazılanlar*

“Sonalar gölü”nün sahili. *“Yaddaş ləpirləri” silsiləsindən*............... 59
Stokholmdan Ağdama ABBA ilə............................................. 61
Bir şəklin tarixçəsi. ................................................................ 64
Atamın şilləsi, sevgisi və 20 yanvar ......................................... 66
Narıncı yarış maşını ............................................................... 67
17 yaşlı Anarın 40 yaşına ........................................................ 69
Allah vermişdi Allahverdini ..................................................... 72
Rəmiş. *Sənət, zaman, tale üçbucağında* ........................................ 74
Aqil Abbas haqqı ................................................................... 77
Şeyximizin bəyənmədiyi azan sədası dünyanı dolaşır ............. 79

Ağdama yol Bakıdan keçir ...................................................... 81
Azadlıq qiymətinə foto. *Əli və Bəxtiyarın xatirəsinə* ...................... 83
Boşluqda sallanan ümid .......................................................... 86
Fellininin Qarabağdan keçən “Yol”u ....................................... 88
Xankəndi. *İkinci yazı* ................................................................. 90
Qarakəndli Anuşun təbəssümü ................................................. 92
Xəyalpərəstin həqiqət xəbəri .................................................... 94
Ağıllı Ağdamın kölgəsi ........................................................... 96
O göydəki ulduzlar haqqı ........................................................ 98
Bethovenin 250 illiyinə dəvət .................................................. 100
Donuq duyğuların canlı xəyalı: Ağdam .................................. 102
Yurd yerindən sürreal reportaj ................................................. 105
Yaddaşı silinmiş şəhər ............................................................ 107

*Gündəliyə yazılan Ağdam xatirələri*

Facebookda paylaşdıqlarım .................................................... 110

*“Ruhlar şəhəri” haqda məqalə, resenziya, rəy, məktub, sms, şeirlərdən seçmələr*

Məqalələr ........................................................................ 126
Məktublar ........................................................................ 135
Rəylər, mesajlar, smslər ....................................................... 138
Şeirlər ........................................................................... 144

# Müəllifdən

Hələ çoxdan qərara gəlmişdim ki, “Ruhlar şəhəri”ni bir də nəşr etdirəsi olsam, onu kitabın ilk iki nəşrindən sonra Ağdama həsr etdiyim yazılarla, gündəliyimdə qaraladığım; bəzilərini Facebook səhifəmdə paylaşdığım, bəzilərini jurnalistlərlə söhbətlərdə danışdığım xatirələrlə, kitab haqqında yazılan məqalə, resenziya, məktub, mesaj, şeir, hətta SMS-lərdən seçmələrlə birlikdə nəşr etdirəcəm.

Şəhərimiz azad olunandan sonra dostlar, oxucular məni “Ruhlar şəhəri”ni yenidən nəşr etdirməyə həvəsləndirəndə ilk işim kitaba əlavə olunacaq o mətnləri toplamaq oldu. İllərlə yığılmış bu yazılar kitabın həcmindən bir neçə dəfə çox idi. Odur ki mətnlərdə ən mühüm hissələri saxlamaq, təkrarlanan fikirləri, xüsusən də minnətdarlıq ifadə edən yerləri ixtisara salmaq məcburiyyətində qaldım. Həm həcm şişməsin, həm də mütaliə ritmi pozulmasın deyə.

Açığı, məqalə, məktub, mesaj və SMS-lərdən seçim etmək heç də asan olmadı.

... “Ruhlar şəhəri” ilk kitabımdır. Sonra daha yeddi kitab da çıxdı, rus, İsveç dillərində nəşr olunanlar da var aralarında. Elə o qədər də nəşr olunmayanı durur hələ. Amma bu kitab bir köynək daha yaxındır mənə. O, anaya, sevgiliyə, sirdaşa deyiləsi ən məhrəm və mübhəm söz kimidir. Belə sözləri hər deyəndə yazmaq olmur.

“Ruhlar şəhəri” 10 il əvvəl, təxminən dörd aya yazıldı – hər günü bir ömür qədər uzun dörd ay. Bakının bir soyuq fevral günündə başlayıb, Xızının bir ılıq bahar sabahında bitirdim. Bitirdimmi?

Sonralar dönə-dönə bu haqda məndən soruşanlara, “az yazmısan, yazası çox şeylər tapa bilərdin” deyənlərə belə cavab verirdim: “Oxucuya çəkdiyim bu “pay” doyumluq yox, da - dımlıqdır”. Əslində isə “nəfəs çatmadı” deməliydim.

Doğrudan, düz sözümdür, nəfəs çatmadı; əvvəlcədən “Bazar” və “Mağar” adlı esselər də yazmağı nəzərdə tutmuşdum. “Bazar” hələ sovet illərində azad bazar iqtisadiyyatı havasıyla yaşayan şəhərin iqtisadi-ticari aləminə həsr olunacaqdısa, “Mağar” xeyir-şər məclislərinin təşkili, özünəməxsus kültürünün incəliklərinə işıq tutasıydı. Yazılmadı, alındıra bilmədim. Qəribə hala düşmüşdüm onda, evdə də bir cür baxırdılar mənə.

Görünür, zaman lazımmış, bir də, fərqli məkan. İsveçə köçəndən sonra 2010-cu ilin o dörd ayında yaşadığım ovqata dəfələrlə düşəcəkdim. Və bu ovqat hər girəvədə məni bu gündən qoparıb xatirələrin isti qucağına – Ağdamlı çağa atacaqdı. Hər dəfəsində yeni yazı yazılacaqdı.

Odur ki “Ruhlar şəhəri”nin ilk iki nəşrindən sonra Ağdama aid yazılanları da bu nəşrə əlavə etməyi lazım bildim. Xüsusən də şəhər azad ediləndən sonra yazılanları, illah da 29 il sonra Yurda səfər yazısını...

... Azad ediləndən sonra Ağdamın bərpasına başlanılıb. Deyirlər, mənim xatirələrimin yerində müasir tipli şəhər salınacaq. Daha gözəl, daha əzəmətli, modern şəhərə çevriləcək Ağdam.

Amma bu kitabdakı şəhər bir də olmayacaq!

Ağdam haqda işlətdiyim “Qafqaz Xirosiması”, “Ruhlar şəhəri” epitetləri də tarixin yaddaşına köçəcək. Mən buna ürəkdən sevinirəm!..

Və sonda onu deyim ki, satışda olmayacaq bu kitabın nəşrinə maliyyə dəstəyi verən təvazökar iş adamına təşəkkür edirəm.

## Ön söz yerinə

# “Mümkünsüz qayıdış”ın əzabı

Həzrət Əli “İnsanlar valideynlərindən çox zəmanələrinə bənzəyirlər” deyirdi. Folkner isə yazırdı ki, hər bir insan öz yaddaşının məhsuludur.

Aralarında min ildən çox məsafə olsa da, bu iki fikir qəribə şəkildə bir-birini tamamlayır.

Doğrudanmı insanlar hamısı öz zəmanələrinə bənzəyir? Bəs onda necə olur ki, eyni zəmanədən həm Lenin, həm də Aleksandr Blok, həm Hitler, həm də Tomas Mann çıxır?

Bunun bir cavabı var; “çünki hər bir insan öz yaddaşının məhsuludur”.

Eyni hadisələrin şahidi, hətta iştirakçısı olmuş müxtəlif insanların yaddaşında həmin hadisələrdən müxtəlif izlər qalır. Kimsə yaxşılığı, kimsə pisliyi unutmur. Kimsə günahı həmişə özgələrdə, kimsə özündə görür.

Ümumiyyətlə, çox vaxt bizim yaddaşımız olub-keçənləri, başımıza gələnləri, zaman keçdikcə özümüz üçün sərfəli şəkildə redaktə eləməklə məşğuldu. Məsələn, haçansa kiminləsə sözləşmisən, həmin adam sənə çox sərt şeylər deyib və sən ona heç bir tutarlı cavab verə bilməmisən. Amma sonralar hər dəfə o söhbəti yadına salanda düşünmüsən ki, bax, o adam mənə filan sözü deyəndə gərək mən də ona filan cavabı verəydim. Və beləcə, sənin o adama verə biləcəyin tutarlı cavabların sayı get-gedə artıb və yavaş-yavaş sənin yaddaşında o acı, alçaldıcı söhbətin tamam fərqli, səni ucaldan bir mənzərəsi yaranıb. Fransızlar buna “pilləkəndə hazırcavablıq” deyirlər. Yəni öz həmsöhbətindən ayrılıb pilləkənləri düşə-düşə adamın ağlına gələn cavablar.

Təəssüf ki, bu keyfiyyət, bu “pilləkən hazırcavablığı”, öz keçmişini bu cürə “bəzəmək” cəhdi, yalnız ayrı-ayrı insanlara yox, bəzən bütöv millətlərə də xas olur. Şəhərimizdəki köhnə binaların divarlarına təzə üzlük çəkdikləri kimi, keçmişimizin müxtəlif dövrlərinə də bu günün konyunkturasına uyğun şəkildə təzə üzlük çəkmək arzusunda olanlarımız da var.

Amma keçmişimizdə, özü də ən yaxın keçmişimizdə elə yaralı və ağrılı məqamlar var ki, onlara təzə üzlük çəkmək qeyri-mümkündü. O yaraları ancaq tənziflə sarımaq olar və bu zaman tənzifin üstünə çıxan qan ləkəsini görəcəksən.

Dünənimizin və bu günümüzün hələ qaysaqlanmamış bu açıq yarası – Qarabağdı.

***

Dostum Vahid Qazinin “Ruhlar şəhəri” kitabı bu gün daşı daş üstə qalmayan, xarabalığa çevrilmiş Ağdamın xatirəsinə həsr olunub. Bir-iki il bundan əvvəl bir başqa dostumuz Hikmət Sabiroğlunun Şuşa haqqında kitabını oxumuşdum. Bir vaxtlar Şuşa Qarabağın ən gözəl, Ağdamsa ən varlı şəhəri sayılırdı. Vahidin öz kitabında yazdığı kimi, ermənilər Ağdamı axırıncı daşına, kərpicinə, taxtasına, mismarınacan söküb-aparıblar və o tikinti materiallarının hesabına Stepanakerti təzədən qurublar. Amma mən inanmıram ki, bu gün Ağdamın hesabına tikilmiş o evlərdə yaşayan ermənilər Stepanakerti də varlı şəhər saysınlar. Çünki varlı olmaq təkcə dəbdəbəli ev-eşiklə, pulla, malla ölçülmür. Bu həm də insanın içindən gələn bir hissdi, duyğudu. Hər halda, mən bir vaxtlar “haralısan?” sualına bütün Qarabağda ağdamlılar kimi qürurla, hətta bir az da təkəbbürlə cavab

verənlərə rast gəlməmişdim. Və bəlkə də Ağdamı o cürə qəddarlıqla dağıdıb xaraba qoyan ermənilər ağdamlılardan həm də o qürurun, təkəbbürün acığını çıxmışdılar.

Bir vaxtlar keçmiş SSRİ-nin paytaxtında yaşayan moskvalılar haqqında deyirdilər ki, "moskvalı olmaq – vəzifədi". Məncə, Qarabağda da ağdamlı olmaq vəzifə kimi bir şey idi. Və o torpaqların işğal olunmasıyla bütün qarabağlılar əgər öz doğma yerini-yurdunu itirdisə, ağdamlılar sanki təkcə öz yerini-yurdunu yox, həm də, ən böyük "vəzifələrini" itirdilər. "Ağdamlı" olmaq vəzifəsini. Vahidin kitabı bu itkinin ağrısından doğulub.

Sözün düzü, kitabın əvvəlində müəllifin oxucunu öz arxasınca "Ruhlar şəhəri" Ağdama səyahətə çağırması mənə bir az patetik görünsə də, sonra təbii və obrazlı bir dillə təsvir olunan hadisələr, 70-ci, 80-ci illərin Ağdamı və ağdamlıları haqqındakı duzlu söhbətlər, tanıdığım və tanımadığım adamların həyatından danışan irili-xırdalı epizodlar məni öz arxasınca çəkib apardı.

Adətən, insan olub keçənləri, ölüb gedənləri xatırlayır. Bu mənada, xatirə yazmaq üçün Vahid hələ çox cavandı. Onun bu kitabında ara-sıra adlarına rast gəldiyim, onunla bir şəhərdə doğulub böyüyən, bir məktəbdə oxuyan dostları da cavandılar. Hamısı öz işində-gücündə. Amma ən kədərlisi budu ki, bu cavanların doğulub böyüdükləri o şəhər, oxuduqları o məktəb daha bu yer üzündə yoxdu.

Hər bir insan ömrü doğulandan ölənəcən müəyyən zaman və məkan çərçivəsinə sığışır. Yəni biz öz ömrümüzü müxtəlif illərdə, müxtəlif yerlərdə yaşayırıq. Haçansa yaşanmış illərə bir daha qayıtmaq mümkün olmasa da, haçansa yaşadığımız yerlərə qayıtmaq mümkündü. Vay o gündən ki, o yerlərə də qayıda bilməyəsən. Vahidin kitabı bu "mümkünsüz qayıdış"ın əzabından yaranıb. Və bu gün Azərbaycanda minlərlə adam bu "mümkünsüz qayıdış"ın əzabını çəkir…

…Amma dediyim doğrudurmu?

Hanı əzab çəkənlər?!

Bəlkə bu ölkədə "əzab çəkməyin" yeni növü icad olunub; zurna-balabanla, çalıb-oxumaqla, oynamaqla, həftə səkkiz-mən doqquz bayram eləyib göyə fişəng atmaqla və beləcə, gündən-günə arzıslığın, abırsızlığın girdabına batmaqla…

Bütün dünyada geniş yayılmış çox həyasız bir ifadə var: "Qalibləri ittiham etmirlər". Hətta qaliblərin sinizmi, yəni arsızlığı, abırsızlığı anlayışı da mövcuddu. Amma sən demə, "məğlubların sinizmi" də olurmuş. Və bu gün musiqi sədaları və fişəng parıltıları altında oxuyub oynaya-oynaya biz bunu bütün dünyaya göstərməkdəyik.

Bəlkə bununla düşmənə acıq vermək istəyirik?

Amma düşmənə acıq verməzlər, düşməndən acıq çıxarlar.

Bu kitabın "Xəyal memarı" adlanan sonuncu fəslində Vahid özünün ən böyük arzusundan, haçansa, müharibə bitəndən sonra Ağdamı öz yaddaşımız və köhnə fotolar əsasında ev-ev, küçə-küçə təzədən tikib, qurub bərpa eləməkdən danışır; bir vaxtlar faşistlərin yerlə yeksan elədiyi Varşava şəhəri kimi.

Mən dostumun bu şairanə arzusunun haçansa gerçəkləşəcəyinə çox inanmaq istərdim.

Amma Şuşadan, Laçından, Kəlbəcərdən, Ağdamdan üzü bu yana düşmən tapdağında qalan bütün o şəhərlərin, kəndlərin xatirəsi ildən-ilə bizim öz yaddaşımızda solursa, unudulursa, onda necə?!

**Ramiz RÖVŞƏN**

## Birinci esse

# On yeddi

Nə vaxtsa havalanmısanmı? Yox, məsum təbəssümdən sevdalanmanın, bir oğrun baxışdan həyəcanlanmanın havalanmağını demirəm. Dünənədək sənin olan, udduğun hava, içdiyin su kimi... ata sığalı, ana qucağı, sevdalı qız baxışı, oğul gözləri, lap belə Allahın kimi əvəzsiz olanı itirməkdən havalanmağı deyirəm. Ayrılıqda bu itkilərin hər biri ağırdı. Amma bunların hamısının qovuşduğu bir yer var – Yurd! Onun itkisi daha ağırdı.

Sənə öz yurdumdan söz açacam bu kitabda. Olmayan bir şəhərin xoşbəxt çağlarından danışacam. Sən bu şəhəri bəzən 5 yaşlı körpənin heyrəti, bəzən 10 yaşlı uşağın marağı, bəzən də 15 yaşlı yeniyetmənin hissləriylə duyacaqsan. Onu bir uşağın hələ kirlənməyən dünyasından keçib görəcəksən.

İndi sakini sərgərdan ruhlar olan bir şəhərə səyahətə gedirsənsə, arxamca gəl!

***

Britaniyalı jurnalist Tomas de Vaal "Qara bağ" kitabında yazır: "...Parlaq bir yaz günü idi, buradan hətta yüz kilometr şimalda ucalan Qafqaz dağlarının səfalı zirvələri aydın görünürdü. Bu mənzərəni seyr etmək əvəzinə gözlərim aşağıdakı kiçik Xirosimadan ayrıla bilmirdi... 1993-cü ildə ermənilər Ağdamı ələ keçirdikdən sonra küçələri, evləri bir-bir talayıb daşıdılar. Dağıdılmış evləri qanqal və böyürtkən kolları basıb. Viran qalmış şəhərə minarədən baxıb bir daha bu apokalipsisin səbəbləri haqqında düşündüm..."

***

Gecəyarısı kilidlənən dişlərinin göynərtisinə ayılmısanmı? Qara-qura yuxulardan qan-tər içində diksinib qalxmısanmı? Özünü çəkmisənmi məşhər ayağına aylar-illər uzunu? Adam arasında qamətini dimdik tutub, təklikdə arvadından, balalarından gizlin, yumağa dönüb ağlamısanmı için-için? Məclislərdə görünməsin deyə sözəbaxmaz uşaq kimi atan üz sinirlərini örtmüsənmi əllərinlə? Səndən ixtiyarsız əsən barmaqlarını ovcunda gizlətmisənmi?

...Çərləmək nədi, bilirsənmi?

***

...Bu yay Ağdamsızlığın 17 yaşı olacaq. "17" tanıdığım ilk rəqəmdi. 1, 2, 3-dən də, elə 7-dən də əvvəl. "Baharın 17 anı" filmindən tanıyıram onu, ilk sevimli filmim olub. 17 nömrəli sovet xokkeyçisi Xarlamov uşaqlığımın kumiriydi. 17 yaşımda ağdamlı uşaqlığımla sağollaşdım. 17 yaşımda xəyallarımın şəhəri Bakıda gəncliyimlə salamlaşdım. Sonra dava başladı. Qohum-əqrəbanın sevimlisi, əzizim Anarı Xramord ətəyində erməni gülləsi 17 yaşında haqladı... Yadımdadı, ona ad qoyulanda dayım mənə baxmışdı. Mən də "Xarlamov" demişdim. Gülüşmüşdülər. Pərt olmayım deyə başqa ad istəmişdilər. "Anar"ımı bəyənmişdilər... İndi 17 ildi Anar 17 yaşında qalıb. Elə Ağdam da boy atmayıb, 17 il əvvəlki yaşındadı.

***

“Vətən”lə “Yurd” sözlərini dəyişik salma, bir-birinə oxşadıqlarına baxma, fərqləri var! Fərqini məndən soruş! Vətən böyükdü, hamınındı, ümumidi. Bakı, Şəki, Ordubad da vətəndi... Aydan baxsan, Yer də vətəndi. Amma hər kəsin içində balaca, yalnız özünə məxsus bir küncü var, bax, ora Yurd deyirlər. O, diridi, tərpənir. Yaxınlaşıb baxırsan, qoxulayırsan, toxunursan, o üzünə, bu üzünə çevirirsən, qapısını açıb içinə girirsən. Girirsən və görürsən ki, o, elə özünsən...

“WebUrbanist.com” saytı Ağdamı turistlər arasında maraq doğuran “24 ruhlar şəhəri” siyahısına salıb. Səni ora aparacam, xatirələrimin yurdundan, yurdumun xatirələrindən danışacam. Yanıma gəl, qolundan tutum, birlikdə gedək mənim şəhərimə, indi sakini ruhlar olan şəhərimə...

***

Dünyada çox şəhər var, işğal olunub, azad edilib. İstər Ermənistanda, istər Qarabağda adamları qovulmuş nə qədər boş şəhər, kənd var. Amma Ağdam Yer üzündən silinib, daha yoxdu, nə işğal altında, nə də torpaq üstündədi...

Doğulub böyüdüyün kəndi, şəhəri, həyəti gətir gözlərinin önünə! Təsəvvür elə düşmənlər səni bir vaxtlar kölgəsində kitab oxuduğun armud ağacına sarıyıblar. Ağzını yummayıblar, ürəyin sıçrayıb dişlərinin arasından düşənədək bağırasan deyə. Gözlərin də açıqdı, görəsən – çıxıb uzaq dağlara, yaxın həyətlərə baxdığın damı dəmir-dəmir necə sökürlər, gizlənqaç oynayanda arxasında gizləndiyin divarı daş-daş necə qoparırlar, üstündə min oyundan çıxdığın ananın cehizlik xalısı döşənmiş döşəməni taxta-taxta necə yarırlar, yağışlı günlərdə tərli şüşəsinə barmağınla şəkil cızdığın pəncərələri lay-lay necə çıxarırlar, hərəsindən bir xatirən sallanan ağacları budaq-budaq necə kəsirlər...

Dayandılar. Yorulublar, ya da acıblar. Dikbaşlığından zövq aldığın dostun xoruzun qışqırtısı batırır sənin bağırtını. Şişə taxırlar, araq süzürlər, mahnı oxuyurlar. Sonra qalxıb sökdüklərini ehtirasla dəstələyib maşınlara yükləyir, yerdə qalanına od vururlar. Bu odda xatirələrin qarışıq bütün keçmişin yanır, külünə baxırsan qolubağlı. Yaxşı bax bu külə, çünki gələcəyin bu küldən yoğrulacaq...

Hər gecə bu mənzərə beləcə, təkrarlanır. Heç bilirsənmi xatirələrin külü nə qoxuyur? Heç yanan ruh gördünmü? Heç qoxuladınmı yanmış ruhun külünü? Amma mən bilirəm! 17 ildi qoxulayıram bunu.

***

Çexiyalı jurnalist Petruşka Şustrova yazır: “...Nə vaxtsa gözəl şəhər olmuş Ağdamın indi olduqca qorxunc mənzərəsi var. Bir vaxtlar britaniyalı jurnalist Tomas de Vaalın kitabında “balaca Xirosima” deyə bir bənzətmə oxuyanda düşünmüşdüm ki, bu, şişirtmədi. Amma yox, şişirdilməyib. Ağdam xarabalığa çevrilib və ona baxmaq olduqca dəhşətlidi. Bu xarabalıq yalnız müharibənin nəticəsi deyil, bir çox ev qəsdən sökülüb və həmin evlərdən aparılan tikinti materiallarıyla Stepanakert yenidən qurulub. Ağdam xarabalıqlarını gəzəndə birdən cib telefonuma mesaj gəldi. Qısa mesaj sanki gördüyümüz bu mənzərənin dəhşətini bir ironiya – sarkazmla vurğulamağa çalışırdı: “Azərbaycana xoş gəlmişsiniz. Çexiyaya zəng vurmaq üçün ilk öncə + 420 yığın”.

...Bəs mənim ruhlar şəhərimin kodunu bilən varmı?

## İkinci esse

# Heyva qoxulu zirzəmi

“Danışır Bakı. Bakı vaxtıyla saat 6-dır”.

Pəncərənin dəmir məhəccərindən asılan radio gecənin sükutuna hər səhər beləcə son qoyurdu. Bir sözü belə yadda qalmasa da, musiqisi hələ də qulaqda səslənən xoşbəxt gələcək müjdəli şux sovet himnimiz bu xəbərdən sonra çalınırdı. Vətənpərvər hisslərdən sonra dinləyicilərə səhər gimnastikası təqdim olunurdu. “Ayaqlarınızı aralı saxlayın, əllərinizi yuxarı qaldırın!” Yaxşı ki, bütün cümlələri əmrdən ibarət olan idman proqramı elə “Azad!” əmriylə də bitirdi. Yoxsa hələ də əllərimiz yuxarı, ayaqlarımız aralı qalmışdıq sovetlər ölkəsində.

***

Nənəm adəti üzrə yerindən məhz “Azad!” əmri gələn vaxt qalxırdı. Radioda var-gəl eləyən aşığın sazından qopan hava altında səhər yır-yığışı edir, mənsə nənəmdən sonra genələn çarpayıda gərnəşirdim. “Sən hələ yat! Mən gedim çaparaq su gətirim, sonra qalxarsan, çay içərik”. Sonralar, böyüdükcə çox sirli söz eşidəcəkdim, həmin gün mənasını “qaça-qaça” kimi başa düşdüyüm “çaparaq” bunların ilki oldu. Nənəmi çiynində səhəng, əlində vedrə, az qala yerlə sürünən tumanla qaçan təsəvvür edə bilmirdim. “Qiblə” sözünü də Aşıq Hüseyn Saraclı dedi radioda:

**“Hər tüstü çıxana öy demək olmaz,**

**Düz qıvlası, gen həyəti olmasa”.**

Elə bu cür sehrli sözlərə, səslərə qoşulub yenidən yuxuya gedirdim.

***

Neçə-neçə elləri geridə qoyub, nöyüt qoxulu dirəkləri şalban-şalban adlayıb, yazda daşıb çay, yayda quruyub arx olan Qaraçavaya gedən yolun qırağındakı, elə mən yaşda, mən ağılda olan çağlarında dayımın zirzəmisindəki samana od vurub yandırdığı bir yanı uçuq, o biri yanı Nikolayın babasından qalma baba evimizə girib bizi yuxudan eləyən radio, hər kəsə ayaq saxladan gözəl qız kimi müharibə dövründəki vaxtı keçsə də, marağını hələ tam itirməmişdi, “canı suluydu”, kəndin yeganə xəbər gətirən, vaxt öldürən yeriydi.

Məni isə “Danışır Bakı” sözləri düşündürürdü: “Hardadı, bu Bakı?”

Radionun simini tutub yola çıxırdım, beş şalban, on beş, iyirmi beş... Kəndin başı ilə şəhərin ayağı birləşən yerdə dirəklər haçalanır, mən də yolu itirirdim. Bura Bakı yox, Sarıtəpəydi. Radioda isə “Danışır Sarıtəpə” demirdilər. ...Əlacsız geri dönürdüm, radio məftilinin içində sazı sol çiyninə aşırıb sağ əliylə əlimdən tutan aşıq yolu azmayım deyə mənimlə gəlirdi. Qapıdan – radionun qutusundan içəri ötürüb, yurd yerimə salırdı...

Aşıq Hüseyn Saraclının səsinə sonralar vurulacaqdım. Kəpənəkçi kəndində Aşıq Kamandara sonralar qonaq olacaqdım. Mərhum oğlu Cavanşirin toyunda səhərəcən Borçalı aşıqlarına qulaq asmağa da imkan tapacaqdım.

...Saz səsi hər bir türkün genində yaşayır, hətta heç vaxt bu səsi eşitməyən belə onu özündə daşıyır. Hər millətin öz genetik kodu, bu kodun da öz açarı var. Saz səsi bizim genetik kodumuzun açarıdı.

***

"Dur! Tənbəl olma, dur, çay hazırdı". Nənəm çaparaq qayıtmışdı, hələ gətirdiyi sudan çay qaynadıb süfrə də açmışdı. Aşıq getmişdi, radiodan indi başqa səs gəlirdi: "1973-cü ilin 18 iyununda Sov.İKP MK-nın baş katibi Leonid İliç Brejnev yoldaş Vaşinqtonda ABŞ prezidenti Riçard Niksonla görüşmüşdür. Görüşdə nüvə müharibəsinin qarşısını almaq barədə razılıq imzalanmışdır". Niksonun həmin görüşdə maşınbaz baş katibə tünd mavi "Linkoln-Kontinental" bağışladığını isə yalnız bu sətirləri yazan gün internetdən oxuyacaqdım. Hələlik isə radionun yanında sallanan lobya, noxud, kəklikotu, əvəlik, qantəpər, itburnu, zəncəfil, darçın, gavalı qurusu, qovurğalıq buğda torbaları az qala dil açıb xorla "Qalx!" deyirdi.

Pəncərədən sağdakı divardan asılan şəkil isə heç yana tələsmirdi. Gəlib duracağı yeri tapmışdı. Rafael dayımın lotereyada udub yolunu intizarla gözlədiyi və uzun zamandan sonra poçtla gəlib çıxan qarlı rus meşəsi çəkilmiş tablo (qırxillik lotereya oyununda gördüyü bircə bu oldu) divarın elə yerinə vurulmuşdu ki, otağın hər tərəfindən görünürdü. Dayım hərdən xəyala dalıb rəsmə elə baxırdı ki, sanki italyan rəssamı Rafael dünya ekspertlərinin indiyədək qiymət qoya bilmədiyi "Gənc qadın" portretinə son dəfə baxıb bir parça çörək üçün satmağa aparacaqdı. Amma o, şəkillə vidalaşmırdı, sadəcə "Toşnu slujit elədiyim yerə oxşayır" deyib, köks ötürürdü. Onun qarlı rus meşəsində təsvir olunan evə baxıb hansı hissləri keçirdiyini əsgərlikdən qayıdanda biləcəkdim.

***

Torpağının böyük bir hissəsi şəhər ərazisinə qatılan, Ağdama bitişik Seyidli kəndinin sayını bilmədiyim qədər məhəlləsi vardı. Şəhərin Köhnə hamam adlanan məhəlləsindəki evimizdən nənəmgilə getmək üçün Molla Qurbanlılar, Qazılılar, Təpəməhlə, Ayağıyalınlar məhəllələrindən keçməli olurduq. Uşaqlığımın ilkin xatirələri piyada yarımca saata gedilən Molla məhəlləsindəki həmin ev, evin radiolu şüşəbəndi və heyva qoxulu zirzəmisindən başlayır.

Zirzəmidəki heyva iyi hələ də burnumdadı, qoxusunu min ətrin içindən seçərəm. Ora böyük sal daşlardan düzəldilmiş pilləkənlə düşürdük. Ağır taxta qapısının cırıltısını, cəftəsinin çaqqıltısını nota köçürmüşəm beynimdə. Qarğıdan hörülmüş tərəcə dörd tərəfindən taxta millərdən asılmışdı. Saman sərilmiş tərəcəyə cürbəcür meyvə qoyulsa da, zirzəmidən nədənsə təkcə heyva iyi gəlirdi. Yerə düzülən, divardan asılan, millərdən sallanan o qədər maraqlı əşya vardı ki, bütün yayı oynamağa, yüz cür oyun quraşdırmağa yetərdi.

Zirzəminin o biri otağı isə çox qorxulu idi. Ora heç məndən beş yaş böyük qonşu uşaqları da tək girməyə ürək eləmirdilər. Pəncərəsiz otaq zil qaranlıq olurdu. Qışda kələmi kökündən çıxarıb burada torpaqlayırdılar ki, don vurmasın. Yayda isə səhəngi yarıyadək torpağa basdırırdılar ki, suyu sərin qalsın. Novruz bayramınadək meyvə yalnız burada salamat qalırdı...

***

Sağ qalıb uzun ömür yaşamağın yeri qaranlıqdı. Qəribə səslənir, elə deyilmi?! Bəlkə də, insan ömrü işıqlı dünyada keçdiyindən belə qısadı. Görən, o dünyanın rəngi necədi, adamları nə qədər yaşayır? Məni daha heyva yox, kül qoxuyan zirzəmidə yatızdıran Tovuz nənəmin ruhundan soruşa bilərdim, soruşa bilmədim. Bu səhər mən ayılanacan çaparaq uçub getmişdi...

**Üçüncü esse**

# Çəpər

Həyətimizin qurtaracağındakı çəpərin o üzündə milis rəisinin və rayonun baş hakiminin ailəsi yaşayırdı. Ondan sonrakı hasarın arxasında isə rayon milis şöbəsi yerləşirdi. Gah ağaca dırmaşıb, gah da vacib bir iş görürəmmiş kimi çəpərə bitişik toyuq damına çıxıb həmin həyətə boylanmaqdan xoşum gəlirdi.

Üç-beş milis həyətin başındakı darvazanın ağzında durub arxayınca söhbət edə-edə rəisi gözləyəndə bilirdin ki, şəhərdə əmin-amanlıqdı. Darvaza şaqqıltı ilə çırpılanda, cavan bir milis yüz metrdən çox boyu olan həyətin o biri başına hövlnak qaçıb rəisə xəbər aparanda şəhərdə ciddi hadisə olduğunu hətta toyuq damındakı uşaq da duyurdu. Rəisin bu xəbəri eşitməyilə darvazaya çatması arasındakı zaman ölçüsünü bilmirdim, çünki o vaxt saatdan baş açmırdım, ömrümün saatsız keçən vaxtlarıydı. Gördüyüm o idi ki, bu yüz metrlik yol boyu davam edən geyinmə prosesi darvazaya çatanda qalstukun sıxılmasıyla bitirdi. Darvazanın kiçik qapısı sanki bədənnüma güzgüydü, rəis son dəfə bura baxır, üst-başını sahmanlayıb başqa bir dünyaya keçirmiş kimi adam arasına çıxırdı.

O həyətin ən maraqlı hadisəsi rəislə hakimin uşaqlarının oynamasıydı. Onlar bizə qoşulmazdılar, küçəyə çıxmazdılar. Özləri özləri ilə oynayırdılar. Gizlənqaç oyununda qızlardan biri adətən çəpərin mən duran tərəfindəki almalıqda gizlənirdi. Nəyə görəsə əmin idi ki, yerini göstərmərəm. Mən də yerini demirdim, heç vaxt deməzdim də. Amma hamıdan tez onu tapırdılar. Sən demə, gözümün ağac dibindəki bu qıza dikildiyini məndən başqa hamı görürmüş. Belə vaxtlarda onlara qoşulmaq üçün içim gedirdi. Amma səbəbini bilmədiyim səbəbdən qoşula bilmirdim. Onlar da, yəqin, səbəbini bilmədikləri səbəbdən məni çağırmırdılar. Toplarının başqa qonşunun yox, məhz bizim həyətimizə düşməsinin mənasını anlamırdım. Dilbilməz vaxtlarım idi, dünyanın dilini bilmədiyimiz vaxtlar. Amma təmiz dəridən olan futbol toplarına söz ola bilməzdi, bizimki kimi rezin deyildi, yaxud sürtülmüş dərisindən kameri görünmürdü.

Heç o cür topla “ortadaqaldı” oynayarlar?!

***

Çəpərin başı kimi dibi də maraqlı yer idi. Buranın sarı torpağından bilinirdi ki, tikanlı çəpərin yerində əvvəllər torpaq kərpicdən hasar olub. Toyuqlar oyuq-oyuq eləmişdilər. Bir dəfə ordan yumurta tapmışdım. Nə qədər qalmışdısa, daşlaşmışdı. Çəpərin gözdən uzaq, pişik əli çatmayan yerinə necə düşməyi qəribəydi. Yerə çırpsan da sınmırdı. Novruz bayramında nə qədər yumurta döyüşdürüb uddüğumu özün təsəvvür elə! Toyuq onu nə vaxt yumurtlamışdı ki, qaqqıltısını eşitməmişdik. Həyətimiz nənəmgilinkindən balacaydı, odur ki, orda bəzən toyuğun yoxa çıxıb, bir müddət sonra cücəylə qayıtması nə qədər adiydisə, daim bizim və pişiklərin nəzarətində olan toyuqlarımızın xəlvəti hərəkəti bir o qədər mümkünsüz görünürdü.

***

...Yeni rəisin gəlişiylə o həyətin həyatı da tamam dəyişdi. Ən dəhşətlisi o idi ki, çəpəri sökdürüb yerində taxtadan hündür hasar çəkdirdi. Bu hündürlüyə boymu çatardı? Düzdür, taxtanın qopub düşən düyün yerindən bir-iki deşik açılmışdı, amma atam başqasını güdməyin ayıb iş olduğunu deyəndən sonra bir daha o deşikdən baxmadım. Heç ordan əvvəlki kimi səs-küy də gəlmirdi.

Qorxulu bir sakitlik vardı milisin həyətində. Nə qədər maraqlı “qorxu” olsa da, ata qadağasından da qorxulu olmayacaqdı ki...

Nədənsə atamın mən yaşda olanda həmin çəpərdən “milis həyəti”nə niyə baxdığını da soruşmurdum. Bir dəfə atam danışırdı ki, müharibədən əvvəl o həyətdən tez-tez bağırtı səsi gəlirmiş. O vaxtlar çoxu müəllim olan “artıq-əskik danışan”ları tutub Sibirə göndərirmişlər, amma əvvəlcə burada “dopros” edirmişlər. Müharibədən sonra isə bu həyətə adamları dəstə ilə gətirirmişlər. Onlara demokrat deyirmişlər. İrandan canlarını götürüb qaçıbmış o adamlar. Milislərin bağırtı və söyüşündən, şallaq səsindən, döyülənlərin fəryadından qulaq tutulurmuş. Diz üstə aman diləyən bir kişi deyirmiş ki, biz də azərbaycanlıyıq, dilimiz də, dinimiz də birdi. Qoluzorlu milislər isə bu yalvarışları eşitmirmişlər. “Bütün bunlara çəpər dibinə qısılıb qorxa-qorxa baxardıq. Ən qorxduğumuz adam isə milislər yox, kənardan papiros çəkə-çəkə bu mənzərəyə tamaşa edən qara kurtkalı, qara kepkalı adam idi” – bunu da atam deyirdi.

***

Genetiklər sübut edir ki, istidən, ya da şaxtadan heyvanların dərisində baş verən ilk deformasiyadan sonra tüklərinin rəngində dəyişiklik əmələ gəlir. Məsələn, dünən ağ olan dovşanda qara tüklər peyda olur. Bu hal sonrakı nəsillərə də keçir ki, buna da genlə ötürülmə prosesi deyilir. İnsan irqləri də beləcə formalaşıb. İndi məlum olur ki, rəng kimi xəstəlik də, istedad da və daha nələrsə də genlə ötürülür, bu gün yaranan, üç, beş, yeddi nəsil sonra üzə çıxa bilir. QORXU da beləcə...

…Sonralar, çox sonralar başa düşdüm ki, niyə atam o həyətə baxmağımı istəmirmiş.

**Dördüncü esse**

# Xilaskar ölüm marşı

Ayrı-ayrı illərdə evimizin birinci mərtəbəsində yaşamış, el arasında "uçilişa" kimi tanınan Ağdam Musiqi Texnikumunun tələbələri – bakılı Qreta, mirbəşirli İradə, jdanovlu Validə, leninakanlı Roza, zəngilanlı Aybəniz, qonşuda yaşasa da, günü bizdə keçən dnepropetrovsklu Dina, başqa şəhərlərdən gəlmiş qərib qızların səhər o başdan gecə yarıyadək pianoda çaldıqlarının Bethovenin, Hacıbəyovun, Şopenin əsərləri olduğunu sonralar biləcəkdim. Kirovabadlı skripka müəlliməsi Pərvanənin tələbəlik həyatından danışdıqları mənə yad skripkasından çıxan cüyültüdən xeyli maraqlı idi. Çox keçmədi, mənə öz alətini sevdirə, onun ecaskar səsini not-not ruhuma hopdura bildi...

***

80-ci illərin əvvəlləriydi. Moskvadan göstərilən, italyan bəstəkarı Paqanininin həyatından bəhs edən dördseriyalı "Nikkolo Paqanini" filmi məhəllə "muzukant"larının söhbət mövzusuydu. Tezliklə filmin sədası "uçilişa" ətrafı digər məhəllələrə də yayıldı. Axşamlar filmə baxır, səhərlərsə müzakirə edirdilər. "Baş rola Rəmiş çəkilməliymiş" xəbəri ildırım sürətilə yayılmışdı: "Rəmişə təklif ediblər, razılaşmayıb. Müslüm Maqomayev özü onu rejissora məsləhət görübmüş". Həqiqətən də, filmdəki uzunsaç Paqanini Rəmişə oxşayırdı. Bəlkə, elə buna görə Rəmiş haqqında növbəti əfsanə yaranmışdı.

Həmin filmdən sonra skripka mənim uşaqlıq illərimin sevimli röyasına çevrildi. Pərvanə deyirdi ki, bu filmdə skripkanı çalanın adı Koqandı. O, çox məşhur imiş. Paqanininin Genuyadakı skripkasını çalmağa tək-tük adamın icazəsi varmış, biri də o imiş. Elə onun təkidiylə baxdığım Tarkovskinin "Stalker" filmi kimi, mənə göstərdiyi, danışdığı başqa maraqlı bilmədiklərimi çox sonralar dərk edəcəkdim. Atamın "Bununla rusca danış!" – xahişinə o, ciddi yanaşsa da, mən zorən tabe olurdum. Nə skripkada çalmağı öyrəndim, nə də ruscanı "rusdan yaxşı danışmağı". Buna baxmayaraq, bəlkə də, onun həyatının ən sevimli şagirdi oldum – deyirlər birinci sevimli olur. O deyirdi ki, indi də olmasa, nə vaxtsa bu musiqiləri duyacaqsan, bu filmləri anlayacaqsan. Düz deyirmiş, indi hətta onun özünü belə duyur və dərk edirəm...

***

Xaçmaz əsilli bakılı balası Zema (səhv etmirəmsə, adı Zemfira idi) isə Allahın bəlasıydı. Kənddə xalamgilin başından az qala Xıdırlı dağlarının o üzü görsənən gilas ağacının sərçə qonan budaqlarına çıxmağa tək onun hünəri çatardı. Arıq, çəlimsiz bu qız yadımda həm də oxuduğu kitablarla qalıb. Ad günümə bağışladığı "Ovod"u yüzlərlə kitabım kimi işğaldan qoruya bilməməyi özümə bağışlamıram. Elə bilirəm, onun özü əsirlikdə qalıb.

***

Deyirlər, musiqini gecə dinləmək yaxşıdı. Elə konsertlər də bir qayda olaraq axşamlar olur. Amma mən böyük həvəslə bu qaydanı pozardım. Səhərlər musiqi səsinə oyanmaq qədər gözəl nəsə varmı? Mənim o sabahlarımın yerində, görəsən, indi hansı səhərlər açılır?

...Piano dillərindən qopan Bethovenin ürək əsdirən “aylı” sonatası yatanlar oyanmasın deyə barmaq ucunda çölə axır, baharın ılıq sübh nəfəsini elə bu gecə çiçəkləyən armud ləçəklərinin qoxusu ilə birlikdə içinə çəkib yuxarı mərtəbəyə qalxır, açıq pəncərədən ruh kimi yatmış bədənə girir... İlahi, o anları mənmi yaşamışam? O səhərləri mənmi açmışam?

Musiqini səhər çalarlar! Hava hələ çirklənməmiş, sular dupduruykən, hələ adamlar ayılıb bir-birinə yalan söyləməmiş, ...ər sevdiyi arvadıyla, körpə anasıyla, bəndə Allahıyla olanda çalarlar.

***

...Artıq 80-ci illərin sonuydu, böyümüşdüm. Bakıdan tətilə gəlmişdim. Bir axşam hamı televizorun başına yığılmışdı, qonşu qızlar da gəlmişdi. Neçə gün həsrətlə gözlədikləri film başlayacaqdı. Müəllimləri bu filmə baxmaq tapşırığı veribmiş. Gözəl aktrisanın təqdimatından sonra başlamasından xeyli keçsə də, heç kimdə maraq yaratmırdı. Filmin qəhrəmanı “təlxəklik” edir, bir başqası oxuyur, digərləri də atılıb-düşürdü. Böyüklərimiz çoxdan durub getmişdi. Darıxsaq da, səbrimizi basır, ciddi görkəmlə seyrə davam edirdik. Kadrlar ötdükcə həyəcanlı epizodlar gəlir, hamını maraq bürüyür, diqqət kəsilirdik.

Filmin ortalarında bu “təlxəyə” ürəyimiz ağrıyırdı, onun ölüm səhnəsi canımızı yaxırdı. Sonda – meyiti qəbiristanlıqda quyuya oxşayan ümumi məzara atılanda adama elə gəlirdi ki, səni də ora tolazlayırlar. Yağışlı qəbiristanlıq fonunda çalınan ilahi musiqiylə film sona yetəndə gözlərə kirpik yerinə yaş gilələrindən sərhəd çəkilmişdi. Sonralar neçə-neçə gözəl film görəcəkdim. Amma heç biri onun kimi sevimli olmayacaqdı.

Həmin axşam “Retro” proqramında göstərilən filmin adı “Amadeus”, “təlxək” qəhrəmanı Mosart, hamını sehrləyən musiqi isə onun “Rekviyem”iydi. O musiqi ki, mən onu Yerin himni deyə Qiyamət günündə göylərə göndərərdim. Yəqin, onu Dinləyən keçər günahımızdan. Bu Xilaskar Ölüm Marşı bizi qoruyan mələyə dönər. Mosartın bütöv kainata sığmayan “Rekviyem”i həmin gecə mənim sevdalı ürəyimə sığmışdı, ...qəlbimin sərhədləri ulduzlardan ulduzlaradək olan gecə.

Onda, o ilahi gecədə ağlıma da gəlməzdi ki, bir vaxt bu “Rekviyem” sanki ruhlar şəhərimə yazılıbmış kimi Ağdamla bağlı çəkmək istədiyim filmin saundtreki olacaq. Yəni filmi bitirən musiqi...

**Beşinci esse**

# Ağ gecənin yuxusu

1982-ci ilin futbol üzrə dünya çempionatında SSRİ yığmasının kiyevli yarımmüdafiəçisi Andrey Balın Braziliyaya vurduğu top Kamçatkadan üzü bəri Urenqoy-Ujqorod xətti boyu bütün şəhərlərdə necə partlamışdısa, Köhnə hamam məhəlləsində də o cür gurultu qopartmışdı. Qonşu uşaqları xoruzların səhər banı kimi səs-səsə vermişdilər. Elçinin boğazından kişnəyib çıxan "q" Şahinin "o"sunu götürüb, mənim "l"ma qoşulmuşdu. Birlikdə "QOL!!!" nidası yaranmışdı. 1:0 udduğumuz birinci hissədəki sevinc bağırtısını yalnız sovet bayrağını Reystaqın damına sancan sovet əsgərlərinin hayqırtısı ilə müqayisə etmək olardı. Cəmi on beş dəqiqəlik fasilə zamanı yaşanan hissləri indiki serial ssenarilərinə köçürsək, birillik kino lenti alınardı, həqiqi sözümdü.

Fasilə bitib, hamı maqnit olub televizorun başına yığışanda bayırda ölü bir sükut vardı. Bu sükuta qulaq kəsilən kəs Odessa limanındakı gəmiləri yırğalayan Qara dənizin ağ sularının şappıltısını, Leninqradın gecə vaxtı sahilini üşüdən Neva ləpələrinin pıçıltısını, lap belə istəsən Vladivostok şəhərinin bulvar daşlarına çırpılan Sakit okean dalğalarının səsini eşidərdi. Amma həyətimizə axan Qaraqaya kəhrizinin suyu şırıldamırdı, sükutu pozmasın deyə, isti iyun gecəsində "donmuşdu". Bütöv bir ölkə məhəlləmizə "sığınıb" susmuşdu.

...Nə qədər ki 15 dəqiqəlik fasilə bitməyib, ikinci hissə başlamayıb, gəl sənə həyətimizə axan sudan danışım! Su şəhərə çəkilən ilk xətlə gəlirdi. Şəhərin ən qədim hamamı tikiləndə Qaraqayadan çəkibmişlər. Yayda soyuğundan bir andaca tərləyən stəkanı axıradək içmək olmurdu, dişi dondururdu. Atam deyirdi ki, uşaq vaxtı suyun gəldiyi Qaraqayada çimişərmişlər. Adam boyu hündürlüyündəki kəhrizin altında soyuqdan heç yayda da çox durmaq olmurmuş. Bizimsə bu suyla başqa oyunumuz vardı. Su kranının ağzındakı balaca hovuzu doldurub, çaydan qapağını gəmi kimi üzdürməkdən maraqlı nə ola bilərdi ki?! Sonra anam mənə "əsl" gəmi aldı, yəqin, çaydanın bir gün qapaqsız qalacağından ehtiyat edirmiş...

"Xoruzların ikinci banı" gəlmədi. Oyunun ikinci hissəsində Sokratesla Ederin vurduğu iki qol qoşa daş olub qurbağa gölünə oxşayan SSRİ boyda məhəlləmizə düşdü. Sanki bu şəhər bir az öncə atəşfəşanlıq eləməyibmiş. Susuz dəyirman, yiyəsiz mülk kimi lal idi. Məğlub ruhlar şəhərini xatırladırdı. Həmin gecə dünyanın ən böyük ölkəsinin ən balaca kişiləri qumarda uduzubmuş kimi üzüqoylu yatdı. Mən də yerimə məğlubiyyət hikkəsiylə girmişdim. Halıma pərdəsi çəkili pəncərənin açıq tayından o üzdəki armud yarpaqlarını aralayıb boylanan Ay da acıyırdı. Gecənin qaranlığına süd kimi ağ qatıb könlümü almağa çalışırdı.

***

Hələ iki il əvvəl ili əlaçı kimi başa vurmağım münasibətilə anamın üçmərtəbəli univermağın birinci mərtəbəsindəki oyuncaq bölməsindən aldığı stolüstü "futbol stadionu" axşamkı məğlubiyyətin əvəzini çıxmaq üçün əla fürsət idi. İki nəfərin oynaması üçün nəzərdə tutulan bu oyunu, sağ və sol əllərimin iştirakıyla elə ikinəfərlik eləmişdim. Mənim futbol meydanımda keçirilən çempionatlar dünyanın bütün yarışlarından maraqlı olurdu. Burada Ağdamın "Şəfəq"i "vısşıy" liqaya çıxa, "Neftçi" SSRİ, SSRİ də dünya çempionu ola bilirdi. Meydanın ən yaxşı oyunçuları da vardı: Tiflis "Dinamo"sundan David Kipiani, "Neftçi"dən Maşallah Əhmədov, "Şəfəq"dən Cavanşir Novruzov.

Ən çətin oyun “Neftçi” ilə Tiflis “Dinamo”su arasında olurdu. Azarkeşi olduğum bu gürcü komandasını udmaq ürəyimcə olmasa da, “Neftçi”nin uduzması da mümkün olan iş deyildi. Odur ki hesab böyük olmurdu – 2:1. “Maşallah Əhmədov” son dəqiqədə özünü yetirirdi. Onu da deyim ki, məndə ilk təəssübkeşlik hissini bu komandalar formalaşdırdı; birinə azərbaycanlı, o birinə isə qafqazlı kimi azarkeşlik edirdim. Səbəbini tam başa düşməsəm də, digər Qafqaz komandasına belə bir azarkeşliyim yoxuydu.

Ən asan oyun isə elə bu komandayla – “Ararat”la olurdu. Onunla oyunda “Neftçi” bir qayda olaraq meydanın sağ tərəfində – əlimin yaxşı işlədiyi yerdə oynayırdı. Mənlik bir şey yox idi, ermənilər “zəif” oynadıqlarından həmişə məğlub olurdular – 0:5, 6:1. O vaxt həmin stadionun yeganə tamaşaçısı hardan biləydi ki, bu gün “uduzanlar” cəmi onca il sonra başqa bir meydanda onu məğlub edib həyatının altını üstünə çevirəcəklər. Qapımıza vuracaqları top mərmiyə dönüb həyətimizdə partlayacaq, evimizi uçuracaq. Bunlar sonra olacaqdı. Hələliksə məni sabahkı oyun düşündürürdü. Qonşu məhəllənin uşaqları ilə bizi çətin oyun gözləyirdi. Sabahkı oyuna arxasına “Şengeliya” yazdığım 11 nömrəli köynəklə çıxacaqdım...

Dikəlib həyətdəki ipə sərilmiş həmin köynəyə bir də baxıb başımı yastığa atdım. Artıq könlümü almış Ayın ağ gecəsinə büründüm. Yuxularımın stadion projektorları kimi işıqlı olduğu ağdamlı gecələrin birinə də beləcə girdim…

…Mən yuxudan qalxana quruyarmı bu köynək?!

**Altıncı esse**

# Vaxt olmayan yer

Məhəllədə futbol oynamağa yer olmadığından Əli İbrahimov küçəsi, 2-də (evimizin nömrəsi 8 idi) yerləşən Köhnə hamamın Lenin küçəsinə burulan tinindən milis idarəsinə qədər olan hissəni stadiona döndərmişdik. “Giriş qadağandır” işarəsi qoyulduğundan bura başqa maşın girmirdi. Hətta “uçilişanın” direktoru Xosrov müəllimin oğlu, “uçilişa” qızlarının ağ atlı “prins”i Faiqin “00-01 AQZ” nömrəli, az qala başı elektrik naqillərinə dəyən yapon antenalı, “Xaç atası” filmindəki məşhur musiqi çalınan italyan siqnallı, şəhərdə tayı olmayan limon sarısı rəngində “03”ü də bizim stadionumuzu toza basa bilməzdi.

Arabir keçən milis maşınlarını hesaba almasaq, bura əsl idman meydançasıydı. Sakit, təmiz bir küçə. Hamam istixanasının borusundan çıxan qara-qura his küçənin havasına qəti təsir eləmirdi, olsa-olsa anaların təzəcə yuyub asdığı ağ köynəklərə qonar, ya da uşaqların alnından axan tərə yapışardı. Sağ olsun küçə uzunu sıralanan, boyu hamam borusundan da uca yamyaşıl çinar ağacları; yad qoxuları udar, havanın keşiyini çəkərdi. Yad qoxular dedim, gedəndə sol, gələndə sağ səkiylə nazlanan “uçilişa” qızlarının ətri, mülki geyimli “OBXSS” milislərin bahalı odekolon qoxusu yad olmadığından çinar yarpaqları onu udmurdu, saxlayırdı bizə...

Elə fikirləşməyin ki, milis küçəsini futbol meydanına çevirmək asan olmuşdu, yox, bunun üçün uzun mübarizə aparmışdıq. Əvvəl-əvvəl milislər bizi qovur, topumuzu alırdılar. Amma biz onlardan qorxmazdıq, dirənib topu geri alır, oyunumuza davam edirdik. Yavaş-yavaş özümüzü onlara həzm etdirə bildik. Səs-küyümüzə adət elədiklərindənmi, qadağalara tabe olmamağımıza artıq öyrəşdiklərindənmi, bilmirəm, küçənin sakit həyatına son qoyan çığırtımız milisin iş rejimini pozmurdu, əksinə, onun bir hissəsinə çevrilirdi.

Yekəpər bir milisi görəndə isə oyunu özümüz saxlayırdıq. Bir yerə yığılıb sakit durmağımız üçün “Aleko dayı gəlir” sözünü eşitməyimiz kifayət idi. Bir-bir salam verirdik: “Salam, Aleko dayı!”, “Aleko dayı, salam!”

“Kim udur?” deyə ortalığa ümumi sual tullayar, heç cavabını gözləmədən keçib gedərdi. Ondan çəkinməyimizin səbəbini bilmirdik, bircə bunu bilirdik ki, onu görəndə bazarda alverçilər “vneştorq” malları gizlədirdi, şəhərin bərkgedən cavanları aralı gəzirdi, şuluq oğlanlar “birdən nəşə çıxar” deyə ciblərini tikirdi, futbol vaxtı şəhər stadionunda bir uşaq da meydan xəttini keçmirdi. Hamının qorxduğu bu milis bir dəfə də olsun bizə futbolu qadağan eləmədiyindən hələ dostlaşmışdıq da. Uca boyundan, dik gəzməsindən çox vaxt elə bilirdik ki, keçəndə bizi görmür.

Şəhərin “uşaq milisi” isə Pənah Qasımovuydu. İşə bizim küçədən gedirdi, gah sarı “Jiquli”siylə, gah da piyada. Hündürboy, nəhəng kişiydi. Sifətdən milisə yox, həkimə, ya da müəllimə oxşayırdı. Bəlkə də, ona görə şəhər uşaqları “uşaq milisi” əvəzinə sifətdən elə milisə oxşayan Aleko Novruzovdan qorxurdu. Pənah müəllimin özü kimi uşaqları da sakit idi. Oğlu Nazim mənlə yaşıd olardı, qızının adını bilmirəm. Küçəni sakit keçirdilər, bu, həm də yaxşı oxuyan uşaq anlamını verirdi. Qəribəydi, Ağdamda yaxşı oxuyan, əlaçı uşaqların hamısı sakit olurdu...

Bir sözlə, məhəlləmizin milislərinə söz ola bilməzdi. İndiki polislərlə müqayisədə ovaxtkı milislər daha humanist idilər, belə bilirəm. Təsəvvür edirsənmi, sənin vurduğun top polisin başına, kürəyinə

dəyə, o da bir söz deməyə (biz eşitmirdik deyə ürəyində dedikləri sayılmır), sadəcə, topun dəydiyi yeri çırpıb keçə? Hələ top zərbələrindən qapısı əyilən maşınları demirəm. O milisləri sonralar polis olub əlində dəyənək adamları qovan, tutub təpikləyən, yıxıb döyən təsəvvür edə bilmirəm.

Nazirlikdən gələn olanda, yaxud nəsə fövqəladə hal baş verəndə bunu hiss edirdik, küçənin ortasında futbol yox, səkidə, daha balaca meydanda xokkeyə başlardıq. Bəzən xokkey yarışı bir həftə çəkirdi, amma sonra yenə futbola qayıdırdıq.

***

Oyunda ən çətin iş milis rəisiylə hakimin ailələrinin yaşadığı həyətə düşən topu götürmək idi ki, bu missiyanı da mən yerinə yetirirdim. Hakimin arvadı Həvva Burcayeva mənə rus dili dərsi dediyindən məhrəm adam kimi o həyətə girməyə ancaq mən ürək eləyirdim. Sadə davranışıyla bütün məktəb və məhəllə uşaqlarının sevimlisinə çevrilən Həvva müəllimə məni ilk kəs futbol oynayan görəndə fikirləşmişdim ki, avara, küçə uşağı kimi danlayacaq. Amma səhəri gün dərsə qaldıranda, "Gəl görüm, məhləmizin Pelesi" demişdi. Hər dəfə maşından düşüb evinə gedəndə ona hörmətimizi oyunu dayandırmaqla izhar edirdik. Cavan rəhmətə getdi. Sinfimizin bütün qızları ağlamışdı, biz də kövrəlmişdik. Öz yurdlarında, Zaqatalada dəfn elədilər. Allah rəhmət eləsin!

"Stadion"umuzun o biri yanı hamamın həyəti idi. Topumuz buraya düşəndə ta əvvəlki kimi dalınca hamımız qaçmırdıq. Pəncərəyə dırmaşıb, rənglənmiş şüşənin boyası qopan yerindən çimənlərə baxmırdıq. Böyümüşdük, yekə kişi olmuşduq.

Bir neçə il keçdi, biz bir barmaq da boy atdıq və artıq "milis stadionu" bizə darlıq eləməyə başladı. Odur ki məhəllələrarası yarışlarımız Şuşa dayanacağının yanında, sonralar, lap dəqiqi, 1985-ci ildə Xan Şuşinski adına Ağdam Muğam Məktəbinə verilən Qara bəyin malikanəsinə bitişik, el arasında "mexanizasiya" deyilən Ağdam Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi Texnikumunun stadionunda, sinifarası oyunları isə gah 1 nömrəli məktəbdə ("zavuç"umuz Ənvər müəllim olmayanda), gah da məktəbin arxasındakı Ceyran bağında (Ənvər müəllim məktəbdə olanda) keçirirdik.

***

Hərənin futbolçu və xokkeyçi şəkilləri yapışdırdığı dəftəri vardı. Müşfiqin (Qənizadə Müşfiq Kazanda yaşayır, sabiq milis polkovnikidi) dəftəri hamımızınkından qalın idi. Onda hər kəsdə olmayan çox maraqlı şəkillər vardı. Sinfin ən yaxşı iki oyunçusundan biri kimi (O biri ən yaxşı futbolçumuz isə İlqar idi – sonralar Ağdamın "Şəfəq" komandasında oynayacaq İlqar Məmmədov) futbol dəftərinin də ən yaxşısının onda olması təbii görünürdü. Amma onun bu şəkilləri hardan tapması sirr idi. Bu sirrin üstü onlara gedəndə açıldı. Sən demə, dünyada "Futbol-Xokkey" adlı qəzet varmış, Müşfiq də bundan xəbərdar imiş.

Səhəri gün SSRİ boyda ölkəyə milyonlarla tirajda yayılan bu qəzetin alıcısı bir nəfər də artdı…

***

Yerli "Şəfəq" Azərbaycan futbol çempionatının oyunlarını İmarət stadionunda keçirirdi. Hər səhər şəhərə darvazamızın ağzından keçib gedən araşdırmaçı German "Əzizbəyov küçəsi, ev 57" kitabında bura haqqında belə yazır: "İmarətin tarixi XVII əsrin sonlarından başlayır. Vaxtilə burada Xurşidbanu Natəvan yaşayıb. Qarabağ xanlarının cıdır meydanlarından biri də burada yerləşirmiş. Sonralar cıdır meydanının yerində Ağdamın mərkəzi stadionu inşa edilib. Stadiona hamı "İmarət" deyirdi. Ərazisi böyük olan İmarətin bir hissəsində Qarabağ xanlarının ailə məzarlığı yerləşir. Burada Pənahəli xanın, Mehdiqulu xanın, Sarcalı xanın, Mehrəli bəyin, Natəvanın, onun

övladlarının və başqa ailə üzvlərinin qəbirləri vardı. Son araşdırmalar təsdiq etmişdi ki, bu məzarıstanın tarixi daha qədimdi. Buradan üzərində alban yazı və işarələri olan qəbir daşları tapılmışdı".

Natəvan çoxdan ölsə də, yaddaşlarda diriydi. "Xan qızı" çağırırmışlar, öləndə tabutunu Qarabağ camaatı yerə qoymadan əllərdə Şuşadan gətiribmiş. Odur ki, "Natəvan" qızlar bayramı sovetin bir çox bayramlarından təbii alınırdı. Tədbirlər Çörək Muzeyində, Mədəniyyət Evində olsa da, bayrama İmarətdə yekun vurulurdu. "Xarıbülbül" beynəlxalq musiqi festivalı da burada başlayar, Şuşada, Cıdır düzündə sona çatardı. 1989-cu ildə, sonuncu festivalda dünyanın cürbəcür yerindən 60 ansambl gəlmişdi. Ən çox maraq doğuran meksikalılar idi. Uşaqlar onları braziliyalı bilib "Zikonun yerliləri" deyə çağırırdı.

***

Stadiona məhəlləmizdən getmək üçün Bakı-Qazax magistralının Yevlax şəhərinin içindən keçən hissəsindəki dairədən başlayan, Bərdənin baş prospektini kəsib Stepanakertdə dirənən yolun Ağdamı ikiyə bölən 28 aprel küçəsi adlanan hissəsiylə yol alıb, "çörəksatan" Kamilin (hələ dava başlamayıb, hələ oğlu Şamil şəhid olmayıb) dükanından keçib, Ağdam Dram Teatrının qabağındakı meydanı arxada qoyub, Lenin bağının tinindən yolu adlayıb sovet illərində regionun işləyən yeganə məscidiylə, indiki dillə desək, analoqu olmayan Çay Evinin arasından Ət Kombinatına sarı üz tuturduq.

İmarətə girmək üçün Fred Asifgilin darvazasının ağzından keçirdik. O Asifin ki, mən onu tərəddüd etmədən Ağdamın ədalət simvolu adlandırardım... 1965-ci ildə məşhur Ceyms Bonda parodiya kimi çəkilmiş "Birinci sən vur, Freddi" adlı Danimarka filmi bütün SSRİ-də olduğu kimi Ağdamda da gənclərin sevimli kinosuna çevrilibmiş. Filmə baxan şəhər uşaqları Fredin simasında 18 yaşlı Asifi görürlər. O da Asif kimi yeriyir, dalaşanda açıq əllə vurur, hətta ayaqqabının dabanını da onun kimi əyib geyinirmiş, sir-sifəti, boy-buxunu da oxşayırmış. Səhəri gündən hamı onu Fred Asif çağırdı... Haqsızlıqla barışmayan, zəifin, fağırın arxasında duran adam kimi ad çıxardı. Elə bu xasiyyətinə görə dəfələrlə həbsxanalara düşdü. Dava başlayanda onu və Ağdamı sevənləri başına yığıb batalyon yaratdı. Döyüşdü. Sağlığında Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülənlərdən biri, amma bu addan imtina edib, "Qəhrəmanın torpağında düşmən at oynatmaz. Ölkə işğal olunub, qız-gəlin əsir düşüb, mən sinəmə ulduz asıb "qəhrəmanam" deyə bilmərəm" deyən tək adam oldu. Danışırdılar ki, türmədə "avtoritet" adından da imtina edibmiş: "Bu oğru adları mənlik deyil, bizdə yaxşı kişiyə "ağsaqqal" deyirlər".

"Azərbaycan" qəzetində işləyəndə xəstəxanada onunla görüşmüşdüm. Döyüşdə ağır yaralanmışdı. Ciyəri para-para imiş. Cidd-cəhdlə gizlətməyə çalışsa da, ağır xəstə olduğu bilinirdi. Müsahibə qəzetin 7 oktyabr 1992-ci il sayında dərc olundu. O dövr üçün, bəlkə də, naqolay sayılacaq sualıma gör necə cavab verdi:

- Xalq hərəkatındakı şəxsiyyətlərin hansına inanırsan?

- (Duruxur). Əbülfəz bəyə inanmaq istəyirəm. Amma səhvləri ona göstərmək lazımdı. Yüksəkdə duranı ləkə tez götürür. Göydəki Ay kimi. Ayın ləkəsi ona görə görsənir ki, o yüksəklikdədi.

O vaxt Əbülfəz Elçibəy prezident idi.

***

İmarətdəki oyunları təsvir eləməyə Əziz Nesin qələmi lazımdı. Bircə onu deyim ki, bu stadionda "Şəfəq"in məğlub olması yadıma gəlmir. Əlbəttə, 1980-ci ildə Qarabağa yoldaşlıq oyunlarına gələn

“Neftçi”nin SSRİ çempionatında yarışan Stepanakert “Qarabağ”ını 6:0 udması fonunda 0:1 hesablı məğlubiyyət qələbəyə bərabər idi.

Bu stadionda keçirilən oyunlardakı qələbələrdə oyunçularla tamaşaçıların payı yarıbayarıydı. Bir dəfə Masallının “Viləş”i gəlmişdi. Birinci hissənin 0:3 qonaqların xeyrinə bitməsi hamını dəli eləmişdi. Qaynamağa yaxın suyun canında bir tərpəşmə olur ey, bax, eləcə stadion qaynaşırdı. Balaca uşaqlar beş-beş, on-on qruplara bölünüb hərə rəqibin bir oyunçusunu hədəf almağa hazırlaşırdı. Stadion hər oyunçuya bir ayama qoşmuşdu, az sonra bir ağızdan bağıracaqdı.

İkinci hissənin start fiti çalınmaqla stadionun uğuldamağı bir oldu. Tribunadakıların bağırtısı (Əziz Nesinin yerliləri hələ indi öyrəniblər stadionda bağırmağı), xəttin qırağındakı uşaqların qışqırtısı topu rahat ram eləməyə imkan vermirdi, rəqib oyunçular topu dərhal itirirdilər. Qapıçı bilmirdi oyunu izləsin, topa baxsın, yoxsa qapının arxasındakı uşaqları güdsün. Çünki hücum anında arxadan elə səs qopurdu ki, deyirdin, bəs gələn monqol-tatar qoşunudu.

İmarət ləngər vururdu. Stadiondakı bir-iki min azarkeşin bağırtısı, yalan olmasın, on minlərlə “Marakana” tamaşaçısının səsini batırardı, inan! Həmin gün stadionun səsi Çahargah üstündə köklənmişdi. “Şəfəq”in şöləsi projektor olub rəqibin gözünü tutmuşdu.

Fit çalınıb oyun bitəndə lövhədə 5:3 yazılmışdı. Hakim canı qurtarırmış kimi xoşbəxt təbəssümlə qalib komandanı təbrik edir, rəqib oyunçularsa başlarını bulayıb qaçırdıqları şansa heyifsilənirdilər.

Həmin gün şəhərin iaşə obyektləri planı birə beş dolduracaqdı. Böyüklər “stalavoy”lara, balacalarsa çayxanalara – qələbəni “yumağa”, oyunun müzakirəsinə gedirdi. Söhbətin əsas mövzusu Ağdamın nə qədər güclü komanda olması, kimin necə oynamasıydı: “Görən, Braziliya Ağdamı İmarətdə uda bilər?” Məclisin sonunda bir yekdil cavab olurdu: “Yox!” Amma heç kim demirdi ki, bütün ev oyunlarını udduğumuz kimi, əksər səfər oyunlarını da uduzuruq…

Komandanın ağsaqqalı Allahverdi Bağırov (sonra dava başlayanda çoxsaylı özünümüdafiə batalyonlarından birinin komandiri oldu, ermənilər bilirdilər ki, Ağdama yol bu komandirlərin meyiti üstündən keçir, elə də oldu, biri də sağ qalmadı. Ölümündən sonra Milli Qəhrəman adı verdilər) olmasaydı, belə çətin oyunlarda stadion əhlinin qabağını kəsmək mümkün olmazdı. Bir dəfə hələ komandasının adı “Damcılı” olanda Qazaxda Ağdamın oyunçularını döyüb, avtobusun şüşələrini sındırmışdılar. Bütün şəhər cavab görüşü səbirsizliklə gözləyirdi. Allahverdinin bir kəlmə andına rəqib oyunçulara çırtma belə dəymədi. Oyundan sonra yedirdib, içirdib yola salmışdılar. Bir neçə il sonra artıq adı “Göyəzən” olan Qazax komandasına SSRİ çempionatının ikinci divizionuna keçməsi üçün zəruri olan 2 xal da elə Ağdamda verildi.

***

İndi mənim küçəmdəki stadionum böyüyüb, Ağdamın özü boyda meydana çevrilib. Bir vaxtlar anamın aldığı oyuncaq stadionda öz-özümlə oynadığım kimi indi orda düşmən də özü-özüylə oynayır. Bir yanda tanklar, o biri yanda BTR-lər düzüb, top oynadır. Amma mənimkindən fərqli olaraq, bu “stadion” oyuncaq deyil, poliqondu. Nə vaxtsa Braziliyanı belə udmağa iddialı görünən şəhərdə indi oyunlar bizsiz keçir. Uduzub çıxmış kimiyik.

“Lazım gəlsə”, bir də girəcəyik oyuna. “Lazım gəlsə” hələ gəlməyib, deyirlər gedib top almağa...

Gecə yarı oldu, mən də getdim yatmağa, “lazım gəlsə” gələndə məni oyadarsan, yaxşımı?! Vaxtında oyat, gecikməyim!

...Boğazım quru, bədənim tərli... Özümü hovuzun başına güclə çatdırdım. Ağzımı krana dirədim.

Su yerinə Vaxt axırdı. Axıb getməsin deyə hovuzu doldurub Vaxta baş vurdum. Çıxanda məndən Vaxt damırdı.

...Qurulanıb vaxt olmayan yerə getdim...

### Yeddinci esse

## Novruz sabahının pəncərəsi

Pəncərədə dizlərini qollarının arasına yığıb oturmağın, yorulanda ayaqlarını açıb pəncərə boyu uzatmağın, beləcə rahatlanıb küçədən gəlib-gedənlərə tamaşa eləməyin özü əyləncə olmayan yerdə bir əyləncədi. Yağışlı günlərdə, həyətdə oynamağa imkan olmayanda, ildırım vurar deyə şəhər işıqları söndürüldüyündən dünyanın əcinnə gözündə gördüyü bir ölkənin çəkdiyi, Yer üzünün, bəlkə də, ən humanist cizgi filmlərinə baxa bilməyəndə aynası küçəyə açılan pəncərəmiz televizoru əvəz eləyirdi.

Ağ-qara "Qorizont"dan fərqli olaraq mənim "televizor"um rəngli göstərirdi. 70-ci illərin əyalət şəhərinə, illah da onun 10 yaşlı sakininin gözüylə baxmaq nə qədər maraqlıdır sənə, bilmirəm! Amma onu bilirəm ki, bütün dünyanın əyalət pəncərələri əyalət adamının qəlbinə, onun içində cücərən arzulara və bu arzulardan pöhrələyən ümidə açılır. Bunun zaman və məkan bağlılığı yoxdu; 150 il əvvəl "Əyalətdə pəncərə teatr və gəzintini əvəz edir" yazan Floberin Fransasında da belə olub, indi də belədi, yəqin, 100 il sonra da belə olacaq...

Burda saatlarla darıxmazsan: otur say, sağdan çox maşın keçir, ya soldan; bax gör, küçədə kişi çoxdu, ya qadın – bir sözlə, istəyirsən yarış keçir, istəyirsən "tədqiqat" apar. Bunlar bezdirsə, maşınları markalarına görə qruplaşdırmaq da olar: məsələn, küçəmizdən 26 "Moskviç", 18 "Volqa", 37 "Jiquli", 9 "QAZ-51", 3 traktor, 2 çörəkdaşıyan, 1 zibilyığan, tək-tük "Pobeda", bir də İsibalanın zil-qara "ZİM"i keçdi. Bu çərdəymiş maşının ötən yay günlərinin birində anasının dikdaban ayaqqabısını ayağında sürütləyə-sürütləyə yolu keçib bizə gələn Şərafəti – üzbəüz qonşumuz Qaçay əminin qızını vurmağını da bu pəncərədən görüb qorxmuşdum, gerçək sözümdü...

Bax belə! "Dünya bir pəncərədi..." məsəlini dünyaya pəncərədən baxmışlar yəqin daha yaxşı anlayar.

***

Günorta saatlarında çoxlu siqnal səsi gəlin aparılmasından xəbər verirdi. Qırmızı tirmə şal üstündə oturdulan kukla təzəcə yuyulub par-par yanan QAZ-21-ə xüsusi gözəllik verirdi. Maşın başını dik tutub ətrafa naz satan qız kimi elə gedirdi ki, elə bil gəlin özüydü. Bu nə qədər ürəkaçan mənzərəydisə, sağdan gəlib üzü aşağı – Qarahacılı qəbiristanlığına gedən tabut da o qədər qan qaraldan idi. Nəyə görəsə elə bilirdim ki, bu saat mən Allaha yalvaran kimi tabutun içindəki qalxıb oturacaq və tabut pəncərəmizin tuşuna çatanda düşüb evinə qayıdacaq. Mən bunu Allahdan istəyirdim, Allah haqqı, amma o adam durmurdu, eləcə izdihamın çiynində yırğalana-yırğalana keçib gedirdi. Molla Rəşidin səsi tabut keçəndən bir xeyli sonra da gəlirdi.

***

Pəncərənin aşağı sol tinindən bir qadın çıxdı. Çəpər qonşumuz Elza müəlliməni qara çətirindən tanıdım. Həmişəki vaxtda həmişəki aram yerişlə keçir. Məktəbdən gəlir. "Qolodomor" ilində, yəni 1932-ci ildə doğulan atama dərs deyib. Rəhmətlik Həsən müəllimin qızıdı. Yadımda sadəliyi, səliqəsiylə qalıb, astadan danışırdı. Həyət-bacasında bir kibrit çöpünə, ev-eşiyində toz dənəsinə rast

gəlməzdin, döşəmələri həmişə işım-işım işıldayırdı. Onların servantında şüşə qab-qacaq yerinə çoxlu kitab olardı.

*...Taxtası ağ boyanmış şüşəbəndin qapısını açıb içəri girirəm. Qədim divanı, divardan asılan köhnə fotoları, bir neçə hörmə kətili, stolu, üstündə dörd-beş kitabı, onlarla dəftəri, göy və qırmızı qələmləri, bir neçə rus jurnalını, soyumasın deyə ağzına "papaqçıq" keçirilən çayniki gözüm tez alır. Və bir də Elza müəllimə... Eynəyini çıxarır, gəlişimi təbəssümlə qarşılayır, mənim riyaziyyat kitabımı açır, dəftərimə baxır, tapşırıqlar verir...*

Adamla qarşılaşanda dodağının ucu, bir də gözlərinin kənarı azacıq dartılır, ciddi sifətinə məsum təbəssüm qonurdu, yəni salam verirdi. Onu heç vaxt ürəkdən gülən görmədim. Ya xarakteri beləydi, ya da həyatında dərin izi qalan nəsə olmuşdu, bilmədim. Bildiyim tək oydu ki, yaxşı adamdı və mən onun yanında rahat idim.

...Uşaqlığımın son Novruz çərşənbəsi tonqalın üstündən hoppanandan sonra həmin il instituta girməyi niyyət tutub qulaq falına çıxmışdım. Bu fala inanırdım. Həyatımın ən əziz qadınından eşitmişdim ki, cavanlığında körpə oğlunu götürüb ər evini tərk edəndə niyyət axşamı qulaq falına çıxıbmış. Özünün və balasının gələcəyindən əndişələnirmiş. İlk eşitdiyi qonşu Rafizə xalanın tonqal başında oynaşan uşaqlarına dediyi bu sözlər olubmuş: "Ocağı dağıtmazlar, komalayarlar bir yerə". Elə də oldu, birləşdilər, birlikdə uzun ömür sürdülər. Hər ikisini öz əlimlə özüm qəbrə qoydum çox sonralar, uzaqda – Bakıda...

İlk dəfə "tale ovuna" – qulaq falına çıxmışdım. Darvazanı açıb yola ayaq qoymuşdum ki, yan tərəfə, qaraltıya çevrildim, Elza müəllimə idi. Axşamın qara tülü onun çöhrəsindəki bakirə qız sayağı təbəssümünü örtə bilməmişdi: "Salam". Allahın adından uğurlu sözmü eşidəcəkdim – ikiillik staj tələb olunan jurnalistika fakültəsinə elə birinci il daxil oldum. Bəlkə həmin gecə o da qulaq falına çıxıbmış, bilmədim. Bildiyim odur ki, mən də ona ümid dolusu cavab vermişdim: "Salam. Axşamınız xeyir!"

"Azərbaycanfilm" kinostudiyasının 1979-cu ildə çəkdiyi "Bizi bağışlayın" filmində Mariya Petrovna obrazını hər dəfə görəndə Elza müəlliməni xatırlayıram.

***

Köç səsi səhər obaşdan gəlirdi. Bəzən hənirtisini yuxuda eşidir, bəzənsə oyanıb pəncərəyə cumurdum. Sayı-hesabı olmayan qoyun sürüsü Mardakert, Kəlbəcər dağlarından, yaylaqdan dönürdü. Sürünün asfaltdan qopan ayaq səsi quzu mələşməsinə qarışıb xoş bir musiqi yaradırdı.

Təbiət bəstələrini hansısa Allah bəndəsi köçürə bilibmi nota? Mən görməmişəm, yoxsa qoyardım bu musiqini birlikdə dinləyərdik.

Pəncərəni açıb heyrətlə baxıram. Otağı qəribə köç iyi bürüyür.

Heç burnuna köç qoxusu dəyibmi? İşdi-şayəd, nə vaxtsa köç görsən, dediklərimi unutma!

Sürünün başında qulağıkəsik qurdbasan çoban itləri oynaşır. Quyruğu yerlə sürünən Qarabağ qoyunları itlərdən arxayındılar, tələsmirlər. Ağzı buğlu Qarabağ atları çoban, onun neçə aylıq azuqəsi, pal-paltarı yığılmış xurcunları belində çox yüngüldü, bütün sürüyə cavabdehmiş kimi diribaş görünür. Çobanın qaysaq bağlamış üzü qırmızı qranit kimi soyuq və sərtdi. Sürü yavaş-yavaş uzaqlaşdıqca o həzin "musiqi" də not-not kəsilirdi. Köç gedəndən sonra küçəyə əvvəlcə qəribə sükut çökürdü. Bir azdan qadınlar küçəyə çıxıb evlərinin qarşısındakı köç "iz"lərini süpürəcək, aparıb ağacların dibinə tökəcəkdi.

***

Sarı taksi sürətlə keçsə də, tanıdım, Roma əminin maşınıydı. Atamın dostlarından biri. Onunla dağlara, bulaqlara çox getmişdik. Qarda-buzda onun kimi maşın sürən yoxuydu. Buzlu yolda Şuşaya, ilin istənilən günündə SSRİ-nin xəritədə barmaq qoyduğun şəhərinə maşın sürməyə hazırıydı. Ümumiyyətlə, Ağdamın taksi sürücüləri ayrıca, maraqlı sinif idi. Sovet dövrünün azad zəhmətkeşləri demək olardı onlara. Çoxunun taksidən başqa şəxsi maşını da vardı. Bu, uzaq səfərlərə, məsələn, Bakı, Yerevan, Tiflis, Batumi, Kislovodsk, Mahaçqala, Rostov kimi yerlərə "klent" aparmaq üçün idi. Atam da uzaqgedən sürücülər sırasından idi. Gələndə Qoridən qırmızı alma, Batumidən mandarin, Tiflisdən rəngli flamaster (belə şeylərin matah olan vaxtlayırdı) gətirirdi. Lotereya satan İdris əmiylə (qızı Nəzakət bizimlə oxuyurdu) getdiyi Kislovodsk səfərindən razı qalırdı. İndi anlayıram ki, Nəzakətin atası tək Ağdamın yox, bütöv regionun "uruset lotereyası"nın topdan satanı imiş, əlbəttə, qeyri-rəsmi.

***

Səhər tezdən pəncərəmizin önündən keçərək camaatı pambıq yığımına səsləyən "raykom" maşınının səsucaldanından çıxan boğuq səfərbərlik musiqisi musiqidən çox alman faşistlərinin kinolarda gördüyüm oxşar təyinatlı maşınlarından gələn "Axtunq! Axtunq!" nidasını xatırladırdı. Bu bənzətmə atama məxsusdu. Pəncərədən baxıb deyirdi: "Elə bil nemes maşınıdı... Burda pambıq var? Get pambıq yığanlara çal də bu mahnını".

Səhərin bu xırıltılı musiqisindənsə Xıdırlı arvadların solo çığırtıları daha xoş idi. "Qatıq var! Qaymaq var!", "Süd var, süüüdd! Yaxşı süd var!" Səslər fərqliydi: biri xırıltılıydısa, digəri təmiz idi. Heç birinin adını bilmirdik, eləcə səsindən tanıyırdıq. Evə ağartı lazım olanda anam tələsmədən ona lazım olan səsi gözləyirdi, onu neçə-neçə səsin içindən seçə bilirdi. Bəzən istədiyi səs çıxmayanda, o biri süd satanlar da keçib gedəndə südsüz, qatıqsız qalırdıq. Seçim ediləndə keçib getməsin deyə süd satanı əyləməyə məni göndərirdilər. Arıq, uzun bir qadın, orta yaşlarında, əynində uzun tuman, kişi pencəyinə oxşar pencək, başında yun şal, iki əlində qara, yekə zənbil... Evdə qonaq olanda, yaxud bayramlarda, ələlxüsus Novruzda alacaqlarımız çox olardı: bir balon süd, bir balon qatıq, boyamaq üçün çoxlu yumurta, 3-4 kasa qaymaq... Məşhur Gəncə qaymağını sonralar dadacaqdım. Hələliksə yediyim Gəncənin ağ üzlü camış qaymağı yox, Xıdırlının sarı inək qaymağıydı.

Ağdamın süd satanları Bakının indiki xlor satanları kimi deyildilər. Onların üzündə "insan əzabının son əlamətləri" (ifadə "Nəsimi" filmindəki Nəimiyə məxsusdu) görünmürdü. Qıvraq, diribaş, eşq dolu həyat bənizliydilər, ətrafa xoş ovqat, enerji yayırdılar. Çəkdikləri əziyyətin tək nişanəsi ağır zənbil daşıyan ovuc, bir də barmaqlarının bərkimiş qabarlarıydı, vəssalam...

***

Axşama doğru işdən qayıdanlar pəncərənin sol, şəhərə çıxanlar isə bir qayda olaraq sağ tərəfindən gəlirdilər.

Bu kişi sağdan çıxdı, demək, şəhərə gəzməyə gedir. Onun da adı Vahiddi. Qonşu küçədə olur. Deyirdilər, cavanlığında çox davakarmış. Suya atılırmış, dalğa itənədək suyun altında qala bilirmiş. Pəhləvan cüssəli, şir ürəkliymiş. Əsgərliyi uzun çəkibmiş, elə iki ilini "disbat"da yatıbmış. Mən tanıyanda da dəliqanlığından xeyli qalmışdı.

Gözdən itəcəkdi ki, şüşəni tıqqıldatdım, çevrilib yuxarı baxdı. Pəncərəni açıb salam verdim. "O gün gördüm, atan maqnitofon alırdı sənə, niyə qulaq asmırsan?" "Hələ kaset almamışıq". "Düş gəl bizə,

kaset verim”. Düşdüm, yolundan qayıtdı, dörd-beş kaset verdi, birinisə silkələyə-silkələyə “Bunu itirmə, hər adamda yoxdu, Vısotskinin kasetidi. Əla oxuyandı, hökumətin anasını ağladır...” Vahidi həm də ona görə çox istəyirdim ki, mənimlə tay-tuşu kimi danışırdı. Ona elə gəlirdi ki, mən də Vısotskini tanıyıram, başa düşürəm.

İllər keçdi, mən böyüdüm, o yaşlandı... Son dəfə onu hərbi formada görmüşdüm. Maraqlı macəralar yaşadığı şəhəri nəzərdə tutub Stepanakert ermənilərinin qarasınca deyinirdi: “Görürsən də bunları, qudurublar”. Çox çəkmədi, onun da öldüyünü eşitdim. Allah rəhmət eləsin!

***

İndi hər dəfə Vısotskinin filmlərinə baxanda, ya mahnılarını dinləyəndə yadıma adaşım düşür. O, daha sədaqətliymiş. Ağdamı ruhuyla sevənlərdən imiş. Odur ki orda qaldı: cismi torpağında, ruhu səmasında. İndi Vahid Vısotskinin mahnısını Ağdamın sərgərdan ruhları ilə birlikdə oxuyur:

**Спасите наши души!**
**Мы бредим от удушья.**
**Спасите наши души,**
**Спешите к нам![1]**

...Bu səhər mən də qoşuldum Vısotskinin mahnısını oxuyanlara, uçdum, uçdum, uçdum, sonra qayıdıb pəncərəmdən içəri girdim!

[1] Xilas edin ruhumuzu!
Boğuluruq, hava gəlir başımıza.
Xilas edin ruhumuzu,
Tələsin, qurtarın bizi! (Çevirdi: Rauf Qaraişıq)

## Səkkizinci esse

# Yusif üzlü kitablar

7 Noyabr 1980-ci il Böyük Oktyabr Sosialist İnqilabının növbəti ildönümü kimi, həmin günün səhəri Rzayev Yusif Məmməd oğlunun (indi "525-ci qəzet"in baş redaktor müavinidi) Ağcabədinin Rəncbərlər kənd orta məktəbindən sinfimizə gəlişi də əlamətdar hadisə idi. İndinin gözüylə baxsaq, Yusifin gəlişi Oktyabr inqilabının missiyası ilə müqayisədə humanizm mücəssəməsiydi. Hər halda milyonlarla insanın taleyini alt-üst eləyən inqilabdan fərqli olaraq bu gəliş mənim həyatıma yeni rəng qatdı.

Sərt sifət cizgiləri, uca və yoğun səsi, oturuş-duruşu, xüsusilə qəribə ləhcəsi 1 nömrəli kimi "bərkgedən" şəhər məktəbi üçün çox qaba görünsə də, tezliklə mühitə öyrəşdi, uşaqlarla ayaqlaşdı, çox ağzıgöyçəyin ağzından vurdu, əlaçılar sırasına qoşuldu, istər sinifdə, istərsə də məktəbdə xüsusi qabiliyyətiylə seçildi. Hərəkət və düşüncə sərbəstliyi, kəndli sadəliyi və səmimiyyətinə yaşından xeyli böyük şeirlər yazmaq istedadını da əlavə etsək, necə bir adamla dostlaşdığımı ta özün təsəvvür elə!

Məktəbin "bosman" ləqəbli direktor müavini Ənvər müəllim (Allah rəhmət eləsin, həqiqətən də, məktəbin bosmanı idi) yaxşı oxuyan şagird kimi mənimlə dostluq eləməyi ona məsləhət görübmüş. Elə yolumuzun bir olması, qonşuluğumuz da dostluq tellərinin tez bağlanmasında vacib şərtlərdən oldu.

***

Böyüklərimiz "Lenin yolu" adlı rayon qəzetinin şöbə müdiri Həsən Qəhrəmanovdan xahiş eləmişdilər ki, hərdən çağırıb şeirlərimizi dinləsin, məsləhətlərini versin. O da bizi məmnuniyyətlə qəbul edir, bəlağətli danışığı ilə maraqlı mövzular açır, şeirlərimizi dinləyir, fikirlərini söyləyirdi. Yusif bu işdə bir boy yuxarı idi. Həsən müəllim bunu nə qədər büruzə verməməyə çalışsa da, alınmırdı. Şeiri birinci Yusif deyirdi. Sonralar gəncliyin müxtəlif məqamlarında, illah da sevdalı anlarda dəfələrlə dadıma çatan, öz adıma çıxıb kimlərinsə ruhunu oxşadığım şeiri bir gör necə əzbərləmişəm, sən Allah:

**Tamaşa qurtarır,**
**sonunda pərdə.**
**Kitab oxuyuram,**
**sonunda pərdə.**
**Pəncərənizin önündən keçirəm hərdən,**
**Yenə də pərdə.**
**Necə dözüm bu dərdə?**
**Pərdə....**
**Pərdə....**
**Pərdə...**

"Əla! Sən şairsən! Sən, əsl şairsən!" Həsən müəllimin fərəh dolu qışqırtısını qonşu otaqlarda da eşidirdilər yəqin. Ayağa qalxanda qədd-qaməti otaqdakı kitab şkafını belə örtən bu əzəmətli kişinin sevinci uşaq çöhrəliydi...

Növbə mənə çatırdı:

**Yandırın Nitşenin fəlsəfəsini,**
**Külünü də tökün Hitlerin qəbrinə...**

Arxasını unutduğum belə şeirlərə onun reaksiyası bir qayda olaraq bu cür olurdu: "Əla! Çox yaxşı! Sən şair olassan". Həmin anlarda nələr eləməzdim ki, mənə də "Sən şairsən!" desin. Amma Həsən müəllim tərbiyə sahibi olmaqla bərabər həm də vicdanlı adamıydı.

Məni şeir yazmağa Yusif həvəsləndirirdi. Bəhsə düşüb əlləşirdim. Palan içi tökmək fikrim yoxdu, bir onu deyim ki, heca saymaqdan ovcumda dərin dırnaq izləri qalmışdı. Yusifin ovcu isə təmiz idi, izsiz-zadsız.

Nəysə, Həsən müəllimin məsləhətiylə Şamil Namazın Mədəniyyət Evindəki ədəbiyyat dərnəyinə yazıldıq. Dərnəyin ən cavan üzvləri biz idik. Yusif tezliklə dərnəkdə üstünlüyü ələ aldı. Hərənin şeirində bir qənbərqulu tapır və əsaslandıra bilirdi, odur ki hamı onunla hesablaşır, müzakirələrdə onun fikirlərinə ciddi önəm verirdilər. Rayon qəzetində çıxan ilk şeiri məktəbdə onu məşhurlaşdırdığı kimi, bu hadisəyə həsr elədiyi bu şeir də dərnəyin stajlı üzvləri arasında onun nüfuzunu kəllə-çarxa çıxardı:

**"Ürəyimi sıxsaydılar, söz tökülərdi,**
**Sanırdım ki, yazdıqlarım tər çiçəkdilər.**
**İlk şeirim çıxan günü elə bilirdim,**
**Daha məni bütün qızlar sevəcəkdilər".**

Tezliklə dərnəyin cavan şair və yazıçılarının sayı çoxaldı. İlk vaxtlar utancaq olan Gülablı balası Qulu Ağsəs tezliklə istedadını ortaya qoydu, beləliklə, gənclik yaşlı nəslə bab gəlməyə başladı. Qulunun şeirləri özünə oxşayırdı; sakit, həzin, çəkib uzaqlara aparan, düşünməyə məcbur eləyən:

**"Yamanca sıxılmışam**
**Gözlərimə hopub qəm.**
**Səksəkəli olmuşam –**
**Sanki Yer kürəsiyəm".**

Pıçıltılı şeirləri əslində bir orkestrin səsi boydaydı, canım üçün. Onun şairliyi bizim kimi bir baharlıq olmadı. O, hələ də şairdi.

***

Kitablarla ilk tanışlığım atamınkılardan başlamışdı. Amma hələ məni "xəstələndirməmişdilər". Viktor Hüqonun sovet ensiklopediyasına oxşayan üççildlik "Səfillər"i atamın ən sevimli kitabı olmasına baxmayaraq həcmiylə gözümü qorxutmuşdu. Atamın çoxsaylı təkidinə rəğmən bu kitabı oxumadım. (İlk təəssürat yalançı olsa belə, öz işini görmüşdü, indiyədək oxumamışdım. Bu yazı həvəsləndirdi, indi girişmişəm, həm də atamın ruhu şad olsun deyə...)

Kitablara baxışım Yusiflə dəyişdi. Onun gəlişi mənim musiqi dolu uşaqlıq dünyama kitablar da qatdı. Və beləcə şəhərin bütün kitabxanalarının, kitab mağazalarının qəniminə çevrildik.

Ağdamın kifayət qədər kitabsevəri vardı. Bir qrup ziyalılıq atributu hesab elədiyindən kitab alırdısa, böyük bir qisim bu kitabları oxuyurdu da (Az, ya çoxluğun dəxli yoxdu, mən Ağdamda kitabsız bir ev belə xatırlamıram). Qohum-əqrəba, qonum-qonşu arasında, çayxana və parklarda tez-tez müxtəlif kitabların söhbətinə düşərdin. Maraqlı kitab xəbəri "quş qripi" kimi tez yayılırdı.

Orxan Kamalın “Yad qızı” bədii tozanaq qoparmışdı. Əlbəttə, bütün maraqlı kitabların ilk sahiblərindən biri də biz olurduq. Pulumuz olanda alır, olmayanda sadəcə, əl atıb “götürürdük”. Nə qədər qəribə olsa da, bunu ayıb saymırdıq. Ən çox ziyarət etdiyimiz yer məktəb yolunun üstündə, Lenin bağının girişindəki Tağı dayının kitab mağazasıydı. Rəhmətlik bir dəfə də olsun soruşmadı ki, bu qədər kitabı oxuyursunuzmu barı.

Çayxanaya ayaq açmağımız dünya çaplı yazıçılarla tanışlığımıza səbəb oldu. “Lenin yolu” qəzetinin müxbiri Salman Babayev (indi “Respublika” qəzetinin Qarabağ zonası üzrə müxbiridi) nə təhər ağızdolusu “Qabriel Qarsia Markes” deyirdisə, belə bir adamı tanımadığımıza görə xəcalət çəkirdik. Uşağı qabağına qoyub danlayan müəllim pozası alsa da, Salman bizi danlamırdı, əksinə, min kilometr bizdən aralı ölkələrdə yaşayan, yaxud yüz il qabaq kitablar yazmış neçə-neçə yazıçıdan elə həvəslə danışırdı ki, eşitsəydi, işi-peşəsi çay daşımaq olan Zaqqı (deyəsən, adı Zahid idi) da kitab oxumaq həvəsinə düşərdi (Yaxşı ki, Zaqqı Salmana qulaq asmırdı, yoxsa əlinə kitab alıb oturacaqdı “Çay evi”nin üçüncü mərtəbəsində, camaata ya dəmi qaynamış, ya da soyumuş çay verəcəkdi. Külqabılar da aşıb-daşacaqdı). Bəlkə də, Salman heç özü də Markesi oxumamışdı o vaxt, eləcə adını eşitmişdi, amma bunun məsələyə dəxli yoxuydu. Əsas odu ki, biz ondan çox ad eşitdik və bu adların yazdıqlarını tapıb oxumağa çalışdıq.

***

Bax belə!

Bunlar mənim kitablı Ağdam xatirələrimin kiçik bir hissəsidir. Böyük hissəsi isə ruha çevrilib Ağdamı tin-tin, küçə-küçə gəzir. Daha tini, küçəsi olmayan şəhəri... Evimizdəki yüzlərlə kitab səhifələrində oxuyub can verməyə vaxt eləmədiyim neçə-neçə qəhrəmanım boylana qaldı. Ermənilərin odladığı evdən yanan ruh kimi çıxdılar sonra. İndi onlar da xatirələrimin ruhuna qoşulub gecələr mənim ruhlar şəhərimin sakinlərinə şeir oxuyurlar...

Dünən axşam Vaqif Cəbrayılzadənin (Vaqif Bayatlı) şeirini deyirdilər, Yusifin sevimli şeirini:

**“Qeybdən gələn səs kimi,**
**ölümqabağı gələn nəfəs kimi**
**gəldin ömrümə, zalım qızı,**
**çıx gecəyə oynayaq bu havaya,**
**sən şəhərin o başında,**
**mən şəhərin bu başında”...**

**Doqquzuncu esse**

# Rəngsiz kino

Yusiflə qətiləşdirmişdik ki, sənədlərimizi jurnalistikaya, bəd ayaqda filologiya fakültəsinə verək. Evdəkilərin “yurfak”, heç olmasa “narxoz” tələblərinə qarşı jurnalist olmaq arzusuyla çıxmağım çox ciddi və sərt olan atama üsyan etmək kimi də başa düşülə bilər. Sonra atamla müqayisədə İntibah dövrünün humanistlərini xatırladan atası Məmməd əminin tələbinə “boyun əyərək” sənədlərini könülsüz “narxoza” verib, coğrafiyadan aldığı “2”nin sevincini boynuma sarılmaqla bölüşən Yusifin qarşımda sanki günahını yuyurmuş kimi bəxtəvərçiliyi o qədər də ürəyimcə deyildi. Məni indi onun hansı institutda oxuyacağı yox, Bakıda qalıb-qalmayacağı maraqlandırırdı. Bu vəziyyətdə biz ayrılacaqdıq. O, Ağdama qayıdacaqdı. Düzdü, o, Bakıya qayıtdı, jurnalistikaya da girdi, amma bir il sonra, mən artıq əsgərlikdə olanda. Bunlar sonra olacaqdı...

***

Jurnalistikaya iki il staj tələb olunduğundan atası şəhər kinoteatrının direktoru Fazil Qasımovdan – “kino Fazil”dən xahiş eləmişdi ki, adını işə yazdırsın. Yusif də məktəbdə oxuya-oxuya kinomexanik olub axşamlar kino göstərməyə başladı ki, bununla da bizim ağdamlı uşaqlıq dövrümüzün yeni səhifəsi açıldı. Kitablarla yanaşı, kino da həyatımızın bir parçası oldu. Ümumiyyətlə, Ağdamın bir neçə nəsil gəncliyinin yetişməsində adı “Dostluq” olan bu kinoteatr, onun direktoru Fazil müəllimin müstəsna xidmətləri var. Hər iki başından məni tutduğu üçün bu rolun müsbət, yaxud mənfi tərəflərini təhlil etməyə dəyməz.

Sovet əyalətlərində “gənc nəslin formalaşmasında”, həmçinin ictimai dünyagörüşün inkişafında azsaylı vasitələrdən birinin də kinoteatr olduğu fikrini qəbul eləsək, Ağdamdakı kino mühitinin qonşu rayonlarla, hətta dağ şəhərləri, qəsəbə və kəndləriylə müqayisədə xeyli mühafizəkar olduğunu qeyd etməsəm, tam təsəvvür yarada bilməyəcəyimdən ehtiyatlanıram. Bircə onu deyim ki, günorta saatlarında məktəblilər üçün ayrılan seanslardan başqa mən kinoteatrda heç vaxt qadın tamaşaçıya rast gəlmədim. Əlbəttə, göz xəstəxanasının yanındakı hərbi hissəyə yenicə gələn gənc və naşı zabitin arvadını qoltuğuna vurub, Moskvanın Arbatında gəzirmiş kimi, Nizami küçəsiylə üzüaşağı bəxtəvər-bəxtəvər kinoya ilk və son gəlişini nəzərə almıram. Zalın yeganə zənən xeylağı kimi gözü ehtiras dolu gənclərin kollektiv ac baxışlarının hədəfinə çevrilmək hətta rus qadınlarını da sıxırdı...

Amma bu o demək deyildi ki, şəhərin qadınları kinoya baxmırdılar. Baxırdılar, özü də kişilərdən daha həvəslə. Bunun üçün evin kişisinə sifariş vermək bəs edirdi. Məhəllənin bütün kişilərinin fikri yekdil olsun deyə qadınlar sözü bir yerə qoyub arzularını eyni vaxtda onlara bildirirdilər. Razılıq veriləndə, əgər növbə böyük deyilsə, həmin gün, yox, növbə varsa, bir-iki günə kino gəlirdi. Bəzən bir neçə məhəllədə eyni filmi göstərirdilər. Velosipedli kinoçular yarım saat fərqlə başlayan filmin yumru dəmir kasetlərini bir məhəllədən digərinə vaxtında çatdırırdılar. Məhəllə kinoları böyük bir proses idi. Tədbirə erkəndən hazırlıq gedirdi. Tumsatanlar səhərdən öz ehtiyatlarını tuturdu. Ənənəvi “ekran” ya ağardılır, ya da kimsə ağ döşəküzü gətirəcəyinə söz verirdi. Qadınların kimi samovar qaynadır, kimi şirniyyat bişirirdi. Meyvəsi olan meyvə yuyurdu. Axşam da hərə öz kətilini götürüb ekran başına gəlirdi.

Şəhərin kişi tamaşaçılarıyla qadın seyrçiləri arasında fərq vardı. Birincisi, tamaşaçısı yalnız özlərindən ibarət olan kişilər filmin ayrı-ayrı nüanslarına, məsələn, bir az çılpaq qız görəndə “bu nədi, əəə...”, yaxud yaramaz qəhrəman növbəti naqis iş tutanda “ay oğraşşş” sayaq reaksiyalarla

kifayətlənirdilərsə, məhəllə seanslarında arvad-uşaq səsindən kino deyəni qulaq eşitmirdi. İkincisi, xüsusilə maraqlı yerində film kəsiləndə, kişilərin bağırtısı kinoteatrın damındakı quşları perik salırdı, amma qadınlar bu cür fasilələrdə daha dözümlü olurdular; ya filmin bura qədərki hissəsinin müzakirəsinə başlayır, ya da səhərdən qalan söhbətlərini davam etdirirdilər.

***

Hind filmləri Azərbaycana ayaq basıb, Bakıda nəfəs dərməmiş Fazil müəllimin sehrli çubuğuyla Ağdamda peyda olurdu – mətn tərcümə olunan kimi, səsləndirilməsinə aman verilmədən Ağdama çatdırılırdı.

*...Arıq, balacaboy kişiydi Fazil müəllim. Əsəbi və söyüşcül olmasına baxma, hamının ona hörməti vardı. Haqqında o qədər rəvayət və lətifə gəzirdi ki, oğul lazımdı bir kitab bağlaya. 1960-1970-ci illərin məşhur sevgi yazıçısı Əlfi Qasımovun qardaşıydı. Tək rayon yox, yeri gəlsə, ölkə miqyasında işini keçirə bilirdi...*

"Dublyaj" işinə məşhur aktyor Tofiq Qarayev və teatrdan başqaları dəvət edilirdi. Onlar yuxarı, kinomexaniklərin yanına qalxıb əllərindəki mətni oxuyurdular. Hind filmi ola, itoynadan Tofiq ola. Heç hind filminə Ağdam ləhcəsində baxmısanmı? Məsələn, "Qabbar Sinq, bu qolları sən kəsdin, amma mən səni bu əyaxlarla öldürəjəm". Fazil müəllim işdə olmayanda aktyorların istedadı öz zirvəsinə çatırdı, elə bilirdin ki, filmdəkilər Hindistanda yox, məsələn, məscidin dalındakı məşhur Bombey məhəlləsində baş verir.

Bəzən filmi Fazil müəllimin özü "dublyaj" edirdi. Belə hallarda zaldakı tamaşaçılarla kinomexaniklərin yanında oturub filmi səsləndirən Fazil müəllimin arasında qəribə təmas olurdu. Hərdən uşaqların tutması tuturdu, dilxoşluğa başlayırdılar. Bir dəfə filmin danışıq olmayan yeriydi, ekranda yalnız uzun və qəşəng qadın ayaqları görünürdü, bir də bu qəşəng ayaqların çıxardığı taqqıltı səsləri gəlirdi. Zaldan qəfil bir nida qopdu: "Perevod! Perevod!", yəni tərcümə elə. Fazil müəllim özünü çox gözlətmədi: "Ə, qurumsax, nəyi perevod eliyəjəm? Görmürsən, əyaxlardı dana, gedirlər".

Budur, filmin ən həyəcanlı yeridi, səssiz kadrlar qorxunc hadisənin olacağından xəbər verir. Zal donub. Hamının nəfəsi içindədi. Milçək uçsa eşidərdin, amma o uçmurdu, ona, sadəcə, yoxuydu. Fazil müəllimin qorxusundan nəinki qapıdan "yoxlama", bacadan quş, heç görə ki pəncərədən milçək də girə bilməzdi. Odur ki, zalda qəbir sükutu vardı. Tək-tək yerlərdən qorxa-qorxa burulan papiros tüstüsü yeganə həyat nişanəsiydi. Yox, az qala unutmuşdum. Əsl həyat nişanəsi bu deyildi, zalın qara dərinliyinə bir səs hakimiydi. Diqqət kəsiləndə bu səs qulaqiçi xışıltıya oxşayırdı. Diqqəti tam cəmləyəndə çoxsəsli "xor"u tanıyırdın. Çırt, çırt, çırt... Bu, afişanın altında Bəndinin (populyar müğənni Röyanın babasıdı) satdığı tumun zalda eyni vaxtda çıxardığı yüzlərlə çırtıltı səsiydi...

Yeri gəlmişkən, Bəndi, onun əzəli rəqibi Nejidən də deyim, sonra kinomuza davam edərik. Ağdamın bu iki məşhur tumsatanını ölkəmizdə bazar iqtisadiyyatının ilk qaranquşlarından hesab eləmək olar. Deməк, bu iki qardaş uzunmüddətli ərazi davasından sonra sərhədlərini müəyyənləşdirib sülh bağlamışdılar, bu müqaviləyə də çox vaxt kişi kimi əməl edirdilər. "Dostluq"un arxası, yəni Zeynalın çayxanası olan ərazi Nejinin, qabaq tərəfi isə Bəndinin nüfuz dairəsindəydi. Dəfələrlə qan-su axıdandan sonra sərhədin müqəddəsliyini başa düşüb onu qoruyurdular. "Kaş biz də sərhədlərimizi elə Nejiylə Bəndi kimi qoruyaydıq". O zaman kinoteatrın arxasındakı bulvarın müdiri olmuş Surxay Əlibəyli deyir bunu.

***

Məktəbdə kinoya bileti nəğmə müəllimi Seyid Sabir satırdı (Gənc müğənni Azər Qasımovun babasıdı). Səsi kimi şirin danışığı da vardı. Ən duzsuz filmləri elə anons edirdi ki, deyirdin, bəs söhbət həmin vaxtlar Vaqifin (Kazımov Vaqifin elə uşaqlıqdan xətrini istəyirəm) bazarın girəcəyində satdığı şirin və qazlı sudan, yaxud Elxanın "Dostluq"un qabağındakı budkasında vafli stəkana süzülən ağ-çəhrayı "süzmə" dondurmadan gedir – tamahlanırdın. Bərkgedən filmlərisə heç televiziyadakı qəşəng qız – Həmidə Ömərova da onun kimi tərifləyə bilməzdi. Sabir müəllim Ayaz Salayev sayaq film haqda qəliz danışmırdı, elə deyirdi ki, hamımız başa düşürdük, ömründə kinoya getməyən qızlar da yerində qurcalanırdı: "Bobbi! Kino yox ey, şokoladdı, "Qaraqum" şokoladı. Ağlamalı, gülməli, sevməli, sevilməli, əsl həyat dərsidi. Bütün dünya həsrətdi bu kinoya. Bakıda cəmi bir həftə göstəriblər, birinci Ağdama gəlib. Üçüncü gün saat 3-də hamı "Dostluq"a gəlsin. Qiyməti də cəmi 40 qəpik". Kinoya gedənləri sayırdı. Tərəddüd edənlər üçün əlavə bir neçə söz deyəndən sonra sinfin əksəriyyəti gedəsi olurdu. Biletləri satıb pulunu yığmaq üçün "sinifkom" Şahruna verir, sonra da ehtiramla müəllimə təşəkkür edib çıxırdı. Allah rəhmət eləsin, əsl seyidlərdə olan nurdan onun da sifətinə düşmüşdü.

***

Şəhərin əsasən gənc və orta nəsildən ibarət sabit kino əhli vardı. Fransız filmlərinə də elə hind filmlərinə baxanlar gəlirdi. Kolxoz sədrləri, idarə rəisləri, zavod direktorları, bazarkom, restoran və "zapravka" işlədənlər, iri mağaza müdirləri, bir sözlə, şəhər ictimaiyyətinin üst qatı belə filmlərə, məsələn, Kislovodskda, Soçidə, Truskovetsdə, başqa bu sayaq yerlərdə baxdığından "Dostluq"a gəlmirdilər. Kinoya "aradabir gələnlər"in sırasında bu kitabda adına bir də rast gələcəyin, çoxtərəfli istedad sahibi, "Makan" ayamalı dayıoğlu Vaqif də vardı. Toyların klarnet kralı olmaqla yanaşı, gözəl "çikanka" ustası kimi də ad çıxarmışdı. Deyilənə görə, Stepanakert erməniləri onun əsərlərini alıb Yerevanda beşqat bahasına satırmışlar. Çəkməçi kimi də bütün çəkməçilərdən fərqlənirdi. Universitetə girəndə mənə tikdiyi ayaqqabını son kursacan birnəfəsə geyindim, dağılmadı. Bax, həmin Vaqif yalnız fransız, bir də hərdən göstərilən italyan filmlərinə baxmağa gəlirdi. Bilirsən niyə? Ona görə ki yalnız bu filmlərdə Avropanın son dəb kişi çəkmələri, qadın tuflilərinə rast gəlmək olurdu. Bir dəfə görməklə səhər həmin çəkmə hazır idi. Dükanda öz qiymətindən xeyli baha satılan ayaqqabılardan bir neçə dəfə yuxarı qiymətə pullu müştərilərə təklif edirdi. Az çəkmə tikirdi, amma gördüyü işin söhbəti tikdiyi ayaqqabı kimi bütün şəhəri gəzirdi: "Belmandonun əyəqqavısınnandı, Makana tikdirmişəm".

***

...İndi baxdığın mənim ağdamlı günlərimin ağ-qara retro filmiydi. Gülürsən, xoşuna gəldi deyəsən! Amma sonra Fələk başqa film çəkdi burda. Heç şəffaf film görmüsənmi? Bax, həmin filmin rəngi yoxdu, şəffafdı.

Onun qəhrəmanları da görünmür, lap ruhlar kimi...
İncimə, onu sənə göstərməyəcəm, çox qorxuludu!
Özüm tək baxacam!
Özüm tək baxıram elə, hər gecə...

## Onuncu esse

# Azan oxuyan göyərçin

Rəmiş 1960-1970-ci, uzağı 80-ci illərdə tez-tez düşdüyü qəzaların birindən sağ çıxmasaydı, indi Azərbaycan mətbuatı ona "vaxtsız ölən virtuoz sənətkar", "bəxtsiz maestro" kimi epitetlərlə dolu yazılar həsr edərdi. Doğum günündə festivallar təşkil olunardı. El arasında əfsanələr artıb cild-cild olardı: "Yaşasaydı, Zeynəbin yox, Madonnanın ansamblında çalardı" və ya "Erik Klipton onun yanında əlinə gitara almayıb".

Bunların heç biri olmadı, nə qəzetlər onu yazdı, nə də camaat bunu dedi, çünki Rəmiş ölmədi, sağdı...

O vaxtlar isə Rəmiş canlı əfsanəydi. Haqqında hər gün dastanlar qoşulurdu. Əsl xalq yaradıcılığı idi bu nağıllar, çünki konkret müəllifi yoxuydu. "Barmaqlarından qan dama-dama nətəhər çalıbsa, xəbəri olmayıb", "Moskvada yəhudi toyunda ona qulaq asmırlarmış, qəfildən İsrailin himninə keçib, hamını ayağa qaldırıb". Bu sayaq söhbətlər vardı Ağdamda.

...1986-cı il iyunun son günləriydi. Əsgərliyə getməyimə üç-dörd gün qalmışdı. Qonşu Vahid haradansa uzaq yerdən gəlmiş qonağına məclis qurmuşdu. Qonaqlığın səs-küyü yalnız Rəmişin gitara səsi qismində ətrafa yayılırdı. Bu adi çalğı deyildi, həmin gecə Vahid öz evində məhlənin oyaq sakinlərinə (yatan vardımı?), bəlkə də, dünyanın ən möhtəşəm konsert salonlarının tamarzı qaldığı konserti verirdi. Rəmiş göylərdəydi, göylərin sirrini düyünbədüyün açaraq, onu eşidənlərin qəlbindən Tanrı aydınlığına yol salırdı. Bu "yol çəkmə" prosesinə açıq pəncərənin ağzındakı yatağımdan "tamaşa edir", bu izahagəlməz musiqini əsgər gedən gəncin məhəbbət dolu qəlbiylə dinləyirdim.

... İndi nə o Ağdam, nə də o Rəmiş var!

***

Qədir Rüstəmovu ilk dəfə Şuşanın məşhur "Qaya" xəngəlxanasında görmüşəm. Səhv etmirəmsə, 81-ci il idi, atam, dayım, bir də mən "Dom otdıx"da qalırdıq. İstirahət evinin bağında Anar Üzeyir Hacıbəyovdan film çəkirdi, Qədiri də Cabbar Qaryağdıoğlu roluna dəvət eləmişdi.

...Atamgili gördü, stul çəkib oturdu: "Ayə, Pərviz, maa deyillər ki, əyğını bərk dirəsən, Anardan lap çox pul alarsan!" Deyilənlərin ağıllı fikir olduğuna təsdiq gözləyirmiş kimi qəlyana qullab vurub ara verdi. Cavabsa xətrini çox istəyən Sabir (Salmanoğlu Sabir deyirdilər) dayımdan gəldi: "Ay Qədir, pulu onsuz da qazanırsan də, burda səni tarixə salırlar ey!" Yəqin, gözlədiyi cavab gəlmədiyindən söhbəti uzatmadı: "Həə? Neynək! Orası da var, orası da düzdür"...

Qədirin sonralar el arasında kəlama çevrilən bir sözünü danışım. Toyda oxuyurmuş. Qarmonçalan da belə toylar üçün çox naşı imiş. Məclisin şirin yerində qayıdır buna ki, "Ə, çal dana! Belə qarmon çalarlar?" Qarmonçalan cavab verir: "Nolub ki, çalıram də". Qədir iki əliylə havada qarmon çalmağı göstərə-göstərə "Əəə, hanı sənin vıy-vıyın? Əəə, hanı sənin dıy-dıyın?" deyir.

Sonralar bu "Hanı sənin vıy-vıyın, dıy-dıyın?" məsəli çoxdan görünməyən, səsi çıxmayan, pulsuzlayan, qonaqlıq verməkdən qaçan və başqa bu tip adamlara deyilməyə başladı.

***

Adını eşidib tanıdıqlarından çox yazmıram, bunları sən də eşitmiş olarsan, bir az tanımadıqlarından danışım.

“Dostluq” kinoteatrının arxasındakı bağa niyə bulvar deyirdilər bilmirəm, amma ona bitişik çayxanaya niyə “Zeynalın çayxanası” deyirdilər bilirəm, çünki oranı məşhur çayçı Zeynal işlədirdi. Bir bazar Yusiflə burda çay içirdik. Bəlkə də, istiyə görə az adam vardı. Ağacların altındakı stolların yalnız dörd-beşində hər kəs özünə bab adamla oturmuşdu. Bulvarın qırağındakı səsyazma studiyasından Şahmalı Kürdoğlunun səsi aləmi başına götürmüşdü.

**“Eşitdim ol qəra göz dilbərim sağərpərəst olmuş,**
**Mey içmiş məclisi-əğyardə bihuşü məst olmuş.**
**O, səngindil əlində, söylənir kim, şişə görmüşlər,**
**Bu mənadən pozulmuş xatirim, könlüm şikəst olmuş”.**

Səs muğamla qəti arası olmayan Yusifi tutmuşdu.

Həyat o qədər təsadüflərlə doludu ki... Çayxananın tinindən hündür boylu, qəddi-qamətli, yaraşıqlı bir kişi çıxdı. Yaşlı adamlar oturan stola yaxınlaşdı, özüylə gətirdiyi limonu çayçıya doğramağa verib əyləşdi. “Bilirsən bu kişi kimdi?” “Yox, kimdi ki?” Yusifə onun səsi bulvarın ağaclarını, quşlarını belə sehrləmiş Şahmalı Kürdoğlu olduğunu dedim. Qulağımız səsdə, gözümüz isə xəyala dalıb heykələ dönən bu nurani kişidəydi.

Stoldakıların söhbətinə qulaq asmadığı bir nöqtəyə dikilən baxışlarından görünürdü. Nə vaxtsa, hansı məqamdasa ondan qopan bu səs qəfil haqlayıbmış kimi onu dondurmuş, çəkib haralara aparmışdı, bir Allahı, bir də özü bilirdi. Bizimlə deyildi. Baxdığı nöqtəni yarıb başqa dünyaya keçmişdi, sanki fikir anarxiyası onu sonsuz məchulluğa götürmüşdü, ta geri dönməyəcəkdi, qayıdana heç oxşamırdı. Amma qayıdan kimi oldu – qəfil ayağa qalxdı. Bir an dayandı, sonra heç yana baxmadan, heç kimlə sağollaşmadan düz çıxıb getdi. Sanki yeriyən insan yox, daş heykəl idi. Bu təsirli mənzərəni az adam – yalnız ona baxanlar gördü.

Sonralar o nəhəng sənətkarla bir daha rastlaşmadım.

...Rastlaşmadım deyirəm, yalançı olaram, o gün “gördüm”. Gördüm həyatində becərdiyi limon ağaclarına qulluq eləyir. Altı yaşlı balası da yanında. Bu vaxt Əsgəran tərəfdən bir ulduz uçmağa başladı. Deyirlər uçan ulduzu görənin tutduğu niyyət hasil olur. Bir niyyət tutmağa çatdırmadım, yana-yana sürətlə gəldi. Gəlib limonluğa düşdü. O, əli limon koluna uzanıqlı heykələ döndü, balası da dizindən yapışalı. Baxıb gördüm bu ulduz yox, çərdəymiş mərmiymiş. Sonra o heykəldən iki ruh qopdu, biri böyük, biri balaca və biz birlikdə ruhlar şəhərinin üstüylə bulvara, Zeynalın çayxanasına sarı uçduq...

Biz çatanda Şahmalı “Rast” oxuyurdu:

**“Mən şairi biqədrü həzinəm, əgər ölsəm,**
**Min təskirə təhrir edəcəklər kəfənimdən”.**

***

Şəhərdə çalıb-oxuyanlara “muzukant”, kəndlərdə isə “aşıq” deyirdilər. Toy olanda toy sədası, olmayanda da toya hazırlaşan musiqiçilərin məşq səsi kəsilməzdi, sümüyünə düşdümü, başla

həyətin ortasında oynamağa. Vaqif Cəbrayılzadənin "Qonşu toyuna dörd hasar o yana oynayan uşaq" şeirini eşitmisənmi? Bildinmi onu kimlərə yazıb?

Buranın musiqiçilərini tez-tez başqa şəhərlərə, qonşu respublikalara da aparırdılar. Ağdamdan musiqiçi gətizdirmək "prestij" sayılırdı. Məhərrəmlikdə toy olmayanda Yerevandan Çimkəndədək səpələnirdilər. Şəhərin məşhur klarnet ustası, dayıoğlu Vaqif başının dəstəsiylə əsasən Özbəkistana gedərdi. Qayıdanda maraqlı Daşkənd söhbətləri növbəti ilədək bəs edirdi. "Ölürlər bizim musiqimiz üçün. Zeynəbin dörd-beş mahnısı, bir-iki dənə də oyun havası, bu da saa toy".

Oxuyan Barat Köhnə hamamın tinində olurdu. Gitaraçı oğlu Fərhad qıvrımsaç, qəşəng bir oğlanıydı, "uçilişa"nın qızları ölürdülər ondan ötrü, amma sənətdə heç atasının yarısı da ola bilmədi. Qarmon müəllimi Habil əmi toylara çox getməzdi. Başqa yaxşı gitaraçılar kimi üzbəüz qonşu Rzanın da bəxti onda gətirmədi ki, Rəmişlə eyni vaxtda, eyni şəhərdə yaşadı. Tarzən Ramiz Quliyev yaydan yaya gəlirdi, səliqəli geyimiylə yadımda qalıb. Rolu sağda olan ilk xarici maşını da onda görmüşdüm, səhv etmirəmsə, "Nissan" idi.

Arif Babayev qonşumuz deyildi, amma onun doğulduğu Sarıhacılı kəndiylə nənəmgilin yaşadığı Seyidli kəndlərindən axan Kötəl çayını bizi birləşdirən xətt hesab eləmək olar. Arif Babayev düz deyir ki, Kötəlin suyunu içənin qoçaq, həm də səsi olması barədə bir inanc varmış. Xristianlar çağanı xaç suyuna saldıqları təhər burda da oğlan uşaqlarını Kötələ salarmışlar. Anam da məni körpəlikdə bu çaya salıb suyundan içirdibmiş. Amma məndə elə bir qoçaqlıq-zad olmadı, səsim də Kötəlin o tayına güclə çatar. Sabir dayım mənimlə "Təmiz Seyidli deyilsən, Ordubadla Şuşa qarışacağın var" deyə özünəməxsus zarafat edirdi. Mən də onun bu zarafatına bir xeyli qohum-əqrəba adı çəkib deyirdim ki, "Bəs bu "təmiz seyidli"lərin niyə səsi yoxdu?"

***

Soyadlarına fikir vermə, Səxavət Məmmədovla Sədi Məmmədov qohum deyildilər, sadəcə bir quşun qoşa qanadı kimi pərvazlanıb eldən-elə, obadan-obaya uçurdular. Səxavətin sənətə gəlişi səs-küylü oldu, toy kasetləri əl-əl gəzirdi. Onu ilk dəfə Cıdır düzündə görmüşdüm, o dövr üçün qeyri-adi rəng sayılan açıq qəhvəyi velvet kostyum geyinmişdi. Səhv etmirəmsə, Niyazinin konsertində iştirak edirdi (Maestro Niyazi simfonik orkestrlə Cıdır düzündə konsert verirdi). Çox çəkmədi, səsi Qarabağdan Bakıya, Təbrizə, İstanbulacan çatdı. Hamının sevimlisi oldu.

Sədinin də səsi Azərbaycan boydaydı. Hələ lap daşıb kənara da axırdı. Amma ona Ağdam bəs eləyirdi. Atam deyirdi ki, Sədi uşaq olan vaxtı atasıyla kəndə gedəndə çox vaxt onun taksisinə minərmişlər. Yol boyu oxutdurar, düşəndə də pul almazmış. Ağdamlıların Sədiyə qeyri-adi sevgisi olub, elə indi də var.

Allah hər ikisinə rəhmət eləsin. "Azad bir quş" olub "yuvalarından uçub, bir bağa düşdülər". Onları bu dünyadan qəza apardı, yol qəzası. Ağdamsızlıq boyunduruğundan beləcə xilas oldular. Deyəsən, şair Salam Sarvanın sözüdü, yeri gəldi, onlara aid edib yazdım: "Eynən qatarların vəziyyətindəyəm, onlar üçün qandal reyslərdən çölə, azadlığa çıxmağın bircə yolu var – QƏZA!"

Davam edimmi? Bilirsən nə qədər oxuyan, çalan qaldı, yazmadığım? Bir konservatoriya! Vaxtilə atamın toyunu çalmış qonşu Paşa dayının səsini son dəfə bir-iki il əvvəl Bakı restoranlarının birində eşitdim. Eşitdim və on yeddi ildir tikə-tikə itirdiyim ürəyimin bir parçası da içinə beş-on manat atılan qavalını görəndə yerə düşdü.

***

Son ad günümə Ramil (birinci yazıda haqqında danışdığım 17 yaşlı şəhid dayımoğlu Anarın qardaşıdı) bir videokaset bağışladı. 1989-cu ildə Şahbulaqda çəkilib. Arif Babayevin xaricdən gəlmiş qonaqlarına qurulmuş məclisdəndi. Hafizlə (Ramilin dayısıdı) Rəmişin dueti! İki musiqi sevdalısının dueli! İki dünyanın bir-biriylə savaşı!

"Savaş" bu dünyaların təmasıyla bitir, ilahi bir təmasla, qovuşuqla. Burda, bu ilahi qovuşuqda adam özünü müqəddəs ziyarətgah kandarındakı kimi hiss edir: özünü yığışdırır, əyin-başını sahmanlayır, ən əsası isə içindəki şeytanı qısa müddətə də olsa, qovub çıxarır. İki dünya arasındakı sərhəd zolağına düşənlər duyar yazdıqlarımı…

Hafiz Sədrzadə zil və yanıqlı səsiylə seçilirdi. Şuşalı məşhur müctəhid Məhəmməd ağanın oğludu. Həm qohumluğu, həm də atamla dostluğu səbəbindən onu tez-tez görürdüm, xüsusi bir bağlılığım vardı. Qohum toyları onsuz olmazdı. Bu toylarda məni görəndə ovaxtkı sevimli mahnımı mütləq oxuyurdu, "Dalğalar"ı.

"Zəminxarə"nin ustasıydı. Bir dəfə Şuşada, "Gəncə" qapısının ağzındakı restoranda dostları atamın xəstəxanadan salamat çıxması münasibətilə məclis qurmuşdu. Stolun mən oturan küncündən baxanda "Gəncə" qapısından üzüaşağı Qarabağın yamyaşıl dərələri, təpələri, bir də sonsuz üfüqlər görünürdü. Ayrı vaxt yüz dil töksən oxumayan Hafiz özü başlamışdı. Deməsələr bilməzdim ki, oxuduğunun adı "Zəminxarə"di. Yaddaşımın ən məhrəm hücrələrindən birinin qapısını açıram sənə, ilahi səslə ilahi mənzərənin təmas nöqtəsini görürsənmi?

Sonralar məscidin minarəsindən azanı onun səsiylə verirdilər. Dinləyən kafir balası da islama gələrdi. Mən hələ o cür azan eşitməmişəm, nə İstanbulda, nə Səmərqənddə, nə də Sovetskidə.

...Onun səsini bu səhər yenə "eşitdim". Çevrilib baxdım. Günəş iki minarə arasında dayanıb durmuşdu. Azanın bitməsini gözləyirdi. Hafizin azanı ağappaq göyərçin kimi Ağdam məscidinin minarəsinə qonmuşdu. Ruhlar şəhərinin sakinlərini ibadətə çağırırdı:

**Allahu Əkbər! Allahu Əkbər! Allahu Əkbər! Allahu Əkbər!**
**Əşhədu əl lə iləhə illəllah! Əşhədu əl lə iləhə illəllah!**
**Əşhədu ənnə Muhəmmədən Rasulullah! Əşhədu ənnə Muhəmmədən Rasulullah!!!**

## On birinci esse

# Hökumətə məhkumlar

Dərsə milis idarəsinin qabağından gedib-gəlirdim deyə divardan asılmış, məktəbdəki "Şərəf lövhəsi"nə oxşayan, əslində isə axtarışda olanların şəkillərindən ibarət lövhəni hər gün görürdüm. Fotoları, onların yerləşdiyi sıra və cərgəni elə əzbərləmişdim ki, balaca bir dəyişikliyi dərhal hiss edirdim. Bəzən ayaq saxlayıb axtarışda olan bu adamlara xeyli baxırdım. Bizim "Şərəf lövhə"mizdən fərqli olaraq burdakı çöhrələrdə təbəssüm görünmürdü, əksinə, qorxu vardı. Onları "qorxulu adamlar"dan daha çox "qorxan adamlar"a bənzədirdim, gözlərində ələ keçmək qorxusu hiss olunurdu. Gizlənqaç oyunundan bilirdim ki, bütün gizlənənlər əvvəl-axır tapılır, deməli, onlar da tapılacaqdı. Bəlkə, də buna görə onlara yazığım gəlirdi…

Aralarında biri vardı, bütün şəhər ondan danışırdı. Adına "Qaçaq Hüseyn" deyirdilər. O vaxt danışırdılar ki, namus üstündə öldürdüyü milisin meyitini gecəykən meşədən gətirib "raykom"un bınasının qabağına atıb. Bu, hökumətə meydan oxumaq idi. Onu tapmaq üçün dağlar, meşələr ələk-vələk edilmişdi. Surxay Əlibəyli "Ağdamım - qibləgahım" kitabında onun haqqında bunları yazır: "Hüseyn Nəzərov 1975-ci ildə namus üstündə milis rəisini qətlə yetirib, Sovet İttifaqının o vaxtında qaçaq düşüb. Dəfələrlə əməliyyat planı qurulub, üstünə silahlı milis dəstəsi getsə də, mühasirəni yarıb qaça bilib. 1978-ci ildə Ağdam Rayon Milis Şöbəsinin rəisiylə təkbətək görüşə gəlib, nə illah eləsə də, qaçaqlığının əsl səbəbini başa sala bilməyib. Onu təhqir edən bu rəisi də elə oradaca öldürüb. Bir neçə il haqqında əfsanələr dolaşan Hüseyn 1978-ci il oktyabrın 10-da bir dostunun evində yatarkən qətlə yetirilib".

Eşitmişəm, oğlu Məhəmməd Tümendə yaşayır, böyük imkan və hörmət sahibidi.

Hüseynin lövhədən mənə dikilən gözlərindən çəkinmirdim, əksinə, ona rəğbətim də vardı. Bu rəğbətin yaranmasında haqqında el arasında hörmətlə danışılan sözlərlə yanaşı, həmin dövrdə televiziyada göstərilən çoxseriyalı gürcü filmi də böyük rol oynamışdı. Adı "Sahillər" ("Bereqa") olsa da, film baş qəhrəmanın adıyla daha çox məşhur idi: "Data Tutaşxia". Hökumətlə münaqişəsi yaranan adi kəndli quldura çevrilir. Bizlərdə "qaçaq", Şimali Qafqazda "abrek" deyilən, dağlarda, meşələrdə gizlənən bu adamlar daim hökumətin təqibində olurlar.

Data Tutaşxia da Nikolay dövrünün digər qaçaqları kimi ədalət axtarırdı. Elə bu axtarış da onu quldura çevirmişdi – hökumətə düşmən, xalqa dost quldura. Başı qara çalmalı qəhrəmanımın sərt, amma xeyirxah baxışları vardı. At belində dimdik oturuşu, batmangəl yerişi, heç vaxt gülməyən üzü mənim hövsələsiz, qaynar uşaqlıq həyatıma uyuşmasa da, xoşuma gəlirdi, özümü ona oxşadırdım. Onun kimi ədalətli və dürüst olmağa çalışırdım. Rola girirdim, bəzən alınırdı, sonra "rolumu" unudanda qayıdıb yenə "özüm" olurdum. Qaçaq Hüseyn də Data Tutaşxia kimi hökumət düşməni olsa da, camaatın rəğbətini qazanmışdı.

***

Sənə başqa bir narazı adamdan danışım. Uzun illər kolxoz sədri işləmiş Kamran Quliyevdən, ümidlərini doğrultmayan hökumətin qarasınca yana-yana danışan kişidən. Zəhmi həyətdə arvad-uşağı titrədən, səsi ağacdakı quşları perik salan bu kişi xalamın əriydi. Yadımda daha çox zolaqlı pijamada, gözündə eynəyi, tut ağacının dibində oturub qarağat mürəbbəsi salınmış çaydan içə-içə "Kommunist" qəzeti oxumağı ilə qalıb. Partiya qurultayı və plenumun materiallarını, baş katiblərin

palaz-palaz çıxışlarını onun kimi diqqətlə oxuyan görməmişəm. Stalindən sonra hökumətin hər yeni qərarına şübhəylə yanaşan Kamran kişi kommunizmə ümidini də itirmirdi. Leonid İliç Brejnev öləndən sonra hər dəfə baş katib dəyişəndə, Yuri Vladimiroviç Andropov, sonra Konstantin Ustinoviç Çernenko, nəhayət, Mixail Sergeyeviç Qorbaçov gələndə və hər yeni baş katibin ilk məruzəsini oxuyanda əlini qəzetdəki şəklə uzadıb deyirdi: "Ölkəni, bax, bu düzəldəcək!" Əcəl qocalara "ölkəni düzəltməyə" aman vermədi, amma Qorbaçov düzəltdi, özü də birdəfəlik.

Allah rəhmət eləsin, Kamran dayı inanırdı ki, Stalin sağ olsaydı, Qarabağ işğal olunmazdı, hələ üstəlik, kommunizm də qurulmuşdu. Ömrü boyu kommunist ideyalarına sadiq qaldı, bu ideyanın nədən ibarət olduğunu axıradək bilməyən milyonlarla sovet adamı kimi.

***

Atam kommunist deyildi, məncə, heç komsomolçu da olmayıb. Orduya da getməyib (Ümumiyyətlə, babam da, atam da, əmilərim də sovet ordusunda xidmət eləməyiblər. Nənəm qoymurmuş. Hər dəfə komissarlıqdan gələn olanda oğlanlarını taxtapuşda-zadda gizlədirmiş. Amma Həbib babamın Müsavat ordusuna qoşulmasından, Əsgəran yaxınlığında yaralanmasından elə ağız dolusu danışardı ki, elə bilirdin kitabda oxuduğun hansısa qəhrəmandan bəhs edir). Onun da hökumətlə sən deyən arası yox idi. Hər dəfə Şuşada Cıdır düzünə qalxanda solda, dərənin o biri yoxuşundakı şüşəbəndli baba evlərinə tərəf baxanda onun kimi lənətlədiyini bilirdik. Dəmir yolunun Ağdamdan Stepanakertədək uzadılmasına görə isə hökumətə əməlli-başlı qəzəblənmişdi, ümumiyyətlə, bu hadisə taksi sürücülərinin az qala üsyanına səbəb olmuşdu. Bu, Dağlıq Qarabağ boyda yerin müştərisinin əldən çıxması demək idi.

Televiziyada baxdığımız idman yarışlarında, xüsusilə xokkey çempionatında tamaşaçıların reaksiyasından bilmək olurdu ki, bizim sovet komandamızı heç yerdə sevmirlər. Praqada "qardaş çexlər"in niyə bizə yox, Kanadaya azarkeşlik etməsini atam belə izah edirdi: "Boynunu yerə soxum, hamının zəhləsi gedir də bu ölkədən". Onu cin atına mindirən isə "Vyetnama kömək!", "Anqolaya yardım!" söz-söhbətləriydi. "Gedib öz bitin arıtlamaq əvəzinə ona-buna kömək eləyir".

Ən qəribə və yaddaqalan hadisə isə atamın Bolqarıstan səfərinə hazırlığı idi. İş yerində "qardaş sosialist ölkələrinə" tez-tez putyovkalar olurdu. Onun payına Bolqarıstan düşmüşdü. Bu münasibətlə təzə kostyum, ayaqqabı tikdirmişdi. Ciddi hazırlaşır, "xaricdən başı çıxan"larla məsləhətləşirdi. Belələrindən biri də uşaqlıq dostu, şəhərin məşhur həkimlərindən olan Rizvan Eyvazov idi. Bir-iki il olardı Almaniyadan qayıtdığı. Ucadan, özü də açıq-saçıq danışan, sözü birbaşa deməkdən çəkinməyən, çoxundan fərqli olaraq, "QAZ-24"nü qorxmadan, gizlətmədən sürən (o vaxtlar hökumət bahalı ev, maşın, hətta dəmir darvazanın belə para mənbəyini soruşurdu), ürək həkimi olsa da, bütün xəstəliklərdən baş açan yaraşıqlı, səmimi, koloritli adam kimi yadımda qalıb. Almaniya haqqında elə danışırdı ki, hətta mənim də "bu murdar ölkəni" qoyub ora getməyim gəlirdi. Ən çox xoşladığı şey isə oraların pivə barları imiş. "Neçə cür desən pivələri var. Özü də keyfiyyətli, burdan iç, ordan süzsün, böyrəklərində bir qum dənəsi də qalmasın. Ta bizim "Jiqulyovski"dən deyil ey". Özünlə nə götürmək lazımdı, bir-bir deyirdi: "Pulun hamısını onluq elə, orda ancaq qırmızı onluğu tanıyırlar. Bara-zada gedəndə pulunu gizlət! Sonra..." Pıçıldayıb nəsə demək istəyirdi, məni görüb dayandı. Atam "Yeri get evə!" deyəndən sonra daha nədən danışdıqlarını bilmədim.

Nənəmin ağır xəstələnməsi onu bu tarixi səfərdən saxladı. Səfər çamadanını boşaltdı, çəkməçi Əvəzin tikdiyi ayaqqabının dabanını söküb qırmızı onmanatlıqları çıxaranda görmüşdüm. Elə-belə, ünvansız aldığı hədiyyələri ona-buna payladı. Atamın anasıyla "Qoymadın gedim görüm oralarda nə var, nə yox" zarafatı düz 15 il, nənəm ölən günədək davam elədi…

***

Bizə tarixdən dərs deyən Ağdamın qocaman müəllimlərindən Asif Əsədov filmdəki qəhrəmanım Data Tutaşxianın bir başqa prototipiydi. Onun da hökumətlə barışmadığı nöqtələrin olduğunu indi başa düşürəm. Sovet hökumətinə yönəlik ikibaşlı sözlərini, dediklərinin sözaltı mahiyyətini anlamasaq da, onun başqa müəllimlərdən fərqli olduğunu duyurduq. Bu cür sözləri açıq yox, üstüörtülü deyirdi. Bəzən ironiya ilə "Saşa ulduzlara bomba daşıyır, bunlar da düşüb Əfqanıstanın çöllərində "duşman" axtarır", hərdən də nazik üzlü "Azərbaycan tarixi" kitabını əlində yelləyir, sonra stolun üstünə tullayaraq qəzəblə "Rusun tarixi dünən-srağagün yaranıb, ...kitaba bax" deyirdi.

Ağır-ağır gələr, başıyla yüngül salam verər, arxaya daranmış uzun ağ saçlarına sığal çəkib dərsə başlardı. Gah aramla, gah da yüksək tonla elə bəlağətli danışardı ki, söylədikləri kino lentinə çevrilərdi, sanki tarixi filmə baxardıq. Asif müəllimin "Saşa" deyəndə ABŞ-ı, "dünya qənddanı" deyəndə Kubanı nəzərdə tutduğunu ömründə kitab üzü açmayan, sinfin sevimli ərkəsöyünü Mirturabov Elbrus da bilirdi.

Tarixi, xəritəni yaxşı bilməyim, "Ulyanova niyə Lenin deyirdilər?" sayaq kitabdankənar suallar verməyim məni onun gözündə xeyli qaldırmışdı. Çox vaxt sinfə sual verir, cavab üçün hamını bir-bir ayağa qaldırırdı. Bütün sinif ayaqdaykən sonda məni durğuzurdu. Fəxrlə durub cavab verirdim. Mən də bilməyəndə, sinfi qoyub bütün hirsini üstümə tökürdü: "Otur! "Bir" alırsan!" deyib heç kimə yox, tək mənə "1" yazırdı.

Deyirdilər ki, Qarabağ hadisələri başlayanda hirsindən odlanırmış, Qorbaçovu, partiyanı camaatın içində söyürmüş. Hamını vətəni qorumağa, bir olmağa, döyüşməyə çağırırmış. Elə oğlunu da Xocalıda itirdi. Xocalı qırğını günlərində hamı ölüsü, ya dirisi haqda xəbər almağa Xalq Cəbhəsinin qərargahına yığışırdı. Asif müəllim də hər gün arvadı Pikə müəlliməylə bura gələr, ölənlər, yaralananlar arasında oğlunu axtarardı. Bir gün əsirlikdən alınanlardan biri danışırmış ki, ermənilər bir ağdamlı oğlanı Azərbaycan bayrağını tapdamağa, "Qarabağ ermənilərindi" deməyə məcbur eləmək istəyirmişlər. Başqa əsirləri də qorxutmaq, sındırmaq, alçaltmaq üçün onu təhqir edirmişlər. "O, nə bayrağı tapdadı, nə də o sözləri dedi. "Qarabağ bizimdi!" dediyinə görə ermənilər yıxıb başını kəsdilər. Qıvrım saçları vardı, yaraşıqlı oğlanıydı, deyəsən, adı da Yalçın idi". Bu sözləri danışan o dili qurumuş bilmirdi ki, başı kəsilən oğlanın atası da onu dinləyənlərin arasındadı. Oğlunun belə müsibətini eşidən atanın halını təsəvvür edə bilərsənmi? Allaha ata naləsindən böyük etiraz varmı?!

...Yalçını görmüşdüm, əla futbol oynayırdı, yaraşıqlıydı, qızlar ölürdü ondan ötrü. Sevdalı bir qız üçün ər, neçə övlada ata yeri boş qaldı. Əvəzində min-min oğula örnək olan qəhrəmanlıq nümunəsi qoydu. Mən bilən heç bir dəmir medal da vermədilər sonra.

Bir dəfə Bakıda Yusiflə rastlaşmışdı. Xeyli söhbətləşəndən sonra avtomatdan mənə zəng eləmişdilər. O vaxt Prezident Aparatında işləyirdim. "Ay Vahid, ermənilər yaman girişib Ağdama. Almazlar ki?" soruşmuşdu. "Yox, Asif müəllim, erməni Ağdama girə bilməz. Dövlət, ordu var, hər şey nəzarətdədi!" deyə məmur kimi cavab vermişdim, yalan danışmışdım. Bir ay sonra Ağdam işğal olundu. Elə həmin gün, 23 iyulda Ağdamda yeganə zəngim çatan yer – poçt da susanda, telefonçu qız cavab verməyəndə, təzə müdirim Arif Rəhimzadəyə dişimin dibindən çıxanları deyib şələ-şüləmi götürüb Prezident Aparatı ilə əlvidalaşdım. İki ay sonra dövlət katibi Lalə Şövkət Hacıyeva əmrlə ixtisara saldı. Ağdam "ixtisar"a düşəndən sonra mənim ixtisarımın bir qara qəpiklik qiyməti yox idi!

Sonuncu dəfə Bakıda, İstiqlal küçəsində rastlaşmışdıq. Oturub çay içmişdik. Əvvəlki əzəmətini, qürurunu nə qədər saxlamağa çalışsa da, oğul itirən atalar kimi gözlərinin dibində bir küncə qısılan məsum nisgil görünürdü. Gözlərimə elə baxırdı ki, sanki qəlbimin içini, vicdanımın üzünü görmək istəyirdi, baxırdı görsün, varmı, diridirmi vicdanım. Nə gördüyünü bilmədim, özü də demədi.

...Oğlunu ziyarət eləməyə qəbri belə yoxuydu, bəlkə, elə onu mənim gözlərimdə axtarırdı, bilmədim...

Çox çəkmədi Asif müəllim də vəfat elədi. Ağdamın parlaq ziyalarından biri də beləcə söndü. Məchul sonsuzluğa uzanan qaranlıq bir qat da qatılaşdı. Sıradan bir nəfər də seyrəldi.

***

Sənə sərhəd tanımayanlardan, qadagaları sevməyənlərdən, çərçivədə yaşamaq istəməyənlərdən danışdım! Hələ yazmadığım nə qədər adam qaldı. Onların hökumətlə işi yox idi, onların davası yalnız öz içlərindəki bapbalaca da olsa azadlığı, ləyaqəti qorumaq davasıydı. "Hökumətə məhkum" min-min sovet adamı kimi...

## On ikinci esse

# Sümük abidə

İbtidai sinifləri oxuduğum birmərtəbəli korpus məktəb həyatinin qurtaracağındaydı. Buranın balaca meydançası hündür dəmir cağla hasarlanmışdı – ayrıca bir dünya idi. Bu balaca dünyanın kiçicik bir küncündə ayrıca yerim vardı, dünya içində dünya kimi. Tez-tez, illah da oynayıb yorulanda yasəmən ağacının altında cağa söykənib dəmir barmaqlar arasından top qovan böyük uşaqlara baxardım. Yasəmən çiçəkləyəndə isə onun salxımları arxasından gələcəyə – böyüklərin dünyasına boylanardım. Sonralar Antuan dö Sent-Ekzüperinin "Balaca şahzadə" kitabını hər dəfə oxuyanda nədənsə yasəmən altındakı o uşağı xatırlayıram. Xəyalımda o kiçik dünya, onun yalqız sakini canlanır. Ona əks tərəfdən, "böyüklərin dünyası" bildiyim yerdən baxıram, dəmir cağ dalındakı yasəmən salxımını aralayan uşağın bir cüt gözünü görürəm...

Cağın o üzündə yüyürüb qumluğuna hoppandığımız uzunluğa tullanma cığırı, turniklər, voleybol və basketbol meydançaları daim haylı-küylüydü. Sevimli futbol meydançamız da üstüörtülü tribunası ilə birgə onlarla böyür-böyürəydi. Siniflərarası yarışmalarda sevdiyin qızın bu tribunadan guya sənə baxmırmış kimi oğrun nəzərləri altında meydana çıxıb, üstəlik, bir qol da vurub qələbə sevinci yaşamaq həyatın şirinliyindən xəbər verən ilk duyğulardan idi. Üstü üzüm tənəkləri, sağı-solu ağac və kollarla bağlı çardağın altındakı qaçış cığırı qızların seyrəngahı, oğlanların sevda yoluydu.

*...Bu idman meydançalarını Dorik müəllimsiz təsəvvür etmək olmur. Məktəbin idman zalı və meydançaları, voleybol toru, güləş döşəkcəsi, hantellər, növbənöv toplar, bir sözlə, idman avadanlıqlarının üstündə öz malı kimi əsirdi. O, yıxılan uşaqların dizlərindən axan qana da həssas idi. Bədən tərbiyəsi müəllimimizin erməni olduğuna heç vaxt önəm verməmişdik. Qarabağ hadisələri təzə başlayanda qəzəbindən özünə yer tapmırmış. Bir gün dözməyib, durub gedib Stepanakertə, sovet DTK-sının, onunla ortaq maraqları bölüşən erməni şovinistlərinin təşkil etdiyi mitinqdə söz alıb çıxış edibmiş. Nə dediyini bilmirəm, bir onu eşitmişəm ki, ermənilər onun sözünü ağzında qoyub, tribunadan sürütləyib düşürüblərmiş. Sonra danışırdılar ki, Ağdamın bu sülh missiyalı erməni sakinini daşnaklar şaqqalayıb iki yerə bölüblər...*

Tribunanın arxasında məktəbin ikimərtəbəli uzun binası, binanın solunda, Ceyran bağı səmtdə "pis uşaqların" siqaret çəkdiyi tualet, sağındasa yadımda "korjik"i, kakaosu, kolbasası və bir də qəribə xoş qoxusuyla qalan Məleykə xalanın (oğlu Feyruz bizimlə oxuyurdu, tale haralara atdı, bilmirəm) bufeti, bufetin qabağında çeşmə, sağında və solunda isə qızılgül kolları... Məktəb binasının arxasında hər növ ağacı olan böyük bağ, bağın içində şitillik, qış botanika bağçası, qarovulçu Əli dayının ona bitişik daxması, qabağında qapalı idman zalı, nəhayət, üzü məşhur Ağdam bazarına açılan darvaza...

***

Məktəbin foyesinin sağ və sol divarlarına şərəf lövhələri vurulmuşdu – əlaçılar içəri girənləri təbəssümlə "qarşılayırdı". On il burda asılan şəklimdə illərin dəyişdiyi sifət cizgiləriylə böyüdüm. Həmişə nəzərim iki şəklin üstündə olurdu. Biri özümün idi. O birisini tanımırsan, deməyəcəyəm sənə, deyə bilmərəm.

"Şərəf lövhəsi"nə yapışdırılan şəkillərim durur. Əlimdəki üçüncü sinifdə oxuduğum vaxtın, 10 yaşımın şəklidir. Diqqətlə baxıram. Təsadüfə bax, sabah 42 yaşım olacaq. Demək, şəkildəki uşaq 32 il qabağa – gələcəyinə boylanır. Baxır və məni görür! Tanıyırmı görən?! Mən də kiməsə

oxşadıram onu. Durub 10 yaşlı oğlumun şəklini gətirirəm, yan-yana qoyuram, iki oğul atası kimi baxıram "yaşıd, əkiz balalarıma", onlar da atalarına sevinirmiş kimi üzümə gülürlər. Sarılırıq bir-birimizə. Biri məktəb döşəməsinə sürtülən "salyarka" qoxuyur, o birinin qoxusundan baş açmıram.

Biri divarın o üzündə, yan otaqdadı (bu anımda nələr çəkdiyimi hardan bilsin), digəri şəklin o üzündə, "arxa" otaqdadı (32 il sonra mənə nələr çəkdirdiyini hardan biləydi) – ikisi də yanımdadı. Şeytan əməlinə oxşar bir sual taxtaqurdu kimi gəmirir beynimin bir hissəsini, yeyir xırtaxırt, səsi əks-səda verir beynimin o biri tayında: "Bunların hansı doğmadı sənə?.. Hansı doğmadı sənə, hansı?" Sanki ikisindən birini seçməyə məhkumam, amma seçim eləyə bilmirəm! Bu nə seçimdi axı belə?!

Bəs sən kimi seçərdin? 10 yaşlı özünü, ya 10 yaşlı oğlunu?

...Məhşər ayağına çəkilmişəm elə bil...

Axır ki, seçdim. Öz balamı yox, anamın balasını seçdim. Həyatımın ən böyük qadınının dünyaya gətirdiyi uşağı seçdim...

Oğlum inciməz, oğlu olanda anlayar məni, yəqin...

***

Ağdam şəhərinin 1 nömrəli orta məktəbi Sədrəddin Bayramov adına idi. Sədrəddin yazıçı Bayram Bayramovun qardaşı oğluydu. Xaçın çayında batan dostunu xilas edəndə özü boğulub ölmüşdü. Odur ki, qəhrəman şagird kimi adını məktəbimizə vermişdilər. Allah rəhmət eləsin! Xilas elədiyi Tofiq Bayramov indi Bərdədə yaşayır, deyirlər, məşhur həkimdi.

Məktəbimizi fərqləndirən həm də strateji məkanda yerləşməsiydi: tayı-bərabəri olmayan Ağdam bazarının darvazası məktəb qapısı ilə az qala burun-burunaydı. Rayonun kəndlərinə, respublikanın ayrı-ayrı şəhərlərinə gedən avtobusların yığışdığı avtovağzalla (burdan SSRİ-nin istənilən şəhərinə getməyə neçə-neçə hazır taksi də tapa bilərdin) məktəbi bir məhəllə ayırırdı. Şəhərin partiya-təsərrüfat elitasından tutmuş rəsmi ictimai-iaşə, ticarət, qeyri-rəsmi "bazar iqtisadiyyatı" (OBXSS-in həyat mənbələri) fəalları öz uşaqlarını burda oxutdurmağa üstünlük verirdilər. Bununla yanaşı, bazar və avtovağzal ətrafı məhəllələrin uşaqları da təbii olaraq burada oxuyurdular. Odur ki məktəbdə Ağdam bütün sosial-mədəni çalarlarıyla təmsil olunurdu, bir rəngarənglik vardı.

Bazar böyük mövzudu, ona ayrıca yazı həsr olunmalıdı. Gücüm çatsa, yazacam. Amma yazmasam da olar. Eşitdiyin kimidi! Ağdam bazarı haqda gəzən rəvayətlər elə xalq yaradıcılığı kimi qalsa yaxşıdı. Mən bircə onu əlavə edim ki, tanınmış gürcü siyasətçisi, xətrini çox istədiyim dostum İvlian Haindrava bəzən lazımi şeyləri almağa Tiflisdən Ağdama gəldiklərini deyəndə təəccüblənmədim.

Avtovağzal barədə isə şuşalı dostum Hikmət Sabiroğlunun diliylə deyim ki, səndə daha yaxşı təsəvvür yarada bilim. Ağdamı və ağdamlıları onun kimi təsvir eləyən (şuşalı ağdamlını göydə alırdı) ikinci adam tanımıram. Hikmət Ağdamı belə xatırlayır: "Uşaq vaxtı Muğanlı kəndində yaşayan xalamgildən gəlirdim. Ağdam avtovağzalında mən boyda bir uşaq yaxınlaşdı, əlindəki vedrəni yerə qoydu, soruşub-eləmədən bir stəkan noxudu kitab vərəqindən düzəltdiyi "klok"a töküb pencəyimin cibinə dürtdü, "10 qəpiyimi ver" dedi. Bunu elə sürətlə elədi ki, nə baş verdiyini anlamağa vaxt tapmadan çıxarıb 10 qəpiyi verdim. "Sağ ol" da demədi, çönüb "İsti noxud var!" deyə qışqıra-qışqıra getdi".

Qətiyyən şübhən olmasın ki, həmin uşaq məktəb həyətinin o biri başındakı tualetdə siqaretçəkənlər dəstəsinin fəallarından imiş. Onlar kəndlərdən, bir də başqa rayonlardan gələn uşaqları beləcə "terrora" məruz qoysalar da, yerli şəhər uşaqlarıyla işləri olmazdı. Məktəbin "zavuç"u Ənvər müəllim, Atamoğlan müəllim, komsomol katibi Çimnaz müəllimə nə qədər onları "kommunizm ruhuna", "pioner tərbiyəsinə", "komsomol əxlaqına" dəvət eləsələr də, xeyri olmurdu, məktəb şüşələri sınmaqda, skamyalar qopmaqda, divarlar yazılmaqda davam edirdi. Vladimir Ulyanovun rəşadətli uşaqlıq illərindən tərbiyəvi moizələr onunla nəticələnirdi ki, səhəri gün Leninin tunc ağzında yarıyacan çəkilmiş "Rodopi" siqareti tapılırdı. Sonra məktəbin yanındakı Lenin bağında Leninin heykəlini də o cür deşib ağzına siqaret soxduğuna görə Qara (Fred Asifin uşaq vaxtı şuluq olan qardaşı Bəhlulu belə çağırırdılar. Sonra Fredin batalyonunda döyüşdü, yaralandı. İndi Almaniya vətəndaşıdı), onun böyükləri 6 ay milisə təpik döydülər. Axırda bu kasıb ailənin beş yüz manatını alıb dinc buraxdılar.

Müəllimlər bu uşaqları nə qədər bəyənməsələr də, onlar pis uşaq deyildilər. Onlarsız məktəb həyatının heç bir dadı-duzu olmazdı. Bir-iki misal çəkim, özün gör! Bir gün yuxarı sinifdə oxuyan, adına "Qatıq" dediyimiz (əsl adını nə o vaxt, nə də sonra bildim) birisi dərs vaxtı qapını açıb başını içəri saldı. Müəllimə elə ədəb-ərkanla salam verdi ki, deyərdin bəs bu, çəkdiyi siqaretin külüylə divara faşist svastikası çəkən Qatıq yox, respublika olimpiadasının, tutalım, riyaziyyat üzrə qalibidi, məktəbin komsomol katibi vacib ictimai iş üçün sinfə göndərib. Şişman sifətinə ciddi görkəm verib arxa sırada kimisə axtarırdı. Nəsə bir hoqqa çıxaracağına şübhə yoxuydu. Qonşuları Namiqi görəndə qaşlarını qaldırıb dedi: "Vayyy Namiq, papan deyir ki, şalvarı gətirsin ey, toya gedirəm". Yenə əvvəlki ədəblə müəllimə "sağ olun" deyib qapını örtdü. Uşaqları demirəm, uğunmaqdan heç müəllimdə də can qalmadı.

Qatığa nə cür pis oğlan demək olar, hə?

İndi ki, Qatıqdan xoşun gəldi, qoy birini də deyim. Nəsibə xanım çox savadlı coğrafiya müəlliməsi olsa da, ilk gündən uşaqlara sərt üzünü göstərə bilməməyi səbəbindən dərsində ağız deyəni qulaq eşitməzdi. Sinif qapısının, yaxud pəncərəsinin ağzından keçəndə içəridəki səs-küydən bilirdin ki, Nəsibə müəllimənin dərsidi. Məktəbin "Bosman" ləqəbli "zavuç"u (vaxtilə bu vəzifəyə təyin olunanda ovaxtkı direktor Süleyman müəllim onu təqdim edərkən demişdi ki, bosman gəmini necə idarə edirsə, Ənvər müəllim də məktəbi elə idarə edəcək, o vaxtdan məktəb uşaqları bu ayamanı nəsildən-nəsilə ötürdü) "pis uşaqlar"ın qənimi, şagirdlərin təsəvvüründə "Uzaq sahillərdə" filmində Mixaylonu tutmaq istəyən mayor Şults kimi qəddar olan Ənvər müəllim gənc müəllimlərə dəstək olmaq üçün hərdən gəlib arxa partaların birində oturardı.

Belə dərslərdən biriydi, hər gün məktəbə Ağdamkənddən gəlib-gedən Səyyaf (sonrakı taleyindən xəbərim olmadı) lövhəyə çıxıb Afrikanın iqlim qurşaqlarından danışmalıydı, danışa bilsəydi. Birdən "b" sinfində oxuyan Fariz (onu təsəvvür eləmək üçün "Bizim Cəbiş müəllim" filmindəki Makedonu yadına sal) qapını elə şəstlə açdı ki, elə bil inəkləri çölə çıxarmaq üçün tövlə qapısı açır. "Boy, Səyyaf! Nəyə çıxmısan, ə, ora? Ağdamkəndi göstər görüm, ə?" deyib qapını örtdü. Bu, bir neçə dəfə təkrar olundu. Fariz Ənvər müəllimin sinifdə olduğunu bilmirdi. Növbəti dəfə qapını açıb yalnız "Səyyaf..." deyə bildi ki, qapının dalında gizlənən Ənvər müəllim əl atıb bir andaca onun boğazından yapışdı. Sürüyüb gətirdi lövhədən asılmış xəritənin qabağına. "Göstər görüm ə, Ağdamkəndi?" deyə-deyə onu iki qatlayıb xəritəyə çırpdı. Ağdamkəndi nəinki orda yaşayan Səyyaf, Ənvər müəllimin yekə qarnı ilə itələyib divara dirədiyi Fariz, heç qıraqda büzüşüb duran Nəsibə müəllimə də göstərə bilməzdi, ən azından ona görə ki lövhədən dünya xəritəsi asılmışdı, dünya xəritəsində Ağdamkənd nə gəzirdi?!

***

...Sonra bilirsənmi nələr oldu? Sonra dava başladı. Davaya elə birinci o “pis uşaqlar” getdi. Şəhəri onlar qorudu, həmin o dəli-dolu uşaqlar vaxtilə özləri kimi vurub-tutan, dili kimi dilçəyi də olan böyüklərə qoşuldular, vuruşdular, yaralandılar, şəhid oldular, əlil oldular, öldülər. Öldülər, sonra da:

**“Getdilər atları çimizdirməyə,**
**...qulançar yığmağa, moruq dərməyə”.**
(İsa İsmayılzadə)

“Atları çimizdirib” qayıdacaqlar! Qayıdıb 6 min Ağdam şəhidinin qanını alacaqlar, hələ sayını bilmədiyim əlil tay-tuşları demirəm.

***

...Məndə Ağdamın minarədən çəkilmiş şəkilləri var. Oradan baxanda ən uzaqda üfüq görünür, üfüqün üstündə isə öz əzəmətiylə Göy durur. Səni dəryaların sonsuz, dibsiz görünməsi aldatmasın. Sonsuz, dibsiz olan Göydü. Amma o da insan qəlbi yanında sonsuz deyil. Ölçüsüz olan başdan-başa müəmmalarla dolu insan qəlbidi. Vaxt gələcək insan kainatı da öyrənəcək. Öz qəlbinin sirrini necə, aça biləcəkmi?! Allah böyükdü! O qədər böyükdü ki, hətta hüdudsuz məkana belə sığmaz. Belə bir yer insan qəlbidir. Allah göylərdə yox, qəlblərdədir. Yetər ki, qəlbinin dərinliklərinə, o sonsuz, dibsiz, sərhədi olmayan məkana baş vurasan...

Məscid minarəsindən aşağı baxanda Ağdam xarabalıqları arasında mənim məktəbim də görünür. Görünür deyəndə, özü yox, indi onun yerində xatirələrimin uçuq divarları qalıb. Buyur, sən də bax! Görürsənmi yaxındakı qaraltını, bir vaxtlar şəhərin simvollarından sayılan “Çay evi” buradaydı, içdiyim çayın buğu, çəkdiyim siqaretlərin tüstüsü çəkilməyib hələ, onun üçüncü mərtəbəsi ucalığında burula-burula durur. Elə bilmə yerində gördüyün onun dəmir-dümürüdü, əsla! Onlar mənim ruhumun sür-sümükləridi. Ermənilər apara bilməyiblər. Apara bilməzdilər!

Aparsaydılar, heç bu axşam ruhumun sümüklərindən sənə məktəb-abidə tikə bilərdimmi?!

## On üçüncü esse

# Toz adamlar

*Vaxt insana, əbədiyyət Allaha bağlı anlayışdı.*
*Ölüm Vaxtdan Əbədiyyətə keçid tunelidi.*
*Ölüm Vaxtın qurtaran, Əbədiyyətin başlayan nöqtəsidi.*
*Nöqtə toz boydadı.*
*Yer kürəsi bir Toz dənəsindən yaranıb!*
*Cəbrin, riyaziyyatın gücü çatmaz bir Toz dənəsinin Yer kürəsinə çevrildiyi zamanı hesablasın!*
*Səbrinə şükür, Allah!*
*Tozuna şükür!*

***

Sinifdəki yazı lövhəsini silmək üçün qızların evdə tikib gətirdiyi yastıqcaları tolazlamaqdan həm də ona görə sadist zövqü alırsan ki, dəydiyi yerdə ağappaq təbaşir ləkəsi qoyur, hədəfə dəyməsindən doğan sevinc qələbə atəşfəşanlığı təki ətrafa qar lopalarına oxşayan toz dənələri yayır.

Ən çox belə toz riyaziyyat kabinetində olurdu.

Bizə riyaziyyat dərsini Xalidə müəllimə deyirdi. Çox sərt qadınıydı. Sinifdə gülməz, səs salanı bağışlamaz, yaxşı oxuyanı sevər, amma tərifləməzdi. Onun pis oxuyanları görməyə gözü olmasa da, pis oxuyanların gözü hər yerdə onu görürdü. Qorxudan! Hamı onunla sərhəd saxlamağa çalışırdı. Amma uşaq azadlığının sərhədimi var?!

Bir dəfə yoxlama yazırdıq. İlin sonu olduğundan alacağımız qiymət illikdə həlledici olacaqdı. Hamı məzar sükutu içində baş sındırırdı. Xalidə müəllimə demiş, "başı olanlar baş sındırır", olmayanlarsa gözləyirdilər ki, "başı olanlar" yazsınlar, onlar da xəlvətə salıb köçürsünlər.

Beş-altı nəfər özünə inamla yazırdı. Çoxunun ürək guppultusunu evdə anaları duysa da, sinifdə Xalidə müəllimə eşidəsi deyildi. Bir qrup da vardı ki, aşığını Araz, topuğunu da Kür islatmazdı. Amma hamını birləşdirən bir şey vardı – qorxudan yoğrulmuş sükut...

Qəfil arxa sıradan qopan "Bu nədi ə?" nidasından sinif diksindi, başlara qonan ...elm pərisi uçub getdi. Müəllimənin "Nəyə qışqırırsan" sualına İlqarın (indi Moskvada restoran işlədir) cavabı yerli-yataqlı oldu: "Məllim, görmürsən, buna demişəm ki, mənim şəklimi çək, bu da öz şəklini çəkib". Sən demə, İlqar onun diaqramını çəksin deyə dəftərini yaxşı əl qabiliyyəti olan Müşfiqə veribmiş. O da yoxlama dəftərinə diaqram əvəzinə "nemes" şəkli çəkibmiş. Faşist libasında adam şəkli.

Lövhəyə çıxası oldular. Sinfin ən uzun iki oğlanı.

"Başını aşağı əy görüm!" Xalidə müəllimə adəti üzrə ayağını bir-bir onların ayağının üstünə qoyub basdı, sanki yerə mıxladı ki, tərpənə bilməsinlər. Şilləsi Müşfiqin onsuz da qara üzündə əl boyda kömür rəngdə ləkə saldı, İlqarın rus sarısı rəngdə sifəti isə sovet bayrağı kimi allandı.

Bu nədi ki, illik qiymətləri "3" olsun deyə, onlar Xalidə müəlliməyə hələ xeyli dil tökəcəkdilər. Sonra hər şey öz qaydasına düşdü, amma arada İlqar yeni ayama qazandı – "Nemes".

***

Rus dili müəllimәsi Nәrgiz xanım dәrd әhlinin sevimlisiydi. Eşqә düşәn uşaqları onun kimi duyan yoxuydu. Mәnim yerim müәllimin stolu ilә üzbәüz sıradakı birinci partadaydı. Tәrslikdәn hәmişә yanıma dostların qaraladığı qızlar düşürdü.

İlqar sinfimizә tәzә gәlәn qıza (adını yazmıram) dәli kimi aşiq olmuşdu. Qız әlaçı idi, bәlkә dә, ona görә özündәn iki qiymәt aşağı oxuyan, yәni gücü zorla "3"ә çatan İlqarı әvvәl-әvvәl bәyәnmirdi. İşin ağırlığı isә mәnә düşürdü. İlqar bir dost kimi onu tez-tez parta yoldaşıma tәriflәmәyimi, haqqında xoş söz demәyimi tәkid edirdi, bir sözlә, indiki dillә desәk, yaxşı imicini yaratmağımı istәyirdi. Canımı boğazıma yığmışdı. Mәnimsә sevgi Allahı Amur kimi sehrli oxum yoxuydu ki, İlqarın әvәzindәn qızın ürәyini nişan alıb atam...

Bir dәfә "Lenin yolu" qәzetindә "Şәfәq"in (indiki "Qarabağ" futbol komandasının sәlәfi) oyunçularının şәkli dәrc olunmuşdu. Aralarında komandanın gәnc üzvü kimi İlqar da vardı. Qәzeti mәnә verib parta yoldaşıma, sevdiyi qıza göstәrmәyi xahiş elәdi. Mәn dә dediyi kimi etdim. "Bura bax" deyә qәzeti partaya sәrib İlqarın şәklini göstәrdim. "Kimdi ki?" "Tanımadın? "Nemes"di dә". "Nemes" sözünә qәfil elә güldü ki, bütün başlar tennis topuna baxırmış kimi bizә çöndü, dediyimә peşman oldum. Sonra İlqara sarı çevrilib elә baxdı, sanki onun "nemes"ә oxşayıb-oxşamadığına rәy verәcәkmiş. Mәzlum-mәzlum marıtlayan yazıq İlqar qızın ona zillәnәn gülüş dolu baxışlarını sevgi müjdәsi bilib göydә qapardı. Utanmasaydı...

Sonra yanıma başqa bir qız gәlәsi oldu. Ona da Yusif aşiq idi. Qızı yaxşı görsün deyә hәmişә boğaz çәkirdi, yәni: "bu mәn ölüm, bir az qabağa otur...". Üçüncü cәrgәdәn elә boylanırdı ki, bu hәsrәtә Nәrgiz müәllimәnin dә ürәyi dözmürdü. Mәnimsә bәzәn tәrsliyim tuturdu. Bir dәfә özümü sәrdim partaya, "Hә, di bax!" sözünü elә dedim ki, bütün sinif eşitdi. İlqarın qәzet әhvalatı yalan oldu. Yazıq qız qıpqırmızı qızardı, Yusif dә dişi bağırsağını kәsmiş, qovrula-qovrula qaldı.

Hәrәkәtimin orijinallığından tәzәcә zövq alırdım ki, Nәrgiz müәllimә kürәyimә bir yumruq vurub sakitcә keçdi. Ağrısı kürәyimin yadındadı. Cәzamı çox gözlәtmәdi. Bir müddәt hәr gün dәrsә durğuzur, danışdırır, suala tuturdu. Bununla hәm mәni cәzalandırır, hәm dә iki sevәn arasından qara tikanı, müvәqqәti olsa da, götürürdü. Hәr gün dәrs danışmağımın sәbәbini sonralar bildim. Mәrdimazara bu da azmış.

Nәrgiz Mahmudova cavan, hәvәsli, savadlı, hәssas qәlbli bir müәllimә kimi yadımda qalıb. Hamımız onu sevirdik, onu hirslәndirәnә elliklә etiraz edirdik. Arıq, hündür boylu, zәrif, qıvrımsaç Nәrgiz xanım Әzizbәyov küçәsindәki evlәrindәn çıxıb, Musәvi küçәsindәn keçib, Rәşadgilin (Rәşad Mәcid) әvvәl yaşadıqları "dördmәrtәbә"nin tinini burulub mәktәbә sarı gәlәndә yerişindәn XIX әsr fransız әdәbiyyatının tipik qadın obrazını xatırladırdı. Lermontovun "Zәmanәmizin qәhrәmanı" ("Qeroy naşeqo vremeni"), Turgenevin "Mumu" әsәrlәrini danışanda mәni tez-tez saxlayır, "Razve?" deyә şübhәylә soruşurdu. "Elә danışırsan ki, elә bil "Mumu"nu Turgenev yox, sәn yazmısan".

***

Arxasını gәtirә bilmirәm, yazmağa can çәkirәm. Yoxsa sәnә hәr payız pambıq yığımı mövsümü çәkdiyimiz sәfadan yazardım. Axı mәn sәnә sәhәr obaşdan tarlalara, guya pambıq yığmağa getmәyimizdәn, avtobusda xorla mahnı oxumağımızdan, "Tapan, tap oğrunu" oynamağımızdan, uduzmağın şәrti kimi müәllimlәrdәn birini qәfil öpmәyә mәcbur olmağımızdan, kolxozçuların pambığını oğurlamağımızdan, axşamlar qayıdanda sürücülәri şirniklәndirib avtobusları ötüşdürmәyimizdәn danışmadım. Demәdim ki, min yay tәtili bir pambıq mövsümünü әvәz etmәzdi. Ucsuz-bucaqsız ağappaq çöllәrdә әn cәsarәtsiz dә sevdasını dilә gәtirәrdi, bura da bic-bic uşaqlarla dolu sinif otağı deyil ki, ürәk aça bilmәyәsәn.

*...Qənirə müəllimə sinif rəhbərimiz olub, həm də ədəbiyyat dərsi deyirdi. Əvvəlki sinif rəhbərimiz isə onun institutu təzə bitirib gələn, bizə Azərbaycan dili dərsi deyən qızı Nərgiz müəllimə idi (bu yerdə ilk müəlliməm Şəfiqə xanımı anmasam, onun unudulmaz təbəssümünü xatırlamasam olmaz). O vaxt 12 yaşım vardı. Gənc müəllimən Nərgiz Həsənovanın İntibah rəssamlarının çəkdiyi qadınlara bənzəyən çöhrəsi mənim qadın gözəlliyinə açılan duyğularımın təzəcə pöhrələyən yeriydi...*

Pambıqlıqda bəzən nahar vaxtı bütün sinif bir yerə toplaşırdı. Hamı gətirdiyini ortaya qoyurdu. Hər kəs matah malını ilk olaraq müəlliməyə verməyə can atırdı. Bir gün pambığa atamın Bakıdan gətirdiyi, Ağdamda hələ çoxlarının tanımadığı feyxoa meyvəsi apardım. Bir neçəsini Qənirə müəlliməyə verdim. Nə qədər desəm də, inandıra bilmədim ki, pambıq qozası deyil, təzə meyvə növüdü. "Feyxoy nədi, pambıq qozasıdı ey bu". Əlacsız qalıb birini dişləyib göstərdim, sonra da iştahayla yedim. Yalnız bundan sonra "pambıq qozaları"nı qəbul elədi. "Kişidən papiros iyi gələr" deyən Qənirə müəllimənin mərd, kişiyana hərəkətlərini az görməmişdik. Elə xatirəmdə də mərd, həm də baməzə qadın kimi qalıb.

Heç "Faşizm üzərində qələbənin 40 illiyi"nə həsr olunan respublika məktəblilərinin teatr festivalından söz açmadım. Bilirsən partizan dəstəsi komandirinin hərbi forması necə yaraşırdı mənə? Şəhər, sonra region məktəbləri arasında birinci olduq. Məktəbimiz respublikada ikinci yeri götürdü. O da Yusifin Mikayıl Mirzə sayaq şeir deməsinə görə.

İndi Bakının hər yanında "Çay ev"ləri açılır. Amma bizim üçmərtəbəli "Çay evi"nə çatanı olmaz. Heç ondan da bəhs etmədim! Çayxananın üçüncü mərtəbəsində ucadan danışmazdılar. Bu qaydanı heç kəs qoymamışdı. Amma orada hamı astadan, bəzən lap pıçıltıyla söhbət edirdi. Çünki bura məscidin minarəsinə çox yaxın idi, azanı lap qulağının dibində oxuyurdular. Bəlkə, buna görə buranın sakit aurası vardı... Bəlkə, elə bu auraya görə məktəbimizin sevdalanmış oğlanları buranı seçirdilər?! Yaxın dosta ürək boşaltmağa burdan gözəl yermi tapılardı?!

***

Deyirlər, doğulanda hər bir insanın taleyi alnına yazılır və "yazıya pozu yoxdu". Bizdə belə olmadı. Ağdamsızlıq (fələk) taleyimizi ömür ağacının elə yenicə cücərən anında yaxaladı, alnımızdakını pozub yerində nə yazdı, hansı xətlə yazdı, biz bir yana, sonra heç özü də oxuya bilmədi. Fələk (Ağdamsızlıq) divara dəyən təbaşirli yastıqcadan qopan toz dənələri kimi hərəmizi bir yana uçurtdu, bir diyara saldı. Elbrus haqq dünyasına, Bəhruz tutulub Vladivostoka (Allah qapısını açsın), Rauf, Müşfiq Kazana, İlqar Moskvaya üz tutdu. Burada qalanların isə biri Şəkiyə, digəri Bakıya – hər yerə, hər yana səpələndilər. Harda desən varıq, Ağdamdan savayı...

Bayırda külək əsir. Havada toz dənələri oynaşır. Görən haradan, kimdən qopub bu toz dənələri... Hara uçurlar belə... Bəlkə, bizdən ayrılıb hesaba gəlməyən zaman sonrası kiməsə Yer olmaq üçün yola çıxırlar?!

...Yer kürəsi bir Toz dənəsindən yaranıb! Xatırlayıram!

Cəbrin, riyaziyyatın gücü çatmaz bir Toz dənəsinin Yer kürəsinə çevrildiyi zamanı hesablasın! Səbrinə şükür, Allah!

Tozuna şükür!

**On dördüncü esse**

# Sağ qalan ləpirlər

Məktəbə rayon səviyyəli kommunist Əli İbrahimovun adını daşıyan küçənin tinindən burulub dünya proletariatının banisi Leninin adı verilən küçənin sol tərəfiylə gedirdim. Milis idarəsindən sonra dalana oxşayan, səssiz-küysüz Mirbəşir Qasımov küçəsini keçən kimi soldakı birmərtəbəli binadan çal-çağır səsi gəlirdi.

Pionerlər Evində "Qarabağ bülbülləri" ansamblı məşq edirdi. SSRİ yekəliyində ölkənin, Allah bilir, hansı şəhərindəsə verəcəkləri konsertə hazırlaşırdılar. Moskvada Brejnevin də baxdığı konsertdə möhtəşəm çıxışdan sonra bura gələn uşaqların sayı xeyli artmışdı – oxuyan kim, nağara çalan kim, rəqs eləyən kim...

Mən də gəlirdim. Səs-zad yoxuydu məndə, bir də bura hamı oxumağa gəlmirdi ki, cürbəcür dərnəyi vardı "dom pioner"in, mən də foto dərnəyini seçmişdim. Bir dəftəri fotoqrafiyaya aid nəzəri məlumatlarla doldursam da, heç şəkil çəkmədim. "Smena" adlı ucuz fotoaparatım evdə qalan qızların cehizi kimi öz qutusunda təptəzə dururdu. Amma o nəzəri biliklər sonralar dadıma çatdı, indi bir sərgilik fotolarım var.

Sonrakı binada Ağdam Rayon Maarif Şöbəsi yerləşirdi. Bura çatıb səkiyə döşənmiş ağ-qırmızı kvadrat daşların üstüylə addımlayanda "Çapayev" filminin qəhrəmanı sayaq ağ qvardiyaçıları biçirəmmiş kimi ayaqlarımı qırmızı yox, ağ lövhələrə çırpırdım. Maarif binasının pəncərələrindən gələn yazı makinasının çaqqıltısı da pulemyot səsinə fon verirdi. Müdir Qara müəllim qarayanız, kök kişiydi, tez-tez görürdüm – ya "Villis"ə minəndə, ya da düşəndə. Vaxtilə rayon partiya komitəsi bu ikimərtəbəli binada yerləşirmiş. Uşaq vaxtı atam Mircəfər Bağırovu elə burdaca, Qara müəllim kimi maşından düşüb binaya girən yerdə görübmüş. "Eynəkli bir kişi maşından düşüb tələsik binaya girdi".

Növbəti kəsişən küçə Voroşilov adlansa da, bu sovet marşalını at belində burdan keçən görən olmamışdı. Onu heç sinfimizin Elbrusları da tanımırdı, nə Quliyev (Allah rəhmət eləsin), nə də Mirturabov, çox da ki, burda yaşayırdılar. Amma Abbas əmi yaşadığı küçənin adını daşıdığı adamı tanıyardı (Tağıyev Abbas 1950-ci ildə, 20 yaşında rəhmətə gedən Roza bibimin əri olub). Çünki uzun illər partiya-təsərrüfat sahəsində işləyib, belə adamlar Voroşilovu tanımamış olmazlar. Ağdam Dram Teatrının sol böyrü, "Lenin yolu" qəzetinin redaksiyası və rayon prokurorluğu binasının qabağından keçən, 28 Aprel küçəsindən başlayan "Voroşilov"un harada qurtardığı yadıma düşmür, trayektoriyasının yarısını xatırlayıram: "28 Aprel"dən yola çıxan "Voroşilov" "Lenin"dən aldığını alıb, "Frunze"dən götürdüyünü götürüb, "Əzizbəyov"dan keçib sonra haracan gedirdi, ta bilmirdim.

Bu bolşevik, kommunist adlarına fikir vermə, buralar nəinki kommunizmdən, sosializmdən də uzaq yerlər idi.

Öz yolunla yüz metr də gedib sağda bankın binasına, onunla üzbəüz isə Zıbıgilin evinə çatırdın. Məndən üç sinif yuxarı oxuyan bu oğlanı hamı Zıbı çağırdığından elə bilirdim, adı, həqiqətən, belədi. Bir dəfə salam verib "Zıbı, nətərsən?" soruşanda az qalmışdı məni öldürə. Sən demə, bu adın şəhər uşaqları arasında nəsə pis mənası varmış. O hadisədən sonra ta ona salam vermədim. Elə bütün günü atasının maşınını yuyurdu, ümid eləyirdi ki, atası verəcək sürməyə, amma vermirdi. Düz də eləyirdi, heç Zıbıya da maşın verərlər?

Növbəti kəsişən küçənin sağında təzə "qostinitsa", solunda isə Ukan əmigilin (ona niyə Ukan deyirdilər, bilmirəm) məhəlləsi - Maksim Qorki küçəsiydi. Bu adı məhz bu küçəyə verən sovet

məmuru Maksim Qorkinin “Günəşin uşaqları” pyesini oxumuşdumu, Ukan əminin bizim sinifdə oxuyan “Dəli” ləqəbli oğlu Ədaləti görmüşdümü, kamera yamayan, maşın yağı dəyişən neçə-neçə uşağa salam vermişdimi, Qorkinin pyesindəki çilingər Yeqoru “Dəli”nin əmisi oğlu Yeqora bənzətmişdimi? Əgər cavab “Yox!”dusa, onda niyə bir heylə küçəni qoyub Qorkinin adını bura qoymuşdu? Nə biləsən! Bizimlə oxuyan, oxuyan deyəndə dərsə gedib-gələn (Bunun heç nəyə dəxli yoxdu. Əsas odu ki, Dəli yaxşı oğlanıydı və mən onunla dostluq edirdim) Dəli qoy Qorkinin tamaşasına baxsın, bizsə yolumuza davam edək.

Soldakı birmərtəbəli binanın hər pəncərəsindən bir səs gəlirdi: piano, qarmon, tar, kamança, skripka, başqa səslər. 1 saylı Şəhər Musiqi Məktəbiydi, el arasında Laura müəllimənin məktəbi deyirdilər. Mənim skripka, atamın tar təkidi bu sətirlərin müəllifini hər ikisindən qoydu. Görünür, uşağı bəzən məcbur eləmək lazımdı! Elə heyifsilənirəm ki... indiki ağlımla atam məni lap kontrabas sinfinə qoysaydı da, gedərdim.

Qabağa beş addım da at, bağçamıza çatacaqsan! İkimərtəbəli uşaq bağçamız hündür ağaclar əhatəsində bir cənnət guşədi. Buradakı nizam-intizamı, Mina, Brilyant kimi müəllimələri unutmaqmı olar? Taxta peçenye, kisel, südlü kaşa... Burda ən zəhləm gedən şey günortalar adamı zorla yatızdırmaqları idi. Bir dəfə Mina müəllimə dirənmişdi ki, yatmamısan, gözünü yalandan yummusan. O belə dedikcə mən gözümü daha da bərk-bərk sıxırdım. Sən demə, yatmaq görüntüsü yaratmaq üçün gözü möhkəm sıxmaq yox, yavaşca yummaq bəs edirmiş. Belə kələkləri sonralar öyrənəcəkdim... Ən xoşuma gələn isə yolun o üzündəki Lenin bağına oynamağa getməyimiz idi. Əl-ələ tutub cərgəylə yolu keçəndə maşınların dayanıb bizə yol verməsindən xoşhallanırdım.

Bağçanın divarı qurtaran yerdən başlayan Musəvi küçəsi Sarı Təpə məhəlləsini keçib Qiyaslı kəndinəcən uzanırdı. Bütün günü əlindən kitab düşməyən Əjdərin budkası fotoatelyenin yanında balaca görünürdü. Uşaqlıq şəkillərimin çoxunu burda çəkdiriblər. Elə bir yaşımdakını da. Ağlamağım kəssin deyə fotoqrafın verdiyi konfet də eləcə əlimdədi, yeməmişəm.

“Kişi iki şey haqqında danışmaz: bir sevgiləri, bir də ağrıları”. Ştirlits rolunun ifaçısı, məşhur rus aktyoru Vyaçeslav Tixonov son müsahibəsində belə demişdi – bunu növbəti cümləyə keçid üçün yazdım. Səbəbini yaza bilməyəcəyim həyəcan dolu unudulmaz anlar yaşadığım bu küçənin başlanğıc nöqtəsində südsatan Lətafət xalanın dükanı, adətən, səhərlər açıq olurdu. İlk dəfə “smetan” adında ağartını burdan almışdıq. Xıdırlı arvadlarının satdığı qaymağa oxşasa da, ondan deyildi, elə smetan idi. Dolu bədənli Lətafət xalanın mülayim səsi qulağımda, mərhəmətli sifəti gözlərimin önündədi. Güclü olmağı ağır süd bidonlarını rahatca götürüb-qoymağından görünürdü.

***

Lenin küçəsi “dördmərtəbə” deyilən binanın tinində qurtarırdı. Burda yol V hərfi kimi haçalanırdı: solla Ceyran bağı, sağla yan-yana sıralanmış dükanlara sarı gedirdin – hər ikisi məşhur Ağdam bazarına aparırdı. Ümumiyyətlə, adama elə gəlirdi ki, şəhərdə bütün yollar bazara uzanırdı. Ağdam bazarı məbəd deyildi, elə bazar idi, bütün yolların apardığı bazar. Heç bilmirəm yazının bu yerində Tengiz Abuladzenin “Tövbə” (“Pokayaniye”) filmindəki məşhur “Bir yol ki, məbədə aparmır, nəyə gərəkdi?” kəlamı nədən yadıma düşdü...

Kaş elə bütün yollar məbədə aparaydı!

...Qışdakı bayramlarda şəhərin “Dijurnu” deyilən növbətçi mağazasında donmuş okean balığı, soyuduculardan təzəcə çıxarılan üzümü almağa növbələr olurdu. Bu mağazanın müdiri Nadir İsmayılov Ağdama sevgisini hələ sonralar, dava başlayanda göstərəcəkdi, varını, üstəlik, sağlamlığını qoymaqla... İstər “Obpit” deyilən idarənin müdiri (İctimai İaşə Birliyi), istərsə də Ağdam Rayon İcra Hakimiyyətinin başçısı kimi...

*1993-cü ilin yazında dövlət müşaviri Arif Hacıyevlə Ağdama gəlmişdik. Köməkçisi otağını açıb bizə yer göstərmişdi ki, Nadir müəllim gələnə qədər gözləyək. Stolunun üstündə az qala barmaq qalınlığında toz vardı – icra başçısının qapısı günlərlə açılmırdı, çünki o, otaqda yox, əsgərlərin yanında olurdu. Mənim tanıdığım ağdamlılarda belə bir əminlik var ki, o vaxt başçı dəyişməsəydi və yerli batalyonlar tərk-silah edilib əvəzinə "milli ordu" adında Surət Hüseynova tabe başıpozuq dəstələr yeridilməsəydi, şəhərin işğalı mümkünsüz idi. "Əl borcu verilən" şəhəri 17 ildir qaytara bilmirik. Lənət Şeytana!*

...Burdan sıra mağazalar başlayırdı: Elmanın çeklə satılan "vneştorq mallar" mağazası, Bəhlulun qızıl mağazası, güllə atdığımız tir, 3 qəpiyə ağ, 5 qəpiyə rəngli su süzən avtomat budka, İnzibatın "xoztovar" dükanı, Zahidin dərzixanası, Rövşənin mebel mağazası, Samayanın parça mağazası... Sıraya Tələtin 237 saylı apteki son qoyurdu. Tindən sola burulub bazarın qabağındakı maşın basırığına, siqnal səsinə əhəmiyyət vermədən məktəbə girirdim.

***

Məktəbdən çıxanda tələsmirdim deyə ta Lenin yox, 28 Aprel küçəsiylə qayıdırdım. İki yol arasındakı "Gopanın çayxanası" adlanan yerə "Manıslar bağı" da deyirdilər, şəhərin musiqiçiləri bura yığışırdı, Qədir Rüstəmovdan başqa. Çayxananın o biri yanı "Məhsul" cəmiyyətinin idman zalıydı. Sinfimizin bəzi uşaqları bura güləşə gəlirdilər. Bir dəfə Muxtarov Elşad Belarusdan lap bürünc medal da gətirmişdi, beşinci sinifdə oxuyurduq, səhv eləmirəmsə. Yarışdığı Baranoviç şəhərindən elə ağızdolusu danışırdı ki, deyirdin bəs bütün şəhərin kürəyini yerə vurub gəlib. Bu məktəbin ən məşhur idmançısı Ceyhun Məmmədov oldu. Sonralar yeddi-səkkiz dəfə Avropa çempionu oldu, mən bilən, elə o qədər də dünya çempionu.

...Günaşırı Tağı dayının Lenin bağının girəcəyindəki kitab mağazasına dəyməsəydik, sanki kitablar bizdən küsərdi. Bağın solunda, iki yol arasındakı "Çay evi"nə xüsusi hallarda gəlirdik. Onun birinci mərtəbəsində xəngəl verirdilər. Şuşalılar inciməsin, buranın xəngəli heç Şuşadakı "Qaya" kafesində süzülən xəngəldən geri qalmırdı. Yeri gəlib, qoy yazım!

*Ağdamlılarla şuşalıların bir-birinə xüsusi münasibəti var: dünyada 1001 bağlantısı olan belə iki şəhər az tapılar. Doğmalıqdandı, nədəndi bilmirəm, qarşılıqlı atmacalardan o qədər məzəli söhbətlər yaranırdı ki, dəftər götürüb yazan gərək. Məsələn, kənddə tut ağacının altında nərd oynayanda dayımın əslən şuşalı olan atamla belə bir zarafatı yadımdadı: "O qədər sərçəni boyayıb bülbül adına qalalılara satmışıq ki". Bir şuşalıdan da bu zarafatı eşitmişəm: "Ağdamlıya salam verəndən sonra barmaqlarını sana gör, əksik deyil ki".*

"Çay evi"ndə səhərlər südlüaş, günorta "bilinçik" də tapa bilərdin, əgər qalardısa. İkinci, üçüncü mərtəbələr çayxana idi. İkinci mərtəbədə "futbol variantı" yığılırdı deyə səsli-küylü olurdu, amma üçüncü mərtəbə elitar müştərilər üçün idi, yəni çayı mürəbbə, ləbləbi və sair bu sayaq şeylərlə verirdilər. Məşhur alim Xudu Məmmədovun ideya və layihəsi əsasında tikilmiş "Çay evi" raykom Sadıq Murtuzayevin şəhərdə bina elədiyi çoxsaylı maraqlı tikililərdən idi, şəhərin simvollarından birinə çevrilmişdi. Onun çay daşından tikdirdiyi bulaqlar şəhərə xüsusi gözəllik verirdi. İşlədiyi dövrdə yerli əhaliyə o qədər doğmalaşmışdı ki, indi də çoxları Sadıq Murtuzayevi ağdamlı bilir.

...Məscidi 1868-ci ildə əvvəl başqa yerdə tikmək istəyiblərmiş. Qazıblar, çoxlu ilan çıxıb. Ağsaqqallar seçib, indiki yeri məsləhət biliblər. Sovetin vaxtında regionun işləyən tək məscidiydi. Uşaq vaxtı məhərrəmlikdə nənəm məni bura gətirirdi. Uşaqları böyüklərin göz yaşı qədər kədərləndirən heç nə yoxdu. Arvadlı-kişili hamı ağlaşırdı, hər yanda qara parçalar qorxunc hisslər doğururdu. Kürəyinə zəncir vuranların iniltisi ürək parçalayırdı. Nənəm nə qədər vacib əməl olmasından danışsa da, həmin günlər bura gəlmək istəmirdim. Məscidi azan səsiylə sonralar sevəcəkdim, Allahı qəlbimdə sonralar duyacaqdım.

...Üçmərtəbəli univermaq Ağdamı bir qədər də şəhərləşdirmişdi. Daha bizdə də Moskva, Bakı kimi hər şeyin bir yerdə satıldığı böyük mağaza vardı. Buranın ən maraqlı şöbəsi oyuncaq satılan yer idi. Bir az da böyüyəndən sonra ona bitişik kafe bizi cəlb elədi. Mövsüm ərzində vur-tut yığdığımız 150-200 kilo pambığın pulunu alan kimi özümüzü verirdik bura, böyük qonaqlıq düzənləyirdik: limonad, tort, çay, kofe, kakao – qatıb-qarışdırırdıq. Özümüzü kinolarda gördüyümüz böyük şəhərlərin uşaqları kimi hiss edirdik.

...Univermağın tinindəki yol gedib mətbəəyə dirənirdi. Elşən Əliyevi (indi "Azərbaycan işıqları" qəzetinin baş redaktorudu), Salman Babayevi axtaranda burda tapırdıq. Üst-başları mətbəə rəngində, yəni qapqara olurdu. Gözləyirdik, işi bitirib, əl-üzlərini yuyurdular, sonra çayxanaya gedirdik, şəhərin yazı-pozu adamlarının söhbətlərinə qulaq asmağa.

...Köhnə mehmanxananın tinindəki mağazaya "Qızıl Mamed"in dükanı deyirdilər. Sonra şəhər meydanı gəlirdi. Axşamlar şəhər əhli bəzənib-düzənib çıxırdı gəzintiyə, kimi teatra, kimi kinoya, kimi bulvara. Kimi Məşədi Abbas küçəsiylə üzü poçta, "Dostluq" kinoteatrına, "Üzümçülər evi"nə sarı, kimi də elə düz keçib, yanğınsöndürmə stansiyası, şahmat məktəbini ötüb son dəbdə tikilmiş ikimərtəbəli restorana gəlirdi. Buranı Allahverdi Bağırov işlədirdi. Adamlar birinci mərtəbədə Gorus pivəsi içir, Bakı sosiskası yeyirdi. İkinci mərtəbənin stol-stulu, boşqab-nəlbəkisi, pərdə-tülü buranın ciddi yer olmasından xəbər verirdi. Ağdamın işgüzar adamları başqa yerlərdən gələn hörmətli qonaqlarını bura gətirirdilər. O vaxt danışırdılar ki, Allahverdi ağdamlılar haqda nalayiq danışan bir müstəntiq adaşını çağırtdırıb elə burdaca mitilini atıbmış, qələtini başa salıb buraxıbmış. Dava başlayanda rəhmətlik buranı əsgər yeməkxanasına çöndərmişdi. Bəzən avtobusla əsgərlər gəlib burda yeyir, bəzən də bişirib səngərlərə hazır yemək aparırdılar.

...Restorandan sonra qonağı olmadığım, tanımadığım adamların evləri gəlirdi. Sonrakı ikimərtəbəli sıra evlərdə bizim fizika müəllimimiz Kamal Qaradağlı (məşhur diktor Aydın Qaradağlının əmisi oğluydu) yaşayırdı. Səliqə-sahmanlı geyimi, mədəni davranışıyla Qori seminariyasının müəllimlərini xatırladırdı. Çörəksatan Gülxar xala da burda yaşayırdı. Oğlu Akif Rüstəmov sonralar jurnalistika fakültəsində mənə dərs deyəcəkdi.

...Şuşa dayanacağına çatmadan, Yolçunun ərzaq dükanına dəymədən yolun ortasındakı dairədən sağa burulub küçəmizə girirəm. Köhnə hamamın açıq pəncərəsindən bayıra axan hamam qoxusu burnuma dəyir. Qarşımdan "uçilişa"nın qızları keçir, ta saçımı qarışdırmır, üzümə gülmürlər. Böyümüşəm. Balaca uşaqlar milis küçəsində futbola bir azdan başlayacaqlar. Sima xalanın oğlanları Rəşad, Aqşin gir atıb-tutur, əzələ bərkidirlər. Göz həkimi Cəfər çəpər qonşumuz Elza müəllimənin qızı Elladayla evlənib. Yaşıl "Jiquli"sini ərklə yanpörtü saxlayıb. Təzə yeznədi, başqası belə maşın saxlaya bilməzdi.

...Göy üzünün qapısından keçirəmmiş kimi səma rəngli darvazanı açıb həyətimizə girirəm!

***

İndi nə o küçələr, nə o tinlər var... Yollar da yoxdu, yoldakı izlər də... İndi bu yolları alaq otları, qanqal, tikanlı kollar tutub. Hər səhər bu kolların yarpaqları şəhərin xarabalıqlarını dolaşan kabusun nəfəsiylə titrəşir...

İndi nə o küçələr, nə o tinlər var... Yollar da yoxdu, yoldakı izlər də... Tək mənim izlərim durur... Mənim körpə izlərimi – yaddaş ləpirlərimi dünyanın heç bir gücü silə bilməz, ölümdən savayı.

Özün ki, şahid oldun! Səni bu ləpirlərlə gəzdirmədimmi?

**On beşinci esse**

# Xəyal memarı

Mən Ağdamı yenidən tikəcəyimizə çox inanıram. Bitməyən müharibə yoxdu, bu dava da bitəcək. Dağılan şəhər ev-ev, tin-tin, küçə-küçə tikiləcək. Parklar, bağlar, yollar salınacaq. Uşaqlar yenə məktəbə, atalar, analar işə gedəcək, karusellər yellənəcək, xəzəllər süpürüləcək, küçələrə su səpiləcək... Gecələr yağış damlalarının evimizin damında bəstələdiyi simfoniyanın notlarını səhərlər günəş bütün şəhərə yayacaq. Unudulacaq bütün kədərlər. Şəhər yeni sevgi dastanı yaşayacaq...

Heç bilirsənmi Ağdamı xəyallarımda neçə dəfə tikmişəm?! Uşaq vaxtı qonşu Şahinlə həyətimizdəki qum təpəciyində şəhər salırdıq – yolları, tunelləri, evləri olan şəhər. Hər dəfə də dağıdıb əvvəlkindən daha yaxşısını tikirdik. Bax o qumluqdakı kimi hər gecə dünənki şəhəri dağıdıb yenisini tikirəm.

***

Mənimlə Ağdamı tikməyə gedərsənmi? Gedərsən, bilirəm! İnanıram sənə, səninlə canbir qəlb olmadımmı bu 15 yazımda – əsir yurda 15 səyahətimdə...

Birinci nədən başlayarıq? Şəhərin bərpası komissiyasını yaratmaqdan. Sonra bu komissiya üzvlərini müharibədən sonra yerlə yeksan olan Varşavanın necə tikildiyini öyrənsinlər deyə Polşaya göndərərik. Varşava foto, video arxivlər, adamların yaddaşıyla yenidən əvvəlki görkəmində tikilib, binaların rənginə qədər bərpa ediblər. Yaxşı təcrübədir, öyrənərik.

Yadıma ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Metyu Brayzanın Ağdamın işğalının 15-ci ildönümü ilə bağlı "Hesabat Mirşahinlə" verilişində söylədikləri düşür: "Ağdamda gördüklərim məni dəhşətə gətirdi. Böyük bir şəhər xarabazarlığa çevrilmişdi. Mən özüm polyakam. Ağdamın işğalı mənə İkinci Dünya müharibəsindən sonra Varşavanın düşdüyü günü xatırlatdı. Faşistlər Varşavanı darmadağın etmişdilər".

Başqa təcrübələr də var, baxarıq.

Bərpa işlərini şəhər məscidindən, İmarət, Qarahacılı qəbiristanlığından başlarıq. Şuşa yolunun üstündəki abidənin yerində Qarabağ müharibəsi qurbanlarına əzəmətli heykəl ucaldarıq. Elə uca abidə ki, Bərdə yolu gələndə Uzundərədən, bir də Şuşa yolu gedəndə Əsgərandan görünsün. Ağdamın şəhid olmuş 6 min adamının adını qranit lövhəyə yazarıq bir-bir. Bir də şəhərin baş küçəsi boyu bir neçə uçuq divarı yadigar saxlayarıq. Vəssalam! Müharibəni xatırladacaq daha heç nə lazım deyil! Savaşla yaşadığımız yetər, onun bizə yaşatdıqları yeddi arxa dönənimizə də bəsdi. Təzələnmiş şəhərimizdə yeni həyata başlarıq!

***

Xahiş edəcəm bizi küçələrə ad qoyma komissiyasına yazsınlar. Küçələrə ağac adlarını qoyarıq. “28 Aprel” olar Palıd prospekti, əvvəlindən axırınadək palıd əkirik. Kommunist küçəsini Küknar edərik. “Süleyman Sani Axundov” olar Vələs, “Əzizbəyov” Şam, “Voroşilov” Gilas, “Maksim Qorki” Alma, “Lenin”in əvvəlki çinarlarını bir də əkərik, olar Çinar küçəsi. “Budaqov”u Heyva, “İslam Hacıyev”i Söyüd adlarına dəyişərik. Şuşa dayanacağındakı məşhur armuddan o yana armud əkərik, Armud küçəsi deyərik. “26 Bakı Komissarı”nın sağ-solunda şabalıd əkərik, çiçəkləyəndə bilirsən nə gözəl görünür? Kiyevdə görmüşəm, onlar “kaştan” deyirlər şabalıda, şəhərin simvoludu.

Mənim “Əli İbrahimov” küçəm Gilənar adlanacaq. Heç gilənarı küçə boyu çiçəkləyən görmüsən? Bəs al-qırmızı gilənarlı yüzlərlə ağacı necə? Küçəmiz çiçəkləyəndə gələrsən bizə! Bir də gilənar yetişəndə gəl, yığım sənə də verim...

İmarətdə Lerikdən gətirdiyimiz Dəmirağac əkib oranı qoruq edərik. Göygöldən Eldar şamı gətirib Lenin bağının yerində yeni bağ salarıq. Qozlu bağa qoz ağaclarını Ordubaddan, Zaqataladan, Fındıq küçəsinin fındığını Qəbələdən, Narın narını Göyçaydan, Almanın almasını Qubadan, qovağı, vələsi İsmayıllıdan, ənciri Abşeron kəndlərindən göndərəcəklər dostlar. “Məşədi Abbas” küçəsinə akasiya əkərik, özü də Lənkərandan gətirərik, çiçəkləyəndə hər yan Lənkəran akasiyasının ağ-çəhrayı rəngini alar. Xaricə gedən biznesmenlərə deyərik oralardan da yaxşı ağac tingləri alıb gətirərlər, yeni-yeni küçələr salarıq. Bitəcək, narahat olma, burda hər ağac bitir!

***

Ağdam bazarında dünyanın hər yerindən gül toxumu gətirib satdırarıq. Hamı alar. Həyətlər, küçələr, bağlar çiçəklə dolub daşar. Hər məhəllədən bir gülün ətri gələr. Fəvvarələrin içində su zanbağı əkərik, yaşıl yarpaqları, ağ gülləri suyun üzünə çıxar.

Aeroportu tez tikmək lazımdır. Əvvəllər adına “alverçi”, “zavmaq”, “tovaraved” dediyimiz neçə-neçə biznesmenimiz Dubaya, İstanbula, Moskvaya, Şanxaya birbaşa uçacaq. Yanındakı “Xəlilin stalovası”na mütləq əl gəzdirmək lazımdı. Gələn turistlər Xəlilin tabakasını yeməmiş getməsinlər.

Çaxır strateji məhsuldu, zavodları təcili bərpa edərik. “Ağdam” çaxırını ta rus “ağdamşik”ləri yox, fransız xanımları üçün istehsal edərik, konyakı da ingilis lordlarına satarıq. Limonadı müsəlman ölkələrinə ixrac edərik, onlara spirtli içki olmaz.

Şellidə nar zavodu açarıq. Göyçaylılara göstərərik nar necə olur.

Ta pambıq əkmərik, əvəzində taxıl becərərik. Mərzilidən üzü Haramı düzünə elə bir taxıl zəmisi salarıq ki, sorağı Qazaxıstana çatsın, təcrübəmizi öyrənməyə gəlsinlər. Amma Mərzilidəki üzərlik təpələrinə toxunmarıq, qalar.

*...Uşaq vaxtı Mərziliyə qonaq gəlmişdik. Bir kömbə çörək götürüb nənəmlə üzərlik yığmağa çıxmışdıq. Nənəm üzərliyi qoparıb yerinə çörək qoyurdu. Deyirdi ki, üzərliyin yerini boş qoymazlar.*

Bax həmin yerləri saxlayarıq, üzərlik olan yerə başqa şey əkməzlər...

***

...İmarətdəki stadionun tikintisini yubatmaq olmaz. “Qarabağ” öz meydanında oynamalıdı. Gələnilki Avropa kuboklarınadək hazır olmalıdı. Qonaqları öz aeroportumuzda gül-çiçəklə qarşılayarıq. Oyundan sonra apararıq Şuşaya, gəzdirərik, Cıdır düzündə şəkil çəkdirərlər, yedirdib, içirdib yola salarıq.

...Kəhrizlərin bərpasını başı çıxana tapşırmaq lazımdı. Naşı adama etibar etmək olmaz. Şəhərə suyu yenə Qara Qayadan çəkərik, əvvəlki kimi.

...Memarlardan xahiş edərik çoxlu ev layihəsi cızsınlar, seçim bol olsun. Evlər qəşəng olmalıdı, hər kəs öz zövqünə uyğun layihəni seçər. Hər kəsin evi memarlıq ənənələrinə uyğun tikilsin, burda özfəaliyyətə yer yoxdu. Amma evlərin hamısının damını ağ dəmirdən vurdurarıq ki, bir rəngdə olsun. Yuxarıdan ağ damlı Ağdama baxan Allahın da üzünü ağ edək!

...“Çay evi”ni əvvəlki görkəmində tikərik. Çertyojları tapmasaq, Sadıq Murtuzayevdən alarıq, onda qalmış olar. Nə təhər idisə, elə də tikərik, ancaq əvvəlki yerində yox. Məsciddən bir az aralı.

...Məscidi yaxşı təmir edərik. Ustaları İstanbuldan, Səmərqənddən gətirərik. Məsciddə azanı yenə Hafiz oxuyar.

...Çörək Muzeyinə qaçqınlıq illərinin yadigarı olan çörəkləri eksponat kimi düzərik. Ərəblərin, almanların, türklərin göndərdiyi yardım unlarını qalın şüşə altında nümayiş etdirərik. Gələcək balalar, nəvələr, nəticələr elin dar gününü unutmasınlar...

...Xalça fabrikini ən son texnika ilə təchiz edib, Qarabağ gəbələrinin kütləvi istehsalına başlarıq. Abı xala, Xuraman, Bəhruz, Hüseynov Vaqif kimi “tovaraved”lərimizin təcrübəsi böyükdü. Adına “Qorpo” deyilən Ağdam Şəhər Pərakəndə Ticarət Birliyinin sədri olmuş Müseyib Məcidov yeni biznesmenləri toplayar başına, dünyanın dörd bir tərəfində erməni, İran xalıları deyə satılan gəbələrimizin adını qaytarmaq üçün ixracı sürətləndirərlər.

...“Konzavod”a strateji obyekt kimi baxmaq lazımdı. Qarabağ atının şöhrətini qaytarmalıyıq. Növbəti olimpiadaya öz atımızla gedərik. Neçə milyonasa kənardan at almaq ayıbdı. Bir azdan özümüz başlarıq ora-bura at satmağa. Minsk qrupu ölkələri prezidentlərinin hərəsinə bir at bağışlayarıq. Yazıqlar bu illər ərzində əldən-ayaqdan getdilər.

...“Natəvan” qızlar bayramını, “Xarı bülbül” festivalını bərpa etdirərik. Polad Bülbüloğluna deyərik gəlib təşkil eləsin. Ta Moskvada işlədiyi bəsdi. German da ona kömək eləyər.

...Dostlar turist firmaları açar. Gələn qonaqlara Şahbulaqda Koroğlu qalasını, Ağdamın kurqanlarını, Füzulidə Azıx mağarasını, Əsgəran qalasını, Vəngdə Qandzasar, Kəlbəcərdə Dastagir, Xudavəng alban kilsələrini, Şuşa qalası, Turşsu, Qırxqız yaylası, min-min bulaq, daha nə bilim nələri göstərərik. Dünyanın hər yerindən şəhərimizə turistlər axışar.

...Şuşa, Kəlbəcər, Gülablı sanatoriyalarında adam əlindən tərpənmək olmaz. Buraları ruhların dincələn, azad olan yerinə çevirərik.

***

Sən də gələrsən!

Gözləyəcəm Səni! Bu yazılarımla sənə çox acılar yaşatdım!

Bir az dincələrsən...

Bilirsən, bura daha ruhlar şəhəri deyil. Burdakı ruhlar ilahi bir əfsunla öz bədənlərinə döndü. Xatırlayırsanmı, yazmışdım: “Yaxşı bax bu külə, çünki gələcəyin bu küldən yoğrulacaq...” Allah onları yanmış ruhların külündən yoğurdu, ağızlarına nəfəs üfürdü...

Həyətimizdəki kötükdən pöhrələyən cavan tut ağacının yarpaqlarını daha kabus nəfəsi əsdirmir...

Oğlumdu, tut çırpır, şipşirin...

Yuxu kimi şirin tut...

**Fevral – may 2010**

**Son söz yerinə**

# Qiyamətə qalmış 4 dəqiqə

Gənc dostum Vahid Qazi! "Ruhlar şəhəri"ni ərsəyə gətirdiyin üçün sənə təbrikdən çox təşəkkür düşür. Bu kitab yumruq boyda ürəkdə Qarabağın, Ağdamın özü boyda kədər gəzdirənlər üçün, qəlbi yurd həsrətilə çalın-çarpaz dağlanmış, amma hər an ağdamlı kimi ucadan-uca qürur hissi yaşayan və yaşadan, Ağdamı qibləgahı sayan yüzlər, minlər, onminlər üçün həm təsəlli, həm də Ağdamın, bütöv Qarabağın azadlığına bir çağırışdır. Səni əmin etmək istəyirəm ki, bu çağırışa qonşulanların birincisi mən olmaq istərdim, mənim kimilər isə minlərlədir…

Kitabının ayrı-ayrı fəsillərini mətbuatdan oxumuşam. İmzanı tanıyırdım, şəxsən özünü yox (hər ikimiz Ağdamda 1 nömrəli məktəbi bitirmişik, amma aramızda xeyli yaş fərqi var). Qələminin sadəliyinə və gücünə, janr orijinallığına, doğma torpağa olan məhəbbətinə, bir də intellektinin miqyasına heyran oldum. Bir kitabın təqdimat mərasimində (sağ olsun hörmətli yazarımız Laura Cəbrayıllı) yaxınlaşıb Səninlə tanış oldum. Yazıların haqqında fikirlərimi söylədim. Toplayıb, ümumiləşdirib kitab kimi çap etdirəcəyini dedin.

İndi həmin kitaba son söz yazıram.

Əziz dostum! Sən məni (tək mənimi?..) xəyalən Xudu Məmmədovun, Famil Mehdinin, Fred Asifin, başqalarının nigaran ruhları dolaşan, həqiqi Apokalipsis yaşamış qibləgahım Ağdama apardın. Sən məni Ağdamın mərkəzində, Uzundərədə 5 min igid əsgərin uyuduğu qəbiristanlığı ziyarət etdirdin. Sən məni 26 fevral 1992-ci ildə əzizlərinin meyitlərini axtaran Xocalı əhlinin naləsinə, Ağdam Mədəniyyət Evinin, məscidin qarşısındakı meydanlara apardın. Cəmi iki həftədən sonra tüstüsü, alovu ərşə qalxan Ağdam Ticarət Mərkəzinin qənşərində dayandığım (mərhum şair Famil Mehdi ilə) yerlərə apardın (O vaxt duya bilmədik: mənim, Famil Mehdinin alovu daha yüksəklərə qalxmışdı, yoxsa yanan Ağdamın?..).

Bir az nikbin notda danışsam (nikbinliyə yer qalıbmı?..), sən mənə Ağdamın düz mərkəzindəki Məhəbbət bulağından su içmək fürsəti yaratdın (bu bulaq 50-ci illərin bulağı idi, itmişdi, mərhum Aydın Quliyev bizə qaytardı, yenə qayıdacağına ümidim var…). Onu da deyim ki, Hafizin azan yazılmış kasetini də ilk dəfə o mənə bağışlamışdı.

Sən məni 50-60-cı illərdəki bütün əlyazmalarımın itdiyi Voroşilov (sonralar Xudu Məmmədov) küçəsindəki evimizə apardın (bu evdə mənim itkilərim tək əlyazmalarım olmadı, adamlar oldu, adamlar…). Sən məni dünyanın ən əzəmətli universitetlərinin – Berkli, Vaşinqton, Pekin, Toronto, Ziqen və başqalarının (*Rafiq müəllim bu universitetlərdə mühazirə oxuyur. ABŞ-ın Corciya Dövlət Universitetinin, Almaniyanın Zigen Universitetinin, Şimali Kiprin Yaxın Doğu Universitetinin və Təbriz Universitetinin professorudur* – redaktor) auditoriyalarından daha uca tutduğum 1 nömrəli məktəbin 2-ci mərtəbəsindəki 10 "a" sinfində oturtdun. Süsən müəllimə ədəbiyyat dərsi aparırdı, mən şagird idim…

Ağdam Ulu Tanrının qüdrətindən yaranmış, Azərbaycana, böyük Türk dünyasına, bütün dünyaya böyük şəxsiyyətlər, sənət və elm adamları bəxş etmiş bir diyardır. 1998-ci ilin payızında ABŞ-da, Atlanta şəhərində Corciya Dövlət Universitetində dərs deyərkən bir mötəbər tədbirə dəvət olunmuşdum. Hava isti olduğundan tədbir böyük bir həyətdə keçirilirdi. Görüşdə dünyanın onlarla ölkəsindən (ABŞ, Almaniya, Əlcəzair, İran, Kanada, Hindistan və s.) alimlər, praktiklər, mütəxəssislər iştirak edirdi.

Tədbir axşam saat 20-dən tutmuş səhər saat 5-dək davam elədi. Dünya xalqlarının musiqisindən nümunələr təqdim olunurdu. Qəflətən bir qüvvə məni odu ilə yandığım, illər boyu həsrət qaldığım Qarabağ, Ağdam göylərinə apardı. Bu, Mənsum İbrahimovun səsi idi. Çevrilib monitora baxanda Mənsumu gördüm, Cabiri gördüm, Nəzakəti, Aygünü gördüm. Bu musiqi fraqmentini "Sən bir nəğmə, mən bir nəğmə" verilişindən bir iranlı professor kompüterə yazmışdı və o tədbirdə səsləndirirdi. Saydım, on barmağım kifayət eləmədi, düz 11 dəfə həmin fraqment təkrar olundu. Fəxr etdim, qürur duydum Mənsum, onun dostları üçün, Qarabağ üçün, Azərbaycan üçün. Mənim azərbaycanlı olduğumu bilənlərin bir sualı vardı – bu ecazkar səs hardandır? Torpaqdan, sudan, yoxsa… Tanrıdan?

Sənin “Playing Baseball on the Chessboard: Thoughts about Genocide” (Şahmat taxtasında beysbol: genosid düşüncələri) adlı esseni internetdə gördüm. Qarabağ haqqında oğlunla dialoq çox ibrətamiz və kəskin idi. Məni həm də seçdiyin janr və səlis ingiliscə valeh elədi. O yazını dünyanın müxtəlif ölkələrinə, xüsusən tanıdığım alimlərə, sənət adamlarına göndərdim. Bu yazının yayılma sürəti, ona verilən qiymətlər məni çox sevindirdi. Qarabağ, Ağdam, Xocalı faciəsinin tanınmasında ağdamlı müəllifin (elə Ağdamın da) zəhmətinin dünyada qiymətləndirilməsindən qürur duymamaq olarmı?

Azərbaycan da dünyanın bir parçasıdır. Bizim dünyamız qalaktikalar içərisində balaca bir gəmidir. İndi bu gəmidə böyük bir hüzursuzluq var. İnsanlar bir-birilərini eşitmək istəmirlər. Adəmdən bu yana yalan, şər, haram üstündə duran bütün qarşıdurmalarda İblisin dəst-xətti açıq görünür. Dünyanın mənəvi entropiyası çoxalıb. Entropiya artanda dağılma ilə nəticələnir. Bircə alternativ var. Bu alternativ də odur ki, insanlar bir-birilərini eşitməyi bacarmalıdırlar. İnsanlar deyəndə tək fərdləri yox, xalqları da nəzərdə tuturam. Dünya heç vaxt qiyamətə bu qədər yaxın olmayıb. İnsanların borcu odur ki, dünyanı bu təhlükədən qurtara bilsin. Bir ölkənin miqyasında çətin ki, dünyanın xilası üçün nəsə etmək mümkün olsun.

Amerikalı fiziklər mücərrəd bir saat düzəldiblər, adı “dünyanın axirət saatı”dır. O saatda 12-yə 5 dəqiqə qalıb, 23:55. Bu 5 dəqiqədə gəmini batırmaq da, etibarlı bir yola çıxarmaq da olar. Bu gün əllərdəki silahlar dünyanı 500 dəfə dağıtmağa kifayət edər. Elm, əfsuslar olsun ki, insandan daha çox müharibələrə və təbiətin məhvinə xidmət edib. Enerjimiz tükənib, bütün müharibələr enerji uğrundadır. Enerji mənbəyi tapmışıq, bəs onu hara istifadə edirik? Atom, hidrogen bombası hazırlamağa. Ümumibəşəri əxlaqımız yüksək olsaydı, gəmimizdə bir hüzur olardı. Əxlaqımız isə tısbağa sürəti ilə inkişaf edib.

Sənin kitabının əlyazmasını oxuyub qurtarandan sonra bu qənaətə gəldim ki, indi həmin saatın böyük əqrəbi bir dəqiqə irəli çəkilməlidir: 23:56.

Mən 1989-cu ildə bir yazımda göstərmişdim ki, Qarabağ problemi SSRİ-nin dağılmasına aparan yoldur. Qloballaşan dünyamızda bu tarixdən ibrət götürmək lazımdır. Yer adlı kosmik gəmimizdə pozulmuş ilahi düzüm nizamlanmalıdır, insanın yaşaması üçün tövbə, barışıq və anlaşmadan başqa yolu yoxdur. Qiyamətə qalmış 4 dəqiqənin içərisində dünya və biz başa düşməliyik ki, insanlığı xilas etmək üçün ilk növbədə Qarabağ, deməli, həm də Ağdam azad olmalıdır…

Ağdamın – Ruhlar şəhərinin və onun sakinlərinin azadlığı arzusu ilə.

**Rafiq ƏLİYEV**

“Ruhlar şəhəri”indən sonra yazılan esselər, məqalələr

# “Sonalar gölü”nün sahili

*“Yaddaş ləpirləri” silsiləsindən*

Çaykovskinin “Sonalar gölü” baletinə bileti İsveç Sosial Demokrat Partiyasının regional təşkilatının qadın fəallarından olan İradə Əliyeva hələ iki ay əvvəl, Sankt-Peterburqun məşhur Marinsk teatrının Jönköpinqə qastrola gələcəyi xəbər çıxan gün almışdı.

Yolda uşaqlara bu baletə baxmaq üçün biletə filan qədər pul verməyə, neçə yüz kilometr yol getməyə həvəsin əsl səbəbindən danışdım. Bu, xoş uşaqlıq xatirələrimi uşaqlarla ilk bölüşməyim deyildi, hərdən belə söhbətlər olur, illah da qürbət şimal ölkəsinin uzun qış gecələrində.

Uşaqlara məni bu tamaşaya aparan sehrin qısa tarixçəsini danışandan sonra zarafata salıb dedim ki, siz tamaşaya baxarsınız, mənsə uzaq bir səfərə çıxacam.  Güman elədiyim kimi də oldu. Balet tamaşası elə ilk səhnəsindən məni uzaq uşaqlığın doğma çağlarına apardı.

***

Baletlə tanışlığım elə “Sonalar gölü”ylə başlayıb. Onda doqquz, ya on yaşım olardı, yekə oğlan idim. Atam çölə-bayıra iş dalınca təzə-təzə buyururdu. Hərdən məni indi erməni qoşunlarının xarabazara çevirdiyi Ağdamdakı evimizdən iki tin aralıda yaşayan dayısıgilə göndərib deyərdi: “Get Bekgilə, denən, babat bir kitab versin oxumağa”.

Atamgil dayıları İsmayıla “Bek” deyirdilər. Danışırdılar ki, bəy sayaq davranışına görə Tiflisdə yaşayan vaxtlar onu belə çağırırmışlar.

İsmayıl dayıgildə kitab bizimkindən çox idi. Atam öz kitablarını oxuyub onların kitabxanasına keçmişdi. Mən də gedərdim, İsmayıl dayı atamın zövqünə uyğun kitab seçib verərdi, gətirərdim...

Bir yay çəpər qonşumuza Bakıdan qonaqları gəlmişdi. Oğlan uşaqları mənlə yaşıd olsalar da bacıları bir xeyli böyük idi. Ala gözləri, sarıyaçalan saçı hələ də gözümün qabağındadır. Gilənar ağacının kölgəsində ağappaq süfrə salınmış samovarlı masaya dirsəklənib bütün günü kitab oxuyurdu. Qardaşlarıyla oynasam da diqqətim həmişə onda olurdu. Onu o vaxt ekranlara təzəcə çıxan “Buratinonun macəraları” filmindəki Malvinaya oxşadırdım. Asta hərəkətindən, hərdən qardaşlarına baxıb yüngülcə gülümsəməsindən, arada kitabı qatlayıb, nəzərlərini göydə hansısa məchul nöqtəyə zilləməsindən xoşum gəlirdi. Yarpaqlar o qədər sıx idi ki, aralarından səma güclə görünürdü. Bu bir əlçə göyüzündə nə axtarırdı görən?!

Şəhər uşaqları ilə oynamağın bir başqa ləzzəti vardı, onların danışığı, gülüşü, hərəkətləri də mənə qəribə gəlirdi. Hələ özləriylə gətirdikləri oyuncaqları demirəm. Bəzən özümü unudub maddım-maddım elə baxırdım onlara, elə bil, başqa planetdən gəliblər. Oyuncaqlarıyla isə illərlə oynasam doymazdım. Bu, mənim təbii insan duyğularından olan həsəd hissiylə ilk tanışlığımıydı. Amma nəfsimi boğurdum, oyuncaqlara yaxın durmurdum. Özümü gözütox göstərmək ağlıma gəlmirdi, bu, sadəcə onların bacısına böyük oğlan görünmək istəyi idi. O isə məni “görmürdü”.

Yeniyetmə qızlar özlərindən xeyli kiçik oğlanların onlara bəslədiyi hissi duymurlar, amma özlərindən böyük oğlanların sevgisini səbirsizliklə gözləyirlər. Həmin yay o qızın yaşadığı sevdalı ovqatının səbəbini uzun illər sonra bir kitabı – onun o vaxt əlindən düşməyən kitabı oxuyanda anladım. O günlər onunla kəlmə kəsməyə min bir bəhanə gəzirdim: bir dəfə oxuduğu kitabın adını soruşmaq bəhanəsiylə yaxınlaşdım. “Stefan Sveyq”in novellalarıdır”, dedi...

Növbəti belə bir oyunun şirin yerində atam çağırıb məni yenə kitab dalınca göndərdi. Etiraz edə bilməzdim, çaparaq qaçıb gətirəcəkdim, sonra da bu bakılı uşaqlarla xoş oyunuma davam edəcəkdim. Belə olmadı.

***

İsmayıl dayıgilin evi Şuşa yolunda, bulvarın ayağındakı restoranla üzbəüz idi. Onların evində, xüsusən də evlərinin dalındakı anbarda vaxt keçirməkdən xoşum gəlirdi. Anbarda cürbəcür məişət aləti, qədim əşyalar öz yerində, məni daha çox palıd ağacından iri şoraba çəllləkləri özünə çəkirdi. Lap uşaq olanda çəlləyə boyum çatmırdı, ayağımın altına vedrə, ya da yeşik qoyurdım. Şorabanı "kələm bojqası"ndan əl havasına çıxarıb yeməyin bir başqa ləzzəti vardı...

Böyük kitab rəfləri evin girəcəyindəki dəhlizdəydi. Şüşəbəndli qonaq otağını əntiq suvenirlər bəzəyirdi. Divardan oğlu Vaqifin dəmir lövhələrdən düzəltdiyi "çikanka"lar, Vidadinin əsgərlikdə yağlı boyayla çəkdirdiyi portret, bir də İsmayıl dayının tiflisli arvadı Vəzifə xalayla Tiflisdə, Ağdamda çəkdirdiyi fotolar asılırdı. Qara pianonun üstündə cürbəcür fiqurlar, heykəlciklər olurdu. Qonaqlıqlarda uşaqları piano çalmaq istəyəndə həmin fiqurları ehmalca komodun üstünə yığıb qapağını qaldırırdılar ki, səsi ucadan gəlsin. Hər dəfə nənəm Bakıdan bizə gələndə İsmayıl dayı bacısının şərəfinə böyük məclislər qururdu. Deyib-gülmək, yeyib-içmək, çalıb-oynamaq saatlarla davam edirdi. Uşaqları Vaqif, Vidadi, Elmira, Rasim ayrı aləm idilər: biri klarnet, o biri piano çalar, bir başqası stulu çevirib nağara yerinə ritm tutardı...

O gün kitab dalınca gələndə İsmayıl dayı stulu tərsinə çevirib, qollarını stulun söykənəcəyinə çarpazlamışdı, çənəsini əllərinə dirəyib televizora baxırdı. Belə diqqət kəsilməyi baxdığından zövq alması anlamını verirdi. Məni görüb yanına çağırdı, yanakı stulda yer göstərdi.

Televizorda ağ geyinmiş bir dəstə qız qəribə musiqiyə rəqs edirdi. Maraqsız olsa da oturası oldum. Bir xeyli sonra Vəzifə xala çay gətirəndə ürəklənib dedim ki, atam kitab istəyir. Eyninə almadı. Mənə baxdığımızın "Sonalar gölü" baleti olduğunu dedi. Sonra ayağı durdu, stulu düz üzünə çevirib masaya yaxın qoydu. Əyləşib çayı qabağına çəkdi. Balet haqqında ətraflı söhbətə başladı. Bir cadugər gənc şahzadənin sevgilisini qu quşuna çeviribmiş. Həsrət çəkən şahzadə sonunda cadugərlə savaşda qalib gəlir, sehrini qırıb sevgilisini xilas edir. O vaxt onun dedikləriylə televizorda gördüyüm rəqslər arasında bir əlaqə olduğunu kəsdirə bilməsəm də, axıracan oturub baxdım.

İsmayıl dayı mənimlə tay-tuşu kimi elə danışırdı ki, elə bil indiyəcən yüz baletə baxmışam, səksən opera dinləmişəm. Söhbətindən onu xatırlayıram ki, operalardan elə də xoşu gəlmirmiş. Tək sevdiyi "Leyli və Məcnun" operasıymış, cavanlığında Tiflisdə çox baxıbmış. Xarici operalara heç marağı yoxuydu. "Həm qışqırırlar, həm də sözlərini başa düşmürsən".

Baletdən isə xoşu gəlirdi. Nəyə görə xoşladığını başa düşmürdüm. Verdiyi izahdan heç nə anlamırdım. Bir o yadımdadır ki, səhnədəkiləri kəpənəyə oxşadırdı: "Elə bil yerimirlər, uçurlar".

Baletin nə qədər çəkdiyini bilmədim, hər halda mənə çox uzun gəldi. Hövsələm bir tikə olmuşdu. Canım bakılı uşaqların, illah da "Malvina"nın yanında qalmışdı. Televizorda qəşəng qızlar nə qədər gözəl rəqs eləsələr də, bakılı uşaqlar qədər maraqlı deyildilər.

Nəhayət, İsmayıl dayıgildən çıxanda elə balet havasındaydım. Çaykovskinin musiqisi ağzıma düşmüşdü, fit çalırdım. Qoltuğumda gətirdiyim kitabın adını isə onu atama verəndə bildim, Balzakın "Qorio ata"sıymış.

***

Soyuq İsveç axşamı “Sonalar gölü” məni vətənin isti xəyallarına qərq elədi. Xoş xatirələrə dalmaq elə o çağları yenidən yaşamaq kimidir. Uşaqlıqda gələcəyini xəyal elədiyin kimi, böyüyəndə də uşaqlığın xiffətini çəkirsən, nə qədər qəribə olsa da, şirin duyğularla. Xiffətin şirini də olurmuş, sən demə.

Xəyalpərəstlərin yaşı olmur. Rus balet artistlərinin rəqsi, Çaykovskinin məftunedici musiqisi adamı on yaşlı uşaq qədər duruldur. Bəlkə də, elə ona görə bir uşağın qura biləcəyi xəyallara daldım o gecə – sanki o vaxt mən şahzadə Ziqfrid, sarışın bakılı qızı isə Odetta imiş. Amma nə qədər çalışsam da İsmayıl dayını iki sevgili arasında qara tikan olan sehrbaz Rotbarta oxşada bilmədim.

Çünki İsmayıl dayı işıqlı adam idi. Balaca əyalət şəhərində bir divar boyu kitabxanası, hər gün çalınan pianosu, üzü baletlərə açılan televizoru olan işıqlı bir adam. Sonralar məni füsunkar sehriylə tilsimləyəcək “Sonalar gölü”ylə tanış edən adam.

Həmin o isti yay günündə İsmayıl dayının ağlına belə gəlməzdi ki, zorla baxmağa məcbur elədiyi balet qırx il sonra mənə yurd nostaljisi qarışıq duyğusal uşaqlıq xatirəsini bir röya kimi yaşadacaq. “Sonalar gölü”ndə üzdürüb uşaqlığın isti sahillərinə aparacaq.

Dekabr, 2014

Karlskrona, İsveç

# Stokholmdan Ağdama ABBA ilə

Stokholm səfərində ilk dəyəcəyimiz yer kimi mən ABBA muzeyini seçəndə uşaqlar bir ağızdan "Gröna Lund" deyib durdular. Çoxsaylı atraksiyonları, karuselləri, nə bilim, şouları olan əyləncə parkı balalara daha cəlbedici gəlirdi. Parkın qapısı ağzında onlardan ayrılanda xanıma dedim: "Qoy, onlar öz dünyalarına getsinlər, gir qoluma, səni öz uşaqlıq çağıma aparacam".

***

ABBA The Museum.

Rəsmi adı belədir muzeyin. Dövrünün, fikrimcə, elə bütün zamanların ən uğurlu pop qruplarındandır ABBA. Boş yerə 1970-ci illərə "ABBA illəri" demirlər.

Muzey qrupun 10 illik ömrünü əks etdirən eksponatlarla doludur. Öyrənirsən ki, 1972-ci ildə yaranan ansambl iki il sonra ilk beynəlxalq uğurunu qazanıb. 1974-cü il Avroviziya mahnı müsabiqəsinin qalibi olub. Sonra bir-birini əvəz edən dünya turları. Neçə-neçə ölkənin musiqi xitlərindən həftələrlə, aylarla düşməyən mahnıları, milyon-milyon tirajla satılan valları ilə başgicəlləndirən uğurlara imza atıb. Satılan valların sayına görə təkcə Elvis Preslidən, bir də Bitlzdən geri qalıb.

Açığı, muzeyə qədər bilmirdim ki, bu əfsanəvi qrupun üzvləri bir-biriləriylə evliymişlər: Benni Anni-Fridlə, Byörn isə Aqneta ilə. ABBA-nı zirvələrə daşıyan uğurun bir sirri də bunda imiş sən demə – Sevgidə!

Sevgisiz zirvə fəth edilərmi?!

Adlarının baş hərflərindən qurduqları ansambl-ailə hər iki cütlüyün evliliyi bitəndən sonra dağıldı. Sevgi bitəndə ürək də soyuyur: nə o əvvəlki ruh coşduran mahnılar yazıldı, nə o şövqlə oxumalar oldu. Odur ki kvartet dağılanda ayrılıqda oxunan solo ifalar da uğur qazana bilmədi.

***

Ağlım kəsəndən evimizin alt mərtəbəsində kirayənişin qızlar qalıb. Ağdam Musiqi Texnikumuna tək Azərbaycanın rayonlarından yox, başqa respublikalardan da oxumağa gəlirdilər. Məndə musiqiyə sevginin yaranmasında, zövqün formalaşmasında onların müstəsna rolu olub. Uşaqlıq illərimin səhərləri onların çaldığı musiqilərlə açılıb. Klassik musiqini, bəstəkarları, musiqi alətlərini onların söhbətlərindən tanımışam. Motsartı onlarla birgə baxdığım "Amadeus", violini "Nikkolo Paqanini" filmlərindən tanıyıb sevdiyim kimi, məsələn.

ABBA-nı da mənə onlar tanıdıb.

1970-ci illərin ortalarında ABBA SSRİ-nin dəmir sərhədlərini yarıb milyonların qəlbini fəth eləməyə başlamışdı. Televizorumuzda hər dəfə ABBA oxuyanda səsi artırır, döşəməni döyəcləyirdim. Evimizin kirayişin qızları dərhal yüyürüb gəlirdilər. O qoşa cütlüyə elə həsrətlə baxırdılar ki.

Qrupun qaraşın üzvünü Donaraya oxşadırdıq. Donara Leninakandan gəlmişdi, piano sinfinə gedirdi. Otaq yoldaşları Qreta, Roza onu inandırdılar ki, saç düzümünü bir azca dəyişsə, o qarabuğdayı qıza bənzəyəcək. Bir gün gördük, saçına əl gəzdirib gəlib. Doğrudan da, ABBA-nın

qarasaç qızına – Anni-Frid Lyngstada oxşayırdı. Qaraşın deyirdik, əslində isə Anni saçını qırmızı rəngləyirmiş. Bizim ağ-qara “Qorizont” televizorumuz saçını qara göstərirmiş.

Mənimsə gözüm sarışını tutmuşdu.

Onda heç 10 yaşım da yox idi. Baxmayın uşaqlığıma, qadın gözəlliyini duymağı bacarırdım. Mənə inanmırsınız, Freydə inanın. Dünya psixoloqlarının atası Ziqmund Freydə. Biləcəksiniz nə dediyimi.

Adı Aqneta imiş. Aqneta Fəltskoq (Agnetha Fältskog). Onda adını bilmirdim. Eləcə sarışın, şıltaq qız idi mənim üçün, “blandinka” deyirdik. Kəsdirə bilmədiyim bir istilik, şirinlik, doğmalıq vardı onda. Onu milyonlara sevdirən də elə üzündəki təbəssümdən doğan bu istilik idi, bəlkə də.

Bir də səsi. Elə təkcə “Qalib hamısına sahibdir” (“The winner takes it all”) mahnısını dinləyin, yetər.

Uşaqlığımın o şirin çağında yüz il qala ağlımın ucundan belə keçməzdi ki, SSRİ dağılacaq, sərhədlər açılacaq və tale küləyi məni üzlərindəki təbəssümlə dünyanın hardasa o başından – xoşbəxt insanların yaşadığı yerlərdən xəbər verən bu dördlüyün vətəni İsveçə atacaq. Onların o xoşbəxt ölkəsində hər dəfə mahnılarını eşidəndə dik atılırmış kimi oyanıb anlayacam ki, sən demə, dünyanın ən xoşbəxt çağı elə atalı-analı günlərimdə ağ-qara televizorumuzda onlara baxdığım anmış; bu qrupun mahnılarını dinlədiyim evimizmiş; adına “Qafqaz Xirosıması” deyiləcək, daşı daş üstündə qalmayan şəhərimizmiş.

Heyif, ömrün geriyə yolu olmur!

*...Amma, oldu! Məni geriyə aparan o yolu tapdım! ABBA muzeyində nostalji duyğular burulğanına düşəndə gördüm o yolu. Gördüm dördü də əl-ələ verib 70-ci illərə gedirlər. Yüyürüb çatdım, bir əlimdən Qaraşın, o birindən Sarışın tutdu. Benni saçımı qarışdırdı, Björn gülüb göz vurdu. Üzümüz Qarabağa idi – bizə sarı. Yetişdik. Darvazadan həyətimizə girdik. Pilləkəndə əlimi buraxdılar, irəli ötürüb, “özün qalx” dedilər...*

*Qulağımda “Mamma mia”nın (“Mənim anam”) sədaları pillələrlə evimizin yuxarı mərtəbəsinə qalxıram. Əlimlə pilləkənə sarı uzanan armudun ağ çiçəkli budağına sığal çəkib keçirəm. Anam qarşılayır məni – Mamma Mia – üzündə həmişəki gülüş, dilində “Maman saa qurban”.*

Muzeyi dolaşdıqca, onların qrim əşyalarına, geyimlərinə, musiqi alətlərinə, səfər şəkillərinə baxdıqca neçə dəfə beləcə 70-lərə gedib qayıtdım. ABBA-nın iri fotosu fonunda skamyada oturdum. Xanım şəklimi çəkdi. İstədi nağıl kimi bir aləmdən, uşaqlıq çağıma xəyali səfərimdən bir fotom qalsın.

***

Bu sətirləri yazdığım noyabr günlərində ABBA-nın *Voyage* adlı albomu çıxdı. Bu, 1981-ci ildən sonra qrupun ilk albomudur.

Məşhur kvartetin sonu 1982-ci ildə gəldi, sonuncu *Visitors* albomundan sonra qrup birgə fəaliyyətə son qoyduğunu elan eləmişdi. Bu, gözlənilməz qərar deyildi. 1979-cu ildə cütlüyün biri, 1981-də isə o biri rəsmən nikahlarını pozdular. Mətbuata müsahibələrində şəxsi həyatlarındakı bu ayrılıqların birgə fəaliyyətə təsir etməyəcəyinə inandırmaq istəsələr də, alınmadı, ABBA erası sona çatdı. Qrup kimi.

Mahnıları isə hələ neçə-neçə nəsillərin könlünü fəth edəcəkdi.

Onları bir-birinə bağlayan, uğurun zirvəsinə daşıyan tək musiqiləri yox, həm də bir-birilərinə olan sevgiləri idi, bayaq dedim. Elə 1972-ci ildə İsveçdə debüt mahnıları da "İnsanlara sevgi gərəkdir" (People Need Love) adlanırdı.

Sonralar dünyaca məşhur musiqi şirkətləri, prodüserlər onları bir yerə yığmaq üçün, heç olmasa, bir konsert vermələri üçün minnətçi düşəcəkdilər. Onlarsa ağlasığmaz qonorar təkliflərindən imtina edəcəkdilər. 1 milyard dollardan belə. 2000-ci ildə adını açıqlamayan bir investor 250 konsert üçün məhz bu qədər qonorar vəd etdi. Cavab isə Aqnetadan gəldi: "Biz bunu bir dəfə eləmişik". Sonra qrupun digər üzvləri də imtina açıqlamaları verdilər.

2022-ci il bütün zamanların sevimli pop qrupu ABBA-nın 50 illiyidir. Deyirlər, uzaq 1982-ci ildən sonra qrup bir də yığılacaq və Londonda yubiley konserti verəcək.

Çox istərdim o konsertə bilet tapam, gedəm. Evimizə gedirmişəm kimi gedərəm o konsertə, həyatimizə girirmişəm kimi girərəm zala, ömrün ən şirin çağını təkrar yaşayırmış kimi yaşayaram o gecəni...

***

Səfərdən geri dönürdük. Yol boyu muzeydən aldığımız diskdə ABBA-nın mahnıları bir-birini əvəz edirdi: "S.O.S.", "Gimme! Gimme! Gimme!", "Mamma Mia", "I do, I do, I do".

Muzeyin havası başımdan çəkilməmişdi. Gözümün önündə İsveç meşələri, meşələrdə burulan yolumuz deyildi. Gözümün önündə Ağdamdakı həyətimiz idi. Hər birini ilk notundan tanıdığım bu mahnılar sanki öz səs qanadlarında əks-səda kimi məni uşaqlığıma göndərmişdilər.

*Qəribədir! Həyətimizdə bütün ağaclar eyni vaxtda çiçəkləmişdi. Narın qırmızı, zoğalın sarı çiçəyi gilənarın, armudun ağ ləçəklərinə qarışmışdı. Qonşu Elza xalanın sarmaşıq gülü hasarı aşıb bizim qızıl güllərə dolaşmışdı. Anamın dibçəklərdəki gülləri də hovuzun qırağından boy verirdi. Qaranquş da eyvanımızdakı yuvasına dönmüşdü, bir ucdan balalarına yem daşıyırdı.*

...Gözüm maşının güzgüsünə sataşdı. Uşaqlar yatmışdılar. Üçü də üzdə təbəssüm yuxuya getmişdi. Mahnılarmıydı bu təbəssümün səbəbi? Bəlkə, mənim xəyalımdakı həyətimizi onlar da görürdülər yuxularında?!

**Noyabr 2021**

**Helsinqborq, İsveç**

# Bir şəklin tarixçəsi

Evimizin mənə ən məhrəm əşyası nənəmin Nikolaydanqalma şifoneriydi. Şifoner deməzdin, deyərdin, bəs muzey hücrəsidir, sehrli aləmdir. Köhnə pal-paltarları, qədim şey-şüyləri orda saxlayardıq.

Şifonerdə eşələnməkdən xoşum gəlirdi. Nələr yox idi: nənəmgilin 1920-1930-cu illər iri Tiflis şəkilləri, babamın hər iki qapağının içinə o dövr model qızların yarıçılpaq fotoları keçirilmiş gümüş portsiqarı, sümük müştüyü, qədim düymələr, gümüş piləklər, anamın gəlinlik paltarı, şpilkadaban ayaqqabısı, atamın cavanlıqda geyindiyi "Makintoş" plaşı, aşağı siyirmədəki qara çamadanda üst-üstə yığılmış ilk sovet "zayom"ları, "Mockviç-400" avtomobilinin, "Temp-22" televizorunun, cürbəcür cihazların sənədləri, qırx ilin xəstəlik kağızları, analiz cavabları, atamgilin toy dəvətnamələri, anamın cehiz gətirdiyi əşyaların siyahısınadək daha nələr, nələr.

Bizə qonaq gələnlərin uşaqlarıyla gizlənqaç oynayanda burda gizlənərdim, tapan olmazdı.

Zindan kimi ağırıydı, yerindən dəbərdə bilməzdin. Elə bil taxtadan yox, dəmirdəniydi. Ona görəydi yəqin, gözümü açandan harda görmüşdümsə, şəhərimiz işğal olanadək də elə orada qaldı.
Ağdamın başını işğal təhlükəsi alanda evdən ilk çıxardığımız ailə arxivi, albomlar, bir də anamın nişan üzüyü sayaq bir-iki qır-qızılı oldu. Köhnə şəkillərin saxlandığı qalın ailə albomumuz şifonerin üst gözündə saxlanırdı. Onu evin ən qiymətli əşyası kimi köhnə bir adyala büküb götürdük.

Tale küləyi dinc dövrün adamlarına sərin meh kimi əsər. Müharibə adamının gördüyü isə tale fırtınasıdır!

O fırtınanın uçurub əldən apardıqları çox oldu, məndə qalanlardan biri haqda – özümlə körpəlik xatirəsi kimi Ağdamdan Bakıya, Bakıdakı köçhaköçlərdə neçə ünvana daşıdığım bir şəkildən danışmaq istəyirəm sizə. İndi İsveçdə göz qabağında saxladığım bir fotodan.

İntim söhbəti məhrəm adamlara danışarlar. Oxucu da yazı-pozu adamının məhrəmidir. Sizə deməyib, kimlə bölüşəcəm ki?!

Bu fotonun sovet vaxtı Ağdamda nəşr olunan "Lenin yolu" qəzetində çıxdığını anam danışmışdı bizə. Amma hansı səbəbdən dərc olunduğunu deməmişdi. Onu bu yay bizə qonaq gələn dayım danışdı. Çərçivəyə salıb yazı masamın üstünə qoyduğum bu fotonu görəndə üzünə qəribə bir təbəssüm qondu.

O vaxt dayım on iki-on üç yaşlarında imiş...

***

Bazar günləri Qarabağın dörd bir tərəfindən camaat Ağdama axışardı. Kimi satmağa nəsə gətirər, kimi başqa yerlərdə tapmadığını burada axtarardı. Bir sözlə, təkcə bazar yox, bütün şəhər qaynaşardı.

Anam Bakıda Sovet Ticarəti Texnikumunu bitirib el dilində "Qorpo" deyilən ticarət idarəsində işə başlayacaqdı. Hələlik məscidin yanındakı sıra dükanlarından birində – Tavad xalanın parça mağazasında işləyirdi.

Qələbəlik günlərdən biriymiş. Tavad xalanın da dükanı alıcılarla doluymuş. Anam da hər alıcının istəyinə uyğun parçalardan biçib kəsirmiş. Birdən gözü piştaxtanın üstündəki parça topların arasında bir düyünçəyə sataşır. Kimsə unudubmuş. Anam düyünçəni açır, dəsmala bükülmüş pulları sayır, sonra piştaxtanın altına qoyur. O dövr üçün (dayımın dediyinə görə hadisə 1960-cı illərin ortalarında olub) xeyli böyük məbləğ imiş – 769 manat.

Axşama doğru yaşlı bir kişi hövlnak dükana girir. Təlaşdan səsi titrəyə-titrəyə:

– Bala, səhər səndən xeyli parça aldım, qəstumluq “kişi atrezi”, gəlinlik neçə parça. Pul düyünçəmi itirmişəm, bəlkə, burda qalıb?

– Nə rəngdəydi dəsmalın, dayı, nə qədər pul vardı içində?

– Uşağın toyudu, iki dana, beş qoyun gətirmişdim satdığa. Satdım, toya bəzi şey-şüy aldım, hardasa bir yeddi yüs əlli manat qalardı.

Bundan sonra pul yiyəsinin bu nurani kişi olmasına şübhə eləməyən anam çıxarıb pulu qaytarır. Sevincdən az qala gözü yaşaran kişi nə illah eləsə də, anam onun verdiyi “şirinliyi” götürmür. Kişi alqış eləyə-eləyə gedir.

İki gün keçir. Dükana “Lenin yolu” qəzetinin müxbirləri gəlib, anamı soraqlayırlar. Sən demə, pulunu tapan kişi tənbəllik eləməz, səhəri gün şəhərə qayıdıb birbaş qəzetə gedər, hadisəni redaktora danışar. Redaktor da sovet ticarətində dürüstlük nümunəsi kimi müxbirlərə anamdan bir oçerk yazmağı tapşırar.

***

Bilirəm, balaların gözündə bütün analar mələk kimidilər. Mənim də gözümdə anam elədir.

Qış səhəri yenə obaşdan durmuşam, evdə hamı yatıb, bircə anam oyaqdı.

Bir gözüm çərçivədən mənə baxan anamda, o biri kompüterin monitorunda – bu yazını qaralayıram. Qəribədi, bu sabah anamı uzun illər gördüyüm üzündən çox məndən əvvəlki, fotolardakı qız vaxtının simasıyla xatırlayıram. Elə bilirəm, onu tələbəliyindən, gəncliyindən tanıyıram. Sanki əlindən tutub atamla tanış olmağa da mən aparmışam. Səhər-səhər ağla gələnə bax…

Anam çoxdan o biri dünyaya köçüb. Bir dəfə yazmışdım ki, analar ölmürlər, yan otağa uşaqlarına yer açmağa keçirlər. Döşək salıb balalarının yorğun-arğın gəlişini gözləyirlər. Bilirsiniz, cənnət dini kitabların təsvir elədiyi kimi deyil! Nə bilim, “bakirə hurilər”, “şərab çayları”. O kitabları kişilər yazıblar, şirnikləndirici təsvirlərlə. Mənim təsəvvürümdə cənnət ana qucağıdır! Analar o dünyada huri-mələk surətində balaları qoynuna almağa, bu dünyanın ağrı-acısını çıxarmağa, ovutmağa hazır dururlar.

Köçmək hələ ayrılmaq deyil. Analar köçsələr də, balalardan ayrılmırlar. Bax bu sabah da mənimlədir!

Analar hər üç dünyada balalarıyla qalan tək varlıqdılar!

***

80 yaşını təbrik edirəm, ana! Hər gün gözümün önündə parça biçən qadın! Sevgilərimin ən böyüyü!

Bu şaxtalı qış səhəri ilıq Novruz sabahı kimi açılır – Sənlə açılır deyə!

**Dekabr, 2019**

**Helsinqborq, İsveç**

# Atamın şilləsi, sevgisi və 20 yanvar

20 yanvar günü səhər obaşdan şəhərə xəbər yayılar ki, gecə Bakıya qoşun girib, milləti qırıb. Küçələr meyitlərlə doludur, bəs ölənlərin çoxu da tələbələrdir.

“O, mitinqlərdən yığılmırdı. Onu da öldürüblər”. Atamın reaksiyası belə olub. Dərhal da üz tutub poçta. Ağdam poçtunda da iynə atsan yerə düşməz – hamı Bakıyla danışmaq, yaxın adamından xəbər tutmaq istəyir. Uzun növbədən, neçə saatın basabas gözləntisindən sonra, nəhayət, axşama yaxın poçtdakı telefon budkalarından birinə girə bilir. Hansı qohumla danışırsa, “birda idi, indi getdi”, “salamatdı, bayaq danışdım” sayaq söz eşidir, amma “burdadı, al danış” deyən olmur.

Təlaş içində evə dönür, anama “100 faiz o da ölən tələbələr arasındadı, mənə demirlər”, deyib maşına oturur, birbaş Bakıya.

Yazıq anam başına xeyli arvad yığıb mənə yas tutur.

Mən də Papanində kirayə qaldığım otaq yoldaşlarımla Salyan kazarması yolunda gördüklərimizin şokunda. Neçə gündü rus əsgərləri kazarmadan çıxmasın deyə darvazanın qabağında keşik çəkirik. Hisin-pasağın içində. Dedik, gedək yuyunaq, dincələk, gecə yenə gələk. Gecə də…

Şıxovda hərbçilər yolu bağlayıb, Bakı qeydiyyatı olmayanı buraxmırlar. Atam yanvarın 21-də səhərə doğru maşını orda bır yerə atıb, neçə avtobus dəyişir, günortadan keçmiş bir zülmlə gəlir əmimgilə. Mən də əmimin təkidiylə onlara gəlmişəm.

Qapının zəngi çaldı. Qapını açan əmimin səsini qulağım çaldı: “Boy Pərviz, qəfil hardan belə?!” “Ölüb, heyləmi? Hansınızdan soruşuram “burdaydı, getdi” deyirsiniz, aldadırsınız”.

Atamın səsinə qapıya yüyürdüm. Məni gördü. İlahi, üzündəki o ifadə nə idi! Az qaldı kişinin dizi qatlana. Qucaqlamaq istəyəndə sifətimə möhkəm bir şillə çəkdi. Səsi xırıldadı. Sonra boynuma sarıldı. Öpəndə üzüm islandı. Ağlayırdı.

Atam sərt adam idi, istəyini heç vaxt büruzə verməzdi. Həmin gün ilk kəs onun məni necə sevdiyinə şahid oldum, sən demə, dəli bir eşqlə sevirmiş məni.

Uşaq vaxtı yüngül götəyini az yeməmişəm. O axşam həm də atamın son şilləsini daddım. Dünyanın ən şirin şilləsini.

***

20 yanvar tək mənim yox, elə hamımızın sevgi və şillə daddığı gündür. Şilləni o günəcən özümüzün bildiyimiz ordudan aldığımız kimi, sevgini də xalq olaraq bir-birimizdən aldıq.

22 yanvar günü 100 minlərlə insanın bir-biriylə sevgi paylaşdığını mən də gördüm. Şəhidlərin dəfninə atamla gedəndə…

P.S. 19 yanvar gecəsi bizi qıran rus əsgərlərinin balaları 30 il sonra 9 noyabr gecəsi qəfil Qarabağa soxuldular. Görünən odur ki, onlarla işimiz hələ bitməyib!

Atamla bağlı bu məhrəmanə xatirəni bu iki gecəni unutmayanlar üçün yazdım.

**20 yanvar 2021**

# Atamın şilləsi, sevgisi və 20 yanvar

20 yanvar günü səhər obaşdan şəhərə xəbər yayılar ki, gecə Bakıya qoşun girib, milləti qırıb. Küçələr meyitlərlə doludur, bəs ölənlərin çoxu da tələbələrdir.

“O, mitinqlərdən yığılmırdı. Onu da öldürüblər”. Atamın reaksiyası belə olub. Dərhal da üz tutub poçta. Ağdam poçtunda da iynə atsan yerə düşməz – hamı Bakıyla danışmaq, yaxın adamından xəbər tutmaq istəyir. Uzun növbədən, neçə saatın basabas gözləntisindən sonra, nəhayət, axşama yaxın poçtdakı telefon budkalarından birinə girə bilir. Hansı qohumla danışırsa, “birda idi, indi getdi”, “salamatdı, bayaq danışdım” sayaq söz eşidir, amma “burdadı, al danış” deyən olmur.

Tələş içində evə dönür, anama “100 faiz o da ölən tələbələr arasındadı, mənə demirlər”, deyib maşına oturur, birbaş Bakıya.

Yazıq anam başına xeyli arvad yığıb mənə yas tutur.

Mən də Papanində kirayə qaldığım otaq yoldaşlarımla Salyan kazarması yolunda gördüklərimizin şokunda. Neçə gündü rus əsgərləri kazarmadan çıxmasın deyə darvazanın qabağında keşik çəkirik. Hisin-pasağın içində. Dedik, gedək yuyunaq, dincələk, gecə yenə gələk. Gecə də…

Şıxovda hərbçilər yolu bağlayıb, Bakı qeydiyyatı olmayanı buraxmırlar. Atam yanvarın 21-də səhərə doğru maşını orda bır yerə atıb, neçə avtobus dəyişir, günortadan keçmiş bir zülmlə gəlir əmimgilə. Mən də əmimin təkidiylə onlara gəlmişəm.

Qapının zəngi çaldı. Qapını açan əmimin səsini qulağım çaldı: “Boy Pərviz, qəfil hardan belə?!” “Ölüb, heyləmi? Hansınızdan soruşuram “burdaydı, getdi” deyirsiniz, aldadırsınız”.

Atamın səsinə qapıya yüyürdüm. Məni gördü. İlahi, üzündəki o ifadə nə idi! Az qaldı kişinin dizi qatlana. Qucaqlamaq istəyəndə sifətimə möhkəm bir şillə çəkdi. Səsi xırıldadı. Sonra boynuma sarıldı. Öpəndə üzüm islandı. Ağlayırdı.

Atam sərt adam idi, istəyini heç vaxt büruzə verməzdi. Həmin gün ilk kəs onun məni necə sevdiyinə şahid oldum, sən demə, dəli bir eşqlə sevirmiş məni.

Uşaq vaxtı yüngül götəyini az yeməmişəm. O axşam həm də atamın son şilləsini daddım. Dünyanın ən şirin şilləsini.

***

20 yanvar tək mənim yox, elə hamımızın sevgi və şillə daddığı gündür. Şilləni o günəcən özümüzün bildiyimiz ordudan aldığımız kimi, sevgini də xalq olaraq bir-birimizdən aldıq.

22 yanvar günü 100 minlərlə insanın bir-biriylə sevgi paylaşdığını mən də gördüm. Şəhidlərin dəfninə atamla gedəndə…

P.S. 19 yanvar gecəsi bizi qıran rus əsgərlərinin balaları 30 il sonra 9 noyabr gecəsi qəfil Qarabağa soxuldular. Görünən odur ki, onlarla işimiz hələ bitməyib!

Atamla bağlı bu məhrəmanə xatirəni bu iki gecəni unutmayanlar üçün yazdım.

**20 yanvar 2021**

## Narıncı yarış maşını

İlk oyuncaq ilk sevgi kimidir – unudulmur. Xatırlayırsınızmı ilk oyuncağınızı? Sizi bilmirəm, mənim yadımda o, ilk sirdaşım kimi qalıb.

Uşaqlar ilk səmimi söhbətlərini oyuncaqları ilə edirlər. Hətta anaya belə deyə bilmədiklərini onunla bölüşürlər. Dediyimə inanmasanız, ilk oyuncağınızı yada salın!

***

Sovet dönəmində kəndlərdə qarışıq mallar mağazası olurdu. Yəni ərzaq, sənaye, trikotaj malları bir yerdə satılırdı. Özünəməxsus xoş qoxusu olardı bu mağazaların.

Dayım şəhərə bitişik Seyidli kəndinin dükanında işləyirdi. Hər kəndə gələndə ora dönüb nəsə alar, yaxud salam verib keçərdik.

Bir gün yenə anamla kəndə getmişdik. Qohumların hansınınsa evində paltarbiçdiydi. Qız toyu. Tək qadınlar olduğundan paltarbiçdilərdən xoşum gəlməzdi. Yəqin, bunu bildiyindən anam məni dayımın yanında qoyub toya getdi.

Az qala əlli il keçib, amma elə bil dünən idi. Deyərsən bəs üstündən yel də əsməyib, il də ötməyib o xatirənin.

Həmin gün günüm oyuncaqlar olan bölmədə keçdi. Hərdən konfet yeşikləri düzülmüş rəflərə tərəfə gedir, ayağımın ucunda qalxıb əl havasına konfet seçirdim. Boyum çatmırdı, əlimi sürtməklə konfetləri bir-birindən ayırd edə bilirdim. Onda sümürməli “Barbaris”i, bir də üstündə ayı şəkli olan şokoladı xoşlayırdım.

Sən demə, dayımın bir gözü məndəymiş. Elədiklərimə göz qoyurmuş. “Nə danışırdın onlarla?” deyə soruşanda bilmişdim. Sonralar söyləyirdi ki, mənim oyuncaqlarla söhbətimə qulaq asıb ləzzət alırmış.

Axşama doğru anam məni götürməyə gəldi. Biz çıxanda dayım narıncı rəngli yarış maşınına ip bağlayıb mənə verdi. “Sür, sənindir” deyib üstündə “5” yazılmış maşını mənə bağışladı. Cibimi “Barbaris”lə, “Mişka kosolapıy”la doldurdu.

Uzunsov plastmas yarış maşınını nənəmgilin kəndindən şəhərəcən çəkib sürə-sürə gətirdim. …Sonra başqa oyuncaqlarım da oldu. Ağdamda üçmərtəbəli univermaq tikiləndə onun oyuncaq bölməsindən çox oyuncaqlar aldı anam mənə. Tapança, avtomat, cürbəcür maşın, ev konstruksiyaları, pazllar. Onların heç birinin ömrü ilk maşınım kimi uzun sürmədi.

O maşını bağçaya da aparırdım, uşaqlara da göstərirdim. Onunla dostyana söhbət edirdim. Xəyal qurub uzaq səfərlərə çıxırdıq. Bağçamızın ən qəşəng qızını da özümlə götürürdüm. Onsuz xəyalmı olardı?!

Maşınım da mənimlə danışırdı. Nə dediyini anlayır, duyurdum. Bir dəfə yağışlı gündə onu palçıqda, bir dəfə də şaxtalı qış gecəsi çöldə qoymuşdum. Bunlar mənə günah hissini yaşadan ilk hallar oldu. Özümü etibarsız dost kimi hiss etmişdim.

Sonra onu bir də özümdən uzaq qoymadım. Gecələr çarpayımın altında, gündüzlər gözümün qabağında oldu. Təkərləri itəndə belə ondan əl çəkmədim. Hovuzumuzu doldurub onu qayıq kimi də üzdürdüm, həyətimizin o başınacan axan arxımızda gəmi kimi də sürdüm.

Böyüyüb yekə oğlan olanda da atmadım onu. Fərq etməz, canlı, ya cansız – əziz olan heç nəyimi atmamışam. Evimizin zirzəmisindəcə dururdu.

Şəhərimiz işğal olunanacan…

***

Huşum oyuncağıma getdi, səki dayımdan danışıram sizə!

O ilk cansız sirdaşımı – oyuncağımı mənə bağışlayan dayımın 70 illiyidir. İndi anlayıram ki, cansız sirdaşı mənə hədiyyə verən Rafael dayım elə özü mənim ilk sirdaşım, dostum olub. Ağdamın Köhnə Hamam məhəlləsindən Seyidli kəndinin Molla məhəlləsinəcən yol boyu boynundan düşmədiyim adamı deyirəm.

Onun çiyinlərindən görünən çəpərlərin o üzündəki həyətlər başqa dünyalarmış kimi qəribə gəlirdi mənə. O ucalıqda həyat özü rahat idi, küçəyə uzanan budaqlardakı gilənarı, almanı, alçanı dərəcək qədər asan idi, əlçatan idi.

Bir dəfə də mənə "yoruldum, düş" demədi.

Kənddə qalanda gecələr nənəmlə yatırdım. Səhər obaşdan duran kimi yan otağa yüyürür, dayımın üstünə atılır, yorğanı çəkir, oyadırdım. Onda da mənə acıqlanmazdı. "Get, yuxumun dalına baxım, gəlirəm çay içək" deyərdi. Mən də ustufca çıxardım. Bəzən onun "kinosu" uzanardı, onda yenidən otağına hücum çəkərdim. Bu dəfə təslim olardı.

Mənimlə uşaq kimi yox, həmişə böyük oğlanammış kimi söhbət edirdi. Ona görə də hətta anama, atama deyə bilmədiklərimi ona deyirdim. Ömrümün ən qayğısız xoşbəxt anlarının tək şahidi yox, həm də bu gün titrək kəpənək qanadlı xatirəyə çevrilən o anlarını yaradan sirdaşımdır o.

Gözləyirəm hava açılsın, elə yatağındaca haqlayım onu, zəng edib "70 yaşın mübarək, mənim ilk sirdaşım" deyim.

Yəqin, narıncı yarış maşınımı unudub, indi narıncı xatirəyə çevrilən o cansız sirdaşım üçünsə ayrıca sağ ol deyəcəm…

**İyun 2020**

# 17 yaşlı Anarın 40 yaşına

Sizə bir oğlandan danışmaq istəyirəm. Əliyev Anar Akif oğlundan. Bu ad sizə heç nə demir. Tanımırsınız.

Anar mənim dayım oğludur. Amma həm də oğlum kimidir. Deyərsiniz, necə yəni! Məsələnin qəribəliyi onda deyil ki, cəmi səkkiz yaş böyüyəm ondan, adam səkkiz yaşda ata olmur. Qəribəlik mənim ona bağlı duyğumdadır.

Atalıq yaşa yox, o duyğunu bəslədiyin adama bağlıdır. Məsələn, atam onu ölümə aparan xəstəliyə tutulanda yerimiz dəyişdi, daha atam yox, oğlum oldu. O, ərköyün oğul, mənsə narahat ataydım. Ona yönəlik bütün qərarları mən verirdim, ata kimi.

Anara atalıq duyğum isə bir başqa cür idi. Bu sirli hissi onun adqoyma mərasimində yaşadım. Onda bu hissin adını bilmirdim, sadəcə üstündə sonacan anlamadığım məsuliyyətim olacaqdı elə bil.

Qoy tarixçəni danışım, bəlkə, fikrimi daha asan izah edə bildim.

Deməli, Anar doğulanda qohum-əqrəba nənəmgilə yığılmışdı. 1976-cı il, mayın 26-sı idi. Səkkiz yaşım vardı. Dayımın sevimlisi olduğumdan idi yəqin, dedi, adını Vahid qoyacaq. Ciddi bir tapşırıq almışam kimi, bir az tərəddüdlə qabağa çıxdım, amma çox fikirləşmədim.

“Xarlamov!” – dedim. Şaqqanaq çəkib güldülər. Yeni doğulan uşağa sovetin 17 nömrəli məşhur xokkeyçisi Valeri Xarlamovun adını qoydum. Uşaqlıq kumirim idi.

“Xarlamov familyadı, sən bir ad de”. Bir xeyli düşünüb “Anar”, – dedim. Anar həmin il biz Qubadlıda olanda dostlaşdığım qonşu oğlunun adı idi. Bəyəndilər, eləcə adı Anar oldu.

17 rəqəmin bir tilsimi vardımı?! Beş il sonra Xarlamov yol qəzasında öləndə ağladım.

İllər ötdü, onunla aramızda qəribə münasibət yarandı. Elə bil onun tərbiyə-təhsilinə mən də cavabdeh idim.

O, sakit, qaradinməz, adamayovuşmaz idi. Qapalıydı. Dalğın olardı çox vaxt, elə bil nəyisə düşünürdü. İndi ha fikirləşirəm, gülüşü yadıma gəlmir.

İnsanın qəlbinə yol onun keçirdiyi hissləri duyub bölüşməyindən keçir. Səmimi bir ünsiyyətdən. Bəzən ünsiyyət adamın bütün başqa ehtiyaclarına üstün gəlir.

Mehrini nənəmə salmışdı. Onun nənəmə ürək qızdırması verdiyi suallardan, elədiyi söhbətlərdən görünürdü. Çoxlu sualları vardı.

Bir səfər Bakıdan gələndə nənəm mənə belə dedi: “Onu da apar sən gedən şəhərə. Qoy oxusun, o, ağıllıdı”. “Məktəbi qurtarsın hələ”, – demişdim. Az qalmışdı məktəbi bitirməyinə.

Ona Bakıdan danışırdım. Bulvarda qol-qola gəzən qızlardan, oğlanlardan, kinoteatrların arxa sıralarından, “Neftçi”nin oyununda qışqırıb bağırmağımızdan, yer altında metrodan, sanki əlləri Tanrıya uzanan telli trolleybuslardan, Xəzərin çimərliklərindən, İçərişəhərdən, gəmi gəzintisindən, bir sözlə, qaynar Bakı həyatından.

“Mən də getmək istəyirəm Bakıya, oxumaq istəyirəm”, – deyib arzularından danışırdı hər dəfə. Elə sənin, mənim arzumuz kimiydi onun da arzusu.

Bir yol eşitdim ki, məktəbdə bir qıza aşiq olub. Birbaşa soruşdum, aşiq olmusanmı, deyə. Adam da elə allanarmı, ilahi! Guya ayıb şeymiş – boynuna almadı!

Dünyanın ən kədərli sevgisi nakam sevgilər deyil, etiraf edilməyən sevgilərdir. Anar həyada biri yüz il qala öz sevgisini istədiyi qıza aça bilməzdi.

Sonra müharibə başladı…

Bir gün xəbər gəldi ki, Ala Yaqubun özünümüdafiə batalyonuna qoşulub. Məktəbi də, mənə danışdığı arzusunu da qoyub cəhbəyə gedib. Hamı onu dilə tutdu. Rəhmətlik Yaqub dəfələrlə “Çıx get, get dərsini oxu! Müharibə sənlik deyil”, dedi.

Hamımızın fağır, sakit, mağmın bildiyimiz Anar inadından dönmədi. Mən də xeyli dilə tutdum, oxumalısan, dedim. “Təsəvvür edirsən, Ağdama girsələr Xocalıda elədiklərinin on qatını edəcəklər?! Bakıya sonra gələcəm, müharibədən sonra. Paraxoda minərik”.

Axırıncı dəfə həyətində hamamı olan başqa bir dayımgildə gördüm onu. Ayrı rayonlardan gəlib batalyonunda döyüşən əsgər dostlarını çimməyə gətirmişdi. Gedəndə dayımdan soruşdu: “Əmi, olar hərdən dostlarımı gətirim yuyunsunlar?” “Gətir, qaqa, gətir, niyə olmur!”

Ağır illər idi. Müharibənin miqyası böyümüşdü, səngər davasına keçmişdi. Biz də kommunistləri devirib, milli hökumət qurmuşduq, böyük arzularımız, umudlarımız vardı. Amma Gəncədə qiyam qalxmışdı. Gecəni də işdə yatırdıq. Prezident Aparatında işləyirdim onda.

Bir gün anam zəng elədi. 1993-cü ilin 26 iyun günüydü. Onun ölüm xəbəri məni günün günortasında tutdu. Şok yaşamadım. Çünki neçə günün şoku canımdaydı, keyimişdim. Aləm qarışmışdı. Ölkə başçısı Bakını tərk edib getmişdi. Hökumət başını itirmişdi. Prezident Aparatına qəribə adamlar ayaq açmışdı. Ermənilər girəvələyib hər yandan hücuma keçmişdilər. Təzə başbilənlərimizsə Milli Məclisdə köhnə haqq-hesablarını çürüdürdülər. Ölkənin müharibə getməyən hissəsində adamlar parlament “razborkaları”nın tamaşasına durmuşdu, ciddi maraqla.

Azad cəmiyyət qurmaq istəyimiz də Anarın arzuları kimi yarıda qaldı.

Mən Anarın dəfninə gedə bilmədim. Qiyam xəyal-dövlətimizi artıq boğazlamışdı. Anarların hər gün on-on, yüz-yüz ölən günüydü.

Anarın ölümündən bir ay sonra Ağdam işğal olundu. Arzusu Bakıya getmək olan Anarın ömür yolu Xramord dağınacan çatdı, onu keçə bilmədi.

…O vaxtdan elə bilirəm, həm də onun yarım qalan ömrünü yaşayıram.

***

Bu gün sənin 40 yaşındı! Böyüyüb yekə kişi olmusan! Ruhun da böyüyübmü, görən? Mələk qanadlarınla cənnətin hansı bağında uçursan indi?! Bilirsən, səndən sonra Ağdamı qoruya bilmədik. Bakı da simasını dəyişdi, daha əvvəlki şəhər olmadı. Sənin təsəvvüründəki ala-bəzək şəhər yoxa çıxdı. Bombozdu, elə indi də!

Yarımçıq ömür olmur! Bütün ömürlər dolub bitir. Baxır adam bu ömrü nəylə doldurur. Sənin 17 yaşının boyu çox ucadı, elə 40 yaş boyda. Şərəflidir, ona görə!

Sən ölməmisən, sağsan, bizimləsən! Bir yerdəyik! Amma onu bilmirəm, sən mənim yanımdasan, ya mən sənin!

Nə isə, səhər açılır. Gözlədim açılsın, 40 yaşını təbrik edim! Mənim əziz oğlum, qardaşım, dostum Anar!

**26 may 2016**

**Karlskrona, İsveç**

# Allah vermişdi Allahverdini

Allahverdi Bağırovun 70 yaşı tamam olur bu gün. Nədənsə mənə qəribə gəlmir onu 70 yaşında təsəvvür eləmək. Tək mənə yox, onu tanıyan hər kəsə qəribə gəlməz, düşünürəm. Onu elə cavanlığından ağsaqqal tanıdıq hamımız, yəqin, ondandı.

Ağsaqqal saçı-saqqalı ağarana demirlər. Ağsaqqal – hər zaman, hər şəraitdə, hər kəslə ədalətli davranan adama el-obanın verdiyi tituldur.

Çoxları Allahverdi Bağırovu Qarabağ savaşında ona inananları başına toplayıb özünümüdafiə dəstəsi yaradan, mindən çox Xocalını əsirlikdən xilas edən, qəhrəmanlıq göstərib həlak olan milli qəhrəman kimi tanıyır.

Allahverdinin çoxumuzun bilmədiyi xarakterik cəhətləri də vardı.

Dünən burda, tale yellərinin gətirib çıxardığı İsveçdə qonşum İxtiyar Allahyarovla Allahverdidən danışırdıq. İxtiyar adı hələ “Şəfəq” olan vaxtlar Ağdam klubunda Allahverdiylə futbol oynayıb. Deyir ki, Allahverdi qədər dostluğa etibarlı adam tapmaq çətindir. Komandamız hansı şəhərə gedirdisə, orda onun mütləq bir dostu bizi qarşılayırdı, özü də təmtəraqla. Biz ona olan bu ehtiramı görüb yüksək fərəh hissiylə oynayırdıq.

“Ruhlar şəhəri” kitabında “İmarət” stadionunda keçirilən oyunların təsvirini verəndə Allahverdini belə xatırlamışdım:

“Komandanın ağsaqqalı Allahverdi Bağırov olmasaydı, belə çətin oyunlarda stadion əhlinin qabağını kəsmək mümkün olmazdı. Bir dəfə hələ komandasının adı “Damcılı” olanda Qazaxda Ağdamın oyunçularını döyüb avtobusun şüşələrini sındırmışdılar. Bütün şəhər cavab görüşü səbirsizliklə gözləyirdi. Allahverdinin bir kəlmə andına rəqib oyunçulara bir çırtma belə dəymədi. Oyundan sonra yedirdib-içirdib yola salmışdılar. Bir neçə il sonra artıq adı “Göyəzən” olan Qazax komandasına SSRİ çempionatının ikinci divizionuna keçməsi üçün zəruri olan 2 xal da elə Ağdamda verildi”.

Deyirlər, bir vaxtlar dostluqları olan bir erməni Ağdamın işğalından sonra Allahverdinin qəbrini dağıtmağa qoymayıb, hər dəfə yolu düşəndə ora gül də qoyur. Düşmənin də ehtiram etdiyi oğullardan idi Allahverdi Bağırov!

Onu yaxından tanıyanlardan eşitmişəm ki, Allahverdidə qeyri-adi təəssübkeşlik vardı. Ağdamı öz namusu bilirdi. Görüb eşitdiklərimdən olan bu xatırlama da “Sağ qalan ləpirlər” essesindəndi:

“Bulvarın ayağında son dəbdə tikilmiş ikimərtəbəli restoranı Allahverdi Bağırov işlədirdi. Adamlar birinci mərtəbədə Gorus pivəsi içir, Bakı sosiskası yeyirdi. İkinci mərtəbənin stol-stulu, boşqab-nəlbəkisi, pərdə-tülü buranın ciddi yer olmasından xəbər verirdi. Ağdamın işgüzar adamları başqa yerlərdən gələn hörmətli qonaqlarını bura gətirirdilər. O vaxt danışırdılar ki, Allahverdi ağdamlılar haqda nalayiq danışan milis rəisinin müavini (adaşı imiş) çağırtdırıb elə burdaca mitilini atıbmış, qələtini başa salıb buraxıbmış. Dava başlayanda rəhmətlik buranı əsgər yeməkxanasına çöndərmişdi. Bəzən avtobusla əsgərlər gəlib burda yeyir, bəzən də bişirib səngərlərə hazır yemək aparırdılar”.

Allahverdi Bağırov yaddaşımda iki halıyla qalıb – Xocalıdan əvvəlki Allahverdi, bir də Xocalı qırğınından sonrakı Allahverdi. Millətin qız-gəlinini öz namusu bilən bir adamın o faciədən sonra yaşadıqları onun üzündə, gözündə yazılmışdı…

Ermənilər bilirdilər ki, Ağdama yol dava başlayanda özünümüdafiə batalyonları yaradan komandirlərin meyiti üstündən keçir, elə də oldu, biri də sağ qalmadı. Məndə bir inam var ki, onlar sağ olsaydı, şəhər işğal oluna bilməzdi.

Səndən sonra işğal olundu şəhərimiz, Allahverdi Bağırov. Hələ də işğal altındadır…

Sənin ad gününü təbrik eləməyə xəcalət çəkir adam. Amma inamım hələ də var ki, səni təbrikə başımızı dik tutub gələn vaxtımız da olacaq!

70 yaşın mübarək, komandir!

22 aprel, 2016

Karlskrona, İsveç

# Rəmiş

*Sənət, zaman, tale üçbucağında*

Ölüm var, öldürür – həyata son qoyur; ölüm də var, yaşadır – ömrə yeni həyat verir!

Ukraynalı jurnalist Dimitro Qordonun Vaxtanq Kikabidze ilə müsahibəsinə baxırdım. Söz Vısotskidən düşdü. Tanımayan gənc oxuculara deyim ki, Kikabidze də sovet dövrünün populyar müğənnisi, aktyoru olub. Amma şair, müğənni, teatr və kino aktyoru Vladimir Vısotski o vaxtın yarıdissident canlı əfsanəsiydi.

Jurnalist soruşur: "Rusiyanın indiki sənət ulduzlarına baxıram, Putini dəlicəsinə sevirlər, özü də bunu nümayiş etdirməyi xoşlayırlar. Necə düşünürsünüz, bu günlərə qədər yaşasaydı, Vısotski də Putini dəstəkləyərdimi?"

Kikabidze bir qədər düşünüb, "bilmirəm" deyir. Amma "yox, dəstəkləməzdi" demir.

Onların bu söhbətinə baxa-baxa Rəmişi xatırlayıram. Yeniyetməlik çağımızın kumirini.

***

"Vısotski azad olmayan sovet insanı üçün necə "azad adam" nümunəsiydisə, SSRİ-nin böyüdüyüm ucqar əyalət şəhəri Ağdamda gitarası ilə məşhurlaşan Rəmiş də eləcə azadlıq simvolu idi.

Səhnəyə uzun saçı, cins şalvarı, hətta "vyetnamka" şəpşəpisiylə çıxaraq sovetin sərt kültür stereotiplərini dağıdan, fərqli ifası, davranışı, həyat tərziylə dövrün standartlarından çox uzaqlaşan biriydi.

Gitara, istedad, xarizma, şöhrət, pul, nəşə. Sözüm bir təhər çıxmasın – adama daha nə lazımdır ki?!

Adama bir də, nəfəs lazımdır!

Rəmişdə bu nəfəs çatmadı, nə Vısotski ola bildi, nə də heç Viktor Tsoy…

Amma o vaxt o cür sənətkarları birləşdirən ümumi bir cəhət vardı – əsl azadlığın nə olduğunu bilməyən insanlara azadlığın üfüqlərindən xəbər vermək, onların qəlbində yeni, əvvəllər tanış olmadıqları duyğular yaratmaq kimi.

Visotskinin 42 illik ömründə tamamladığı yola Rəmiş 70 yaşında belə çata bilmədi. Bilmirəm kimin sözüdü, deyirdi ki, o, bağladığı qalstukla özünü intihar elədi. Ritorik yanaşmadı, razıyam, hər halda özünü Rəmişə oxşatmaq istəyən fanatik çətin tapılar indi.

Bu sözlər 6 il qabaq yazdığım "Yarımçıqlıq mərəzi" yazısının Rəmişə aid yerindəndir.

***

1986-cı ilin iyun ayı idi. Əsgər gedirdim. Biləcəri komissarlığında dedilər ki, növbəti göndəriş bir həftədən sonra olacaq. O bir həftəni Bakıda qalmadım, Ağdama getdim.

Qonşumuz Vahid əminin yenə hardansa qonaqları gəlmişdi. Onun belə məclisləri həmişə səsli-küylü keçərdi. Vısotskinin maqnitofon mahnıları, Rəmişin gitara çalğısı məhləmizi başına götürərdi.

Qəlbi sevgiylə dolu əsgər gedən 18 yaşlı xəyalpərəst bir oğlan təsəvvür edin. Bir də, o gecə sübhəcən açıq pəncərədən o oğlanın qulağına süzülən piano pıçıltılarını, gitara nalə-nərə çığırtılarını dinləyin.

Pəncərənin ağzındakı divanımızda qollarımı başımın altında çarpazlayıb armud ağacının yarpaqları arasından boylanan Aya baxırdım. Xəyalən Ay işığını səmt alıb ona sarı, ondan da o yana – ulduzlu göylərə uçurdum.

Nələr düşündüyümü indi xatırlamıram, bir onu xatırlayıram ki, mən ulduzlara doğru uçduqca gitara siminin dartınıb uzanan dəmir səsi də yanımca gəlirdi. Səsi ulduzlara Yer üzünün sevgi naməsiymiş kimi aparırdım.

Rəmiş idi, yenə "dəli kimi çalırdı"! Onun o gecədəki o dəli çalğısını dinləyən hər kəs mənim sevgi ritmində vuran ürək döyüntülərimi, bir də ulduzların sükunət səsini eşidərdi.

Adaşım Rəmişin ogecəki piano ifalarını ayrıca yazmışdı kasetə, bir nüsxəsini də mənə bağışlamışdı. Əsgər getməyimin şərəfinə. Evimizdə kirayə qalan "muzuçilişa"nın pianoçu tələbə qızları heyrətlə qulaq asırdılar ona. Qayıdanda o kaseti tapmadım, elə heyifsilənirəm ki.

Bu, Rəmişin Leninqrad sərgüzəştləri haqda şəhərdə yeni söhbətlərin dolaşdığı vaxtlar idi. "Ermitajda royal görüb nətəhər çalıbsa, xarici turistlər muzeyi unudub onun başına yığılıbmışlar".

Leninqrad dedim, "Lenfilm" yadıma düşdü. Bir də onu danışırdılar ki, 1982-ci ildə "Lenfilm"in çəkdiyi "Nikkolo Paqanini" filminə baş rola Rəmiş çəkiləcəkmiş. Rejissora şəxsən Müslüm Maqomayev tövsiyə edibmiş. Rəmiş getməyib, əvəzində erməni aktyor Msryanı çəkiblər.

Belə-belə söhbətlər vardı Ağdamda.

***

"Ruhlar şəhəri" kitabının Ağdamın musiqi dünyasına həsr olunan bölümündən:

"Rəmiş 1960-1970-ci, uzağı 80-ci illərdə tez-tez düşdüyü qəzaların birindən sağ çıxmasaydı, indi Azərbaycan mətbuatı ona "vaxtsız ölən virtuoz sənətkar", "bəxtsiz maestro" kimi epitetlərlə dolu yazılar həsr edərdi. Doğum günündə festivallar təşkil olunardı. El arasında əfsanələr artıb cild-cild olardı: "Yaşasaydı, Zeynəbin yox, Madonnanın ansamblında çalardı", "Erik Klipton onun yanında əlinə gitara almayıb" kimi. Ya da o vaxt Ağdamda danışılanlar sayaq: "Barmaqlarından qan dama-dama nətəhər çalıbsa, xəbəri olmayıb", "Moskvada yəhudi toyunda ona qulaq asmırlarmış, qəfildən İsrailin himninə keçib, hamını ayağa qaldırıb".

Bunların heç biri olmadı, nə qəzetlər onu yazdı, nə də camaat bunu dedi, çünki Rəmiş ölmədi, sağdı".

***

Kikabidzenin sözü olmasın, mən də bilmirəm, 1980-ci ildə ölməsəydi, bu günə sağ çıxsaydı, Vısotski Putinsevər olardı, ya yox. Amma dəqiq bilirəm ki, Rəmiş də SSRİ epoxasında qalsaydı, onun "qalstuk taxmağı" bir yana, rəhbərin qəbrinə gül qoyması kiminsə ağlına gəlməzdi.

Sənətkar və zaman qəliz mövzudur. Sənətkarın zaman sınağından çıxması da həmçinin. Mən də girişmirəm bu söhbətə, eləcə deyirəm ki, Rəmiş Azərbaycan musiqi zirvəsinə adını yazmış sənətkardır. 1930-cu illər Amerikasının “biq-bənd” estrada ansambllarında həyat vəsiqəsi qazanmış Qərbin elektro-gitarasını milliləşdirən, şərqləşdirən sənətkar.

**May, 2021**

# Aqil Abbas haqqı

1985-ci ilin yayı idi. Sənədlərimi universitetin jurnalistika fakültəsinə verib, imtahanların vaxtını gözləyirdim. Atam da Ağdamda rahat oturmayıb arxamca gəlmişdi. Onun gəlişinə əmimgil həmişəki qaydada böyük məclis qurmuşdular. Xeyli adam vardı. Məclisin şirin yerində söz mənim universitetə girməyimdən düşdü.

Söhbətlərdən anladım ki, jurnalistika fakültəsi qohumlarımın ürəyincə deyil. Biri milis rəisi, o biri Bakı rayonlarından birinin ticarət müdiri-filan. Rəis əmim "hüquq", tacir əmim "narxoz" (indiki İqtisad Universiteti) deyib durdu. Başqa qohumlar da onlarla birləşib atamın saqqızını oğurladılar, məni jurnalist görmək istəyən balaca dayımdan başqa.

Məclis hökm çıxardı: "Səhər sənədlərini jurnalistikadan götürüb hüquqa verirsən!"

Səhəri dirigözlü açdım. Heç çay da içmədim. Özümü "Elm və həyat" jurnalına çatdırdım. Onun yanına. Hələ gəlməmişdi. Gözlədim. Gəldi. Üzümdə nə oxudusa, "Xeyir ola, sabah-sabah", dedi.

Axşam olanları danışdım. Bir yanda arzularım, o biri yanda atam və qohumların çıxardığı hökm. Sözü birbaşa kəsə dedi. Dedi, xoşun gəlir jurnalistikadan, jurnalist olmaq istəyirsən? Bax əmilərin kimi pullu olmayacaqsan, amma hörmətin, zövq aldığın işin olacaq, partiya, yüksək vəzifələr filan da ola bilər.

Dedim, istəyirəm. "Onda, sənədlərini geri götürmə. Özünə arxayınsansa, götürmə. Evdə deyərsən ki, verdim hüquqa. Girəndən sonra səni öldürməyəcəklər ha", - dedi.

Elə də elədim. Götürmədim. Amma atama yalan da deyə bilmədim. Onu yola salanda həqiqəti söylədim. İndiyədək gözümün qabağından getmir onun baxışları. Əvvəl duruxdu, heç nə demədi, fikrə daldı, sonra gülümsəyib maşınına oturdu. Sürüb getdi Ağdama.

Dərslərin başlamağına günlər qalırdı. Axşam "Elm və həyat"dan çıxıb filarmoniyadan üzü aşağı "Azneft" çayxanasına gəldik. Söhbəti universitet müəllimlərindən saldı. Dedi ki, sənə dərs deyəcək müəllimlərin hamısını tanıyıram. Yaxşı müəllimlərin olacaq. Dərsini oxu, kiminlə problemin yaransa mənə deyərsən. Bircə bir nəfərdən özünü qoru. Ağdamlılardan xoşu gəlmir. Çalış ilişmə ona. Adı Ziynət Əlizadədir.

Birinci semestr uğurla bitdi. İkinci semesrtdə Ziynət xanım imtahandan məni kəsdi. Bir neçə dəfə dərsində dilimi dinc tutmamağım, kurs işlərində sitatları qəsdən onun sevmədiyi Əkrəm Əylisli, Ramiz Rövşəm, Vaqif Cəbrayılzadədən gətirmələrim öz işini gördü. "Sən heç cümlə də yaza bilmirsən ki. Səni kim götürüb bu fakültəyə?", - sözü bu oldu.

O vaxtacan onun üzündə təlaşa bənzər bir şey görməmişdim. Ziynət Əlizadədən kəsildiyimi biləndə dilxor oldu. Əvvəl ona demək istəmirdim. Ziynət xanımın yanına gedib kişiyana söhbət eləməyim, əsgər getməyim, dilə tutmağım işə yaramayanda məcbur qalıb sözü açdım. "Mənə deyir, səndən tələbə olmaz, qovmaqla hədələdi".

Araya xilaskar mələk kimi girdi. Məni Ziynət xanımın caynaqlarından xilas elədi.

Əsgərlikdən dönəndən sonra əyani oxumağa da qoymadı. "Təzə qəzet açıram, səni də, Yusifi də müxbir götürəcəm, keçin qiyabiyə".

Və beləcə “Ədalət” qəzetində müxbir yazıları, “Gənc publisistin düşüncələri” rubrikasıyla silsilə məqalələr yazmağa başladım.

…O vaxtdan çox illər keçib, çox sellər-sular axıb. İndi mənimlə arası yoxdu, incikdir, bilirəm. İctimai-siyasi baxışlarımız tamam fərqlidir. Bəlkə də, onun haqqında yazı yazmağımın belə ona zərəri olacağını düşünər. Mənimsə tək ehtiyat etdiyim bir ünvan var – özüm! Mənə bu yazını yazdıran da elə odur!

O vaxt atamgilin sözünə qulaq asmadığım kimi, sonralar onun da sözlərini dinləmədim. Amma bu fikir ayrılıqları, bəzən lap ciddi ziddiyyətlər belə mənim ən ülvi uşaqlıq, gənclik duyğularıma kölgə sala bilməz. O duyğuların arasından həmişə onun iri, gülər gözləri görünür.

Çox adam onu yalnız Milli Məclisin iclaslarından görüb seyr etdiyi kimi tanıyır. Mənim baxdığım yerdən isə onun o biri tərəfi görünür – ömrümün “Uzun qapqara saçlar” çağından qalan üzünü deyirəm.

1 aprel sənin doğum günündür. Səni təbrik edirəm, Aqil Abbas. Arzularından xəbərim var deyə başqa arzu diləmirəm, elə öz arzuların yetər. 70 yaşını arzularımızın şəhərində keçirək, heç olmasa, yerdə qalan ömrümüzü bu arzunun reallaşmasına həsr edək, sənin indiki susqunluğunla yox, davakar gənclik coşqunla.

Onda məni görməyi arzulamasan belə gələcəm!

Aqil Abbas haqqı, gələcəm…

**1 aprel 2020**

# Şeyximizin bəyənmədiyi azan sədası dünyanı dolaşır

Türkiyənin ATV kanalında yayımlanan "Karabağ'da okunan son ezan" süjetinə Rey Kərimoğlunun Facebook səhifəsində baxdım. Süjetdə Xocalı qətliamı günündə bu azanın 30-dan artıq ölkədə səsləndiriləcəyindən danışılırdı. "Nəhayət", deyib sevindim. Amma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nümayəndəsinin sözlərindən anladım ki, azan haqda komitədə dəqiq məlumat yoxdur. Bunu kimin oxuduğunu bilmirlər, təsadüf nəticəsində ortaya çıxdığını deyirlər. Yanlış fikirlər yayılmasın deyə ətraflı izahata ehtiyac duydum.

Birinci onu deyim ki, 1980-ci illərin sonlarında Şuşa və Ağdam məscidlərində səslənən bu azanı Hafiz Sədrzadə oxuyub. Qarabağda sevilən xanəndələrdən olan Hafiz şuşalı məşhur müctəhid Məhəmməd ağanın oğludur. Məhəmməd ağa erməni qırğınlarından qurtulmaq üçün Osmanlı Türkiyəsinə yardım diləyinə getmiş hörmətli adamlardan idi. Azan Sovet hökumətinin sonlarına yaxın Ağdama rəhbərlik etmiş Aydın Quliyevin təşəbbüsü ilə lentə yazılıb.

İndi ki, bu azan belə sevilib yayılır, Hafiz Sədrzadəni tanıtmağı özümə borc bilirəm. "Azan oxuyan göyərçin" adlı essemdə onu belə xatırlamışdım: "Hafiz Sədrzadə zil və yanıqlı səsiylə seçilirdi. "Zəminxarə"nin ustasıydı. Bir dəfə Şuşada, "Gəncə" qapısının ağzındakı restoranda dostları atamın xəstəxanadan salamat çıxması münasibətilə məclis qurmuşdu. Stolun mən oturan küncündən baxanda "Gəncə" qapısından üzüaşağı Qarabağın yamyaşıl dərələri, təpələri, bir də sonsuz üfüqlər görünürdü. Ayrı vaxt yüz dil töksən oxumayan Hafiz özü başlamışdı. Deməsələr bilməzdim ki, oxuduğunun adı "Zəminxarə"dir. Yaddaşımın ən məhrəm hücrələrindən birinin qapısını açıram sənə, ilahi səslə ilahi mənzərənin təmas nöqtəsini görürsənmi? …Sonralar məscidin minarəsindən azanı onun səsiylə verirdilər. Dinləyən kafir balası da islama gələrdi. Mən hələ o cür azan eşitməmişəm, nə İstanbulda, nə Səmərqənddə, nə də Sovetskidə".

Gətirdiyim sitatın da yer aldığı "Ruhlar şəhəri" kitabını yazanda, "Ağdam – Qafqaz Xirosiması" adlı sərgi hazırlayanda ağdamlılara köhnə fotolar, audio və video kasetlər üçün çağırış edəndə Surxay Əliyev belə bir azan yazısının olduğunu deyib, kimdənsə alıb gətirmişdi. Köhnə maqnitofon lentində yazılmış azanı diskə köçürmək müşkül idi, heç yanda onu oxudan maqnitofon tapa bilmirdim. Xeyli axtarandan sonra yalnız Mübariz Tağıyevin rəhbərlik elədiyi sovetdənqalma bir səs studiyasında diskə yazdıra bildim. Sağ olsun, həvəslə elədi bunu. Hafizin səsi məni necə havalandırmışdısa, müğənni dostumuzu da eləcə valeh eləmişdi. Diski götürməyə gedəndə elə bilirdim, Qarabağa gedirəm. Sevincimi aləmə car çəkməyə tələsirdim. Birinci Hafizə zəng elədim, yolda həyəcanla bu xəbəri ona dedim. Kaş Allahın altında, onun telefondakı səsini təsvir eləmək qabiliyyətim olaydı. Sanki bir uşaqla danışırdım. Nə qədər çalışdısa, hıçqırığını boğa bilmədi. Telefonu özüm qapatdım. "Sonra zəng edərəm" deyib qapatdım ki, çəkinməsin, təklikdə istədiyi qədər ağlaya bilsin.

Hafizin oxuduğu azan beləcə yayılmağa başladı: telefonlara yükləndi, youtube-də yerləşdirildi. Diskin birini də 2010-cu ilin 20 iyulunda, Ağdamın işğal günü ərəfəsində yazdığım məktubla Hacı Allahşükür Paşazadəyə şəxsən apardım. Məktubu olduğu kimi verirəm:

*"Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri*

*Şeyxülislam Hacı Allahşükür Paşazadə Həzrətlərinə*

*20/07/10*

*Möhtərəm Şeyx!*

*İyulun 23-də Ağdamın işğalının 17-ci ili tamam olur. Bununla əlaqədar olaraq, "İnam" Plüralizm Mərkəzi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə bir sıra tədbirlər keçirir. Vəcihə Səmədova adına Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda 23-30 iyul 2010-cu il tarixdə keçiriləcək "Ağdam – Qafqaz Xirosiması və ruhlar şəhəri" foto sərgisi, "Qafqaz Xirosiması" filminin təqdimatı bu tədbirlər sırasındadır.*

*Bu sərgiyə hazırlaşarkən bir çox dövlət və şəxsi arxivləri araşdırmışam. Tapdıqlarım arasında işğaldan əvvəl Ağdam və Şuşa məscidlərində səslənmiş azanın audio lenti də var. Bu azanı Qarabağın məşhur isimlərindən olan Məhəmməd ağa Mürşüdzadənin oğlu Hafiz Sədrzadə oxuyub.*

*Möhtərəm Şeyx! Bizdə belə əminlik var ki, üzümüzə gələn cümə, 23 iyul Ağdamın işğal günü Bakı məscidlərində həmin azanın səslənməsi müsəlmanların Ağdamı yad etməsi, inanclı adamların din və vətən sevgisinin bariz nümunəsi kimi əlamətdar hadisə olar. Təklif və arzumuza dəstək vermək imkanı olacağınıza ümid edirəm. Həmin azan diskdə bu məktuba əlavə olunur.*

*Dərin ehtiram və hörmətlə,*

*Vahid Qazi*

*"İnam" Plüralizm Mərkəzinin sədri"*

Səhəri gün Şeyxin köməkçisinə zəng elədim. Öyrəndim ki,  Şeyx də, Qazılar Şurası da dinləyib, amma səslənməsini münasib bilməyiblər. Belə əsaslandırıblar ki, ərəbcə yaxşı tələffüz olunmayıb. Əlim üzümdə qaldı, eşitdiyimə qulaqlarım da inanmadı. "Bu azan Ağdamda, Şuşada səslənən vaxtlarda da Allahşükür Paşazadə şeyximiz idi. Bəs o vaxt necə münasib bilmişdi? Bu illərdə onu oxuyanın ərəbcəsi beləmi pisləşib?"

İronik sualım havadan asılı qaldı.

…İndi "Xocalıya ədalət" kampaniyası çərçivəsində bu azan dünyanın otuzdan artıq ölkəsində, Bakı məscidlərində səslənəcək. Bu yazını da Şeyxə görə yazmadım, o da əhli rəsmilərimiz kimi Qarabağsevərdi, buna şübhəm yoxdu. Hafizə görə yazdım ki, sonra "naməlum ifaçının oxuduğu azan" deyilməsin.

**23 fevral 2013**

# Ağdama yol Bakıdan keçir

Camaatımızın təsəvvüründə erməninin qorxaq obrazı vardı. Gözümü açandan eşitdiyim "Erməni qan gördü" olub.

Böyüdüyüm mühitdə erməni kişisini işlək fəhlə, bacarıqlı usta; qadınını yaxşı turşu qoyan, kefin istəyən süfrə açan xoşrəftar kimi tanıdıblar.

İlk gördüyüm ermənin adı Cavanşir idi. Evimizin alt mərtəbəsindəki otağa qapı açırdı. Külüngü yerə qoyub əlinin arxasıyla alnının tərini silərdi. Bir suyu sovetin məşhur "Qaraçı" filminin qəhrəmanı Budulaya oxşayırdı.

Sadə, şirindil, gülərüz, qılıqlı, bir qədər də yazıq görkəmi vardı Qarabağ ermənilərinin. Bu adamların bir gün bizimlə torpaq davasına qalxacağı yüz il qala ağla gəlməzdi. Desəydilər şəhərimizin ən ürəyiyuxa sakini Qız Qulu Məhəmməd Əliylə rinqə çıxıb, elə birinci raunddaca onu basıb-döyüb; yaxud toylarda skripka çalan Dondi London orkestrinə birinci skripkaçı kimi dəvət alıb, inanardıq, amma usta Aşotun Stepanakert bazarında şoraba satan Haykanuşa qoşulub Qarabağı bizdən alacağı yuxumuza belə girməzdi.

Ramiz Rövşən "Ruhlar şəhəri" kitabına yazdığı ön sözdə ağdamlıları belə təsvir edib: "Şuşa Qarabağın ən gözəl, Ağdamsa ən varlı şəhəri sayılırdı. …Ermənilər Ağdamı axırıncı daşına, kərpicinə, taxtasına, mismarınacan söküb-aparıblar və o tikinti materiallarının hesabına Stepanakerti təzədən qurublar. Amma mən inanmıram ki, bu gün Ağdamın hesabına tikilmiş o evlərdə yaşayan ermənilər Stepanakerti də varlı şəhər saysınlar. Çünki varlı olmaq təkcə dəbdəbəli ev-eşiklə, pulla, malla ölçülmür. Bu həm də insanın içindən gələn bir hissdi, duyğudu. Hər halda mən bir vaxtlar "haralısan" sualına bütün Qarabağda ağdamlılar kimi qürurla, hətta bir az da təkəbbürlə cavab verənlərə rast gəlməmişdim. Və bəlkə də Ağdamı o cürə qəddarlıqla dağıdıb xaraba qoyan ermənilər ağdamlılardan həm də o qürurun, təkəbbürün acığını çıxmışdılar".

Hardan idi bu qorxmazlıq, ermənini ciddiyə almamaq?

100 il qabaqkı davadan nənə-babaların bizə ötürdüyü fikir bu olub ki, erməni qorxaqdır. Cümhuriyyət ordusu Xankəndini, Şuşanı azad edəndən erməni adamların yaddaşında imdad diləyən, yazıq kimi qalmışdı. Qiyam qaldıran ermənilər məhz o məğlubiyyəti dadandan – bizim sərt üzümüzü görəndən sonra beləcə məzluma dönüblər: "Erməni qan gördü".

Bizim tanıdığımız "yazıq" Qarabağ erməniləriydi. Yerevan ermənisi, Livan ermənisi, Fransa ermənisi, Kaliforniya ermənisi-filan görməmişdik. 100 il boyunca dünyanın dörd bir tərəfində erməni kilsələrindəki millətçi ideologiya təbliğindən, neçə-neçə siyasi partiya, birlik, fond yaratmalarından, hər rejimdə – kommunist (SSRİ), islamçı (İran), demokratik (ABŞ, Fransa) – hər ölkədə təşkilatlanmaq bacarıqlarından xəbərsiz idik.

Tariximizi də bilmirdik! Rus-sovet siyasəti, öz kommunist rəhbərlərimiz öyrənməyə macal verməyiblər, özümüz də tariximizə, taleyimizə biganə olmuşuq, unutmuşuq, maraqlanmamışıq. Bilməmişik ki, İrəvan xanlığında dövlət qurmağı bacaran ermənilər buna davamlı deportasiya siyasətləriylə nail olublar. Qulağımızın dibində eşitməmişik ki, ermənilər dəfələrlə Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırıblar. Bundan xəbər tutan rəhbərlərimiz isə susublar! Kremldə yerlərini şirin salmaq üçün ermənilərə öz xalqından qat-qat artıq imtiyazlar tanıyıblar.

"Xruşşov dövrünün Qarabağ şəhidi" yazısında bəhs etdiyim Nazim Hacıyev kimilərini çıxıram.

Bizim bilib tanıdığımız "qorxaq" Qarabağ erməniləriydi. Odur ki, 1988-ci ildə onların Xankəndidəki "Miatsum" mitinqinə Azərbaycanda ilk cavab Ağdamda verildi. Minlərlə insan əliyalın Xankəndiyə yürüş elədi.

Qarabağın Dardaneli (ifadə Məhəmməd Əmin Rəsulzadəyə aiddir – V.Q.) Əsgəranda nə baş verdi, sonra "şanlı" Azərbaycan milisi, DTK-sı o yürüşçülərin başına nə oyunlar açdı? Mövzudan uzaqlaşaram deyə bunlara toxunmuram. Bilmək istəyənlərə sadəcə "Azadlıq qiymətinə foto" yazısını oxumağı tövsiyə edirəm. Sonuncu Qarabağ yürüşündən sonra keçirilən həbslərlə paralellər aparmağı da oxuculara buraxıram.

O vaxt kimi dindirsən sözü bu olardı: Allahın ermənisinə bax, qudurub!

Ağdamın kolxoz sədrlərindən birinin "Günün ekranı" proqramına müsahibəsini xatırlayıram: "Nə səngər? Erməni kimdir ki, səngər qazaq".

Sən demə, elə bu dikbaşlığımızdan yaxşı xəbərdar olan erməni başbilənləri dizimizi yerə gətirəcək zəif yerimizi də yaxşı öyrənibmişlər, içimizə nifaq toxumu səpməyin yollarınacan bilirmişlər. Sanki bizi bizdən yaxşı tanıyırmışlar.

Onlar milli davada yumruq kimi birləşməyi, təşkilatlanmağı bacaranda, biz yumruqdan açılmış barmaqlar ətrafında toplaşıb bir-birimizlə hakimiyyət davasına qalxdıq. Nəticə – bu günümüzdür!

Ağdamın növbəti işğal günündə bunları niyə xatırlayıram?

Ağdam müsibətindən – 23 iyul 1993-cü ildən bir neçə gün sonra çəkilən bir video var. Bir ayağını hələ 1 il əvvəl Xromord döyüşündə itirmiş Azər yana-yana danışır. Deyir ki, bir kilometrlik bu səngərdəkilərin hamısı ağdamlıdır, hamı ailəsini qohum-əqrəba, dost-tanış evində, çadır şəhərciyində yerləşdirib qayıdıb.

"3 kəndi geri aldıq 2 saata, əmr gəldi ki, dayanın" deyir. Soruşur, nəyə görə? Deyir bizə heç nə lazım deyil, silahımız da, texnikamız da var, mane olmasın rəhbərlik, imkan versin, oyun oynamasınlar, şəhərimizi geri alaq.

Sonra bilirsiniz nə oldu? Bu döyüşkən batalyon da darmadağın edildi o biriləri kimi. Azərin yanındakı batalyon komandiri Cəfər öldürüldü, döyüşçülər pərən-pərən salındı, tutuldular, güllələndilər, qaça bilən canını götürüb qaçdı. Bunu kim elədi?

İyulun 12-də Tovuz sərhədindəki döyüşlərə xalqın reaksiyası 27 il əvvəl çəkilmiş o videodakı oğulların qələbə əzminin bu gün də ölmədiyini göstərdi. Hər belə döyüşdə şəhid olmayınca tanımadığımız neçə-neçə oğullar üzə çıxır. Mübariz İbrahimov, Raquf Orucov, Polad Həşimov kimi…

Son olaylar neçə ildir bəzən tərəddüdlə yazdığım "Qarabağa yol İrəvandan, Moskvadan yox, Bakıdan keçir" inamımı möhkəmlətdi.

İşğalının 27-ci ilində bir daha əmin oldum ki, Ağdama yol Bakıdan keçir! Bu yolu keçməyə xalqın əzmi var, bir çatışmayan bu əzmi qələbəyə çevirməyə hünəri yetən liderin olmamasıdır.

Qələbə ruhu ölməyən, enerjisi aşıb-daşan xalq öz liderini də ortaya çıxaracaq. Təki o ruh ölməsin, enerji tükənməsin!

**İyul, 2020**

# Azadlıq qiymətinə foto

*Müstəqilliyə aparan yolun ilk qurbanları Əli və Bəxtiyarın xatirəsinə*

Ömrün ayrı-ayrı anlarına güzgü tutan xatirələrimiz kolleksiyaçıların topladığı bahalı əşyalar kimidir. Onları pulumuz, vaxtımız hesabına, bəzən də lap həyatımız bahasına "alıb" xatirələr muzeyinin eksponatına çeviririk. Elə-belə, "müftə" olanı, "nəfə" qalanları daha çoxdur, beləsindən danışmıram.

Şirinli-acılı min-min xatirənin içində ən yadda qalanı ən "baha" alınanıdır. Xatirələrin dəyəri ona çəkilən "xərc"i gözəyarı da olsa qiymətləndirəndə bilinir. Bunu hər kəs hesablaya bilər.

Bax, mən Rumıniyanın Braşov kurort şəhərində dostların fantastik məbləğ deyib imtina elədikləri bir gecəlik xatirə üçün cibimdəki pulun, yalan olmasın, hamısını xərcləmişdim.

Ağdamdan Şuşaya qalxanda vertolyota dəyən güllənin doğurduğu xatirə lap "baha çıxmışdı" – bütün ömrə çatası qorxunu bir neçə dəqiqədə "israf" eləmişdim.

Krımda dağ başındakı Çufut-Kala muzey-şəhərinin sehrinə düşmək üçün isə qızıl kimi neçəsə saatımdan keçmişdim.

Amma bu yazıda öz xatirələrimdən yox, başqa birinin hələ 24 il əvvəl bir ətək pul töküb aldığı fotosunun yaşatdığı xatirədən söz açacam.

***

Uzun illər öncə bir çex dostum Milan Kunderadan yerlisi kimi fəxrlə danışanda, onun eyni adlı əsəri əsasında çəkilmiş "Varolmanın dözülməz yüngüllüyü" filminə baxmağı tövsiyə edəndə heç ağlıma da gəlməzdi ki, orda cərəyan edən siyasi hadisələr bir vaxtlar Ağdamda yaşadığımız olayların oxşarıymış. İllər uzunu heç bir kanalda rastlamadığımın səbəbini dünən bir də baxanda bildim – filmin xeyli erotik səhnələri də varmış.

Bu yazının ərsəyə gəlməsinə səbəb internetdə baxdığım həmin filmdəki bir epizod oldu – xüsusi xidmət orqanı əməkdaşları 1968-ci ilin məşhur Praqa nümayişlərində iştirak edənləri çəkilən foto və videolardan müəyyən edib tuturdular.

Çexoslovakiya lideri Dubçekin siyasi islahatları, cəmiyyətin liberallaşması insanlarda SSRİ-dən asılılığı azaltmağa, azadlıqların bərqərar olmasına ümid yaratmışdı. Çox çəkmədi, ümidlər "Brejnev doktrinası" ilə 300 min əsgərin çəkməsi, 7 min tankın tırtılı altında qaldı.

Praqanın qanlı baharı 20 il sonra, 1988-ci ilin fevralında Ağdamda təkrarlandı.

Sabahın dalğası dərya dərinliklərində bu gün toparlanır. Ağdamda minlərin başladığı mitinq sonra Bakıda milyonların etiraz dalğasına çevrildi.

Həmin ilin 21 fevralında Ağdamda müasir Azərbaycan tarixinin ilk etiraz mitinqi keçirildi. Səhəri gün Stepanakertə sarı izdihamlı yürüş qərarı da elə o mitinqdə verildi.

Eynən Praqadakı kimi burada da yürüşün qarşısına sovet-rus ordusu çıxdı. Azərbaycanın müstəqilliyi ilə sonuclanacaq yolun başlanğıcında ilk qurbanlar Əsgəran qalası yaxınlığında verildi – Əli, Bəxtiyar öldürüldü, Sahib Şükürov, adını bilmədiyim neçə-neçə adam yaralandı.

Yürüş silah gücünə dayandırıldı! Etiraz səsləri batırıldı! Arxasınca kütləvi həbslər başladı!

İstintaq vaxtı adamların mitinq-yürüşdə iştirakı gizli çəkilmiş fotolarla sübut edildi. Vətənin müdafiəsinə qalxanlar dövlət əleyhinə hərəkətdə ittiham olundular. Praqa hadisələri ilə oxşarlıq elə buradaca bitdi!

Bundan o yana hadisələr Azərbaycansayağı cərəyan elədi. Pulu olmayan tutuldu, pul tapan azadlığını satın aldı. Deyilənə görə, o hadisədə mitinqçilərdən yığılan pul 1970-ci illərin maddi-mənəvi mirası olan pambıq "pripiska"sından əldə olunan gəlirdən də çox imiş.

Bu, torpaq təəssübü çəkən insanların inamını əzmə, iradəsini sındırma, vətəndən incik salma siyasətinin başlanğıcı idi.

Sonra vətənsevənlər bir-bir sıradan çıxarılacaq, vətənin başına vətənsoyanlar gələcəkdi.

Müharibəsi bitməyən ölkədə qəhrəmanlar fərarilərə nökər olacaqdı!

Bu gün ölkəni idarə edənlər arasında vətən uğrunda müharibədə, müstəqillik yolunda mübarizədə iştirak edəni varmı? Amma hakimiyyət zirvələrində müstəqilliyin əleyhinə səs verən, bayrağı təhqir edən, xalq hərəkatı iştirakçılarını tutduran nə qədər desən hakimi-sahib taparsınız!

Çexiyada, oxşar tale yaşayan başqa ölkələrdə belə olmadı. Həbs olunanlardan rüşvət alıb buraxmadılar, mövcud qanun və siyasət çərçivəsində hərəkət etdilər. Sonralar bu siyasət cinayət elan olunacaq, qanunlar qüvvədən salınacaq, arxivlər açılıb gizlinlər aydınlığa çıxarılacaq, həmin dövrün hakim zümrəsi xalqın ictimai qınaq obyektinə çevriləcəkdi. Bu qınaq o qədər güclü olacaqdı ki, o vaxtın hakimiyyət təmsilçiləri yeni cəmiyyətdə yaşamağın tək yolunu xalqın lənətlədiyi soyadlarından ailəlikcə imtina edib, tanınmamaq üçün yenisini götürməkdə tapacaqdılar.

Bizdə isə tamam əksinə oldu. Əksi elə bu günümüzdür…

***

Yazı-pozu adamı olduğumu bilən bir tanışım neçə il əvvəl mənə bir şəkil göstərmişdi. Şəkildə o, çoxlu adam əhatəsindəydi. Danışırdı ki, bu fotonu "keqebeşniklər" 1988-ci ildə Ağdamdan Stepanakertə yürüş vaxtı çəkiblər. Sonra onu tutublarmış. Fotonu göstərib yürüşdə iştirakını sübut ediblərmiş.

"Qohum-əqrəbadan, dost-tanışdan istədikləri məbləği topladım. Pulu verəndə müstəntiqdən xahiş elədim ki, o şəkillərin birini mənə versin. Vermək istəmirdi, "istintaq materialıdı" deyirdi. Uzun çək-çevirdən sonra ala bildim. Bax beləcə, şəkil mənə bir "Jiquli"nin qiymətinə başa gəldi".

Həmin dövrdə Ağdamda o istintaqı aparanlar, onların rəisləri, o rəislərin nazirləri, həmin nazirləri yetişdirən siyasi rejim yönəldiciləri istintaq bir yana, heç xalq qınağına da tuş gəlmədi! Onlar çex həmkarları kimi nəinki soyadlarını dəyişdilər, əksinə, fəxrlə soyadlarını tarixə, tarixin ironiyasına bax, özü də müstəqil Azərbaycanın tarixinə yazdırmaqdadılar.

…Sonra da bəlalarımızın səbəbini orda-burda, onda-bunda axtarırıq.

**Burserid, İsveç**
**23 iyul 2012**

## Boşluqda sallanan ümid

Yurd nisgili sancılı ağrıdır. Varlığını hər an duydurur. Canlıdır elə bil. Qəlbində, beynində, duyğularında yaşayır. Yaşayır, demək boy verir. Boyu qalxdıqca ömrü də uzanır. Bu gün onun 20 yaşıdır. "Doğuluş"unu belə xatırlayıram.

...Ağdam işğal olunan gün Prezident Aparatında dövlət müşavirinin köməkçisi kimi son iş günümü başa vurdum. Bir neçə həftəydi ermənilərin hücumu ara vermirdi. Əvvəllər şəhərə belə irimiqyaslı hücum olmamışdı. Bu o vaxt idi ki, yerli özünümüdafiə batalyonları ləğv edilmiş, əvəzində rayona Surət Hüseynova tabe olduğu söylənən hərbi birləşmələr yeridilmişdi.

Döyüşlər şəhər ətrafında getdiyi zaman təkcə poçtdakı tele   fonçu xanımla əlaqə saxlaya bilirdim. Onunla söhbətim ağır keçirdi. Hər an tənəli bir söz deyəcəyini gözləyirdim. "Burda sənin şəhərin döyüşür, sən də Bakıda oturmusan" deməliydi. Amma demirdi. Bəlkə də elə bilirdi ki, Prezident Aparatındakılar daha ciddi işlərlə məşğuldular. İndi də səsini eşidib, üzünü görmədiyim o qadın yadıma düşəndə, nə gizlədim, utanıram.

Əvəzində isə o, başqa sözlər dedi. Yəqin onun səsi ölənəcən qulağımdan getməz: "Ermənilər şəhərə girir... Ağdamı tutacaqlar... Şəhəri Surətin adamları talan edir... Tək qalmışıq... Əliyevə deyin, bizə kömək eləsin... Onun xəbəri yoxdur!"

Telefonçu xanımın ürək paralayan sözlərindən sonra Prezident Aparatına gələn yeni tip müsafirlərin söhbətləri adamı dəhşətə gətirirdi. Hakimiyyət dəyişikliyindən sonra bura gələnlər hər baxımdan fərqli adamlarıydılar. Onların yalnız bir söhbəti vardı – vəzifə. Bahalı odekolon qoxulu keçmiş sovet məmurlarını sanki kimsə sehirli çubuqla dirildib bura göndərmişdi. Elə bil erməni hücumları onları narahat eləmirdi. Müharibə Azərbaycanda yox, uzaq Vyetnamda gedirdi. Bu qədər vəzifə düşkünü haradaymışlar belə? Metastaz verən xərçəng orqanizmdəki xəstə hüceyrələri bir yerə toplayan kimi hansı qüvvəydi onları bir yerə cəmləyən?!

Cəmi bir neçə ay öncə isə burda başqa hava vardı. Cəbhədə hər təhlükəli vəziyyət yarananda Prezident Aparatı, xüsusən də bizim ərazi idarəetmə xidməti hərbi qərargahı xatırladırdı. Dövlət müşaviri Arif Hacıyev dərhal təhlükəli bölgəyə gedir, bizə də həmin bölgənin bütün rəhbərlərini səfərbər etməyi tapşırırdı. Təhlükə sovuşanacan yerimizdən tərpənmirdik, gərgin günlər, saatlar yaşayırdıq.

...23 iyul 1993-cü il burada axırıncı iş günüm oldu. Telefonçu qadın daha zəngimə cavab verməyəndə Ağdamın tutulduğunu anladım. Doğulub böyüdüyün şəhəri gözgörəti itirmək yazıyagəlməz dəhşətli isterik hal idi. Şəhəri qorumaq, vuruşmaq əvəzinə vicdanı abort olunmuş vəzifəpərəst insan yığnağında oturmuşdum.

Ağdama etdiyim son zəngə cavab verilməyəndə yeni dövlət müşaviri Arif Rəhimzadənin otağına girdim. Vəziyyəti danışdım. Mənsiz də xəbəri varmış. Boz adamların baxışları da boz olur. Elə bildim sözü qaya parçasına deyirəm. Verdiyi sərt cavabı səbir kasamı daşırdı. Burda yazılması mümkün olmayan sözlər dedim. Sonra da qapısını çırpıb o gedən getdim. İki ay sonra dövlət katibi Lalə Şövkətin əmriylə ixtisar olundum.

...Bakıda qaçqın qohum-əqrəbanı, qonum-qonşunu, el-obanı qarşılamaq bir başqa əzab idi. Dünənədək şad-xürrəm yaşamış insanları səfil kökündə görmək ürək paralayırdı. İctimai təşviş mühitində insanı şüur yox, instinkt idarə edir. Yataqxanalarda, sanatoriyalarda yer tapmaq üçün insanlar abırdan gedirdilər. Böyük mülkləri qoyub gələnlər indi dar zirzəmiyə ümidliydilər.

Erməni zülmü bir yana, həmin günlərdə Bakıda şahidi olduğum polis vəhşəti daha ağır idi. Polis Yeni Yasamala toplaşan qaçqınlara divan tuturdu. Erməni gülləsindən qaçanlar öz polisinin təpiyinə, dəyənəyinə tuş gəlmişdi. Bütün bu baş verənlər şəhəri dolaşan "Qaçqınları Bakıya buraxmamaq göstərişi var" kimi şayiələrlə müşayiət olunurdu.

Yeni Yasamala çatanda polislər Famil Mehdinin səyi ilə müvəqqəti çəkilib getmişdilər. Adamlar öz aralarında yarımçıq tikililərdə mənzil bölgüsü aparırdılar. Siyahı tutan tanışım həvəslə "öz binalar"ından mənə mənzil təklif elədi. "Bir az gecikmisən. Evlərin yaxşısı tutulub. Amma bu evin doqquzuncu mərtəbəsində birotaqlı mənzil boşdur. Gəl, oranı sənə verək".

Sovet vaxtından yarımçıq qalmış ev idi, yalnız dörd mərtəbəsi tikilmişdi. Başımı qaldırıb havada mənə verilən "ev"ə baxmışdım. Evim olası hündürlükdəki boşluq göy üzünün ənginliklərinədək uzanırdı.

***

Sabahı 23 iyula açılan bir gecədən 20 il əvvəlki günlərə baxanda da eynən həmin boşluq görünür. Hər gün mənzilim olası hündürlüyün boşluğundan dövlət rəsmilərinin müharibə ritorikalı vədləri, "lazım gələrsə" pafoslu sözləri kağız "quş"lar təki elədən beləyə, belədən eləyə uçur.

Mənimsə bu boşluqdan süzülüb yırtılmış bayraq kimi tək ümidim sallanır...

**23 iyul 2013**

# Fellininin Qarabağdan keçən "Yol"u

*Görəndə İsa Məsihə deyəcəm ki...*

Qış aylarında ağaclar yarpaqsız olurdu deyə evimizin pəncərəsindən uzaq Xıdırlı dağlarının qarlı zirvələri aydın görünürdü. Bayram günlərində, başqa qonaqlıqlarda taxtapuşa saman altda qışa saxladığımız alma, heyva, nar düşürməyə çıxanda o qarlı dağları ətəklərinəcən rahatca seyr edə bilirdim. Soyuq olduğundan dama çıxmazdım, eləcə taxtapuşun dama açılan yumru nəfəsliyindən başımı çıxarıb qarlı dağlara tamaşa edərdim.

Qar dağların ilahi haləsidir, sanki onun müqəddəslik yarlığıdır. Bu fikir ağlıma sonralar gələcəkdi…

Federiko Fellininin "Yol" filmində bir yer var. Filmin qəhrəmanları sərgərdan sirk artistləri – rəhmsiz, qoluzorlu Zampano, ona baraban, şeypur çalmaqla assistentlik edən uşaq qəlbli, mələk üzlü Gelsomina qarlı təpələr, dağlar fonunda dağılmış evin uçuq divarları altında gecələyirlər. Zampano qızı anasından neçə min lirəyəsə almışdı.

Yox, fikrim filmdən danışmaq deyil, zəif Xeyirin güclü Şəri yenməsinə aid çox nümunələr bilirsiniz. Mən o filmin məhz qarlı dağlar fonunda dağılmış evin divarları əks olunan o kadrları, bir də o divar dibində Zampanonun Gelsominaya söylədiklərini yadınıza salmaq istəyirəm. Dünənəcən qızla kobud davranan, gözünün qabağında qadınlarla əylənən allahsız Zampano mərhəmətə gəlib on gündü kədərə qərq olmuş Gelsominadan soruşur: "İstəyirsən səni evinə aparım? Anana qayıtmaq istəyirsən?"

…Uzun illərdi Ağdamın qışını Xıdırlı dağları ilə xatırlayıram. Bəlkə, yüz kərə evimizin uçuq divarlarına qısılıb o qarlı dağlara baxmışam xəyallarımda. Yuxuya keçmişəm beləcə. Amma mənə "İstəyirsən səni evinə, anana aparım" deyən olmurdu.

Yutubda jurnalist Səadət Məmmədovanın "Ağdam və mən" filminə baxıram. Bir yerində uçuq evlər fonunda qarlı dağlar görünür. Səadət mənim 30 illik "xəlvəti yerimi" faş edib hamıya göstərirdi sanki. "Yerimi" tapmışdı, bəs o uçuq divara söykənib üzü qarlı dağlara baxan yerdə don vurmuş balaca Vahidi necə, görmüşdümü görən?..

***

Belə bilirəm, böyük sənətkarlarda istedad vicdanla təndir. Hər halda bacardıqca vicdanlarını satmamağa çalışırlar. Sovet dövrünün məşhur aktyoru Armen Cigərxanyan belələrindən idi, məncə.

Bir dəfə Qarabağ münaqişəsinin həll yolları barədə suala cavabında İsa peyğəmbərin bu sözlərini misal çəkmişdi: "Sənə ağırdısa, yanıma gəl, əlindən tutum, keçirim, kömək edim, amma… GERİYƏ BAXMA!" Sonra da əlavə eləmişdi: "Geriyə baxma! İsa bizə xəbərdarlıq edir ki, çevrilsən, mütləq nəsə mane olacaq".

Əgər doğrudan da o biri dünya varsa, mütləq tapacam o qoca aktyoru. Deyəcəm: "Apar məni İsanın yanına". Aparacaq – dedim axı vicdansız deyildi. Bax onda, o böyük erməni sənətkarının yanında müqəddəs İsaya bir söz deyəcəm.

Deyəcəm ki, Sənin "Geriyə baxma" təliminə əməl elədik. 100 il qabaq ermənilərin Qarabağda, Bakıda, Qubada, Zəngəzurda, Urmiyada və başqa neçə yerdə qanına qəltan etdikləri on minlərlə Azərbaycan qadınını, uşağını, qocasını unutduq – GERİYƏ BAXMADIQ. İndi Tanrının bu uca

dərgahından özün əyil, aşağı bax! Gör 100 il sonra daha nələr etdilər, Sənin dininə ilk gəldiklərini iddia edənlər! O aşağıda gördüyün mənim şəhərimdir. Xarabazara çevrilən şəhərimdə insan nədi, quş da qalmayıb, ağac da. Qəbirdən babalarımın, Sənin mələklərinə bənzəyən ayüzlü Münəvvər nənəmin sümüklərini belə çıxarıb aparıblar. Yerini şumlayıblar.

Sonra əlimi İsa Məsihə uzadıb deyəcəm: "Gəl, əlindən tutum, səni şəhərimə aparım. Müqəddəs kitabında bəhs etdiyin Qiyamət gününün şəhərinə. Bu qoca aktyor da gəlsin bizimlə. Birlikdə gəzək ruhlar oylağını. Sən Tanrı oğlusan, bacararsan, bir ilahi əfsunla dirilt bu ruhları, qaytar hər şeyi əvvəlki yerinə qoy. Evimin damından bir də görüm qarlı dağları. Söz verirəm – yenə GERİYƏ BAXMAYACAM".

…Əvvəllər – şəhərin evləri, meşə kimi sıx bağları olanda o dağlar çox uzaq görünürdü. İndi nə o evlər var, nə dağları gizlədən ağaclar – dağlar yaxındılar. Elə bil şəhərin ölüm harayına çatmaq üçün dağlar da ayağıyalın yüyürüb gəlibmişlər!

***

Bu gecə yenə o uçuq divarın dibində yatmışdım. Bir əl silkələyib oyatdı məni. İsa Məsih idi. Soruşurdu: "Evinə qayıtmaq istəyirsən aparım səni?"

Eynən Gelsominanın Zampanoya cavabı kimi dedim: "Mən də getsəm, bəs Səninlə kim qalacaq?"

Evimə – Qarabağa gedən yolun yarıda qaldığını isə ona deməyəcəm, giley olar. Elə işlər var ki, Tanrılıq deyil, onu bəndələr özləri etməlidilər. Yarım qalan yolu sonacan getmək kimi…

**Mart 2021**

# Xankəndi

*İkinci yazı*

Yayda nənəm Bakıdan bizə gələrdi. Gəlişi günlərimizi gur, şən edərdi. Qohum-əqrəba, qonum-qonşu onu görmək üçün bizə yığışar, yaxud da qonaq aparardılar. Ağdamdakı tay-tuşları nənəmi gah Ordubad qızı, gah da Tiflis gəlini çağırardılar. Bu sözləri ən çox qonşumuz Ağca xaladan eşitmişəm.

Ordubadda doğulan nənəmi valideynləri öldüyündən Tiflisdə yaşayan əmisi böyüdüb. Babamla da elə Tiflisdə tanış olublar, özü də "Leyli və Məcnun" operasında. Əmisi arvadı uzaqdan babamı göstərib "Əmin səni ona vermək istəyir" deyibmiş.

Nənəmin gəlin köçdüyü ev durur, uşaq vaxtı atam göstərmişdi mənə. Tiflisdə, keçmiş Şeytanbazar məhəlləsindədir.

Sonra Azərbaycana gəliblər. Babamgilin Şuşadakı mülklərini bolşeviklər əllərindən aldıqlarından Ağdamda yaşayıblar.

Nənəmin uşaqlıq xatirəsində Ordubaddakı həyətləri ərik ağaclarının çiçəkləyən halı ilə qalmışdı. Qəribədir, həyətimiz mənim də yadımda daha çox armud ağaclarının çiçəkləriylə qalıb.

Huşum getdi nənəmin şirin xatirələrinə. Xankəndidən danışırdım axı sizə.

Günəşli yay səhəriydi. Nənəm balkonda qaynatdığı samovar çayından içirdi. Mən də səhərin gözü açılar-açılmaz həyətdə diyircək sürürdüm. Bir də gördüm darvaza açıldı. Dayıcanı Vəzifə xala idi.

Vəzifə xala köklü-köməcli tiflisliydi. Nənəmin qardaşı İsmayıl dayı onunla Tiflisdə tanış olub evlənmişdi, sonra onlar da Ağdama köçmüşdülər. Atam dayısı arvadına "dayıcanı", dayısına isə "İsmayıl bek" deyirdi. "Sonalar gölü"nün sahili" essesində balet azarkeşi o maraqlı kişidən bəhs eləmişəm. Qarabağın ovaxtkı halından, adamlarından xəbər almaq istəsəniz, oxuyarsınız.

Əlqərəz, nənəmlə nə haqdasa söhbət edirdilər. Birdən dayıcanı məni səsləyib "Stepanakertə gedirsən? Gəl səni də aparım, nənəndən icazə almışam" dedi. Onda Xankəndiyə Stepanakert deyirdik.

Həmin gün Xankəndiyə ilk səfərim oldu.

Ağdamdan Xankəndiyə uzun, sarı avtobuslar işləyirdi. Avtobusa Şuşa dayanacağında mindik. On-on beş nəfər olardı. Ermənilər bazarlıqdan qayıdırdılar. İlk dəfəydi yad dildə danışan adamlarla yol gedirdim. Əsgəranda bir neçə nəfər düşdü. Növbəti dayanacaq Xocalı idi. Qoca bir kişi yekə kisəni güclə çəkirdi, ağır idi yükü.

Vəzifə xalanın böyük oğlu Vasif əmi Xankəndidə işləyirdi. Moskvada təhsilini bitirib ayaqqabı fabrikinə təyinat almışdı. Mühəndis idi. Qapını Vasif əminin xanımı Kifayət xala açdı. O, şəhərin doğum evində həkim işləyirdi. Çox mehriban qadın kimi yadımda qalıb. Əvvəllər dadmadığım qəşəng bir şokolad verdi. Mən də şokoladı yeyə-yeyə balkondan aşağı baxırdım. Erməni uşaqları həyətdə oynaşırdılar.

Vəzifə xalanın gəliniylə nəsə söhbəti vardı. Başım çıxmasa da, nəsə ciddi söhbət olduğunu duyurdum. İndi ağlım kəsir ki, boşanma ərəfəsində oğlunun ailəsini xilas eləmək üçün gəlibmiş. Sonra Vasif əmi bu üzügülər qadından ayrılacaqdı.

Kifayət xalanın gəlişimizdən xəbəri yoxmuş, odur ki tələsik yumurta-pomidor bişirdi. İkinci boşqabı da çəkəndə "doymuşam" dedim. Dayıcanı inad elədi: "Ye, qayıdanda nənən görsün ki, kökəlmisən". Onda bir dəri, bir sümük idim. "Bir günə adam kökələr" sualıma verdiyi "Yaxşı yesə, kökələr" cavabına inanıb yedim.

Birlikdə şəhərə düşdük. Qəşəng bir parka gəldik. Kifayət xala bilet alıb məni karuselə mindirdi. Bu mənim ilk karusel macəram oldu.

Sonra o bizdən ayrılıb işə getdi. Həmin gün dayıcanı məni xeyli gəzdirdi. Neçə küçə, park dolaşdıq, mağazaya dəydik, mənə oyuncaq da aldı. Yorulanda bir ağacın altında oturub dondurma da yedik.

O gündən bu şəhərdən xoşum gəldi. Müharibə başlayanadək çox səfərim oldu ora. Yadıma gəlir, bir dəfə erməni dostları atamgili o vaxtlar SSRİ çempionatının ikinci dəstəsində oynayan yerli "Qarabağ"ın Rusiyanın hansına komandası ilə oyununa baxmağa çağırmışdılar. Nə dil töksəm də atam məni o oyuna aparmadı. Bir neçə il sonra "Qarabağ"ın "Neftçi" ilə yoldaşlıq görüşünə məhəlləmizin məndən yaşlı oğlanlarıyla getməyə də icazə verilmədi. Səbəbini sonralar bildim. Belə oyunlarda bizimkilərlə erməni azarkeşləri arasında dava düşə bilərmiş.

Niyə Xankəndidən yazıram?!

Baxıb görürəm ki, Rusiya yenə Qarabağ münaqişəsini qeyri-müəyyən vaxtacan dondurmaq istəyir. Adət eləyib, şəlpəsi işləməyəndə "don"u açıb münaqişəni qızışdırır, xalqları bir-birinə qırdırır. İstəyinə çatır, sonra da həllinə imkan verməyib təzədən dondurub sabaha saxlayır. Bilirəm, şimal ayısının Qarabağa pəncə qoyduğu 10 noyabr 2020-ci ildə mənim kimi çoxunuzun dalağı sancmışdı.

Özümüzü və bir-birimizi aldatmayaq, aldadanımız onsuz da çoxdur. Reallıq budur: Hikmət Sabiroğlu demişkən, 30 illik quyunun dibindən çıxıb minalanmış sahəyə düşmüşük. İndi, bax belə halımızdaca Rusiya Qarabağ problemini konservləşdirir. Bu isə o deməkdir ki, qanlı müharibə və rus boyunduruğu uzaq gələcəyə qədər bizimlədir.

Dediyim odur ki, davamız bitməyib, davam edir. Bu dəfə döyüşlər Xankəndi uğrunda gedəcək. Və bu döyüşləri hərə öz sahəsində – səngərində aparmalıdır. Yazı-pozu adamlarının işi də Qarabağın ermənilər yaşayan şəhər, qəsəbə və kəndlərinin bizə nə qədər doğma olduğunu yazıb, deyib, car çəkməkdir. Yəni Xankəndi susqunluğuna son qoymalıyıq. Elə erməniyə, rusa bizim Xankəndi barəsində susmağımız lazımdır, desinlər ki, buralar sizlik deyil. Xankəndiyə həsr etdiyiniz nə bir şeiriniz var, nə bir mahnınız, heç xatirəniz də yoxdur.

…Ən körpə Xankəndi xatirəmi danışmaqda qəsdim də elə bu idi.

**Sentyabr 2021**

# Qarakəndli Anuşun təbəssümü

Ağdamın taksi sürücülərinin Xankəndi, Əsgəranla yanaşı Qarabağın yaxın erməni kəndlərində dost-tanışları olardı. Şəhərin dəmiryol vağzalından, bazarından yaranan sürücü-sərnişin münasibəti zaman keçdikcə istiləşib tanışlıq, bəzən lap dostluq səviyyəsinəcən çatırdı. Hələ Xankəndiyə dəmiryol çəkilməmişdən qabaq Ağdamda qatardan düşən ermənilər ilk öncə göz-göz eləyib tanış sürücü axtarardılar. Bazarlığa gələnlərsə əvvəlcədən geri qayıdacaqları tanış sürücüylə vədələşərdilər.

Atamın da belə erməni tanışları az deyildi. Qarakəndli Rubenlə isə xüsusi münasibəti vardı. Ruben hər dəfə İrəvana gedəndə atama xəbər edərdi. Uzaq şəhərlərə müştəri düşəndə atam taksini həyətdə saxlayar, öz "Jiquli"sini sürərdi.

Bir gün dərsdən çıxanda atamın taksisini bazarın qabağında gördüm. Soruşub-eləmədən mindim ki, gedəndə məni də evə düşürsün. Sən demə, atam, onun diliylə desəm "klent" gözləyirmiş. "Yemişcana iki "klent" var, istəyirsən, bir yerdə gedək, qoyaq qayıdaq".

Çox çəkmədi yaşlı ər-arvad xeyli bazarlıqla gəldilər. Yol boyu atamla söhbətlərindən bildim ki, çoxdanın tanışlarıdılar. Erməni olsalar da elə bizim ləhcədə danışırdılar. Füzuliyə tərəf xeyli gedəndən sonra maşınımız sağa buruldu, üzü yuxarı meşəli dağa sarı yol aldı. Onları evlərinə qoyub qayıdanda atam yolüstü Qarakəndə döndü. "Rubenə bir salam verək gedək. Həm də görək tut arağından, çaxırdan nəyi var".

Həyətdə bizi Rubenin arvadı Anuş qarşıladı. Qollarını yana açıb atamı elə bərk qucaqladı, üzündən elə öpdü ki, neçə ay Bakıda xəstə yatıb evə dönəndə heç anam onu belə qarşılamamışdı. Açığı onun bu hərəkətindən xoşum gəlmədi. Qısqanclığa bənzər bir hiss idi. Bəs necə, yad arvad atamı qucaqlayıb öpürdü.

Onun bizi evə dəvətini atam qəbul eləmədi, Ruben evdə deyil. "Rubeni neynirsən, mən ki evdəyəm. Yeməyim də var, araq da, çaxır da", deyib atamın qoluna girdi, mehriban-mehriban evə tərəf çəkdi. Atam onun xoş inadı qarşısında sınmadı. "Yemişcana klent gətirmişdim, dedim dönüm bir salam verim. İndi işim var, başqa vaxt Ruben evdə olanda gələrəm".

Evin kişisi evdə olmadığına görə atam içəri keçmədi və biz geri qayıtdıq.

***

Qarabağ separatçılarının başçıcı Araik Arutunyanla Rusiyanın adına "sülhməramlı" deyilən qoşunlarının komandanı Rüstəm Muradovun isti qucaqlaşma fotosunda Araikin gülər üzündəki təbəssümü o vaxt atamı qucaqlayan Anuşun şeytani təbəssümünün eynidir.

Mən çox ölkələr gəzmişəm, müxtəlif xalqların nümayəndələriylə təmasda olmuşam. Odur ki ürəklə deyə bilərəm: qadın, ya kişi fərq eləməz, dünyanın ən qılıqlı xalqı ermənidir. Onların işi düşəndə pişiklənmək qabiliyyəti, delikates ev yeyəcəklərindən süfrəsi, şirindil qadınları qarşısında hər özündən deyən kişi duruş gətirməz.

Yaşlı qarabağlılar xatırlayır ki, hər "vurub-tutan" oğlanın, kişinin Xankəndidə, erməni kəndlərində xanım "dostu" vardı. 1988-ci ildə hadisələr təzə başlayanda Ağdamdakı mitinqlərin birində Xuraman Abbasova boş yerə üzünü kişilərə tutub deməmişdi: "O baş qaldıranlar sizin balalarınızdı. Zəhmət çəkin, gedin dərslərini verin".

Bunları niyə yazıram?

Arutunyanın rus generalını elə qucaqlanması sizə təəccüblü gəlməsin. Biz belə qucaqlaşmaları sovet dövründə çox görmüşük. Ermənilər o generalları, lap əsgərləri də, tut arağıyla, çoşka kababıyla, qılıqbaz arvadlarla elə tovlayacaqlar ki, ömürləri boyu ordan çıxmaq istəməyəcəklər.

Odur ki nə qədər məsti-xumar olmayıblar, o rus ordusunu Qarabağdan çıxarmaq haqda ciddi-ciddi düşünməliyik.

***

Bir də onu deyim ki, indi ta yazıq Anuşu  qınamıram. Mənim əzik-üzük sifətimə baxmayın, atam yaraşıqlı kişi idi.

**16 dekabr 2020**

# Xəyalpərəstin həqiqət xəbəri

Dünən Ağdama gedən jurnalistləri görəndə 30 il qabaq "Ədalət" qəzetində "Müxbirimiz Vahid Qazıyev cəbhə bölgəsindən xəbər verir" başlığı ilə dərc olunan yazılar yadıma düşdü. Jurnalist kimi yeni xəbərlər hazırlamaq keçdi könlümdən.

Üç xəbər yazdım xəyalımda. Dedim, bura da yazım, sən də oxuyasan onları, dostum oxucu.

**London orkestri Ağdam xarabalıqlarında**

London Simfonik Orkestri Ağdam xarabalıqlarında məşhur polyak bəstəkarı Kşiştof Pendereskinin avanqard üslubda bəstələdiyi "Xirosima qurbanlarına ağı" kompozisiyasını ifa edəcək. Orkestrin baş dirijoru Simon Rattle BBC kanalına açıqlamasında bildirib ki, konsertdə həmçinin dünya bəstəkarlarının klassik əsərlərini də ifa edəcəklər.

Konsertin sponsoru Heydər Əliyev Fondunun mətbuat üçün açıqlamasında deyilir ki, BBC konserti canlı yayınlamaqla yanaşı "Qafqaz Xirosiması" adlı qısametrajlı film də çəkəcək.

**Qarabağ dünya rəssamlarının fırçalarında**

Mədəniyyət nazirliyi "Qarabağ dünya rəssamlarının gözü ilə" adlı beynəlxalq layihəyə başlayıb. Artıq dünyanın 20 məşhur rəssamı ilə müqavilə bağlanıb. Rəssamlar Qarabağın müxtəlif yerlərini gəzəcək, çəkmək istədikləri yerləri özləri seçəcəklər. Nazirlikdən verilən məlumata görə rəssamlarla bağlanmış müqaviləyə əsasən çəkilən tabloları Azərbaycan dövləti alacaq.

"Qəsdimiz Pikassonun faşist vəhşiliyini təsvir edən, dünyaca məşhur "Gernika", yaxud "Koreyada qırğın" tabloları kimi "Qarabağ yaraları"nı dünyaca ünlü rəssamların fırçası ilə təqdim etməkdir".

Sonra "Qarabağ yaraları" sərgisi dünya turuna çıxacaq. Artıq Luvr, Metropoliten, Vatikan, Britaniya muzeyləriylə ilkin razılaşma əldə olunub. Sərginin Pekin, Tokio, İstanbul, Paris, Nyu-York, London, Madrid, Berlin, Sankt-Peterburq, Afina və başqa şəhərlərin muzey və sərgi salonlarında nümayişi planlaşdırılır.

**Oskara iddialı kinomuz**

CNN kanalına müsahibə verən kinorejissor Roman Polanski gələn ay Xocalı qırğınından bəhs edən filmin çəkilişlərinə başlayacağını deyib. Heritage Films şirkəti ilə bağlanan müqaviləyə əsasən rejissor filmi bu ilin sonunadək təhvil verəcək. Filmin təqdimatı Xocalı qırğını günü 26 fevralda Nyu-Yorkda keçiriləcək. Baş rolun ifaçısı tamaşaçıların "Pianoçu" filmindən yaxşı tanıdığı Adrien Brodidir. O, erməni qadınların baxışları altında dırnağı çıxarılan Xocalı sakini, gitaraçı Valeh Hüseynovun obrazını yaradacaq.

***

Jurnalistika fakültəsində oxuyurduq. Qarabağ hadisələrinin başladığı, mitinqlərin getdiyi vaxt idi. Qəzetlərdə xalqlar dostluğunu tərənnüm edən yazılar gedirdi. Müəllimlərimizlə real həyatda olmayanları yazmağın nə anlamı var sayaq söhbətlər edirdik. Belə söhbətlərin birində Şirməmməd Hüseynov "xəyal-xəbər" sözü işlətdi. "Bu ölkədə həmişə belə olub, xəbərlər xəyal üstündə yazılıb". Başdan-başa yalan üstündə qurulmuş SSRİ-də hava proqnozundan savayı həqiqi xəbər nə gəzirdi!

Yuxarıda yazdığım xəbərlər də doğru deyil, mənim təxəyyülümdür, yəni Şirməmməd müəllim demiş, xəyal-xəbərdir. Amma sovet xəbərlərindən fərqli olaraq, mənim xəbərlərim həqiqət ola bilər. Onu həqiqətə çevirməyə, sadəcə, vətən aşiqi kəslər gərəkdir.

"Çobanın meyli olsa, təkədən pendir tutar".

Kültür siyasətimiz ağıllı yönləndirilsə, peşəkar yanaşılsa, işğaldan azad edilən şəhərlərin, kəndlərin indiki halı ilə dünyanı şoka salan sənət əsərləri yaratmaq olar.

Təpəsindən neft pulları tökülən ölkə üçün beş-on milyon nə puldur ki…

Saat, maşın kolleksiyası saxlayan məmur balalarının illik xərci də deyil.

**14 mart 2021**

# Ağıllı Ağdamın kölgəsi

İki fərqli duyğu yaşayır adam. Biri şirin eyforiyadır, o biri acı nigarançılıq.

Xoş emosiyalar yaşamaqdan zövq almaqla yanaşı soyuq başla düşünməli də olursan. O ikinci duyğu bundan sonra yaranır.

Ağdamın baş planının təqdimatına, özül qoyma mərasiminə mən də baxdım. Neçə gündür TV-lərdə, sosial şəbəkələrdə müzakirələrin birini də qaçırmamağa çalışıram.

Tikinti-quruculuq işlərinə başlayıblar. Traktorlar, buldozerlər, kranlar. Yeni şəhər əvvəlki Ağdamı və ətraf 8 kəndi əhatə edən böyük, modern insan məskəni olacaq. Nəinki Azərbaycanın, belə başa düşdüm, dünyanın ən müasir 100 minlik şəhərinin himi qoyuldu. Uşaqlarımız, nəvə-nəticələrimiz gölündə, kanalında qayıqlar üzən, küçələrində tramvaylar şütüyən Ağdamda yaşayacaqlar.

Dünyada bundan gözəl xəbərmi var? Az qala 30 ildir gözləmirdikmi belə xəbəri? Bəs məndəki bu nigarançılıq nədəndir?

Ağdam məscidindən 400-500 metr aralıda 8 sotluq həyətimiz və o həyətdə ikimərtəbəli evimiz vardı. Bilirəm, dövlət vətəndaşın əmlak hüququna təminatçıdır, Azərbaycan vətəndaşının əmlak hüququ konstitusiya ilə tanınır.

Görünən odur ki, qeyri-rəsmi milliləşdirmə aparıblar. O gözəl şəhəri mənim əmlak hüququmu pozaraq tikəcəklər. Əsl sovet dönəmində olan kimi. İkinci Dünya müharibəsindən sonra şəhərlərin, kəndlərin bərpasına iki fərqli yanaşma olub. Avropanın qərbində bərpa vaxtı insanların əmlak hüququna maksimum əməl edilməsinə çalışıblar, kommunist rejiminin hakim olduğu ölkələrdə belə hüquq tanınmayıb.

Deyəsən, bizimkilər də kommunistlər kimi edirlər. Neçə adama üz tutmuşam: “Sizin torpağınızı sizdən soruşubmu şumlayır, əkirlər?” “Hə” deyən yoxdur.

Bütöv bir şəhərini itirmiş, az qala o şəhərdən əlini üzmüş bir adam füsunkar gözəlliyi olacağı deyilən şəhərin tikildiyi bir vaxtda 8 sotluq torpaq davası etməz deyərsiniz. Əslində etməliyəm. Haqqımdır! 18 sot vəd edilən torpağa da sən deyən inamım yoxdur. Amma əsas bu deyil, əsas odur ki, uzun illərdir adını “Qafqaz Xirosiması”, “Ruhlar şəhəri” kimi epitetlərlə andığım şəhər indi azaddır və yenidən tikilir.

Sözüm bir cür çıxmasın, elə anlaşılmasın ki, dövlətin elan etdiyi böyük quruculuq işinə sevinmirəm. Göydə Allah, yerdə məni tanıyan, bir də Qarabağ yazılarımı oxumuş oxucular bilir sevincimin miqyasını.

Bilirəm, heç kim neqativ yüklü mətn oxumaq istəmir, nə qədər həqiqət olsa da. Mən də ümumxalq sevincindəyəm. Amma beynimi qurd kimi gəmirən narahatlığı deməsəm olmur.

Ağdamı rusa arxalanıb erməni işğal etmişdi. 28 il qabaq bu şəhəri işğal edən rus arxalı erməni hələ də beş addımlıqdakı Xankəndidədirsə, bizimlə düşmənçiliyi davam etdirirsə, 6 aydır rəsmi səviyyədə Əsgəranın, Xankəndinin adını dilimizə almırıqsa, sabah Rusiya Ermənistanda hökumətə öz adamını gətirsə, onu hakimiyyətdə bərkitmək üçün silahı bizə çevirsə, necə? Rusun ermənini Ağdamın üstünə bir də salmayacağına kim qarant durur? 100 ildir bu iki xalqı bir-birini qırdıran Rusiya deyilmi?

Dünyada bir bəyanatla bitmiş müharibə tanıyan varmı? Müharibənin bitməsinə neçə nəfər inanır? Pozitiv düşüncəli adamam. Amma rahatsızlığım var. Bunu oxucu dostlarla da bölüşməyib kimlə bölüşüm?

Sovet vaxtı dağılmış şəhərlərin bərpasına Stalinqrad döyüşündən sonra yox, Berlin fəth olunub, faşistlər kapitulyasiya aktına imza atandan sonra başlandı. Ermənistanla sülh müqaviləsi bağlanıbmı?

Müharibə bitməmiş düşmənin beş addımlığında modern şəhər salmaq vədi Xruşşovun "yaxın gələcəkdə adamların kommunizmdə yaşayacağı" vədinə bənzəmirmi? Necə oldu o kommunizm?

Yuxarıda ikili duyğudan danışdım. Xoş emosiyalar dolu eyforiyadan sonrakı nigarançılıq hissidir bu. Odur ki qınamayın məni, icazənizlə ürək dolusu bayram şadyanalığımı Xankəndinin azad olunacağı günə saxlayım.

Amma yeni şəhərimizə mən də sevinirəm. Özü də hamıdan çox…

**2 iyun, 2021**

# O göydəki ulduzlar haqqı

Şaxtalı İsveç gecəsinə işıq salan aylı-ulduzlu göy üzü isti bir uşaqlıq xatirəmi xatırlatdı.

Az qala 50 ilin söhbətidir… Evimizdəki kirayənişin qızların səs-küyü həyəti başına götürmüşdü. Axşamüstü başlayan qar aləmi dümağ rəngə boyamışdı. Yalan olmasın, yerdə mənim diziməcən, budaqlarda da qarğa dimdiyi boyda. Həyətimiz ilahi bir ovsunla qəfil işıqlanmışdı.

Qızlar qartopu oynayırdılar. Düşüb onlara qoşulurdum səki, pilləkənin başındaca qara tutdular. Sonra yerə yıxıb az qala qara basdıracaqdılar. Nəfəsim kəsilənəcən yordular, üst-başımı isladıb istahatdan çıxartdılar.

Onda mənim 8-10, qızların 18-20 yaşı olardı. Hərəsi bir diyardan gəlib Ağdam Musiqi Texnikumunun piano sinfində oxuyurdular.

…Əllərindən qaçıb həyətimizin ayağındakı narlığa verdim özümü, guya gizləndim. Yarpağını çoxdan tökmüş bir ağacın altında qara uzandım. Qollarımı başımın altında çarpazlayıb ulduzların tamaşasına durdum. Göy üzünü hələ heç vaxt elə gözəl görməmişdim – anamın qurduğu yolka kimi çıraqban idi, od tutub yanırdı.

O sehrli gecəni dünənmiş kimi xatırlayıram.

Milyon-milyon ulduz içində gözüm bir-birindən eyni məsafədə alt-alta sıralanmış üç ulduzu o saat aldı. Elə bil kimsə ulduzları göy üzünə necə gəldi səpəndən sonra o üç ulduzu ayırıb bir xətt boyunca düzübmüş. Elə yaxından parıldayırdı ki, deyərdin bəs ulduz deyil, həyətimizin qar dənələrində bərq vuran işıqlarıdır.

…Bir il sonra növbəti qışda bir də gördüm onları. Atamgil məni kənddə nənəmin yanında qoyub Bakıya getmişdilər. Mən də onlardan küsüb incik halımla nənəmə qısılmışdım. Həmişə sevinə-sevinə gəldiyim ev bu dəfə məni sıxırdı.

Həmin ulduzları görənə qədər.

Onları görəndən sonra bütün qəm-qüssəm yaddan çıxdı. Köhnə dostları görürmüş kimi sevinirdim. “Bura da gəlib çıxıblar?!” – elə təəccüblənmişdim ki! Sanki ulduzlar yalnız həyətimizin göy üzündə duracaqmış. Çağırıb heyrətlə nənəmə göstərmişdim. “Onlar sənin bəxt ulduzlarındır” demişdi Tovuz nənəm.

O gecə elə bilirdim ulduzlar könlümü almağa gəliblər. O gecə ulduzlar məni yatızdıran nənəmin üzünə çökmüşdülər, onun gözüylə sayrışırdılar. Ömrün ən gözəl yuxularından birinə beləcə keçmişdim.

Üç Ulduzla az qala 50 illik dostluğumun təməli ömrün ən xoşbəxt çağlarını xatırladan o gecələrdə qoyuldu.

Sonralar Ekzüperinin “Balaca şahzadə”si hər dəfə yadıma düşəndə həyətimizdə qara uzanıb ulduzlarla söhbət edən o balacanı xatırlayacaqdım.

“O göydəki Allah haqqı” – o vaxt yaşlı adamların belə andı olardı. Mənim də and yerim, pənah yerim göydəki o Üç Ulduz oldu. Hər qış onları görəndə qəribə bir duyğu ilə arxayınlayır, qarşıdakı

ildə müşküllərin yoluna qoyulucağına inam yaranırdı. Mənim o ulduzlarla münasibətim tanrı-bəndə münasibətindən də ötə idi – qərib adamın öz-özüylə söhbətinə bənzəyirdi.

…Növbəti dəfə əsgərlikdə görüşdük. Uzaq Uralın göy üzündə, 45 dərəcə şaxtada, qarovulda. Üzümü göyə tutub onlara baxırdım, amma bu dəfə danışmırdım, çox soyuq idi. Fikrimdə təkcə isti dəniz xəyal edirdim. Onlar da düşüncələrimi oxuyur, sayrışaraq deyirdilər: "Darıxma, az qalıb, Xəzərin isti sularına gələcəksən".

…90-cı illərin ağır vaxtları idi. Ailəm, el-oba qaçqın düşmüşdü. Çıxılmaza düşən adamın ağırlığı vardı içimdə. Bir qış axşamı Bakı səmasında gördüm onları. Xeyli söhbət elədik. Gəmilərin işıq siqnalı kimi cavab verirdilər – sayrışa-sayrışa. İçimdə inam yarandı. Çətinim asan oldu o il.

Sonralar haralarda görmədim onları: dünyanın dörd bir yanında, Bişkekdən ta Vaşinqtonacan. Qışda şimal yarımkürəsinin hər yanında rastıma çıxdılar.

***

Dünən yenə görüşdük. Çoxdan görükmürdülər. Bilirsən, dostum, İsveçdə qış gecələri hər deyəndə buludsuz olmur. Dünən buludsuz idi İsveçin göy üzü. Yenə mənim ulduzlarım sayrışırdılar, halımı soruşurdular. Üzümə qonan təbəssümdən onları ilk dəfə gördüyüm gecəni xatırladığımı tutdular.

İllər uzunu onlarla həyətimizdəki ilk görüşümüzü xatırlayıb o qədər xoşbəxt duyğuların istisinə bürünmüşəm ki, … uzun gecələr boyu sabahlaracan.

…Dünən həyətimizin ayağındakı narlıqda qara uzanıb göydə ulduzlara baxırdım.

Evimizin kirayənişin qızları qartopu oynayırdılar.

Anam yeni oyuncaqlar almışdı, yolkanı bəzəyirdi.

Həyətimiz ağappaq idi. Tanrı dərgahı kimi…

Dünən həyətimizdə gördüm bunları!

O göydəki Üç Ulduz haqqı, gördüm!

Dekabr, 2022

Helsinqborq, İsveç

# Bethovenin 250 illiyinə dəvət

"Ay işığı" sonatasını ilk dəfə Qretannın ifasında eşitmişəm. Altı, ya yeddi yaşındaydım. Qriqoryan Qreta Bakı ermənisiydi. Ağdam Musiqi Texnikumunda oxuyurdu. Evimizin birinci mərtəbəsində kirayə qalırdı.

Sonra o musiqini illər uzunu çox eşitdim: kirayəçi qızlar dəyişsə də, "aylı sonata" evimizi tərk eləmədi.

***

Üç il olar, uşaqları Vyanaya gəzməyə aparmışdım. Bethovenin ev-muzeyində onu bir də dinlədim. Bəstəkarın muzeyi bir andaca çönüb evimiz "olmuşdu": huşum artıq Yer üzündən silinmiş bir şəhərin mən olan çağlarına getmişdi.

Kosmik fəza kimi bir boşluğa düşmüşdüm. Heç nə eşitmirdim. Bethovenin özü kimi kar idim. Ancaq gözüm görürdü. Elə bil, onun musiqisini dumanın, tüstünün yerdən qalxan halı kimi görürdüm, yağışdan islanan torpağın ətri kimi duyurdum.

***

Deyirlər, musiqini gecə dinləmək yaxşıdı. Elə konsertlər də bir qayda olaraq axşamlara salınır. Amma mən böyük həvəslə bu qaydanı pozardım. Səhərlər musiqi səsinə oyanmaq qədər gözəl nəsə varmı? Mənim o sabahlarımın yerində, görəsən, indi hansı səhərlər açılır?

Bethovenin piano dillərindən qopub ürək titrədən "aylı sonata"sı yatanlar oyanmasın deyə barmaq ucunda çölə axır, baharın ılıq sübh nəfəsini elə bu gecə çiçəkləyən armud ləçəklərinin qoxusu ilə birlikdə içinə çəkib yuxarı mərtəbəyə qalxır, açıq pəncərədən ruh kimi yatmış bədənə hopur... İlahi, o anları mənmi yaşamışam? O səhərləri mənmi açmışam?

Musiqini səhərlər ifa edərlər - hava hələ çirklənməmiş, sular dupduruykən, hələ adamlar ayılıb bir-birinə yalan söyləməmiş, ...ər sevdiyi arvadıyla, körpə anasıyla, bəndə Allahıyla olanda...
"Ruhlar şəhəri"ndə bu sözləri yazarkən yaşadığım duyğuların eynisiydi o muzey-evdə keçirdiyim hisslər.

***

Bethoveni Tarkovskinin "Nostalgiya" filmində bir başqa yandan tanıdım. Burada o "Ay işığı"nı həsr etdiyi Cülyetta Qviççardinin aşiqi Lüdviq yox, Tanrını sorğu-suala çəkən müdrik filosofuydu.

Böyük rejissor öz möhtəşəm filmində dahi bəstəkarın 9-cu simfoniyasından vəsfəgəlməz parçalar səsləndirmişdi. Nə qədər axtarsam da, sehrinə düşdüyüm o simfoniyanı Ağdamda tapıb dinləyə bilmədim. Ona yalnız tələbə vaxtı Bakıda rejissor dostum Şahin Sinariyanın evində sabahacan uzanan məhrəmani bir məclisdə qulaq asdım. İndi Parisdə yaşayan Şahinin o vaxt gözəl valları vardı.

Daha sonralarsa onun şəxsiyyətinə heyran olacaqdım. "Etiraz – ləyaqətin bir başqa adı" yazısında Bethovenin şəxsiyyətdən yazacaqdım. Monarxiyaya son qoyub respublika qurmuş Napoleona simfoniya həsr etməsindən, tirana çevrildiyini biləndə isə qəzəblə "Napoleon" adını simfoniyanın

partiturasından silməsindən, Avropanın despotik dönəmində heç bir krala baş əyməməsindən bəhs edəcəkdim.

***

Bu gün isə sadəcə sizə uşaqlığımın ən şirin çağlarını – ömrün “aylı sonata”yla keçən illərini yada salan musiqidən danışmaq istədim. Elə bilin sizi Bethovenin konsertinə dəvət edirəm. Özü də 250 illiyi bütün dünyada qeyd edilən bir gündə. Gəlin, hamınızı gözləyəcəm!

Konsertin yerini tanıyırsınız, təzə gələnlərə də nişan verin. Deyin, Ağdamdakı evimizə, qara piano olan otağa yığışacayıq. Otağın balacalığından qorxmayın, hamıya yer olacaq...

**20 dekabr 2019**

# Donuq duyğuların canlı xəyalı: Ağdam

Əsgərlikdə evə dönüşü min cür xəyal edərdik. Hərə ağlına gələn atkeçməz yol fikirləşər, evdəkilərə sürpriz hazırlayardı. Ən qəribəsini şamaxılı Əlirza fikirləşmişdi, deyirdi dırmaşacaq ağaca, çağıracaq ki, çıxın burda görüşək.

Mən xəlvətcə nənəmdənqalma qədim şifonerimizə girib yad səslə anamı səsləməyi xəyal eləmişdim. Anam bu qorxunc səsdən ürkəcək, atamı çağıracaq, haya bacım da gələcək. Şifonerin qapısını açacaqlar və... mən uzaq Totsk səhrasında əsgəri xidmətimi bitirib qayıtmışam. Beləcə hamımız xoşbəxt olacaqdıq!

İşğalda keçən 28 ildə evimizi bəlkə milyon kərə xəyal etmişəm. Amma o milyon kərənin heç birində söz açdığım xəyali qayıdış kimisi olmayıb.

Səbəbini Ağdam xarabalıqlarını dolaşan gün bildim.

***

İstər maşınımız Dördyoldan o üzə, dağıdılmış kəndlərdən keçəndə, istər Ağdama girəndə duyğularımı donmuş gördüm: keyimişdim, sakit idim. Nə baxdığımı görə, nə eşitdiyimi dinləyə bilirdim. Şüşə dalından muzey eksponatına baxırmış kimiydim.

Oxuduğum 1 nömrəli məktəbin uçuq divarları qarşısında da, məscidin minarəsinə çıxıb dörd bir yana tamaşa edəndə də canımdakı duyğu hüceyrələrinin donu açılmadı.

Hətta orda – xoşum gələn qızla "görüş" yerində də titrəmədim. Bir vaxt Lenin bağı olmuş yerdə ayaq saxladım. Dərsdən çıxanda bağın bu tinində qız gözdən itənədək dayanıb baxırdım. O da hərdən çevrilir, qəribə lal oğlanın arxasınca gəlmədiyini, eləcə baxdığını görüb yoluna davam edirdi.

Şəhərin ən məhrəm bu yerində belə halım dəyişmədi.

Dedim evimizi istəyirəm! Lap uşaq kimi. Dedim, yəqin, evimizdə dirilər bu ölü duyğular.

Sağ olsun ANAMA-nın əməkdaşı, küçəmizi tapdı. Şuşa yolundan ayrılan küçəmizlə yeridim. "Köhnə hamam"ın divarları da mənim duyğularım kimi buz bağlamışdı sanki. Elə qocalmışdı bu divarlar, elə bilərdin min yaşı var. Şəhərdə gözümə ən qoca dəyən bu divarlar oldu.

...Axır ki, həyətimizdəyəm. Evimizin uçuq divarları arasında. Əlimi sürtürəm, bəlkə, oyanar duyğularım – daşlar məni tanımır. Nə onikivərəq dəftərə yazdığım ilk hekayə-qaralamaların əlyazmalarını gizlətdiyim zirzəminin divarları, nə hər səhər Şopenin polonezləri sayaq musiqilərlə məni oyadan qara "Rostov Don" pianomuzun durduğu otağın boş pəncərə yeri. ANAMA əməkdaşının "İnanma nəsə qala burda, bu ev yandırılıb" sözləri də tərpətmir məni. Özüm daşam, daş! Uçuq evin daşı. Daşın canımı var tərpənə...

Pilləkənimiz yarıyacan durur. Çıxıb ətrafa baxıram. Qonşuların evi bu qədər yaxın deyildi axı bizə! Dar gündə hayan olmaq üçünmü belə yaxınlaşıblar, qısınıblar bir-birilərinə?

Ağdamda dağmı görərdin, haradan çıxdı bu dağlar? Əlimi uzatsam çatar Xıdırlı, Xramord dağlarına. Onlardamı şəhərin harayına yüyürüb gəlibmiş?

...Buralar mənə yaddır sanki: nə bu pilləkənlə çıxmışam, nə bu evdə yaşamışam. İsti dəmirinə uzanıb göyün ənginliyində gözlə tutası bulud gəzdiyim taxtapuş da yox idi, yıxılmışdı ucalığından.

İllər uzunu gecələr sübhəcən xəyalı yatmağa qoymayan bu şəhər indi niyə dondursun ki, məni? Bəlkə, zamanın da donduğu yerdə insan duyğusunun buza dönməsi təbii haldır?

Çox ölkədə ölü şəhərlər görmüşəm. Yunanıstanda Mikena xarabalıqlarını, Zevsin məbədini, Misirdə Amon-Ranın Nil qırağındakı Karnak Məbəd Kompleksini, Giza piramidalarını, Türkiyədə antik Pergenin küçələrini, Krımın Cuhut-Qala mağara şəhərini, Pantikapeyi turist kimi gəzmişəm.

İndi Ağdamı da turist kimi dolanıram?!

Xüsusi nümayəndəliyin əməkdaşı Ağdamın keçmişindən, görüləcək işlərdən, planlardan danışır. Çox mədəni oğlandır, ehmal-ehmal danışır. Dinləyirəm. Sonra özüm danışmağa başlayıram – "turist"dən çevrilib "bələdçi" oluram.

Sonra da... susuram. Dilim ağırlıq edir, can çəkirəm danışmağa. Qayıtmaq, getmək istəyirəm burdan. İllər uzunu can atdığım, Tanrı dərgahı bildiyim yerdən bu nə qaçmaq istəyidir belə? Özündən qaça bilirmi adam? Bütün gücümlə gizlədirəm getmək istəyimi. Nə deyər, necə izah edə bilərəm bunu? Şahbulaq deyirlər, İmarət deyirlər, ayrı yerlərin də adını çəkirlər. Təşəkkür edirəm. Getmirəm!

Ayrılırıq! Qayıdırıq!

Bir ildir azad olunmuş şəhərə gəlməyə qorxurdum. Qorxurdum ki, onu bu halda görsəm, yaddaşıma həkk etdiyim, xəyalımda qoruyub saxladığım, mənim üçün hələ də adamları, küçələri, parkları ilə diri qalan, yaşayan uşaqlıq, gənclik şəhərim bu səfərdən sonra yox olar, hafizəmdən silinər.

Geri döndüyüm günün gecəsi anladım ki, soyuq ürəklə, donmuş duyğularla gəzməyimin səbəbi mənim xəyal şəhərimi qorumaq, gözümdə diri saxlamaq üçünmüş. Tanrı işi idimi? Bəlkə də!

Elə də oldu, gördüyüm o dəhşətli mənzərə mənim nağıl şəhərimi xəyalımdan silə bilmədi.

***

Hər şey uşaqlıq simsarım Yusifin yolladığı mesajla başladı. "Getdin Ağdama?" soruşurdu. Yusifin mesajı bir himə bəndmiş kimi duyğuların buzunu əritdi. Donu açılan duyğular canıma, ruhuma hücum çəkdi. Yalnız ona deyə bilərdim ürəyimdən keçənləri. Elə istədim ki, elə indicə yanımda ola. Zəng vurmaq istədim, eləyə bilmədim, səsli mesaj göndərmək də alınmadı – qəhər xirtdəyimdə düyün düşdü.

Sonra nə oldu? Oldu nələrsə...

Sonrası qoy özümdə qalsın, dostum oxucu. Yadına gələr, bəlkə də, o şəhərə həsr etdiyim kitabda yazdığım: "Kişi iki şey haqda danışmaz – bir sevgilərindən, bir də ağrılarından". Bu dəfə də danışmayım. Qoy baş-başa qalaq: Sevgim, Ağrım, bir də mən.

Amma yox, birini deyim. İndi deyə bilərəm. O vaxtlar sevgilərimlə yalnız ürəyimdə danışardım. Dostlar mənə gülürdülər, səninki sevmək deyil deyirdilər. İldə birini sevirsən, deyirdilər. Əsl sevgi

onların imiş guya. Sirdaşıma belə o biri sevgilərimdən danışmazdım. Nə Kramskoyun otağımın divarına vurduğum "Naməlum qadın"ından, nə ABBA-nın sarışın gözəlindən xəbərləri vardı. Bütün sevgilərimlə pıçıltıyla söhbət edərdim, bir kimsənin eşidə bilməyəcəyi bir səslə.

Ağrımsa mənimlə qalsın, danışmayım!

"Evimizi tapdım!" Yusifə bircə bunu yaza bildim.

***

Niyə Ağdam xarabalıqlarını dolaşanda məhz əsgərlikdən qayıdış xəyalının yadıma düşməsini sonra anladım. Elə o donuq duyğuların sirrini də onda bildim.

Bildim ki, adamı yaşadan "Səni gözləyən var!" nidasıdır. Ömrün bir çağında anlayırsan ki, sənin xoşbəxtliyin bu nidaya bağlıdır. Lap dünyanın o başında gözləyənin, səndən ötrü darıxanın varsa, deməк dirisən və ...yaşamaq gözəldir.

O gün getdiyim yerdə məni gözləyən yox idi. Daşlar belə unutmuşdu məni.

O yerdə qalsaydım bu illər uzunu, özüm də unudardım özümü!

...Amma nağıl şəhərimdə məni gözləyənlər var, bilirəm. Gedəcəm ora. Xəlvətcə nənəmdənqalma qədim şifonerimizə girib yad səslə anamı səsləyəcəm. Anam bu qorxunc səsdən ürkəcək, atamı çağıracaq, haya bacım da gələcək. Elə evimizin pianoçu kirayənişin qızları da. Şifonerin qapısını açacaqlar və... mən 28 ilin ayrılığından dönmüşəm. Beləcə hamımız xoşbəxt olacağıq!

Bilirəm, burada əvvəlkindən də gözəl şəhər salınacaq. "Xəyal memarı" adlı essemdə təsvir elədiyimdən də gözəl Ağdam tikiləcək. Amma o məndən çox balaların, nəvələrin şəhəri olacaq.

Mənim olansa yaddaşımda, ruhumda qalandır. Donuq duyğularda belə canlı xəyal kimi yaşayan şəhər!

...Bilmirəm deyə bildimmi demək istədiyimi...

**Yanvar 2022**

**Ağdam – Helsinqborq**

# Yurd yerindən sürreal reportaj

O gün telejurnalist Səadət Məmmədova məni evimizə qonaq apardı. Qəribə səslənir, bilirəm, amma doğru sözümdür, evimizdə onun qonağı oldum.

Dedi sən samovar qaynada-qaynada evinizdən, küçənizdən, şəhərinizdən danış, biz çəkək.

Nə iş idisə, iki dəfə cəhd elədim, qalaya bilmədim, samovar azca tüstülənib söndü. Niyə belə oldu, anlamadım, İsveçdə samovarı bir dəfəyə qalamağı öyrənmişəm. Dadıma operatorlardan biri çatdı.

Çayı isə özüm dəmlədim. 30 ildən sonra həyətimizdə, evimizin uçuq divarları arasında…

Çəkiliş gün boyu davam elədi. Səadət Məmmədova briqadası ilə işlərini görür, mənsə zamanın o üzünə – uşaqlıq çağına keçmişdim.

***

Operatorlar kameraları müxtəlif yerlərdə quraşdırıb çəkirlər. Jurnalist ağsaçlı müsahibinə suallar verir, o da danışır.

Mən də uşaqlıq illərindən boylanıb baxıram, amma o yaşlı müsahibin nə dediyini anlaya bilmirəm.

Öz işimin dalınca gedirəm – gah evimizin damına çıxıb Xıdırlı dağlarını seyr edirəm, gah da pəncərəmizdən küçəyə boylanıb gəlib-gedənə, maşınlara baxıram.

Sonra bacımla hovuzu doldurub sevimli oyunumuza başladıq. Çaydan qapaqlarından "gəmi" düzəldib döyüşdürdük. Mənim "gəmim" yenə döyüşdən qalib çıxdı, "düşmən gəmi"sini batırdı. Başqa bir oyunu pilləkəndə davam etdirdik, axırda yorulub oturduq, həmişəki kimi anamızın işdən gəlişini pilləkəndə gözlədik.

Darvazanın açılmasından bildim ki, gələn atamdır. Maşını içəri saldı. Təzə əkdiyi güllərin dibi qurumuşdu, gözü o saat aldı. Qoymazdı gülün dibi quruya. Şlanqı güllərə sarı çəkdi.

Evimizin kirayənişin qızları da dərsdən qayıtmışdılar. Otaqlarından piano səsi gəlirdi, Bethovenin "Ay işığı" sonatasıydı.

…Səadət Məmmədova ağsaçlı müsahibinə suallar verirdi…

Onları həyətimizdə qoyub, küçəyə çıxdım. Şəhəri gəzməyə getdim. Yorulanacan dolandım. Axşama doğru geri qayıtdım.

Şuşa dayanacağına çatmadan, "Köhnə hamam"ın tinindən sağa burulub küçəmizə yetişdim. Açıq pəncərədən bayıra axan hamam qoxusu burnuma dəydi. "Uçilişa"nın qızları ilə yenə üz-üzə gəlirik, saçımı qarışdırır, üzümə gülürlər.

Uşaqlarla milis küçəsində futbola bir azdan başlayacağıq.

Şahin təzə oyuncaqlarını küçəyə çıxarıb.

Sima xala oğlanlarının əlindən tutub şəhərə gəzməyə aparır.

Yolun o üzündə Qaçay əmi siqaret çəkir.

Açıq qapısından görünən həyətində Ələkbər əmi arvadı Marusya xalaya qızılgül yığır.

Ramiz həkimin balaca şıltaq qızı Elnarə qaça-qaça evlərinə gedir.

Rza yenə pəncərəni açıb, gitarasının səsi aləmə yayılır.

Çəpər qonşumuz Elza müəllimə məktəbdən dönür, üzündəki xoş təbəssümlə mənə salam verir.

Mənsə Tanrı dərgahına keçirəmmiş kimi səma rəngli darvazamızı açıb həyətimizə girirəm.

Nənəm eyvandakı uzun masanın o başında buğlanan samovardan çay süzür. Stəkana qonşu Ağca arvadın göndərdiyi builki qarağat mürəbbəsindən salıb qarışdırır. Hörümçək toru kimi dəqiq işlənmiş qırış sifətinə yaraşıq verən məhrəm gülüşlə "Çayını soyutma" deyir.

Çay içə-içə eyvandan baxıram.

Meşə kimi sıx həyətimizin ayağındakı hindən toyuğun qaqqıltısı həyəti başına götürüb. Deməli, yumurtlayıb.

Alt evdə piano susub, indi növbə skripkanındır. Pərvanədir, Paqanininin "La Campanella"sını çalır.

…Səadət Məmmədova ağsaçlı müsahibinə sual verir:

– Evinizi necə xatırlayırsınız?

**28 may, 2023**

**Helsinqborq, İsveç**

# Yaddaşı silinmiş şəhər

İki il yarım qabaq "Güvən mənə, inanım sənə" yazısında demişdim: Azərbaycanın ən böyük dərdi dövlətlə vətəndaş arasında qarşılıqlı inamın, etimadın olmamasıdır. İndi də problemlərimizin qaynağını sovetin bu mirasında görürəm. "Dövlət vətəndaşına arxalanmalı, onunla açıq dialoqda olmalıdır… Güclü dövlət, azad cəmiyyət və firavan həyat yalnız dövlətlə vətəndaşın qarşılıqlı etimadı yarananda, onlar bir-birinə güvəndiyi zaman qurulacaq. Güvən mənə, inanım sənə, dövlətim!" yazmışdım.

23 iyul doğulub böyüdüyüm Ağdamın işğal günü kimi hopub içimə. 30 il əvvəlki o məşum gündən çox yazmışam, bir də təkrar dönmürəm. Bu gün yazacağım başqadır.

Dövlətin vəzifəsi vətəndaşın təhlükəsizliyini təmin etmək, əmlak hüququ daxil bütün haqlarını qorumaqdır. Vətəndaş dövləti ona görə qurub ki, onu hər təhlükədən qorusun. Bəzən dövlətin özü vətəndaş üçün böyük təhlükəyə çevrilir, ondan danışmıram bu yazıda. Ondan danışıram ki, 1993-cü ilin yayında dövlət öz torpağını, vətəndaşını qoruya bilmədi. Bir neçə ayın içində 6 rayon işğal olundu, yüz minlərlə insan qaçqın düşdü, 30 ilə yaxın məşəqqətli həyat yaşadı. Hələ də tam bitməyən məşəqqət!

İndi o bölgələr azad olunub, yenidən qurulur. Görünən odur ki, bu işdə də dövlət-vətəndaş birliyi yoxdur. Dövlət vətəndaşın rəyini, istəyini nəinki soruşmur, heç deyilənə əhəmiyyət də vermir. Vətəndaş dövlətinə inanmır, dövlət də ona güvənmir.

***

Müharibə zamanı tam dağılmış şəhərlərin bərpa olunmasına aid çox nümunə var. Bu nümunələrdən çıxış edərək şəhərləri bərpa edən dövlətləri iki qrupa bölərdim: tarixinə, vətəndaşına, onun əmlak hüququna sayğı göstərən və göstərməyən.

İkinci Dünya müharibəsindən sonra dağılmış Avropa şəhərlərinin bərpasına bu cür ikili yanaşma oldu. Çox yox, üç şəhərdən misal deyim: Drezden, Varşava, bir də Minsk.

İlk iki şəhərin mərkəzi tarixi hissəsi olduğu kimi tikilib. Tarixi abidələrin bərpası on illər boyu davam edib. Drezdendə bəzi bərpa işlərinə hətta Almaniya 1990-cı ildə birləşəndən sonra başlanıb. Varşavanı bərpa edəndə tək arxitekturanı yox, binaların əvvəlki rəngini də saxlayıblar. Bu öz tarixinə, tarixi yaddaşına hörmət edən dövlətin davranış mədəniyyəti idi.

Minskdə isə belə olmadı. Şəhəri dairəvi sistem üzrə, bir növ Moskvaya bənzədərək yenidən tikdilər. Əvvəlki Minskdən heç bir əsər-əlamət qalmadı. Şəhərin qədim küçələrinin yerində geniş prospektlər çəkildi, tarixi binaların əvəzinə stalinçi neoklassizm stilində meydanlar salındı, evlər tikildi.

Yaşlı belorusdan eşitmişdim, deyirdi kommunistlər Minskin yaddaşını sildilər.

***

Baş plana görə, yeni Ağdam əvvəlki şəhər və ətrafındakı 8 kəndi əhatə edəcək. Deyirlər 100 minlik bir şəhər olacaq. Yaxşı fikirdir. Amma istəməzdim yeni tikiləcək şəhərlərimiz ənənəvi standart, qutuya bənzəyən dördkünc, zövqsüz evlərdən ibarət olsun.

Şəhərimiz işğaldan azad olunan gündən onu xəyalımda bir başqa cür qururam.

Xəyalımda saldığım şəhərin mərkəzi hissəsi dövlət idarələri və şəxsi evlərdən ibarətdir. Mərkəzi hissə deyəndə bir ucu köhnə 50 nömrəli peşə məktəbindən "Abidə"yə qədər, o biri yandan da Sarıtəpədən başlayıb Muradbəyliyəcən olan hissəni nəzərdə tuturam.

Tarixi abidələr, inzibati binalar öz yerində, mənim "baş planımda" hər kəsə ata yurdunda ev tikməyə imkan yaradılır. Dövlət əhaliyə çoxsaylı ev çertyojları təqdim edir ki, özfəaliyyət olmasın, şəhərin arxitekturası pozulmasın. Evin smetası tutulur və elan edilir. Hər ailə üçün ümumi məbləği, təxmini qiymət deyirəm, 100 min manat olan 3 otaqdan ibarət kürsülü ev tikilir. Amma təqdim olunan başqa layihələrdə 5, 7 otaqlı, yaxud 2, 3 mərtəbəli evlər də olur, məsələn, 150, 200 min manat dəyərində. Daha böyük, yaraşıqlı ev tikmək istəyən sakin dövlətin verdiyi 100 min manata öz əlavəsini edib istədiyi evi tikə bilir. Hər kəs zövqünə, imkanına uyğun ev tikdirir.

Mərkəzi hissədəki küçələr olduğu kimi qalır. İnsanlar sağ qalan qonşularla yenidən bir məhəllədə yaşamağa davam edir. Burada hər kəs öz torpaq sahəsinin müəyyən qədərini şəhərin ümumi ehtiyaclarının həllinə güzəşt edər. Məsələn, mən 6 sot həyətimdən bir sotunu, lap iki sotunu verərəm ki, daha geniş küçəmiz olsun, yaşıl, gül-çiçəkli parklar salınsın, məhəllələr arasında idman meydançaları, istirahət mərkəzləri tikilsin. Əminəm, hər kəs şəxsi torpağından pay verər.

İstər şəhərin mərkəzi olsun, istərsə ətrafı, bütün yerlər öz adları ilə çağırılır. Ətraf kəndlərin adı şəhərin ərazi adları kimi qalır: Ağdam şəhərinin Seyidli, Ətyeməzli, Qiyaslı, Xıdırlı və sair rayonları…

Şəhərin, kəndlərin məhəllə adlarını da saxlamaq mümkündür – avtobus dayanacaqlarında: "İmarət", "Hamam məhləsi", "Molla Qurbanlılar", "Lahıclar", "Təpə Məhlə", "Çuxur məhlə", "Ayağıyalınlar" dayanacaqları kimi.

"Dostluq kinoteatrı", növbəti dayanacaq "Beşmərtəbə!"

Tarix silinməsin, şəhərin yaddaşı silinməsin deyə!

Bəs işğaldan azad olunmuş Qarabağ şəhərlərini realda necə bərpa edirik? Bu bərpa işlərini dövlət vətəndaşla birgə aparırmı?

Belə görünür ki, bu işdə də sovet mirası özünü göstərir. Yaşlı belorusun sözü olmasın, yaddaşı silinmiş şəhərlər tikirik?

**21 iyul, 2023**

# Gündəliyə yazılmış Ağdam xatirələri

“Lenin, Lenin yolunda,
Qızıl bayraq əlimdə.
Çalışarıq, vuruşaruq
Lenin baba yolunda”.

Divarda – atamın çarpayısının başında babamın böyük portreti asılmışdı. Ötən əsrin 20-ci illərində Tiflisdə çəkdiribmiş. Bu, babamın bizdə olan yeganə şəkliydi. Pionerə keçən gün həyatımda nəsə yeni mərhələ başlayırmış kimi sevinmişdim. Evə gələndə babamın şəklinə pioner “salyut”u verib bu şeiri deməyim Münəvvər nənəmin xoşuna gəlməmişdi. Üz-gözünü turşudub mənə elə baxmışdı ki, elə bil şəkli salıb sındırmışam – o bu şəklin üstündə əsirdi. Sonra şəklə çevriləndə üzü tamam dönmüşdü – bu, sevgi etirafı gözləyən sevdalı bir qızın baxışlarıydı elə bil.

Sözləri hələ də qulağımdadı: “Bu sənin babandı, Lenin məktəbdə olur”. Sonra boynumu qucaqlayıb: “Ta bir də o şeiri demə” dedi.

Ta bir də o şeiri demədim…

Hər dəfə babamdan söz düşəndə üzünə qəribə bir hüzur çökürdü, səsi alınırdı. Bu onun uzun illərin o tayında qalan sevgisinə ehtiram nişanəsiydi. Nənəm babamın onu Tiflis teatrlarının birində görüb vurulmasından, əmisigilin Şeytanbazardakı evlərindən faytonla gəlin köçməsindən, yaşadıqları acılı-şirinli günlərdən danışanda uşaq idim, onun qəlb döyüntülərini, hələ də diri saxladığı sevgisini duymurdum. Onu indi, babamla bağlı xatirələrini danışanda sönük gözlərinə qonub can verən parıltını xatırladıqca duyuram.

Babam 1946-cı ildə, nənəmsə ondan düz 46 il sonra – 1992-ci ilin baharında rəhmətə gedib. Bu o vaxtlar idi ki, artıq müharibə ciddi mərhələyə keçmişdi, ilk erməni mərmiləri Ağdama düşmüşdü, Xocalı qırğını olmuşdu, hər axşam atışma səsi gəlirdi. Şuşa yolunun üstündəki Qarahacılı qəbiristanlığında basdırılmasını hələ çoxdan vəsiyyət eləmişdi. Amma indi oralar çox təhlükəliydi. Atamdan başqa bütün oğul-qızı Bakıda yaşadığından elə burada da dəfn edilməsi fikri yaranmışdı. Can üstəykən bu söhbəti qulağı alıbmış. Gözü atamda barmağıyla uzağı göstərib “ora, Həbibin yanına” pıçıldamışdı.

Atam vəsiyyətinə əməl elədi.

Cəbhənin Qarahacılı qəbiristanlığı istiqamətini Ala Yaqubun dəstəsi qoruyurdu. Güllə səsləri lap yaxından eşidilirdi. Uzun inaddan sonra Yaqub dəfnə kömək üçün 5 əsgər vermişdi, onlar qəbiristanlığı müdafiə edib ermənilərin yaxınlaşmasına mane olurdular. Mollanı dilə tutmaq isə daha müşkül imiş, atam onu necə razı saldığını demədi. Nənəm bax beləcə, 46 il sonra, güllələr altında, mollanın qısıla-qısıla, qorxaq səslə oxuduğu “Quran” sədasıyla sevgisinə qovuşdu.

...O şeiri dediyim gün otaqdan çıxanda nənəm dayanıb bir də babamın şəklinə baxmışdı. Sanki çərçivədən baxan gözləri onu buraxmırdı.

***

Eyvandakı uzun stolun o biri başında tüstülənən samovardan çay süzdü. Stəkəna qonşu Ağca arvadın göndərdiyi builki qarağat mürəbbəsindən salıb qarışdırdı. Hörümçək toru kimi dəqiq işlənmiş qırış sifətinə yaraşıq verən xüsusi ədayla “Zoğalı yığmasan, danışmayacam” dedi.

Yaydan-yaya Bakıdan Ağdama gələn, hər gəlişiylə evimizi qonum-qonşunun "ziyarətgahına" çevirən, yaşlıların gah "Ordubad qızı", gah da "Tiflis gəlini" çağırdığı nənəmin dediyini eləməsən, sən deyəni etməyəcəyinə şübhə yox idi. Söhbətlərini dinləmək üçün ən zəhlətökən işi belə görməyə hazır idim. Belə işlərdən biri də yarpağı bədənimi dalayan zoğal ağacına çıxmaq idi.

Onun söhbətləri yalnız özü yorulanda bitirdi. Bəzən uşaqlıq xatirələrinə baş vurub bizi Ordubada "səyahətə" aparırdı. Xatirələri babasının ərik bağlarıyla başlayıb elə onunla da bitirdi: "Hamısı birdən çiçəkləyəndə deyirdin bəs dünyada çiçəkdən başqa heç nə yoxdur". Bəzən də Tiflisdə, əmisinin Şeytanbazardakı evində yaşadığı yeniyetməlik illərindən danışar, getdiyi teatrlardan, gəzdiyi yerlərdən söz açardı. "Leyli və Məcnun" operasını əzbər oxuyurdu: "Get, ey Leylü, sən o Leylü dögülsən!" Ordubad, Tiflis və Qarabağ ləhcələrinin qarışığından qəribə bir danışığı vardı. Söhbətlərinin ən şirini babamla tanışlığı idi.

"Türklər gələndə Həbif (babamın adını belə çəkirdi) Ağdamda dost-tanış, qohum-əqrəbadan dəstə düzəldib onların qabağına çıxıbmış. O vaxt bizimkilər vuruşmurlarmış. Yevlaxda türk əsgərinin bir kişiyə şallaq çəkib söyməsi xəbəri onu da pərt edibmiş: "Kişilər bizi qorumağa gəlir, biz də girmişik evə". Beləcə qoşulubmuş Müsavat ordusuna. Əsgəran döyüşündə dizindən yaralanmışdı. Yarasının yeri sonralar da göynəyirdi".

Münəvvər nənəmin xatirələrindən: "Tiflisə bir-iki il idi gəlmişdim. Bir gün əmim arvadı gəldi ki, bəs biri sənə elçi düşüb. Əmin razılıq vermək istəyir, sən nə deyirsən? Şuşalıdı, qazı nəslindəndi, özü də varlı-hallıdı… Gedib gördüm qara bir kişidi. İti, sərt baxışlarından xoşum gəldi. Məni teatrda görübmüş. Zəhmli olsa da, nəzakətli idi… Nəysə, razılıq verdim, sonra məni faytona qoyub gəlin apardılar". Söhbətin bu yerində qız nəvələrin sualı bir-birinə calanırdı.

Oğlanlara isə davalı söhbətlər maraqlı idi: "Biz uşaq olanda ermənilər Naxçıvanda çox türk qırıb. O vaxt bizə türk deyirdilər. Onlar bizi hər yerdə öldürürdülər. Bizim arvadların döş gilələrini kəsib sapdan keçirir, təsbeh kimi bizimkilərin səngərinə atırmışlar. Buna dözməyib irəli çıxanları da gülləylə vururmuşlar. Adamların belinə qaynar samovar bağlayıb qaçırdırmışlar".

Bu qorxunc söhbətdən sonra qan-tər içində külünglə evimizin alt otağına qapı açan erməni fəhləsi Cavanşirə çay süzüb, yemək çəkəndə nənəmi başa düşmürdüm. "Sənin kürəyinə qaynar samovar bağlayana necə çay-çörək vermək olar?" Acığımı zavallı Cavanşirin armud ağacının dibində cütlənmiş ayaqqabılarını islatmaqla çıxırdım…

Münəvvər nənəmin xatirələrindən: "Ruslar Müsavatı devirəndən sonra il ildən ağır gəldi. Babangilin Tiflisdə bir restoranı vardı – "Arşın mal alan". Əllərindən aldılar. Sonra Şuşadakı mülklər də əldən çıxdı. Özünə yer tapmırdı. Ordubada – bizimkilərin yanına gəldik. Dükan açdı, İrandan mal gətirirdi. İşləri pis getmirdi. Atan da elə Ordubadda doğuldu. Amma çox çəkmədi, burada da babanı ilişdirdilər. Onun təzə hökumətdən zəhləsi gedirdi. Sərhədi adlayıb İrana, oradan da Türkiyəyə getmək istəyirdi, qərara gələ bilmirdi. Qayıdıb Ağdama gəldik. Köhnə dostlar sayəsində özünə iş qurdu, amma fikri köhnə hökumətdəydi. Deyirdi ki, onlar qalsaydı, indi bu murdarlıqlar da olmazdı. Nə orduya yazıldı, nə müharibəyə getdi. Ondan sonra mən də oğlanlarımı rus ordusuna göndərmədim. "Voyennilər" gələndə atanı taxtapuşda gizlədirdim. Babanız bu ölkədə özünə yer tapmadı. Axırda, məni körpə uşaqlarla tək qoyub öldü. Çərləyib öldü. Beləcə, qara günlərimiz başladı. Tək qaldım. Sonra qəbrini də tapa bilmədik".

***

Uşaq vaxtı Mərziliyə qonaq getmişdik. Bir kömbə çörək götürüb nənəmlə üzərlik yığmağa çıxmışdıq. Nənəm üzərliyi qoparıb yerinə çörək qoyurdu. Deyirdi ki, üzərliyin yerini boş qoymazlar.

***

Babam Qazıyev Həbib Əliş oğlunun cümhuriyyət ordusunun generalı Həbib bəy Səlimovun komandanlığı altında gedən Əsgəran döyüşündə yaralanmasından yazmışdım bir dəfə. Onun nənəmə, nənəmin də mənə danışdıqlarından bilirəm ki, o vaxt ordumuz Xankəndini, Şuşanı azad edibmiş.

Xankəndində qələbə paradı keçirilməsini o dövrün "Azərbaycan" qəzeti də yazıb. Bu yaxınlarda xəbər tutduq.

Şuşada qələbə atəşfəşanlığı haqda isə atam bunları danışıb mənə: "Erməni-müsəlman davasında bizimkilər erməniləri Şuşadan qovublar. Əsgərlərimiz şəhərdə qələbə bayramı ediblər. Ağam (atasına ağa deyirdi) erməni kilsəsinin qızılı xaçını göstərib deyirdi ki, bizim əsgərlər dilxoşluğa mərcə girib atırdılar. Bəlkə, 100 güllə dəyib o xaça".

Qarabağda qələbənin baş memarı cümhuriyyətin ora general-qubernator təyin elədiyi Xosrov bəy Sultanovdur. Mayın 10-u ad günü idi. Facebook səhifəmdə onu belə yad etdim: "15 yanvar 1919-cu ildən cümhuriyyətin süqutunacan Qarabağın qubernatoru olmuş Xosrov bəy Sultanovu Qarabağın xilaskarı adlandırırlar. Onun komandanlığı altında Azərbaycan ordusu 1920-ci ilin Novruz günlərində baş qaldıran erməni qiyamlarını yatırıb, Xankəndini, Şuşanı azad edib. Xankəndində ordumuzun qələbə paradı, Şuşada qələbə atəşfəşanlığı keçirilib".

***

Ulu babam Şuşada qazı olub. "Qazıyev" soyadımız ondan gəlir. Şəcərəmizi babam Həbibin atası Əlişəcən bilirəm. Zəncir qazıda qırılır. Bəlkə də, öz adıyla yox, vəzifə adıyla çağırırmışlar deyə Əliş babamın qazı babasının adı gəlib bizə çatmayıb.

Heç hardasa Uruset tərəflərdə oxuyub Qarabağa qayıdan oğlunun da adını bilmirəm. Yəqin, onu da adıyla yox, "qazının oğlu" deyə çağırırmışlar. Bir onu bilirəm ki, babat vuran imiş. İçdiyi arağın şüşəsinə baxıb deyərmiş: "O butulkanın dibində yataydım, durmayaydım". Beləcə, adı yox, sözü-söhbəti qalıb.

Mirzə Cəlilin "kefli İsgəndər"lərindən imiş.

Mehriban Vəzirin "Gövhər Ağa Cavanşir" tarixi romanı uşaq vaxtı hər məhərrəmlikdə gəlib imamın yeddisi çıxanacan bizdə qalan atamın yaşı illər görmüş əmisi Tiyqəli babanın söhbətlərini yadıma saldı. Sovet vaxtı Ağdam məscidi regionun fəaliyyət göstərən tək məscidi olduğundan məhərrəmlikdə ətraf rayonlardan adamlar şəhərimizə axışardı. Tiyqəli baba da gündüzlər məscidə ibadətə gedər, gecələr yatmağa bizə gələrdi. Qazı babamız, onun oğlu haqda söhbətləri ondan, bir də atamdan eşitmişəm.

***

Ağdam fərqli, hətta deyərdim, bir-birinə zidd xarakterli insanların, konqlomerat sosial icmaların harmoniyada yaşadığı yer idi. Təsəvvür edin, müxtəlif yerdən gəlmiş adamlar Ağdamda, kimya diliylə desəm, tez bir zamanda "həll olur"du, "ağdamlaşır"dı. Sonra isə ağdamlı olmağıyla fəxr edən təəssübkeşə çevrilirdi.

... Ağdamın bir hissəsi Şuşadan gələnlərdir. Yaxud əksinə, Şuşanı salanların arasında indiki Ağdam ərazisindən gedənlər çoxluq təşkil edib. Elə Seyidli məhləsini anamgilin Seyidli kəndindən

gedənlər salıb. Dünyada belə şəhərlər var ki, onlar bir-birinə çox doğmadır. Şuşayla Ağdam da belədir. Şuşalılar ağdamlılara çox qaynayıb-qarışmışdılar. Şuşanın bir tərəfi Laçın, bir tərəfi də Ağdamdır.

Atam şuşalı idi. Ağdamda dayımla nərd oynayanda öz aralarında elədikləri zarafatı xatırlayıram. Dayım deyirdi ki, biz ağdamlılar siz qalalılara sərçəni rəngləyib bülbül adına satardıq. Atam da deyirdi ki, sizə salam verəndə gərək barmaqlarını sayasan, biri əskik gələ bilər (gülür). Bu cür xoş xatirəyə çevrilən zarafatların səbəbi isə yaxınlıq, doğmalıq idi.
*(Jurnalist Əntiqə Kazımzadəyə verdiyim müsahibədən)*

***

Anam Yolçu əminin dükanına bitişik Zivər müəllimənin bağçasından bizi götürüb evə aparırdı. Şəhərə çoxlu qar yağmışdı. Yalan olmasın, mənim diziməcən. Bacımla uşaq kimi sevinirdik. Onda bacım lap uşaq idi. Qara basıb üz-gözün qar eləsəm də ağlamırdı, elə hey gülürdü. Evə çatdıq. Həyətimiz dümağ qara bürünmüşdü. Onu belə gözəl görməmişdik. Darvazadan pilləkənəcən qarın üstüylə yumalandıq. Bu dəfə anam da bizə qoşuldu, bizi əməllicə qara basdı. Bu, anamızla ilk qartopu oyunumuz idi.

***

Qış aylarında ağaclar yarpaqsız olurdu deyə evimizin pəncərəsindən uzaq Xıdırlı dağlarının qarlı zirvələri aydın görünürdü. Bayram günlərində, başqa qonaqlıqlarda taxtapuşa saman altda qışa saxladığımız alma, heyva, nar düşürməyə çıxanda o qarlı dağları ətəklərinəcən rahatca seyr edə bilirdim. Soyuq olduğundan dama çıxmazdım, eləcə taxtapuşun dama açılan yumru nəfəsliyindən başımı çıxarıb qarlı dağlara tamaşa edərdim.

Qar dağların ilahi haləsidir, sanki onun müqəddəslik yarlığıdır. Bu fikir ağlıma sonralar gələcəkdi…

***

Diyircəkli qırmızı telefonumuzu o qədər yığmışam, cavab verməyib. İşğal olunmuş evindəki telefon nömrəsini yığasan, cavab verməyə, heç bilirsən bu nəyə bənzəyir? Sidq ürəkdən Tanrıya yalvarasan, səsin çatmaya, duan yetməyə, bax ona. 1991-ci ildə Ağdam telefon qovşağının kitabçasında belə yazılıb: “Qazıyev Pərviz H., Ə.İbrahimov küçəsi 8., 5-54-50

***

Uzun illərdir gecələr yuxum qaçanda xəyalımı oralarda dolaşdırıram. Onda tez yuxuya gedirəm. Əvvəllər Şuşadakı “dom otdıx” deyilən istirahət evinin aşağısından keçən qala divarlarına dırmaşıb özümü o üzündə üzü Qarabağ dağları, dərələri, çöllərinə uzanan boşluğa atıb quş kimi süzürdüm. Amma indi Ağdamdakı evimizin damında üzü göyə sarı uzanıb buludlara, uzaqda dağlara, yaxında qonşu həyətlərinə baxaraq yuxuya gedirəm. Qəribədi, demək olar, hər axşam o xəyallarla yatsam da, oralar bir dəfə də yuxuma girmir. *(Jurnalist Cəvahir Səlimqızına verdiyim müsahibədən)*

***

Uşaqlıqda qəşəng aktrisalara vurulan vaxtlarım az olmayıb. İrina Alfyorovaya, elə bizim Həmidə Ömərovaya aşiq olduğum kimi. Şəkillərini jurnallardan kəsib otağımın divarlarına vururdum. Bir dəfə atam içəri girib onlara baxanda utanmışdım da. Amma o, etiraz eləməmişdi, eləcə bir xeyli

baxıb, “Qəşəng qızlardı, zövqün pis deyil” demişdi. Birinin utancaq təbəssümü, o birinin iri gözləri məni sehrləmişdi.

Onlardan əvvəl isə birinci belə “sevgilim” İvan Kramskoyun məşhur portretindəki “naməlum qadın” idi. Növbəti ilin divar təqvimini o rəsmlə çap eləmişdilər. Anam kitab mağazasından alıb mətbəxin divarına vurmuşdu. Mən də çıxarıb öz otağıma aparmışdım. Çarpayımla üzbəüz divara yapışdırmışdım. Gecələri onun xəyalıyla yatır, sabahları mənə sirli bir maraqla baxan gözləriylə açırdım. Sonralar bildim ki, sevginin bu növünə platonik sevgi deyirmişlər.

Kramskoyun bu portreti mənə görə “Mona Liza”dan da ürəyəyatım idi. Anamı xatırladır mənə, bəlkə də, ona görə. Hələ mənim uşaq, onun cavan vaxtlarından üzü bəridi bu hiss. 21 dekabr onun anım günüdür. Bütün analara saygı-sevgilərlə yazdım bunu. 21.12.17

***

15 avqust günü atamın bir söhbətini eləyim sizə. Özü lap şirin danışırdı:

“1960 ya 61-ci il idi. Subay-soluq vaxtlarımızdı. Vəliylə (Vəli əmiylə uşaqlıq dostuydular, Ağdamda qonşumuz idi – *V.Q.*) getmişdik Bakıya gəzməyə. Babat yeyib-içib bulvarda gəzirdik. Vəli dedi, gəl paraxoda minək. Dedim, minək. Elə gəmi təzəcə aralanmışdı ki, Vəlinin tutması tutdu. “Kapitanı çağırın bura!” Deyirəm, ay Vəli, neynirsən kapitanı, camaat bizə baxır, bir az yavaş ol. “Yox! Kapitan gəlsin!” Bizim dildə güclə danışan bir kapitan gəldi, camaat da dənizi buraxıb bizə baxır. Rus qızları-filan. Vəli əlini cibinə saldı, bir qom palazqulaq sovet pulu çıxarıb kapitana sarı: “Neçə verim bu paraxoda?” İndi dirənib ki, alıram bunu, sən qiymət de. Kapitan da bir şey anlamır, key kimi baxır. Nə illah elədim, dediyindən dönmədi. Axır qayıtdım: “Bax tutaq ki, o satdı, sən aldın. Neyləyəssən bunu?” “Aparajam Ağdama”. “A kişi nətəhər aparassan? Ağdamda dəniz var?” “Belə Xəzərnən üzəjəm Kürə, ordan da çerez Qar-Qar gedif, Qobuyla sürəjəm düz Şuşa astanovkasına”.

İndi London, Paris, Praqa su yolu olub. O vaxtlar Bakı bulvarı hər istəyəndə əlçatan deyildi rayon əhlinə. Sonralar həyətimizdəki hovuzun qırağında, armudun altında açdıqları məclisdə bunu danışıb gülürdülər. Bu gün 85 yaşı olur atamın. Bütün atalara ehtiram hissiylə bölüşürəm bunu. 15.08.17

***

Məktəbimiz Ağdam bazarıyla üzbəüz idi. İlk nəğmə müəllimimizin adı Şəmsəddin idi. Sinfə zoğal çubuğuyla girirdi. Hirsləndiyi uşağa çubuğu qəzəblə qaldırsa da, ustufca çırpırdı. Gözü çəp olduğundan bilməzdik kimə vuracaq. Sənə baxıb məni, ya da o biri tərəfindəkini vura bilərdi.
Bir dəfə soruşdu ki, kim durub bir xalq mahnısı oxuyar. Dedim: “Mən”. Ona qəribə gəldi, adətən, mahnını sinfin səsi olan uşaqları oxuyardı. Dedi: “Çıx qabağa”. Lövhəyə çıxıb başladım o vaxt dəbdə olan Afrik Simonun məşhur mahnısını oxumağa: “Trrrrr acia, trrrrr ha-ha! Trrrrr voom bam, trrrrr ha-ha! La-la-la-la-la-la…”

Sinif şaqqanaq çəkdi, dalını gətirə bilmədim. Ceyhun vardı, ona baxıb “nəyə gülürsən, əəə” sözünü ona desə də, çubuğu mənə çəkdi. “Xalq mahnısıdı, ə, bu?” Amma babat tutmuşdu, yeri xeyli müddət göynədi. *(Jurnalist Cəvahir Səlimqızına verdiyim müsahibədən)*

***

Samtrediya – Qarabağ 0:6.

1981-ci ildə “Dinamo” Avropa liqasının (adı ayrı cür idi) çempionu olanda Tiflisin bu stadionunda keçirilən oyunlara fanatikcəsinə baxırdım, Çipiani, Çivadze, Şenqeliya deyə qışqırardım – Ağdamda… indi Ağdamsız komanda Avropa liqasında gürcüləri udur. Qlobal istiləşmədəndir – belə deyim.

Stadionda gürcü bicliyinə baxın. Bomboşdur, amma oturacaqları elə rəngləyiblər, elə bil Dinamo – Feyenord oyunudur, ağzınacan dolu. Siz xatırlamazsız o oyunu. 18.07.17

***

Sizə bu şəklin tarixçəsini danışım, kefiniz açılsın. 22 iyundur, yerinə düşür. Deməli, 1985-ci ildə qələbənin 40 illiyi ilə bağlı respublika məktəbləri arasında teatr müsabiqəsi keçirilirdi. Bizim məktəbin teatr çıxaranları olan bu şəkildəkilər rayon məktəbləri arasında birinci oldu, sonra region üzrə də qalib çıxdıq. Oynadığımız tamaşa bir partizan dəstəsinin həyatından bəhs edirdi. Dəstənin başçısı mən idim. Yusif, Müşfiq, İlqar, Rövşən üzü şəkildə olub özü feysbukda olmayan başqa uşaqlar da dəstəmizin üzvləri, Reyhan partizan qız idi. Rejissorumuz Atamoğlan müəllimiydi. Rəhmətlik tamaşaya yaxşı musiqi seçmişdi, geyimlərimizi şəhər teatrından götürmüşdü. Ən balaca ölçülüsü belə mənə yekəydi.

Məşqləri şəhər kitabxanasının akt zalında edirdik. Mənim ucbatımdan tamaşanın bir yerini təkrar-təkrar məşq edəsi olurduq – hər dəfə çaşırdım. “Bu, bizim üçün oturmağa bir bəhanə olmamalıdır!” deyib oturmaq olmazdı. Mənsə hər dəfə bunu deyəndən sonra otururdum. Axırda, sən demə, Müşfiq məndən xəbərsiz stula balaca bir sancaq keçirər. Elə sözümü deyib oturmuşdum ki, sancaq ətimə batdı. Səsim ərşə çıxdı, amma ta bir də oturmadım. Beləcə, rayonlararası yarışmanı qazandıq. Sancaq olmasaydı uda bilməzdik. Dediyim odu ki, yanınızda sancaq gəzdirin, bəzən o uğura açar olur. 22.06.17

***

Ağdamda qonşumuz vardı, Ağca xala, qocaydı, beli bükülmüşdü. Uşaq vaxtı hər küçədə görəndə qara zənbilini alıb düz evlərinə qədər aparırdım. Zənbili çox ağır olurdu, zülümlə aparırdım. Onun gülüşü, alqışı elə xoşuma gəlirdi ki, elə bilirdim o saat dediyi olacaq – “Allah məni yekə kişi edəcək”. 23.01.17

***

Biz pıçıldamadıq, qışqırdıq. Pıçıltıda düşünmək var. Qışqıran adam isə düşünmür. Biz qışqırdığımızdandı ki, nə baş verdiyini düşünə bilmədik. İnsan özünün hesab etdiyi bir şey uğrunda dava anında qışqırmır, hayqırır. Sevgi kontekstindən yanaşanda “pıçıltı” “hayqırmaq”la sinonimdir. Hayqırmaq düşünüb gəldiyin nəticəyə nöqtə qoymaqdır. “Bu mənimdir”i hayqırıb deyirsən, çünki hayqırtı içdəndi, qışqırığın ünvanı isə dərin deyil, o boğazdan gəlir.

Bütün sevgilərin bir səsi var – pıçıltı! Ana balasına laylanı, bəndə Allahına duanı, aşiq məşuquna sevgisini pıçıltı ilə deyir. Heç bunları qışqıra-qışqıra edən görmüsünüzmü? Qışqırıqda pafos var. Bir yazımda belə yazmışdım: “Mübariz İbrahimov Vətəni sevməyin düsturunu göstərdi. Heç kimə heç nə demədən. Sevgisini dilinə gətirmədən, eləcə “…artıq ürəyim dözmür” yazdı. Sonra sakitcə durub Vətəni sevməyə getdi. Vətəni sevməyə gedənlər qayıtmır, o da qayıtmadı. Beləcə, İlahi Eşqə qovuşdu!” *(Yazıçı Pərvinə verdiyim müsahibədən)*

***

Axsaq xoruzun hekayəti.

Ağdamda milis şöbəsiylə çəpər qonşusuyduq. Şəhərə ilk atılan mərmilərin biri həyətimizə düşmüşdü. Deyirdilər ki, ermənilər milis idarəsini nişan alıblarmış. Onda hamımız Bakıda toydaydıq. 1992-ci ilin fevral ayı idi. Qayıdanda gördük ki, qonşu Səkinə xalagillə aramızdakı şifer hasar dağılıb, şüşəbəndimizin şüşələri çiliklənib tökülüb. Alazan mərmisi toyuq hinimizin yanında çala yaratmışdı. Qapısı açıldığından toyuq-cücə həyət-bacaya dağılmışdı. Ölüb eləyəni yox idi, təkcə xoruzumuz yaralanmışdı, axsayırdı. Kəsəsi olduq. Tükünü təmizləyəndə gördük ki, buduna şifer qırığı batıb. Yazığın budu qap-qaraydı. O qədər qəlpənin bir elə toyuq içində tək xoruza dəyməsində bir hikmət vardı: elə bil xoruz sevdiyi toyuğu qorumaq üçün özünü qəlpə qabağına atmışdı.

2017 – Xoruz ili astanasında sizə bu hadisəni danışmaqda məqsədim həm də arzumu bölüşməkdi. Çox ağır il gəlir qarşıdan. Ağır illərmi görmədik?! Bunu da aşıracağıq. Onun ağrı-acısını, maddi-mənəvi sıxıntısını, qorxu-xofunu yalnız birlikdə dəf edə bilərik. Həmrəylik elə problemlərin həllinə birlikdə can qoymaqdı. Həyətimizdəki o yaralı xoruz misalı – xalqımız fədakardı, özünü fəda verməyə hazır hökumətimiz olsa, dünyanın ən gözəl, yaşamalı ölkəsini, rifah cəmiyyətini də qurarıq. Qarabağı da sevə-sevə qaytararıq. Elə budu arzum!

Yeni iliniz mübarək olsun! 31.12.16

***

Abdalda xaş qonaqlığı.

Deyir, dağ başında bir ev təsəvvür elə, içəridə odun peçinin istisi, çöldə qar dizdən, şaxta. Tut arağını Bəbir gətirmişdi Gülablıdan. Abdalda açılan süfrədə yeyib-içəndən sonra başladıq Bəbirlə dilxoşluq etməyə. "Zay araq"-filan. "Tut arağı yox, əzgil suyu"-zad. Bəbirin başı çöndü, durub lülkalı motosikletini sürdü arağı aldığı İsmayılgilə. Hələ dan ağarmayıb. Yuxudan durub darvazaya çıxan İsmayıl görür ki, Bəbir gəlib, özü də belə şaxtada lüt, qolsuz maykada. "Məni biabır eləmisən. O nə zay araqdı vermisən mənə? Təmiz araq gətir". İsmayıl vəziyyəti anlayır. Gözünü ovuşdura-ovuşdura deyir: "Zay araqla bu viddəsən, təmiz araq versəm şalvarsız gələrmişsən ki". Bunu bu sabah bizi xaşa qonaq çağıran Elmidar kişi danışdı. O, Qulu Ağsəsin qardaşıdır, İsveçə oğlugilə qonaq gəlib. Xoş bir xaş məclisi oldu. 22.11.19

***

55 il qabaq – 1964-cü ilin 24 oktyabr günü həyətimizdə bir toy çalınıb. Atam anamı gəlin gətirib. Özümü Vaqif Bayatlının şeirindəki “Qonşu toyuna dörd hasar o yana oynayan uşaq” kimi hiss edirəm bu gün. 24.10.19

***

Yağış yağar, qar çilər.
Qapını kəsər elçilər.
Anam deyər, gəl verək.
Atam deyər, qoy görək.
... Dilinə qurban a, qardaş,
Sən də bir dillən görək.

Tovuz nənəmin söz boğçasından. Onun nurlu çöhrəsini, körpə çağlarımın röyası kimi yaddaşıma hopan evinin təsvirini "Heyva qoxulu zirzəmi" essesində vermişəm. Milyon qoxu içində o zirzəminin ətrini indi də ayırd edə bilərəm. 19.10.19

***

Xəyal olmasa, gələcək də olmaz. Bütün kəşflərin kökündə insan xəyalları durur. "Uçan xalçanı" xəyal eləməsəydi, insan təyyarə yarada bilməzdi. Xaraba qalmış yurdu yenidən qurmaq xəyalı isə fərqlidi. Birincidə xəyal sevinc havasına qurulurdusa, ikinci kədər üstə köklənib. Həmin yazılar yazılan o iki aydakı halım dəm qazının səssizcə, "sevə-sevə" boğduğu adamın halı kimiydi. Bəzən kədəri yalnız düşünməklə yox, elə aldığın nəfəslə də qəbul edirsən, boğucu qaz kimi. Elə buna görə "Mağar" və "Bazar" adlı bölmələr yazılmadı, nəfəs çatmadı buna. *(Jurnalist Fərid Hüseynə verdiyim müsahibədən)*

***

Bir dəfə İsa bulağındaydıq. 1981-ci il idi səhv etmirəmsə. Neçə maşın getmişdik qohum-əqrəbayla. Elə oldu ki, qayıdanda atamgil başqa iki tanışını da götürəsi oldu. Dayıoğlu Elşənlə piyada gələsi olduq. Onda Şuşada "26-lar parkı" tərəfdə ev tutmuşduq, orda qalırdıq. Elşənlə deyə-gülə, zümzümə edə-edə gəlirdik. Daşaltına dönən yerdə – "Laçın astanovkası" da deyirdilər ora – "Zastav" pavilyonunun yanında bir bulaq vardı, sudan içib üzü Şuşaya dikələn yolla qalxdıq. Səhv etmirəmsə, İsa bulağından Şuşaya 3 kilometr yol idi. O vaxt bizə uzaq gəlirdi bu yol.

Nə uzadım, teleqülləni keçib üzüaşağı düşdük, sanatoriyanın yanından keçəndə bir də gördük bir sarışın qız gəlir. Elə bildik burda dincələn turistlərdəndi. Elə qız bizə çatmışdı ki, Elşən dilləndi: "Vahid, bu qızı alımmı saaa?" Bir də gördük, qız çevrilib gülə-gülə "Hə, al" deyib keçdi.

Onda 13 yaşım vardı, qızsa, məndən beş yaş böyük olan Elşənlə yaşıd olardı. Qızın azərbaycanlı çıxması bizi pərt eləmişdi. Elə bir az da irəliləmişdik ki, gördük parkdan, ağacların arasından üç-üç, beş-beş bir dəstə oğlan çıxır. Yalan olmasın, 20 nəfər. Aralarında ən yaşlısı Elşənə yaxınlaşıb: "Nə deyirdin ə, o qıza heylə?" – dedi.

Ağdamlı uşaqlarla şuşalıların davası tez-tez düşürdü. Qızı rus bilməyimiz, üzr istəməyimiz keçmədi. Şuşalının əlinə fürsət düşmüşdü, dikbaş ağdamlılardan intiqam almaq üçün əla girəvə keçmişdi əllərinə. Bir onu eşitdim ki, Elşən qulağımın dibində çığırdı: "Vahid, bilirsən Koroğlu nə deyib? Dayanma, qaç!" Vallah, nə təhər götürüldümsə, tozum da qalmadı. Qorxu bəzən güc aldığı kimi, güc də verir, axı. Bir az aralandığımı görüb Elşən də qaçdı. Sağ olsunlar, ta dalımızca çox qovmadılar. Yoxsa şil-küt eləyəcəkdilər bizi. 08.07.19

***

1981-ci il idi, institutu təzəcə bitirib məktəbimizdə rus dili və ədəbiyyatından dərs deməyə başlamışdı. Puşkinin, Lermantovun əsərlərindən, nə bilim, Turgenyevin "Mumu"sundan dərs danışanda, tez-tez təəccüblə üzümə baxar, "Вахид, разве?" deyib sözümü kəsərdi. Həmin vaxt ağlımın heç həndəvərindən belə keçməzdi ki, az qala 40 il ötəcək, Rusiyada kitabım çıxacaq və sevimli müəlliməm – Nərgiz Mahmudova o kitabı satışa çıxaran saytda mənim dərs danışmalarımdan gözəl xatirə kimi bəhs edəcək. "Ruhlar şəhəri"ndə "XIX əsr fransız romanlarının qadın qəhrəmanları"na bənzətdiyim əziz müəlliməmin o sayta yazdığını xeyli dəyərli dostun rəyləri arasında oxuyanda ətim ürpəşdi. Bir anda özümü ömrün ən doğma, məhrəm çağında hiss elədim – xoşbəxt oldum! Hər deyəndə ələ düşməyən bu xoşbəxt ovqatı feysbuk səhifəmdə bölüşdüm. Görün Nərgiz müəllimə nə yazıb:

“Mən onu Ağdam şəhərindəki 1 saylı məktəbin 6-cı sinfində oxuyandan tanıyıram. Dipdiri qara gözləri vardı, fəhmli, dərrakəli, yaradıcı təxəyyülə malik, hər şeyi öyrənməyə can atan 13 yaşlı bir oğlan idi. Lövhə qarşısına çıxıb rus ədəbiyyatından ev tapşırığına cavab verəndə özünə elə qapılırdı ki, istənilən klassik yazıçının istənilən əsərinin süjetini, sonluğunu istədiyi kimi dəyişib danışa bilirdi. Həm də bunu içdən, şövqlə və çox maraqlı edirdi; özünü uydurduğu o süjetin bir parçası sanır, danışdığına elə aludə olurdu ki, onu həmin o dünyadan mənim atmacam ayırırdı: "Vahid, yaxşı görək!.."

Bu zaman məsum-məsum utanıb gülümsəyir, danışığına kitabda yazılan kimi davam edirdi...”
25.01.19

***

Vətən anlayışı konkret olduğu qədər də nisbidir. Bir yazımda qeyd etmişdim: “Aydan baxsan Yer də vətəndir”. Bir vaxtlar SSRİ də vətənimiz idi. İndi o ərazini vətən kimi təsəvvür eləmək belə olmur. Amma Yurd konkretdir – bəlli zaman və məkanı var, ona görə də “yurd” sözünü daha çox xoşlayıram. Mənim üçün Azərbaycanda Qarabağ, Qarabağda Ağdam, Ağdamda nənəmin kənddəki evi yurddur. Uzaqdan Azərbaycan bax həmin yurd yeri kimi görünür. *(Jurnalist Sevinc İltifatqızına verdiyim müsahibədən)*

***

Tahir Salahovun “Aydan” portreti məndə rəssamlıq haqda təsəvvür yaradan ilk rəsm əsəridir. Balaca qız oyuncaq at belində təsvir olunub. Anamdan belə bir at istədiyim günü dünənmiş kimi xatırlayıram. Rəhmətliyin zarafatı da yadımdadı: "atdan xoşun gəlir, ya qızdan?"
Bu xatirəni Tahir Salahovun 90 yaşı tamam olan gün feysbuk səhifəmdə paylaşdım. Sonra oxudum ki, sən demə o portret London hərracında 269 min funt sterlinqə satılıbmış. 30.11.18

***

“Bərgüşada sözüm qaldı sinəmdə”.

İldə bir dəfə Qubadlıya gedərdik. Atamın bir dostu vardı, Vəli əmi, Allah rəhmət eləsin. O qədər doğma adam idi ki, elə bilirdim, elə həqiqi əmimdi. 14 yaşım olardı, ya olmazdı. Bir səfər onların qonşuluğunda bir qıza elə aşiq olmuşdum ki, evə qayıtmaq istəmirdim. Atama nə qədər yalvarsam da, qoymadı. Qıza da kişiyana söz vermişdim ki, qalacam! İndiki ağlım olsaydı, qalmaq istəyimin əsl səbəbini atama açıq deyərdim, rəhmətlik hal əhliydi, məni başa düşər, bəlkə də, qoyardı qalım. O sevdadan “Bərgüşada sözüm qaldı sinəmdə” adlı seir də yazmışdım.

Bərgüşadın bığlı balığı.

Qubadlıdakı dostum Umudu heç vaxt unutmaram. Atası kinoteatrın müdiriydi. Ömrümdə ilk və son balığı onunla tutmuşam. Bərgüşad çayında qarmağıma bığlı balıq keçmişdi, deyirdilər nadir hallarda belə balıq çıxır. Hə, bax o Umuda atası pul verməyəndə lüt soyunub çıxırdı küçəyə, başlayırdı qışqırmağa: “Ay camaat, Teyyub kinonu dağıdır”. Ərköyün idi yaman.
*(Jurnalist Cəvahir Səlimqızına verdiyim müsahibədən)*

***

O gün 1 ayın nəhayətində şəhərimizə gün doğmuşdu. Mən də pəncərə qabağında onu seyr edir, boyuna sevinirdim. Yan otaqda sovet dövrünün uşaq mahnılarına gur səs vermişdilər...

1973, ya 74-cü ilin bu günləri olardı. Yeni ilə hazırlaşırdıq. Ağdamda Lenin bağının bəri üzündəki, südsatan Lətafət xalanın dükanının tinindəki bağçamızda Mina müəllimə məni də xora yazmışdı. O vaxt qızlarımın indi yan otaqda dinlədiyi bu mahnını oxuyurduq.

*”Qoy gətirim ləyəni,*
*Su tök, yuyundur məni.*
*Ay ana, böyüyəndə*
*Günəş olaram mən də”.*

Mahnının nəqərat hissəsini bir qız səsləndirirdi. Amma nədənsə mən xorla yanaşı solo hissəni də oxuyurdum. Məndən asılı deyildi, nəqərat yeri gələndə çaşıb başlayırdım. Axırda Mina müəllimə acıqlanıb məni xordan çıxardı. Bir müddət kənarda qaldım, sonra, ya ağzımı büzübmüşəm, ya ürəyi dözmədi, nədisə, geri qaytardı. Barmaqlarını gözünə aparıb – ”Oxuyanda gözümün içinə bax!” – dedi.

Növbəti məşqdə gözümü Mina müəllimədən ayırmadım. Mahnının nəqərat yerində müəllimənin gözləri hədəqədən çıxacaqmış kimi mənə elə zilləndi ki, az qala nitqim quruya. Beləcə, nəqəratı oxumağı tərgitdim.

Ömrün xoş çağları idi. Mina müəllimə nəqəratı oxumağı mənə tərgitsə də ”Günəş olaram mən də” istəyimi əlimdən almadı…

Qəti dəyişməmişəm, hələ də günəş olmağa ümidim var: “Ay ana, böyüyəndə, Günəş olaram mən də”.

Uşaqlarınıza dinlədin, nəvələriniz varsa, nəvələrinizə dinlədin bu màhnını, oxudun. "Günəş olmaq" istəyi yaransın içlərində. Ən əsası – onlara qoşulub siz də oxuyun.

Həyat gözəldir. Həyat Günəşlə daha gözəldir. 27.12.20

***

Yay ayları axşama doğru evimizin damında uzanıb göydə buludlara, uzaqda Xıdırlı dağlarına, yaxında qonşu həyətlərə, aşağıda küçəmizin gəlib-gedəninə tamaşa eləməkdən xoşum gəlirdi. Taxtapuşun ılıq dəmiri bəzən mürgü gətirərdi, əməlli-başlı yuxuya da gedərdim. Gözümü açanda özümü göyün yeddinci qatında bilirdim, ənginlikdə gözə dayaq nöqtə gəzirdim. Sonra üzüqoylu çevrilib qonşuların həyətinə baxırdım.

Damda uzanmaqdan usananda dikəlib otururdum. Belədə küçəmiz daha aydın görünürdü. Qoy küçəmizdən danışım. Elə bilin bu səhər olub.

Əli İbrahimov adlanan küçəmizə Şuşa dayanacağına çatmadan, “Köhnə hamam”ın tinindən sağa burulub girirəm. Hamamın açıq pəncərəsindən bayıra axan hamam qoxusu burnuma dəyir. “Uçilişa”nın qızları ilə yenə üz-üzə gəlirik, saçımı qarışdırır, üzümə gülürlər. Uşaqlar milis küçəsində futbola bir azdan başlayacaqlar. Şahin atası alan təzə oyuncaqlarını küçəyə çıxarıb. Sima xala oğlanlarının əlindən tutub şəhərə gəzməyə aparır. Yolun o üzündə Qaçay əmi evinin ağzında siqaret çəkir. Açıq qapısından görünən həyətində Ələkbər kişi arvadı Marusya xalaya qızılgül dərir. Məhləmizə təzə köçən Ramiz həkimin balaca şıltaq qızı Elnarə qaça-qaça açıq yaşıl rəngli darvazalarından içəri girir. Rza yenə pəncərəni açıb gitarasının səsini aləmə yayır. Çəpər qonşumuz Elza müəllimənin qızı Ellada ilə təzə evlənən göz həkimi Cəfər yaşıl “Jiquli”sindən düşüb üzündəki xoş təbəssümlə mənə salam verir.

Mənsə göy üzünün qapısından keçirəmmiş kimi səma rəngli darvazamızı açıb həyətimizə girirəm... 28.11.20

***

Erməni işğalında qalan evimizin iki əşyası mənim üçün xüsusilə əziz idi. Biri nənəmdən qalma zindan tək ağır şifoner, biri də qara rəngli ”Rostov Don” pianosu. Hər birinin bir ömrə yetəsi qədər xatirəsi var. Şifoner təkcə elə şifoner deyildi, sanki ailəmizin arxiviydi. 100 illik arxiv. “Çöl Qala” romanında onun təsvirini vermişəm. Pianomuzsa…

Piano isə mənim könül dostum idi. Onun ”Ruhlar şəhəri”ndə təsvir etdiyim xatirəsini bölüşmək istəyirəm sizinlə:

“Deyirlər, musiqini gecə dinləmək yaxşıdı. Elə konsertlər də bir qayda olaraq axşamlar olur. Amma mən böyük həvəslə bu qaydanı pozardım. Səhərlər musiqi səsinə oyanmaq qədər gözəl nəsə varmı? Mənim o sabahlarımın yerində, görəsən, indi hansı səhərlər açılır?

...Piano dillərindən qopan Bethovenin ürək əsdirən “aylı” sonatası yatanlar oyanmasın deyə barmaq ucunda çölə axır, baharın ılıq sübh nəfəsini elə bu gecə çiçəkləyən armud ləçəklərinin qoxusu ilə birlikdə içinə çəkib yuxarı mərtəbəyə qalxır, açıq pəncərədən ruh kimi yatmış bədənə girir... İlahi, o anları mənmi yaşamışam? O səhərləri mənmi açmışam?

Musiqini səhər çalarlar! Hava hələ çirklənməmiş, sular dupduruykən, hələ adamlar ayılıb bir-birinə yalan söyləməmiş, ...ər sevdiyi arvadıyla, körpə anasıyla, bəndə Allahıyla olanda çalarlar”.

Deyirlər, 3 gün sonra Ağdamın azad olunması xəbəri bir tvittlə gələcək. Nəyisə həyəcanla gözləyəndə anam deyərdi ki, ürəyim yarpaq kimi əsir. Sən demə, nə vaxtsa mənim də ürəyim əsə vurarmış.

Bilirəm, uşaqlığımın Ağdamı çoxdan yoxdur, evimiz də həmçinin. Amma nədənsə mənə elə gəlir ki, pianomuz ordadır. Bacım Hüsniyyə ilahi əfsunmuş kimi bir barmaq təmasıyla, o “aylı sonata”nın bircə notuyla toxunsa evimizi də, şəhərimizi də qaytarar. Anamı da, atamı da.

...Gün gələcək pianomuzun tozunu alacaq, kökləyəcək, həyətimizdə sizi gözəl bir konsertə dəvət edəcəm. Az qalıb! 17.11.20

***

Oğul arzulayan bibim uzun illərdən sonra arzusuna çatmışdı. Bu münasibətlə atam Bakıdan qonaq çağırıb bacısına Şuşada ev tutmuşdu ki, istirahət eləsin. 1976-cı ilin yayı idi. Mən də bibimgillə qalırdım. Şuşaya yolu düşən qohum-əqrəba mütləq bizə dönürdü deyə evimizdə şənlik olurdu. Sonra mütləq Cıdır düzünə çıxırdıq. Bu foto da o Cıdır seyrlərindən birində çəkilib. Rənginin qaralığına baxmayın, 44 illik zaman müharibəsindən üzüağ, alnıaçıq çıxıb. Odu, o qıraqda nənəsinin yanındakı uşaq mənəm.

Bibim oğlunun üstündə yarpaq kimi əsirdi. Qızlarını da, məni də ondan qıraq tuturdu. Mənimsə biboğlunun kolyaskasını sürməkdən ötrü ürəyim gedirdi. Girəvələyən kimi sürürdüm aşağı-yuxarı. Bir gün bibim oğlunu kolyaskada qoyub evə çıxmışdı. Göz-göz eləyib kolyaskanı qaçırdım, sürüb yola çıxdım. Darvazanı təzəcə keçmişdim ki, bibimin səsi həyəti başına götürdü. "Rezki povorod" elədim geri dönəm, kolyaska aşdı. Körpə Ramin yumalanıb kolyaskadan yerə düşdü. Şuşanı yalan deyərəm, amma bibimin fəryadı qonşu məhləyəcən çatdı. Qorxumdan qaçıb evin zirzəmisinə

girdim. İncəvara, bir şey olmadı uşağa. Bibim oğlunu bağrına basıb pilləkənlə evə qalxdı, nədənsə məni yox, yaşda məndən böyük qızlarını yamanlaya-yamanlaya.

Gün boyu pərtliyim keçmədi. Könlümü uşaqlıq dostum bibiqızı Esmiralda aldı.

Səhəri gün biz də böyüklərə qoşulub Şuşa bazarına getdik, bibim bizə xoruz şəkilli şirniquş aldı. Mən şirniquşu sümürmək istəmirdim. Qızlar analarına nə dedilərsə, əliylə saçımı qarışdırdı, yəni şirniquşunu ye. O bazarlıq edir, bizsə bazarın ikinci mərtəbəsində oynaşırdıq.
O gün bibim oğlunu buraxıb mənim nəvazişimi çəkdi.

20 il keçdi, bir başqa uşağın kolyaskasını sürürdüm – bu dəfə öz bacım oğlunun kolyaskasını. Ta əvvəlki kimi yox, ustuf-ustuf.

Sonra o körpə böyüyüb Orxan Mikayıllı adlı igid oldu. Nənə-babasının, bizim yurd həsrətimizlə böyüdü Orxan…

O gün dayısına mesaj göndərdi ki, ”babagildəyik”, yəni Şuşanı azad etdik! Orxan Şuşanı qanı bahasına azad elədi öz əsgər dostlarıyla.

Ən böyük arzum Qarabağı, Ağdamı, Şuşanı azad görmək idi. Buna inanmışam həmişə, amma ağlıma gəlməzdi ki, bir vaxt kolyaskada gəzdirdiyim körpə Şuşanı azad edənlər arasında olacaq və xilas xəbərini mənə Şuşadan göndərəcək.

Arzudan arzu doğur. İndi bir arzum qalıb: bu köhnə şəklin birini də mən çəkdirim Cıdır düzündə, nənəmin yerində oturum, ailəmlə, doğma qohumlarımla birgə şəkil çəkdirim. Ondan sonra doğulacaq arzulara isə baxarıq…

Arzularımız çin, Qarabağımız mübarək olsun! 13.11.2020

***

Rus "sülhməramlıları"na ilk publik etirazı bilirsiniz kim etmişdi? Qədir Rüstəmov!

Bir gün balıq ovundan dönən Qədiri rus əsgərləri saxlayır. Sənəd, baqaj yoxlaması-filan. Baqajdan qarmaqla yanaşı, ov tüfəngi də çıxır. Tutub aparırlar. Milis rəisindən tutmuş, başqa rəsmilər də qarışır işə: “on izvestniy pevets”- filan. Qədiri buraxırlar. Milis idarəsinin qabağında – bizim məhlədə – sanki indi duyuq düşürmüş kimi bir söz deyir: "Boy, rusa bax ey, qudurub, tüfəngimi almaq istəyirdi".

Qarabağda Moskvaya tabe Volski idarəsi çox istəyinə nail oldu, tək Qədir Rüstəmovun tüfəngini ala bilmədi.

İndi 30 il sonrayamı qayıdırıq?

Mən Hikmət Sabiroğlu ilə Ağdamdan Şuşaya gedəndə Əsgəranda, məsələn, Vladimir Solovyov adlı urusa pasportmu göstərməliyəm?

Allah sənə rəhmət eləsin, Qədir Rüstəmov... 10.11.20

***

Evimizdən ilk götürdüyümüz ailə albomumuz, içində bir neçə nəsil ailə arxivi olan qara çamadanımız, beş-on seçmə kitab, anamın sırğa-üzüyü, bir də atamın qədim nərdiydi. İndi orda qalanlar arasında heyifsiləndiyim bir kitablardı, bir də vallar. Vallar bir neçə nəsil idi ötürülə-ötürülə gəlib çatmışdı bizə. 1898, 1905, 1910-cu illərin valları vardı arasında. Rəşid Behbudovun atası Məcid Behbudovun, Cabbarın Varşavada yazılan valları, rus romansları daha qədim idilər. *(Jurnalist Cəvahir Səlimqızına verdiyim müsahibədən)*

***

İldə bir dəfə Ağdam-Xocavənd yoluyla Qubadlıya qonaq gedərdik. O yolun Mərzili, Qarakənd yolayrıcılarından sonra lüt təpələr gəlir. Təpələrin arasıyla qıvrıla-qıvrıla uzanan yoldan xeyli aralı bir təpənin başında bir cüt ağac vardı. Ümid edirəm, durur o ağaclar. İlk dəfə o yolu keçəndə atam həmin ağacları göstərib "erməni-müsəlman davasından" bir hadisəni danışmışdı bizə. O qoşa ağac təpəyə sancılan kimi atamın dedikləri də beynimə eləcə həkk olub qalıb.

Demək, iki qardaş otardıqları sürünü dərə-təpəyə buraxıb hərəsi bir ağacın altında sərinləyirmişlər. Sən demə ermənilər onları pusurmuşlar. Xəlvətcə gəlib onları öldürüb, sürünü aparıbmışlar. Sonrakı səfərlərdə hər dəfə ordan keçəndə o hadisə yadıma düşürdü, elə bilirdim ki, o qardaşlar hələ də o ağacların altındadılar. Xəyal qururdum: o vaxtın sovet filmlərində gördüyüm "Çapayevin pulemyotu"nu təpənin başında qurub erməniləri zəmi kimi biçirdim. Sonra da xilas etdiyim o çoban qardaşlarla gedirdik Ağdama.

Axırıncı kərə o yolu 1988-ci ilin yayında keçmişəm. Əsgərlikdən təzəcə dönmüşdüm. Bu dəfə Bakıdan gələn əmimgillə birlikdə gedirdik Qubadlıya. Maşınlarımız Xocavənddən (o vaxt Martuni deyirdik) keçəndə ermənilərin bizə necə nifrətlə baxdıqları hələ də gözümün önündən getmir. Qadınlı-kişili, uşaqlı-böyüklü. Söyən kim, bizə baxıb yerə tüpürən kim. O vaxtacan təsəvvürümdəki qılıqlı erməni obrazının yerini Martuninin bu qorxunc-iyrənc simaları tutdu.

Geriyə başqa yolla – Beyləqan, Ağcabədi yoluyla qayıtdıq.

Haqq nazilər, üzülməz! Amma bizim haqq az qala lap süzülmüşdü. Ordumuz qoymadı! İndi ordumuz o şəhəri o qorxunc simalardan təmizləyir. Bolşevik Aleksandr Myasnikyanın inqilabi ləqəbi verilən Martuni şəhərini əsl Xocavəndə çevirir. Bilirəm, o qoşa ağacın altında uyuyan qardaşların da ruhu 100 ildən sonra dinclik tapır.

Bir də... ordumuz həm də mənim uşaqlıq xəyalımı gerçəkləşdirir – düşməni "zəmi kimi biçir". Tanrı xalqımıza, dövlətimizə, ordumuza yar olsun! 05.11.20

***

Ağlım kəsəndən evimizin alt mərtəbəsində kirayənişin qızlar qalıb. Ağdam Musiqi Texnikumuna tək Azərbaycanın rayonlarından yox, başqa respublikalardan da oxumağa gələn olurdu. Adətən bizdə 3 qız qalardı, təhsilini bitirənin yerinə anam seçib-sonayıb münasib bildiyi tələbə qız götürərdi. 70-ci illərin sonunda bizə Aybəniz adlı bir qız gəldi. Hündürboy, uzunsaç, bir suyu Da Vinçinin məşhur portretindəki qıza oxşayırdı, deyərdin bəs Çokondanın Azərbaycansayaq variantıdır. Barmaqları da uzun idi deyə pianoda çaldıqları gözəl alınırdı. O vaxt belə şeyləri bilməzdim, piano ifaçılığında uzun barmaqların kəramətini qızların öz söhbətlərindən qulağım çalmışdı.

Elə ilk gündən hamımızın ona qanı qaynadı, sevimlimiz oldu. Əlalxüsus da atamın. Anası yox idi deyə, ya nə səbəbdən idisə mehrini anama salmışdı. Anam da onu o biri qızlardan nə qədər ayırmamağa çalışsa da olmur, bir köynək yaxın tutduğu bilinirdi. Əlqərəz, belə bir qızı əldən

vermək olmaz – atamgil qərara gəldilər ki, onu nəslimizin subay oğlanlarından birinə alsınlar. Atam dayısı oğlu Vidadinin, anamsa qardaşı, dayım Rafaelin üstündə durdu. Söhbəti bir axşam anam açdı Aybənizə. Mən də uşağam, özümü uşaqlığa qoysam da qulağım, gözüm Aybənizdə idi. İhahi, insan da o cür allanarmı? Cavabı anama birbaşa deyə bilmədi.

Səhər açılanda Aybənizi anamla hovuzun qırağında pıçıldaşan gördüm. Anama nəsə deyib, qaçıb otağına girdi. Sonra bildim ki, Aybəniz anama belə deyibmiş: "İnciməyin, sizi çox istəyirəm. Amma yad yerin bəyindənsə, öz yerimin nökəri yaxşıdı. Evimizə qayıdacam". Bu sözdən sonra atamgil onu daha da sevdilər.

Aybəniz Zəngilandan idi.

Ordumuzun Zəngilanı azad etməsi xəbərini alanda ilk yadıma düşən Aybəniz oldu. Yurduna bağlı "Cokonda"nın məsum üzü gözümün qabağında canlandı. Mənim üçün bax, Zəngilanın bu fotodakı bənzərsiz gözəlliyi kimidir Aybənizin xətri də, xatirəsi də. Əminəm, o, yenə "Evimizə qayıdacam" deyir!

Tanrı Yurdumuzu, ordumuzu qanadları altda saxlasın! 24.10.20

***

Bir dəfə Ağdamdan Bakıya gedirdik. 1973, ya 74-cü il olardı. Şamaxı yoluyla. Çölün düzündə atam maşını saxladı. Düşüb çöllüyə doğru getdi. Boz təpələrdən başqa heç nə görmürdük. Sən demə yoldan bir qədər aralıda yiyəsiz qəbir varmış. Atam o qəbirin yanında bir xeyli durdu. Qayıdanda üzü dəyişmişdi. Soruşanda dedi ki, "türk qəbridir, ağam da onlarla birlikdə vuruşub ermənilərlə". Başqa bir söz demədi. Bir qədər böyüyəndən sonra nənəm bizə danışdı, türk ordusunun gəlişini, Həbib babamın onlara qoşulub vuruşmağını, Əsgəran döyüşündə yaralanmasını...

Nənəmin xatirəsini təkrar paylaşaraq demək istəyirəm ki, 15 sentyabr 28 maydan sonra Azərbaycan tarixinin ən şərəfli günüdür. 15.09.20

***

O gün feysbukda orta məktəb müəlliməmə rastladım. Raisə Bağırovaya. 1984-cü ildə Ağdamda bizə anatomiya dərsi deyib. Gənc, qəddi şax, qaməti uca, savadlı və gözəl – yadımda belə qalıb. Hamımız ona həm də Allahverdi Bağırovun bacısı olduğuna görə hörmət edirdik. Məni, sinfimizi xatırlayırmı görən? Dərhal dostluq yolladım. Yazdım ki, mənə dərs demisiniz, sevimli müəlliməmiz olmusunuz. Xoş bir cavab yazdı, feysbuk dostum oldu.

22 aprel milli qəhrəman Allahverdi Bağırovun doğum günüdür. Ona həsr etdiyim "Allah vermişdi Allahverdini" yazısını məhz bu gün yeni feysbuk dostum – sevimli müəlliməm Raisa Bağırovaya hörmət, Allahverdi Bağırova ehtiramla paylaşdım. 22.04.20

*******

Bir dəfə anam əl işlərini töküb sahmanlayırdı. Mən də qıraqdan baxırdım. Maraqlı gəldi, soruşdum: "Niyə ərə gələndən sonra daha heç nə tikmədin, toxumadın?"

Qəribə təbəssümlə üzümə baxıb belə cavab vermişdi: "Başım sizi toxumağa qarışdı. İstədim ən yaxşı naxışları sizə vurum".

Sizi bilmirəm, 8 mart hər dəfə təsəvvürümdə anamın çöhrəsiylə canlanır. Bəlkə də, uşaqlıqdan

dilimizə düşən "8 martdır, anacan, lap tezdən oyanmışam" misralı şeirə görə.

Evimizin divarındakı “Pələng”i anam toxuyub. 18 yaşı varmış onda. Qız vaxtı belə əl işləri çox olub. Hələ nənəmlə birləşib iri bir xalı toxumasını demirəm. Bir tərəfinin rəngi solsa da salamatdı, durur.

Bu günü ayırımçı Roza Lüksemburqun bayramı hesab etməyən bütün qadınları – bu günün və sabahın analarını anamın “Pələng” toxuması ilə təbrik edirəm.

Ən yaxşı ilmə-naxışlarınız balalar olsun! 08.03.2021

***

Ağdamın işğal olunduğunu telefonçu qadın zəngimə cavab verməyəndə duydum. Neçə gün idi döyüşlər gedirdi, ermənilər güclü hücuma keçmişdilər. O vaxt Prezident Aparatında işləyirdim. Son bir neçə gün əlaqə saxlaya bildiyim tək adam poçtdakı xanım idi. Son zəngə cavab verməyəndə şəhərin tutulduğunu anladım. Həmin gün Prezident Aparatında axırıncı iş günüm oldu. Hakimiyyət dəyişmişdi, yeni dövlət müşavirinin tükü də tərpənmirdi, onunla sözüm çəp gəldi, ağır sözlər deyib qapını çırpdım. Şələ-şüləmi götürüb, o gedən getdim. *(Jurnalist Cəvahir Səlimqızına verdiyim müsahibədən)*

***

Bir gün xarici qonaqlarımı rayona gəzməyə aparırdım. 20 ilin söhbəti olar. İsmayıllı yolunda bal satanları görən kimi maşını saxlamağımı istədilər. Qırağa verib saxladım. Təbiət qoynunda təmiz bal deyib hərəyə bir banka bal aldılar. Satıcı orta yaşlı, dilli-felli kişiydi, arvadı da yanında.

Soruşdum, hara balıdı? Nə desə yaxşıdı? "Kəlbəcər!" Dedim, ay kişi, yaxşı də, bunlar bilmir, mən ki, bilirəm: Kəlbəcər var ki, balı da ola? Dimdik gözümün içinə baxıb, "Yazda yeşikləri aparıram Murov tərəfə, arılar dağı aşıb Kəlbəcərə keçirlər. Orda çiçəklərdən şirə çəkib obratnı qayıdırlar geri".

Baxdım, ləhcəsi şirin gəlir, soruşdum: "Ağdamlı deyilsən?" Dedi: "Nə bildin?" "Arını çerez Murov şirə dalınca ancaq ağdamlı göndərə bilər" dedim. Yəni keç özünə, məndə 21-dir. 29.03.21

# “Ruhlar şəhəri” haqda məqalə, resenziya, məktub, SMS və şeirlərdən seçmələr

# Məqalələrdən seçmələr

**İradə Musayeva. Ağdam tamaşasına bilet**

…Vahid öz xatirələri ilə bütün ağdamlıların yaddaşını oyatdı. Qulağımızda Ç.Aytmatovun ”Əsrdən uzun gün” əsərindəki manqurtlaşdırılmış oğluna yana-yana, israrla "sənin atan Donanbaydır, eşidirsənmi, Donanbay…” – deyən qadının (sonra da elə yaddaşı, ruhu öldürülmüş oğlunun atdığı oxla sinəsindən yaralanıb ölən və əfsanədə deyildiyi kimi dilindəki son kəlmələrə görə "Donanbay” quşuna çevrilən ananın) səsini eşidirik.

Vahid kitaba daxil olan on beş essenin hər birində sanki qulağımıza dönə-dönə, əzab çəkə-çəkə pıçıldayır: sən ağdamlısan, eşidirsən, ağdamlı! Bunu unutma və ətrafındakıları da unutmağa qoyma! Bakıda qalaya bənzər evlərin, elmi dərəcən, vəzifən, “obyekt”lərin, cild-cild kitabların, nələrin olsa da, sən donmuş müharibədə yaddaşı, ruhu, ağdamlılığı təcavüzə məruz qalmış vətənsizsən! Səndən sonrakı nəslində ağdamlılıq ruhu öləcək, onlar kimə oxşayacaq? Nə bakılı ola biləcək, nə şəkili, qubalı, qazaxlı. Bəs kim olacaq? Amorf, hibrit, qarışıq, “qaçqın” damğalı birisimi? **(”Qafqazinfo”. 01.06.2011)**

***

**Mehriban Vəzir. Ruhlar şəhəri Qarabağ**

…Ağdam xarabalığının tarixi Qarabağ xanlığını rusların işğalından başlamışdı. Tam 200 il əvvəldən. Ağdamın “Ruhlar şəhəri”nə çevrilməsi 200 il idi yol gəlirdi. Gəldi, yetdi də.

Dostum Vahid Qazinın – bildiyim qədər Vahidin ulu babası Qarabağ xanlıq dövlətində qazı, yəni məhkəmə hakimi olub, bu soyad da o mövqedən gəlir – “Ruhlar şəhəri” kitabının da bünövrəsi o dövrlərdən qoyulub: Yaz! Mühakimə et! Əsilləri və nəsilləri tanıt!

İrsi vəzifələri zarafat bilməyin!

Bu qələm işi – əslində qəlb işi fikrimi alıb apardı. Vahidin nəzakət yağan üzü dinməzcə gözlərimin önündən çəkilib getdi, yerində ünvansız göz yaşları qaldı. Ağlamağı gizlətməkdən ötrü gülməyin nə olduğunu bilmərəmmi mən...

Vahid şirin yuxular görür... Ağdamı geri alacaq... qanını torpağına qatacaq, qazılar qazi olacaq... yaralarına torpaq saracaq... torpağının yaralarını saracaq... Yuxuların çin olsun...

***

**Şəbnəm Səfərova. Yaşıl paltolu xatirə**

…İllər öncə bir filmə baxmışdım. Yaşlı adam evə dönəndə otaqda balaca bir uşaq görür… və bu uşaq onun öz keçmişiydi…

Ağdam barədə son xatirəm o qədər də xoş deyil. Yaşıl palto geyinmişdim, əlimdə xırda çiçək naxışlı dəsmal varıydı, dayanmadan ağlayırdım. Göz yaşlarım qarşıdakı uzun illərdə məhrum olacağım, bir udum havasını belə içimə doyunca çəkə bilməyəcəyim Yurd üçün deyildi, balaca oyuncaq vedrəmə görəydi. Həmişə çox sevdiyim çiçəkləri suladığım bu oyuncaq vedrəni götürməmiş heç yerə getmək istəmirdim.

İllər keçdi, ağlım kəsməyə başlayandan doğulduğum torpağın nə demək olduğunu anladım. Amma geciydi, minlərlə yaşıdım kimi mənim də keçmişim bir göz qırpımında silinib getmişdi. Keçmişimə, gəldiyim yerə aid əlimdə bircə sübut, əşya belə qalmamışdı. O zaman öz-özümə fikirləşdim ki, bəlkə də o oyuncaq vedrə üçün canfəşanlığım keçmişimdən kiçik də olsa bir parça qoparmaq cəhdiydi.

…Və minlərlə insan kimi mən də keçmişimin parçalarını hissə-hissə toplamağa başladım.

Tam mübaliğəsiz, pafosdan uzaq bir etiraf edirəm: Vahid Qazinin "Ruhlar şəhəri" kitabı bu hissələri toplamağıma əvəzsiz imkan yaratdı…

Bu kiçik esselərdən ibarət kitab mənimçün sadəcə bir kitab yox, DƏYƏR oldu. Bir daha anladım ki, mənimçün Vətən anlayışı doğulduğum yerdən, ilk nəfəsimi var gücümlə çəkib udduğum havadan, ilk addımımı atdığım torpaqdan başlayır və Vahid bəyə məni böyük Vətənimin – Azərbaycanımın mənə ən şirin, ən doğma yerinə apardığı üçün təşəkkür edirəm.

Qoy bizim gələcək nəsillərimizin bütöv keçmişi və Qarabağlı gələcəyi olsun!..

***

**Rəfail Tağızadə. "Ruhlar şəhəri" kitabının ruhuna**

…Vahid Qazinin "Ruhlar şəhəri" kitabını mən ondan – müəllifdən qabaq özüm üçün kitab halına salmışdım. Bütün yazıları bir-birinə tikərək özəl bir kitab eləmişdim. Çünki bu yazıların kitab halına salınması zərurətini duyurdum.

Kitabın təqdimatında "Qafqaz Xrosiması" filmində gəzdiyim, uşaqlığımın keçdiyi yerlərin xaraba şəkillərinə baxanda özümü uşaqlıq vaxtlarımdakından da balaca hiss etdim. Yiyəsiz, kimsəsiz yerin aciz, əfəl vətəndaşı, sakini kimi. Bir də onu hiss etdim ki, sol əlimin şəhadət barmağı dodaqlarımı sıxır. Dəhşətin o əcaib bağırtısını eşitdirməmək üçün. Yəqin sol əl ürəyə daha yaxın olduğundan qeyri-ixtiyari hərəkətlə ağzımı qapayıb. Burda olanların hamısı içində bağırırdı. İçinə axan yaş boğurdu o səsi. Hamı öz səsini eşitdiyindən başqasının səsinin fərqində deyildi. Hamının üzündə uçuq evlərin sonuncu kadrları qalmışdı. **("525-ci qəzet". 26 fevral 2011)**

***

**Aliyə Fəxrəddin. Yaddaşımdakı Ruhlar şəhəri**

…Doğulduğum yer haqqında yaddaşımda nə qalıbsa, hamısı müharibə ilə bağlıdır! "Hər bir insan öz yaddaşının məhsuludur" (Folkner). Mənim də Ağdamlı yaddaşım bunlardan ibarətdi. Qarabağ deyəndə, ancaq yaddaşıma yazılanlar canlanır gözümdə. İnsan gördüyünə inanar. Elə bilirdim Ağdam yalnız "gördüklərimdən" ibarətdi. Əvvəli də, axırı da belə olub…

Sən demə bu şəhərdə nə vaxtsa bir uşaq da yaşayıb, yaddaşına Ağdamı məndən fərqli köçürüb. Mənim qarışıq, qorxulu yuxuya bənzəyən xatirələrimin əksinə olaraq, onun xatirələri daha saf, daha təmizmiş, cənnət yuxusuna bənzəyən. O məni özü ilə müxtəlif xatirələrimiz olan eyni şəhərə – bizim şəhərimizə apardı. Onunla yurdumuzu gəzdik. Görmədiyim yerləri mənə tanıtdı. Buranın xəyal şəhərindən gözəl olacağını mənə sübut etməyə söz verdi… **("525-ci qəzet", 8 oktyabr 2011)**

***

**Sadıq Murtuzayev. Ruhlar şəhərində qalan ləpirlər**

…Şəhərin tam mərkəzində xarabaya çevrilmiş köhnə bir dəyirman var idi. Müharibənin ağır illərində bu dəyirman Ağdamın yeganə çörək təknəsinə çevrilibmiş. Bura müqəddəs bir məkan kimi baxır, ona toxunmağı yolverilməz hesab edirdilər. Çörək Muzeyi yaratmaq ideyası irəli sürüləndə inanclarına qüvvət verilibmiş kimi alqışladılar.

Bunun başqa tutarlı səbəbləri vardı – Ağdamın Əfətli kurqanında yeddi min illik tarixi olan daşlaşmış buğda dənələri tapılmışdı. Məşhur taxılçı akademik İmam Mustafayev həmin dənələri özünün zəngin taxıl kolleksiyasından digər nümunələrlə birlikdə gətirib muzeyin dəyərini xeyli artırdı. Yüzə qədər xalqın çörək nümunələri əldə edildi. Leninqrad blokadasının iştirakçısı olmuş bir rus qadını muzeyin sorağını eşidəndə ölüm həddində belə yeməyib saxladığı, kömürləşmiş yüz əlli qramlıq çörək payını gətirib muzeyə verdi. Kosmonavt şəhərciyindən çörək nümunələri göndərildi. Muzeyə qısa müddətdə iki mindən çox eksponat toplandı.

Məlum oldu ki, bu, SSRİ-də birinci, dünyada ikinci muzeydir. Çörək Muzeyinin Ağdamda yaradılmasının daha bir səbəbi də o idi ki, Azərbaycanın heç bir rayonu taxılın məhsuldarlığında Ağdamı üstələyə bilmirdi. Bu da Ağdam torpağının tayı-bərabəri olmayan bərəkətli olması ilə bağlı idi.

Heç vaxt unutmaram, görkəmli muğam ustası Şahmalı Kürdoğlu bir erməni qadının şantajı ilə tutulub dörd il həbs cəzası almışdı. Ağdamdakı həbsxanada cəza çəkirdi. Qoruq-qadağaya baxmadan onu gətirib məşhur Ağdam Musiqi Məktəbində yaradılan muğam opera studiyasına rəhbər qoyduq, adı həbsdə gedə-gedə dərs deyirdi. Yeri gəlmişkən, düşmənin birinci "Qrad" mərmisi onun evinə, ikincisi Çörək Muzeyinə düşübmüş. Şahmalı həlak olmuş, Çörək Muzeyi də yerlə yeksan edilmişdi. (**"525-ci qəzet". 4 dekabr 2010)**

***

**Sabir Rüstəmoğlu. Talan olmuş əsir şəhər – xatirələrdə**

…Azərbaycan ədəbiyyatında az işlənən esse janrı müəllifin özü üçün seçdiyi ən yaxşı üslubdur. Ayrılıqda hər bir essenin dili şirin, xalq dilinə yaxın, rəvan və lakonikdir. Üslub baxımından canlı xalq ifadələri ilə yoğrulmuşdur. Buna görə də oxucunu özünə ram edə bilir.

Bu esseləri bir ideya, bir arzu, bir amal, bir ovqat birləşdirir – "Ruhlar şəhəri" Ağdama olan sonsuz məhəbbət, istək və sevgi. **("Təzadlar". 18 oktyabr 2011)**

***

**Asəf Quliyev. Gözlərdəki sevincin ünvanı**

…"Ağdam – Qafqaz Xirosiması və ruhlar şəhəri" sərgisinə və "Qafqaz Xirosiması" filminə baxan uşaqların gözündəki kədəri görəndən sonra özümlə bir az söhbət elədim. İlk yadıma düşən bir ahıl yaşlı ingilisin mənə neçə il bundan əvvəl dedikləri oldu.

Həmin ingilislə həmyaşıd olan yəhudi dostuna valideynləri heç vaxt alma vermirlərmiş. Valideynlər həmişə övladlarına bildirirmişlər ki, sənin almaların "müqəddəs torpaqdadır", əgər alma yemək istəyirsənsə, sən gərək o torpaqları azad edib orada öz dövlətini qurasan. Bax o zaman doyunca alma yeyə bilərsən.

Bu əhvalat II Dünya müharibəsindən sonra olub. Sonra həmin yəhudi oğlan İsrail ordusunun əsgəri kimi döyüşlərdə iştirak edir və sair və ilaxır. Bu yəhudi oğlan haqda çox danışmışdı ingilis həmsöhbətim. Amma mən o yəhudi haqda danışmıram.

Necə deyərlər, özümüzdən danışıram…

***

**Bəsti İsmayılova. Bu da bir Qarabağnamədi**

Ağdama ilk səfərimdə Tərtərdən fərqini görməmək mümkün deyildi. Ağdam Tərtər üçün Bakı kimi idi. Teatr afişaları, konsert elanları, hələ o təkrarsız üçmərtəbəli çayxana... Dayım bizi qaynının toyuna apardı. Dedilər, bu kənd Sürəyya Kərimovanın kəndidir! Bizim kəndin yanında bu kənd şəhər idi!

Evlər yaraşıqlı, üzüm çardaqları, asfalt yol...

Jurnalistikada oxuyan ağdamlı tələbələri də fərqli görmüşdüm. Oğlanlı-qızlı kübar, tox görkəmli, qürurlu, bir az təkəbbürlü. Fərq tavana dəyirdi...

İki bacım Ağdam Tibb Texnikumunu, atamız Kənd Təsərrüfatı Texnikumunu bitirmişdilər. Ağdam bizim ailənin ikinci yurdu idi... İndi qarşımda "Ruhlar şəhəri" var. Belə yavan oxumaq istəmədim. Elə kitab var ki, onu oxuyanda gərək bir dəstgah düzəldəsən. Ləzzətini anlamaq üçün... Dedim, qoy bu mütaliəyə Şahmalı Kürdoğlu da şahid olsun!.. Kürdoğlu "Rast" oxuyur, mən də "Ruhlar şəhəri". Adamın ürəyi üşüyür...

"Məqsədim açmaq deyildi dərdimi əsla sənə, İstədim, pünhan edim, səndən nə pünhan, ey təbib!"

Əgər bu yay Ağdam alınsa, orda çox adam donacaq! Soyuqdan deyil! Qəhrdən!..
Gedək üzü donmağa!..

***

**Rəsmiyyə Məmmədqızı. Sən torpağın buğlandığını görmüşdünmü, Vahid?**

…"Ruhlar şəhəri" yurdsuzluqdan çərləmiş qaragünlü həyatımızın oduna benzin tökdü. Yandırıb kösövə döndərdi bizi, Vahid. Mən hər səhər alaqaranlıqdan "süd", "qaymaq", "qatıq" deyə çağırıb sənin nağıl yuxularına haram qatan kişi sürtuku geyinmiş qadınların kəndindənəm, Xıdırlıdan. İndi gündüzün günorta çağı çıraqla axtarsan da dərdə dərman kimi o kişi pencəkli qadınların birini də tapmazsan. Hamısı ölüb, çoxdan ölüblər, ürəkləri çatlayıb, çərləyib ölüblər. Dişiylə-dırnağıyla qurub-yaratdıqları ev-eşiklərini, dünyalarını düşmən ayaqladı, ölməsinlər, neynəsinlər.

Xıdırlının sabahlarını Yeddixırman dağının mehi açardı. Bizim də günümüz radio ilə başlayardı. Üç ay yayı ən çox işimiz meyvə yığmaq, tut çırpmaq idi. Tutu lap o başdan çırpardıq, bezi tutmaq üçün də yuxudan durmalıydıq. Qardaşım alaqaranlıqdan ağacın quşqonmazına çıxıb tut yeyə-yeyə "harda qaldınız, yuxudan durmadınız" deyə bizi çağırırdı. Anam radionu açardı ki, səsə yuxumuz dağılsın. Hərəmizin əlimizdə bezin bir qulpu ayaqüstə yuxuya gedərdik. Bir az keçmiş səhər konserti başlayardı. Diktor "Oxuyur Qədir Rüstəmov" deyəndə rəhmətlik dədəmin üzü gülərdi. Artıq onun işarəsini gözləmirdim, o dəqiqə qaçıb radionun səsini sonadək qaldırıb özümü yenidən bezin bir qulağına çatdırardım. Qədirin səsi Yeddixırmanın mehinə qarışıb qapı-bacamıza yayılırdı. Bizim də yuxumuz dağılardı. Bu səs dərmanımız idi, illah da Vətən dərdindən ürəyi parça-parça olub yad qəbiristanlıqda qəbir əzabı çəkən dədəmin.

1998-ci ilin yayında Bərdənin Kətəlparaq kəndində, yol kənarında məskunlaşmış ailəmizi görməyə getmişdim, dədəm xəstələnmişdi. Anam Bərdə bazarından tut alıb gətirmişdi. Bir boşqaba yığıb atama verdik. Birdən atam elə nalə çəkib ağladı ki, hamımızı dəhşət bürüdü, əlimizədəki işi atıb başına toplaşdıq, ona qoşulub ağlaşdıq. Atama görə tut bezdən, üstündən yeyilərdi, özü də o başdan, boşqabdan yox, tut bazardan alınmazdı, ağacdan çırpılardı. Üçüncü dəfə infarkt keçirəndə həkim qardaşlarıma dedi ki, kişinin ürəyi cırıq-cırıqdır, tərpətməyin, nə qədər papiros istəsə verin çəksin. Heç nəyi qadağan etməyin.  Tamam uşaq kimi olmuşdu, bizim "humanistliyimizdən" ürəklənmişdi də.

Bir gün dedi ki, nə yaxşı heç nəyə etiraz eləmirsiniz, istəməyəndə iynəmi də vurmursunuz. Onda mənə icazə verin gedim Xıdırlıya, arxayın olun yolu tanıyıram, çöl obayla gedəcəm, bir də ki, yaşlı kişiyəm, erməni mənə heç nə eləməz, deyəcəm kəndimə ölməyə gedirəm. Və on il əvvəl bir qarlı yanvar səhəri atam yol kənarında, palçıqdan qondarılmış kərpic daxmada dünyasını dəyişdi. Güllləsiz, düşmənsiz şəhid oldu. Dərd bizi çərlətdi və çox keçmədən körpə oğlum Tamerlan babasının yanını özünə yer seçdi.

…Mən hər bir əsəri həm də bədii ədəbiyyat nümunəsi kimi oxuyuram. Görünür, peşəmizlə əlaqəlidi. Heç kəs inciməsin, "Ruhlar şəhəri" ədəbi mühitimizə ədəbiyyat gətirib. Tarixin çağırışlarına cavab verən ədəbiyyat.

…Bacasından tüstüsü çıxmayan, sacında qovurğası çırtlamayan, kolların dibindən novruzgülü, bənövşəsi boylanmayan yurdun övladıyıq biz. Neçə illərdir qırmızı yumurta boyamırıq, uşaqlarımız nənəsinin toyuq hinindən yumurta oğurlayıb döyüşməyə qaçmır, babasının qapısına torba atmır, bilirsənmi, qardaş?

Novruz səhəri torpağın necə buğlandığını görmüşdünmü? **("Kaspi" qəzeti. Mart 2011)**

***

**Hikmət Sabiroğlu. Zülm bitsin**

…"Qarabağ söhbətləri" kitabım çıxanda Məmməd Nazimoğlu belə yazmışdı: "Hikmətin avtoqrafı olan kitabı hələ gedib götürə bilməmişəm. Boynuma alıram ki, vaxt qıtlığını səbəb kimi göstərə bilmərəm. 24 saatın 30 dəqiqəsini ayırıb "Media forum"a getmək mənim üçün çətin deyil. Çətinlik bir başqa məsələdədir. Hikmət Sabiroğlu o kitabı mənə təqdim eləyəndə nə deyim? Deyim ki, gün o gün olsun, belə kitablardan çox yazasan? Ya bizim şou əhli kimi üzümə üz bağlayıb söyləyim ki, gün o gün olsun kitabın təqdimatını Şuşada keçirək?"

İndi özüm çətinə düşmüşəm, Vahid Qazi, "Ruhlar şəhəri" kitabına nə deyim?

Necə xeyir-dua verim? Deyim ki, gün o gün olsun belə kitablardan çox yazasan, təqdimatını Ağdamda keçirək?

Zülm bitsin. Bunu deyirəm. **(“Mediaforum”. 8 oktyabr 2010)**

***

**Əntiqə Rəşid. Bərəçi, mən və Vahid Qazi**

…2010-cu il olardı. Vahid Qazinin lent.az saytında hissə-hissə dərc olunan “Ruhlar şəhəri” əsərini oxuyub, kövrəlib-ağlayan vaxtlarımıydı. Bir gün xəbər gəldi ki, “Qarabağ mövzusu ədəbiyyatda” adlı dəyirmi masa keçiriləcək. Qarabağlı jurnalist olaraq mən də dəvətliyəm. Getdim!

Kimlər yox idi dəyirmi masada?! Tanıdığınız bütün qarabağlı jurnalistlərin hamısı burdaydı. Çoxunu tanıdım, amma tanımadıqlarım da vardı. İştirakçıların yarıdan çoxu danışıb fikirlərini söyləmişdi. Hər kəs öz subyektiv düşüncələrini məclis əhlinə çatdırmışdı. Maraqlı müzakirələr getdiyi vaxtda söz mənə verildi. Başladım (təxminən bu sözlər): “Son zamanlar bir neçə yazarımızın əsərlərini oxumuşam və hər dəfə oxuduqca o əsərlərdə sözün həqiqi mənasında Qarabağın nəfəsini, yanğısını hiss eləmişəm. Məsələn, Aqil Abbasın “Dolu”, Nüşabə Məmmədlinin “Zəngulə”, Vahid Qazinin “Ruhlar şəhəri” və sair əsərləri…

Yerdən replika: – Əşşi, Vahid Qazi nə bilir yazı yazmağı…

İlk ağlıma gələn fikir: kimdir o, neçə gündür ağlaya-ağlaya oxuduğum yazıçını kim cəsarət eləyib tənqid elədi?

Ardıcıllıqla, təmkinlə, mədəni-mədəni danışdığım mövzu yadımdan çıxdı. Gözümlə axtarıb “atmaca atanı” tapdım. Gülümsəyən sarıbəniz adama gözüm sataşanda coşdum: “Axı siz oxumadığınız bir əsər haqqında, tanımadığınız bir adam haqqında niyə belə danışırsınız? Siz ömrünüzdə bir dəfə Vahid Qazinin yerinə qoydunuz özünüzü? Onun həsrət qaldığı o cığırları, yolları, məhləni, heç olmasa, bir dəfə gəzdiniz, arzuladınız, xiffətini çəkdinizmi?”

Susdura bilən yoxdur eyyy məni… Sarıbənizi ağ yuyub, qara sərirəm.

Yanımda kimsə məni dürtmələdi, dartışdırdı ki, otur… Bir-iki cümlə də kövrələ-kövrələ nəsə deyib oturdum.

Day məndən sonra danışanları dinləmirdim. Amma arabir “pıqqıldaşma” hiss edirdim. Heç maraqlanmadım da.

Uzun sözün qısası, məclis sona yetdi. Hamımız foyeyə çıxdıq. Qarderoba yaxınlaşdıq.

Elə bu an da o sarıbəniz “atmaca atan” gülümsəyərək yaxınlaşdı. Mənim sevimli yazıçımı və sevimli əsərimi tənqid etdiyi üçün ona tərəf heç çönmədim. Amma “Çox sağ olun xanım, təşəkkür edirəm” dediyini eşitdim.

Səhv eləmirəmsə, ondan sonra qarderoba yaxınlaşan Zamin Hacı idi. Paltosunu əlinə alıb qapıdan çıxmağa hazırlaşan sarıbəniz “atmaca atan” tərəfə ucadan və nümayişkaranə səsləndi: “Vahid Qazi, məni də gözlə!”

10 ildən çox keçib e, hadisə yadıma düşəndə hələ də bilmirəm, gülüm, ağlayım, pərt olum, utanım….

Amma Vahid Qazi "Ruhlar şəhəri" ilə həmişə məni ağladıb. **("Ədalət" qəzeti. 20 iyun 2020)**

***

**Qan Turalı. Ağdam şəhəri**

...Metroda Vahid Qazinın Ağdam haqda olan "Ruhlar şəhəri"ni oxuyurdum.

Azərbaycanın şəhərlərini çox sevirəm. Bir də kəndlərini. Rayon mərkəzləri yad gəlir mənə.

Bir zamanlar Ağdam deyə bir şəhər varmış. Orda uşaqlar yaşayırmış, hokkeyçi Xarlamovu tanıyan, "Futbol və xokkey" oxuyan. Bethoveni dinləyən, futbol oynayan uşaqlar vardı.

İndi nə var?

Xarabalıqlar, ruhlar şəhəri…

Yuxularda görülən bir şəhər…

Deməк, şəhərimiz çox imiş.

Doğulduğum şəhər də mən uşaq olanda bu cür şəhər idi. Ağdam kimi işğal olunmadı, amma cəhalət, nadanlıq işğal etdi onu.

Mən hibrid ziyalılar kimi rus, erməni, yəhudi xiffəti çəkmirəm. Sadəcə, bir şəhər istəyirəm. Uşaqların futbol oynadığı, hokkeyə baxdığı, basketboldan danışdığı, kitabxanadan kitab aldığı, skripka çaldıqları bir şəhər…

Məgər bu çoxdur? **("Kulis.az". 23 sentyabr 2011)**

*******

**Məlahət İbrahimqızı. Vahid Qazinin ruhunun şəhəri**

...“Sülh vaxtı adam öldürmək cinayət, müharibə vaxtı qəhrəmanlıq sayılır!” Amma sülh vaxtı da, müharibə vaxtı da gözəllikləri məhv etmək, abadlığı viranəliyə çevirmək vəhşilikdən başqa bir şey deyil.

Troya, Kardoba, Moskva, Praqa, Xirosima, Naqasaki, Çernobıl, Kabil, Bağdad, Şuşa, Xocalı, Ağdam… Viran qalmış bu şəhərlər sırasını nə qədər istəsən uzatmaq olar. Bunlar bəşərin öz əliylə tikib, öz əliylə xarabalığa çevirdiyi gözəl məkanlardır. “Gözəllik dünyanı xilas edəcək!”. Etdi də. Böyük Hun imperatoru Atilla Romanı gözəlliyinə bağışladı. Amma bunu yalnız türk edə bilərdi. Vandalların qalıqları olan ermənilər yox. Onlar insanlara, maddi mədəniyyət abidələrinə qarşı acımasız bir mövqe tutmuşdular. Vahid Qazinin, onun timsalında hər bir azərbaycanlının bir gün cisminin, indisə ruhunun şəhəri olan Ağdam erməni vəhşiliyinin nəticəsində öz ilkinliyindən məhrum oldu.

“Müharibələr zorla başlayır, ağılla qutarır”. Xalqımızın taleyinə yazılan bu elan olunmamış, ədalətsiz və işğalçı Qarabağ müharibəsinin də ağılın qüdrəti ilə bitəcəyinə biz ürəkdən inanırıq.

Mənə verdiyiniz “Ruhlar şəhəri” kitabını əmanət saxlayıram. Ağdama gələndə qaytaracam özünüzə, “o ikicə kəlmə”ni yazıb sonra kitabı yenidən mənə verərsiz! **(“Lent.az”, 5 fevral 2011)**

***

**Günay Ümid. Ağappaq bir ümid**

...Deyəsən, 10 yasım vardı. Kənddən, nənəmgilin həyətindən sarıçiçək gülü gətirmişdim. Evdə dibçəyə əkmişdim, hər səhər su verirdim, elə həyəcanla gözləyirdim onun çiçək açmasını…

Bir gün məktəbdən gələndə gördüm ki, yarpaqlarını sərib yerə, dibçəkdə büzüşüb. Ağladım! Atamın “Yabanı çiçəkdi, dibçəkdə bitməz” sözünü o vaxt başa düşməmişdim. Sonralar anladım ki, hər bitki yalnız öz torpağında bitir.

“Ruhlar şəhəri” Ağdam indi, doğrudan da, ruhlar şəhəridi. Mənim qəhrəmanım indi də xəyallarıyla, düşüncələriylə, xatirələriylə o şəhərdədi. Bir az da sarıçiçək gülünün taleyini yaşayır.

...İçində gəzdirdiyi acı qələmindən vərəqlərə töküləndə nifrətinin nə boyda olduğunu hiss elədi Ağdamı yer üzündən silənlər, bəlkə də. Yanan daşların tüstüsündə kor olacaq qədər zavallı, aciz bildi sevinclərini, bəlkə də! Ürəyi sızıldadı. Onun bu sızıltılar arasında ümidini gördüm, ağappaq bir ümid.

***

**Cavanşir Yusifli. Yusif üzlü kitablar, yaxud heyva qoxusu**

...Kitabın son səhifəsini çevirir, örtüb-bağlayırsan və bütün ağrılar bundan sonra başlayır.

Əsər (kitab) var ki, bu dünyada hiss, duyğu adına nə varsa elə təhkiyə boyu sənə dadızdırmaq istəyir, axırıncı səhifənin son cümləsində sanki belə bir P.S. də qoyur ki, get işinlə-gücünlə məşğul ol.

Amma eləsi də var ki, səni işindən-gücündən edir, düşündürür, əhvalını dəyişir, səni gedə bilmədiyin yerlərə göndərir.

Vahid Qazinin “Ruhlar şəhəri” məhz bu qəbildəndir. Burada o qədər ağrı-acı, o qədər məşəqqət var ki, ona “kitab” deməyə adamın dili gəlmir, bunu yazan, danışan yaxından tanıdığımız, qələminə, istedadına güvəndiyimiz Vahid Qazi yox, zirzəmidəki heyva ətrinə qurban gedən, Yusif üzlü kitablarla böyüyən, hələ də o yaşda qalan Vahiddir.

Vahid Qazinin kitabının aktuallığı, məziyyətləri, gözəlliyi nədir soruşsalar, mən bir kəlmə də danışmaram, beləcə, ayrı-ayrı pasajlardan cümlələri oxuyaram. Dilimizdə bir “dil demək” ifadəsi var, bilirsiniz bu nəyə bənzəyir? “Qətl günü”nə çəkilən filmdə qətlə yetirilən şairin üstündə anasının ağı deməsinə…

Bir də… bu kitab Qarabağ – Vətən müharibəsi haqqında yazılacaq əsərlərə bir xəbərdarlıqdır – həqiqəti deməyin başqa bir alternativi yoxdur.

***

**Günel Cabirqızı. Mənim Ruhlar şəhərim**

...Vahid Qazinin yazılarına nabələd deyiləm. Həmişə olmasa da, ara-sıra “525-ci qəzet”dəki məqalələrini oxuyurdum. Onun yazılarında pafoslu cümlələr, beynimizin, qulaqlarımızın doyduğu sözlər yoxdur. Bəziləri kimi “asaram, kəsərəm, düşmənin qanını içərəm” yazmır. Çeynənmiş sözlər işlətmir, gözdən pərdə asmaq üçün tarixin yaddaşını qurdalamır. İntiqam hissi yaratmaq üçün qan saçan hekayələr qurmur.

Yalnız rəsmindən tanıdığım bu insanın üzündəki qəriblik ifadəsi həmişə diqqətimi çəkib. Vahid müəllimin simasında dərdin cizgiləri, həsrətin xəritəsi görünür. “Baxmayaraq ki ermənilər bizim millətə qarşı görünməmiş vəhşiliklər törədib. Mən heç bir zaman erməni başı kəsə bilmərəm”. Kitabın təqdimatında Vahid müəllimin işlətdiyi bu cümlə onu mənim aləmimdə bir pillə də ucaltdı. Çünki bəziləri kimi, hap-gop eləyib, sonra da qaçıb gizlənmir. Bəli, Vahid Qazi düşmənin başını sözü, əməli ilə kəsir. “Qafqaz Xirosiması” ilə, “Ruhlar şəhəri” ilə…

Kitabın sonunda yer alan “Xəyal memarı” essesi Ağdama gedəcəyimiz günün ümidlərinin yaşıl yarpaqlarıdır. O yarpaqlar kimimizin qəlbində hələ tumurcuqdu, kimimizin qəlbində pöhrələnib, kimimizin də qəlbində gündən-günə böyüyür. Amma heç birimizin qəlbində xəzan olmayıb və nə qədər ki qəlbimizdəki bu ümid yarpaqları vətənə məhəbbət bulağından su içir, deməli, heç zaman solub məhv olmayacaq. **(“525-ci qəzet”. 5 mart 2011)**

# Məktublardan seçmələr

**Tofiq Qarayev:** Əziz Vahid Qazi!

“Ruhlar şəhəri” kitabını oxudum. Oxudum yox, yaşadım. Yaşamağa məcbur elədin.
Bu kitaba bir kimsə etinasız qala bilməz, xüsusən də qarabağlı, ağdamlı ola, mən belə fikirləşirəm!

Qısa və konkret yazacam. Bilirsən ki, mən yazar yox, aktyoram!

Şahmalı Kürdoğluyla oğlunun ölüm səhnəsinə sürrealist təsvir vermisən. O qədər təsirlidir ki, hər bir ağdamlı silah götürüb müharibəyə gedər.

Onların ruhunu bir cüt donmuş göyərçinə bənzətdim. 18 ildir donu açılmayan göyərçinə… Donmuş ruhlar bizi məzəmmət edirlərsə, yaşamağa haqqımız varmı?

Göyərçin ruhlara göylərdə yuva quraq!

Kitabın sonuncu bölümündə müharibədən sonra Ağdamın tikintisinin “genplan”ını oxudum. Xahiş edirəm ki, birinci, Ağdamın göyündə – əngin üfüqlərdə donub qalan göyərçin ruhlara bir yuva quraq. Hər evdə, bilirəm ki, yuva olacaq – hər evdə şəhid var…

Ruhlar yaşayır, ancaq bizim Ağdamın şəhid ruhları donublar. Bizim ora getməyimizlə onların donu açılacaq və ruhlar öz şəhərlərində öz ömürlərini sakit yaşayacaqlar…
Yenə də Ağdamda həyat qaynayacaq!!!

…Tək donmuş ruhlar yox, Ağdam da bizdən küsüb. Ağdamı Ağdamlılar anlayar. Çalışaq ki, o, möhtəşəm Ağdamla barışaq.

Ağdamda yuva qurmaq – ev tikmək arzusu ilə…

***

**Şahrun Süleymanova:** Salam, dostum. Bu gecə mən düz 41 il bundan öncə mənimlə bir sinfə qədəm qoyan, arıq, cılız, qaynar gözlü bir oğlanın çapdığı yel qanadlı atın tərkinə minərək uşaqlığımın şəhərinə səyahətə çıxdım: ruhlar şəhərinə.

... Bir vaxtlar yaşamış olsam da əslində tanımadığım bir Ağdam kəşf elədim bu gecə. Dəhşətli ağrı hiss etdim ürəyimdə... Bu, tapdığım Ağdamı elə həmin gün də itirməyimin ağrısı idi.

... Bu gün artıq kifayət qədər tanınmış yazıçı dostumun "Ruhlar şəhəri" mənə öz darvazalarını taybatay açdı. Mənim yalnız 1 nömrəli məktəblə çərçivələnən Ağdam təsəvvürlərimin əlindən tutub bu məktəbin hasarlarını aşmağa, bu şəhəri addım-addım, qarış-qarış, məhəllə-məhəllə, ev-ev gəzməyə, adam-adam tanımağa bələdçilik etdi.

...On il bir sinifdə oxumağımıza baxmayaraq, hətta sənin özünü, işıqlı düşüncələrini, çocuqluq xəyallarını, gənclik arzularını və Ağdam boyda bir dunyaya sığdırdığın hüdudsuz qəlbinin gözəlliyini də bu kitabda gördüm, tanıdım, kəşf etdim və heyran oldum!

***

**Aynurə Zeynalsoy:** Salam, dəyərli Vahid bəy.

…Kəndə getmişdim bu yay, Quzanlıya. Atamgildə stolun üstündə gördüm "Ruhlar şəhəri"ni. Özümlə Ankaraya gətirdim oxumaq üçün... Nəhayət ki, balaca qızımı hər günorta yatıranda mən də Ruhlar şəhərimə yolçuluğa başladım.

…Düzü, məncə, tam zamanında oxumağa başlamışam. Bəlkə mən oxuduqca balamın da yuxularına girər mənim Ağdamım!? İndi anlamasa da, bəlkə, bir gün mən ona söyləyəndə tanış gələr danışdıqlarım, bilmirəm.

…Məni oralara apardığınız üçün, uşaqlarımın sonralar oxuyub xəyallarında bir vətən oluşdura biləcəyi üçün, bu dəyərli kitab üçün Sizə çox təşəkkür edirəm. Bəlkə, bir az qarışıq yazdım fikirlərimi, ancaq içim həm doludu, həm də boşdu. Beynimdə hər şey qarışıqdı. Məncə, Siz məni anlayarsınız. Ümid edirəm, Sizinlə bir gün canlı tanış olub həmsöhbət ola bilərik. Ankaraya gəlsəniz, gözümüz üstündə yeriniz var.

***

**Barat İmani:** Vahid bəy, Tanrı Vətəni düşünən, onun əziyyətinə qatlaşanları qorusun. Bilirsiniz kitabın üz qabığına baxıb “Ruhlar şəhəri” sözünü oxuduqda ürəyimdən nələr keçdi? Düşündüm ki, Ağdamımızda zəlzələ olaydı, Ağdamımızda vulkan püskürəydi, sunami dağıntılar törədəydi, lakin ora gedə biləydik. Və əgər bu hadisələrdən sonra ora getsəydik, heç kim bizə “qaçqınlar qayıtdı” deməyəcəkdi.

***

**Mehriban Qədimli:** Axşamınız xeyir, Vahid müəllim. Kitabı elə indicə bitirdim. Sonda yazılanlar mənə pis təsir etsə də, ümumilikdə, əsəri çox bəyəndim. Ağdamı xatırlamasam da kitabı oxuyanda yurdumu təsəvvürümdə canlandıra bildim. Oxuyub bu qənaətə gəldim ki, sən demə, mən uşaqlığımı yaşamayıbmışam… Kitab məni Ağdama daha da bağladı, sevdirdi. Artıq xəyalımda gözəl, əyləncəli, maraqlı şəhərim var...

***

**Aytən Əsədbəyli:** Ağdam və ümumiyyətlə, Qarabağla bağlı yaşanan hər şeyin İlahi bir olay olduğuna inanıram, burda Allahın əli var.

*******

**Mehriban Sərdarova:** Vahid müəllim. Siz çox... çox həssassınız. Neçə vaxtdır, Sizə bu barədə yazmaq istəyirdim. Əslində, “Siz mənə o qədər doğmasınız ki!” yazacaqdım. Bu doğmalıq "525-ci qəzet"in şənbə saylarından başladı. Hər dəfə "Ağdam: Ruhlar şəhəri" esselerinizi oxuduqca bir az daha doğmalaşdınız... Sizin arxanızca düşdüm: addım-addım yurdunuzu gəzdim, dolaşdım... Armud ağacınızın sərin kölgəsində siz kitab oxuyanda, mən xəyalən öz yurduma – Vediyə getdim. Atamın 12 manat 80 qəpiyə alıb qocaman ərik ağacımıza asdığı sarı yelləncəkdə var gücümlə yelləndim... Anamın sevdiyi, heç vaxt meyvəsini satmadığımız “Malaça” armudun sərv boyuna hayıl-mayıl tamaşa elədim. Göz yaşlarım imkan vermir... Çox yazardım…

***

**Kamilə Rüstəmova, Dallas, ABŞ:** Vahid müəllim, sizə “sağ ol” demək istəmirəm, çünki hiss etdiklərim üçün bir "sağ ol" kəlməsi mənim kimi yüzlərlə ağdamlıya bəxş etdiyiniz dəqiqələrin müqabilində çox azdır, yox dərəcəsindədir. Nə söyləyim, uzaq Amerikada bir səhər Ağdamda hər gün eşitdiyim azan səsinə oyandım, zamanı, məkanı çaşdırdım; hardayam, kiməm, unutdum. Ağdam məscidinin uca minarəsinə baxa-baxa qarşısından keçib Sabir müəllimin musiqi məktəbinə gedən məktəbli idim o an! Ağdamı xatırlamayan oğlumun facebookda sadəcə xoşu gəldiyi üçün açdığı azan səsinə mənim hıçqırığım qarışdı, sayənizdə 30-35 il sonra bu azanı oxuyanın kim olduğunu da bildim. Oğlum mənə söz verdi ki, bu azanı Texas məscidində səsləndirmək üçün əlindən gələni edəcək. Yenə də əlimdən gələn sizə sadəcə “sağ olun” deməkdir!

***

**Anar Musayev:** Salam, Vahid bəy! "Ruhlar şəhəri"ni oxuyaraq Ağdama, usaqlıq çağıma, sovet vaxtına səyahət etdim, bu kitab məndə belə bir təəssürat yaratdı ki, sanki kimsə qolumdan tutub məni Ağdama gəzməyə aparır. Lahıclar məhləsinə, Ford Fuadgil tərəfə dönməsək də Ağdam ruhunu hiss elədim.

*******

**Yeganə Kərimova:** Vahid, mən Ağdam dəftərimi çoxdan qatlayıb kənara qoymuşdum, mənə geri qayıtmaq çətin idi. Sənin kitabınla geri döndüm, yenə ağdamlı oldum, elə tək buna görə də sağ ol düşür sənə... Yadında olar, ya olmaz bilmirəm, bir gün rəhmətlik tarix müəllimimiz Asif müəllim səndən sorusdu, ay Vahid, gələcəkdə kim olmaq istərsən, sən də dedin, jurnalist. Rəhmətlik qayıtdı ki, a bala, o sənlik deyil, jurnalist olmaq üçün gərək sırtıq olasan. O da səndə yoxdur. Amma sənin yazıçı olmağını alqışlayardı.

***

**Yadigar Cəfərli:** Əziz Vahid müəllim!
Siz məni tanımırsınız. Mənsə Sizi ötən ilə qədər sadəcə vətəndaş cəmiyyəti fəalı kimi tanıyırdım. Ötən ildən Mediaforum saytında izlədiyim yazılarınızla Sizin simanızda yeni bir Sözlə qarşılaşdım. Füzulinin təbirincə desək, Sizin kimi yazarların qələmində “hər ləhzə yoxdan var olan söz”lə. Və təəccübləndim ki, əcəba, gör son illərdə vətəndaş cəmiyyəti institutları, biznes qurumları və daha nələr nə qədər söz adamını qələmdən iraq salıbmış. Sözün durna köçünün geriyə qayıdışını izləmək xoş bir hissdir. Portalda hər yeni yazınızı görüncə nə qədər işim olsa da dərhal oxuyuram və yazılarınızın hər biri mənə susuzluqdan təşnə birinin ləzzətlə başına çəkdiyi saf bulaq suyunu xatırladır...

***

**Fəxriyyə Talıblı:** Salam, Vahid bəy.
Sayənizdə 21 yaşımda ilk dəfə bir ağdamlı yazıçının əsərini oxudum. Yazdıqlarınız bir ağdamlı kimi təkcə mənə yox, mənim anama da çox təsir etdi. Çünki mən bu yazıları anama oxuyanda anamın tükləri biz-biz oldu, “olduğu kimi yazıb”, - dedi. Yazdıqlarınızın hamısını anam, atam yaşayıb. Onlar Sarıtəpə, Vaqif küçəsi, 10 saylı evin sakinləridirlər.

## Rəylər, mesajlar, sms-lər

**Nərgiz Həsənova:** Salam,Vahid. Ağdam 1 nömrəli məktəbdə sənin sinif rəhbərin olmuş Nərgiz müəlliməyəm. "Ruhlar şəhəri" kitabında məni və anamı xatırlamısan. Sənin uğurlarına çox sevinirəm. Allah can sağlığı versin.

***

**Səməd Mahmudoğlu:** Ağdamımızı elə təsəvvür edirsən ki, tam mənası ilə hər şeyi unudub ORALARDA yaşayırıq.

***

**Məhsəti Şərif Özyurek:** Çox təsirləndim,1 nömrəli məktəb yadıma düşdü, önündən keçib əmimgilə gedirdim.

***

**Sərdar Ağasoylu:** Vahid, sənin yazılarında adını bilmədiyim bir şey var. Bilmirəm nədir? Bir onu bilirəm ki, o şey Ağdam həsrətindən yaranıb və o adını bilmədiyim şey, o yazıları oxuyarkən bizlərə də özünü hiss etdirir.

***

**Müşfiq Qənizadə:** Salam, mənim bağça və məktəb yoldaşım, afərin, oxuya-oxuya gedib məktəbə tozun-torpağın, səs-küyün içində futbol oynayıb gəldim, çox sağ ol!

***

**Mətanət Kərim:** Heç bilmirəm necə belə gözəl düşünmək və daha gözəl də ifadə etmək olar ki, adam sizi oxuyanda sizdən biri olur... Ağdamı azad görmək, yeni xatirələr qismətiniz olsun!

***

**Vasif Məhərrəmov:** Minnətdaram, hər yazıda bizə 3 dəqiqəlik canlı Ağdam yaşatdığınıza görə !!!

*******

**Fimar Asimqızı:** İnsanın nə özü qocalır, nə də yaddaşı. Hansısa dönəmdə yaşın sayımı təzədən başlayır. Vahid bəy, sinif şəklinizdə bir sizə baxdım, bir kollektivə, o arıq cavanların arasından sizi axtarıb tapmaq ... mən bunu bacarmadım.

***

**Vüsal Ağamirov:** Ay dədə vay!.. Kaş külək üzü Ağdama əsəydi Toz Adamları aparaydı...

***

**Vasilə Əhmədova:** Möhtəşəm. Yaddaşınıza həsəd aparıram. Kiçik fraqmentlər ilişib qalsa da əsas xatirələr, üzlər, səslər silinib yaddaşımdan, çox heyif. 1984 bizim buraxılış ili idi...

***

**Sevinc Həsənova:** "Harda desən varıq, Ağdamdan savayı..." çox təəssüf...

***

**Səməd Mahmudoğlu:** ...Biləndəki bu sinif şəklinizdəki yuxarıda sağdan 5-ci duran bu uşaq böyüyüb nələr yazacaq, adamın canına üşütmə düşür. "Sehirli xalat" filmində deyilən kimi...

***

**Reyhan Səfərli:** "Ruhlar şəhəri" məni istədiyim vaxt Ağdama aparıb qaytaran sehirli xalçamdır.

***

**İlqar Məmmədov:** Salam, Vahid. Bu nədi? Məni öldürdün bu kitabla.

***

**Nizami Tağısoy:** Ağdama ruhən səyahət eləmək istəyən "Ruhlar şəhəri"ni oxuya bilər.

***

**Yusif Millətoğlu:** Allah "tozları" qopduğu yerə qaytarsın... Təsirlidir...

***

**Nərgiz Hüseynova:** İnsanı gerçəkləşməsinə ümid etmədiyi xəyallar dəli edir. Mən hərdən 100 faiz inanıram. Planlar qururam. Hərdən də xəyallar qurduğum üçün özümü qınayıram sizin kimi. Bir də Ağdamın alınacağından söhbət düşəndə nənəmlə anam yadıma düşür. Onlar Ağdama gedə bilmədilər. Atamın 75 yaşı var. Amma elə planları var ki, Ağdamla bağlı. Sizin "mayovka" onun yanında yalandı...

*******

**Sahibə Rəşid:** Kitabı birinci dəfə oxuyanda istəyirsən tez bitirəsən. Elə ki oxudun, bitirdin, başlayır yaralar qan verməyə, ha çalışırsan ki yenidən bir də oxuyasan, bacarmırsan. Elə göynəyir ki, qəlbin elə sızlayır ki…

***

**İlqar Hüseynli:** Qardaş, sən yazma! Yazanda elə yazırsan ki, oturub ağlayırıq. Uşaq da peşman olur, nə baş verib ki, ata ağlayır? Bir də ki, kədərini bir qədər at, sənə yaraşmır. Mən həmişə sənin xoş zarafatlarının arxasında da bir kədər görürəm. Hətta keyfli səfər günlərimizdə də. Ağdam tək sənin yox, hamımızın dərdidir. Şah bulağında bizim də uşaqlığımız keçib, o tək sənin deyil, qardaşım. İnşallah, gün gələcək, qayıdacağıq o bulağa yenə də. Amma yazıda söz açdığın kasetin bir nüxsəsini də mənə yazdırmasan o dünyada da səni bağışlamayacam.

***

**Rövşən Abbas:** Sağ ol müəllim, yazıya görə. Yenə getdim Ağdamı gəzdim gəldim... Neji, Bəndi rəqabətindən tutmuş, „Ağdamski dublyaj“a qədər... Əla yazıdı. Bizim məktəbdə də satılırdı bilet. Bədən tərbiyəsi müəllimi Nizami müəllim satardı... Elxanın satdığı suyun, dondurmanın dadı indi də damağımdadır. Bir şeyi də xatırladım. Ağdamda dublyajdan qalma bir kəlmə çox dəbdə idi: “Şaka, bizi zibilə salma“. Məhz bu cür dublyaj olunmuşdu film...

***

**Rövşən Abbas:** Yenə möhtəşəm yazı alınıb. Həqiqətən də, toz dənələri kimi hərəmiz bir tərəfə səpələnmişik. Bu bazar 18 il sonra bir sinif yoldaşımla görüşdüm. Elə bil hardasa əsirlikdə olan ən yaxın adamımı illər sonra tapmışdım. 18 il ərzində başımıza gələnlərdən yox, daha çox bir sinifdə oxuduğumuz illərdən oldu əsas söhbət mövzumuz. Dönüb geriyə baxıram... Ağdamlı 12 illik həyatımda o qədər hadisələr var ki… Bakıda yaşadığım 17 ildə isə ha çalışıram, yada salam, xoş hisslə xatırlayası bir hadisə xatırlamıram. Sanki boş keçib həyatım...

***

**Vəzifə Əliyeva:** Çox bəyəndim, Vahid əmi, sizin yazılarınızı böyük zövqlə oxuyuram. Ağdamdan çıxanda 5 yaşım vardı. Evimiz, həyətimiz yadımdadı, başqa heç nə. Hər dəfə sizin Ağdam haqda xatirələrinizi oxuduqca (atamla, anamla birgə) valideynlərimin simasından olanları necə xatırladıqlarını sezirəm, sanki yenidən yaşayırlar olanları.

***

**Vüsal Süleymanov:** Mənim üçün çox maraqlıdır ki, Vahid bəy ən dəqiq xırdalıqlarına kimi bu anları, bu xatirələri necə yadında saxlayıb. Hər insanın yaddaşında belə dəqiq qalmır uşaqlıq xatirələri, məsələn, mənim yadımda uşaqlığımla bağlı müəyyən hadisələrin bəzi epizodları qalıb, yəni tam təfsilatı ilə xatırlamıram çox şeyi. Bu da, yəqin ki, Vahid bəyin fenomenal yaddaşından xəbər verir.

“10 yaşlı oğlun doğmadır sənə, ya 10 yaşlı özün?“ – sualı çox dərin məna kəsb eləyir... Vahid bəy sonunda çox çətin olsa da, "oğurlanmış" uşaqlığını – 10 yaşlı özünü seçir. Bəlkə də, Ağdam dursaydı, o, 10 yaşlı özünü yox, 10 yaşlı oğlunu seçərdi. Amma bu məqamda hər kəs, məncə, oğurlanmış uşaqlığını qaytarmaq üçün, doğma yurd yerinə dönmək üçün hər şeydən keçərdi...

***

**Elnarə Əliyeva:** Əvvəlcə yazı üçün sizə təşəkkür edirəm. Çünki hər dəfə bu yazılardan sonra ağdamlı günlərə qayıdıram. Sonra isə demək istəyirəm ki, yazılarınızdan sonra bir şeyə heyfim gəlir – kaş Ağdam əlimizdən gedənə qədər mən də ən azı orta yaşda olaydım. Belə anları dəqiq xatırlayardım. Düzdür, Ağdam yadımdadır, hər anı, hər günü. Amma sizin yazılarınızda olan insanların əksəriyyətini mən də tanımaq istərdim.

Sizi – üzbəüz qonşumuzu o vaxt çox sakit insan kimi xatırlayıram. Həm də siz bizim ailəmizdə bir nümunə yeriydiniz. Bir şey olan kimi mama başlayırdı: "Görürsüz Pərviz dayının oğlunu, öz biliyinə gedib o cür instituta daxil olub". Elə papa da, mama da sizə hörmətlə baxırdılar, tez-tez də oxumağın faydasının izah mərasimində sizdən misallar çəkilirdi. Nəysə, hər şeyə görə təşəkkürlər!

***

**Eyvaz Zeynalov:** Salam, qardaş! Elə bu saat "525-ci qəzet"dəki "Ruhlar şəhəri – 12" yazını oxudum. Bir anlıq xəyalım keçmişə uçdu. Mən də 1 nömrəli məktəbdə oxumuşam. Təsvir etdiyin məktəb həyəti, onun künc-bucaqları, sinif otaqları, müəllimləri (Dorikdən belə), hətta şagirdləri (baxmayaraq ki mən neçə il əvvəl oxumuşam) belə mənə də tanışdı. Əməlli-başlı kövrəldim. Doğrudan da, Ağdamdan yoxdu! Mənim də başqa rayonlardan qonaq gələn dostlarım Ağdamı, onun bulvarını, bazarını, Çay evini görəndə heyrətlənirdilər. Ağdamın adını eşidəndə, hardasa, nədəsə oxuyanda, hətta öz yazılarımda adını yazanda belə qeyri-adi hisslər keçirirəm. Bir neçə hekayəmdə mən də Ağdamı xatırlamışam.

Keçmiş xatirələri bir daha oyatdığına görə çox sağ ol, qardaş!

***

**Leyla Əliyeva:** Çox qəribədir, Vahid bəy, Ağdam işğal olunanda 4 yaşım vardı. Bəs, görəsən niyə sizin yazılarınızı oxuyanda mənə elə gəlir ki, mən də 1 nömrəli məktəbdə oxumuşam, mən də Çay evində çay içmişəm, mən də pambıq yığmağa getmişəm və mən sizin sadaladığınız bütün o insanları tanıyıram…

***

**Səbinə Gözəlova:** Biz ağdamlılar sizinlə fəxr edirik, Vahid bəy. Yazılarınız yenə bizi Ağdama aparır. Amma Mərzili kəndimə çatmamış bitir. Bir dəfə də gözümün önündə yanıb kül olmuş baba ocağıma gedək. Xahiş edirəm…

***

**Rafail Tağızadə:** Təşəkkür edirəm, Vahid bəy. Məni o illərə qaytardınız. Nastolji qarışıq şirin, bir az da daxilən acı dadan gözəl yazıdı. Görənlərin xatirələri təzələnir, görməyənlərin təəssüratları artır. Çox yaxşı alınır. Sizə uğurlar...

***

**Yeganə Quluzadə:** Əllərinizə, ürəyinizə sağlıq, Vahid bəy. Hər zamankı kimi gözəl duyğularla oxudum yazınızı... Yəqin ki, sizin yazdıqlarınızı yaşamayan biri bizim kimi dərindən dərk edə bilməz... Ümid edirəm, bir gün bu yazıları Ağdamda Ağdamsız günlərimizdən bir xatirə kimi oxuyacağıq...

***

**Yeganə Quluzadə:** Nə deyim… Görmədiyim, xatırlamadığım o küçələrdən, o tinlərdən sizin ləpirlərlə mən də keçdim. Xəyalən də olsa baba yurdumu, atamın, anamın boya-başa çatdığı yerləri mən də tanıdım... Amma öz aramızdı, bir duyğumu yazmasam tamamlaya bilməyəcəm şərhimi, özümdən bir neçə yaş böyük nəslə paxıllığım tutur yazılarınızı oxuyanda... Siz, heç olmasa, uşaqlığınızı doya-doya yaşamısınız doğma yurdunuzda, bizə o da qismət olmadı... O küçələrdən, yəqin ki, anamın, atamın qucağında körpə uşaqkən keçmişəm... Evimizi, eşiyimizi talamaları, yandırmaları bir yana, bir insana vurulacaq ən böyük zərbəni vurdular bizə – keçmişimizdən qopardılar, uşaqlıq xatirələrimizi, gənclik həyəcanlarımızı – hər şeyimizi aldılar əlimizdən... Allah erməniyə də, rusa da, qanı bizdən olan satqınlara da lənət eləsin! Bizi dünyanın ən gözəl guşəsindən – cənnətimizdən elədilər...

***

**Rey Kərimoğlu:** Vahid, salam! Qardaş, çox gözəl qələmə almısan. Uğurlar. Davam elə. Bu QHT sənin timsalında istedadlı publisisti, jurnalisti əlimizdən alıbmış. Tanınmış jurnalistlərimizin QHT-lərə getməsini görən nəhəng şairimiz Ramiz Rövşən QHT-lərə maraqlı ad qoyub – QƏHƏTƏ.

***

**Lalə Məmmədova:** Hər dəfə yazılarınızı oxuyanda özümüz olmasaq da ruhən gedirik bizsiz qalan o yerlərə. X.Məmmədov küçəsindən (keçmiş Voroşilov) başlayaraq addım-addım getdim məktəbimizə. Yol bitmədi, apteki də keçdim, bazarı da, gedə-gedə dönüb baxdm ki, hər şey geridə qalıb...

Canlı yaddaşsınız.

Mənim o yerləri unutmağa haqqım yoxdu. Sizin yazılarınız o qədər saf, sadə, ürəkdən və aydın yazılıb ki, heç bir şərhə ehtiyac qalmır...

***

**Qabil Hüseynov:** Vahid bəyin qələminin vərəqə hər toxunuşundan yaranan onun ürəyindəki incəliklərin əksidir. Hər dəfə onun məqalələrini oxuduqca biz də bu incəliklərə yaxın oluruq. Vahid bəy, siz hər yazıda öz ürəyinizi boşaldırsınız, amma biz… bizsə…

***

**Nəriman Məmmədov:** Salam, Vahid müəllim. Sizə sadə bir ağdamlı – rəssam, dizaynerdi yazan. Sizin son yazınızı oxudum... Xəyal memarı ... kövrəldim...

Ağdamdan çıxanda uşaqdım, ikinci sinfi bitirmişdim. Amma inanmazsız, gəzib gördüyüm yerlər indiyə kimi yadımdadır. Bu yerləri çox tez-tez yuxuda – xəyalımda görürəm. Bəlkə də, gülməlidir, arada internetdən tapdığım fotolara açıb baxır, kövrəlib bağlayıram, işimə davam edirəm. Hərdən lap uşaq kimi ağlamaq istəyirəm. Qəhər boğur. Darıxıram... nə isə...

Yazmaqda məqsədim nə? Bu yazınızla qəlbə çox toxunduz. Bilirəm bizim gözlədiyimiz "o" gün gələcək. Bir gün öpəcəm o torpağı. İnanıram. İnanıram ki, inşallah, görüşəcəyik. Görəcəyik həmin o xəyallarda tikdiyimiz Ağdamı...

***

**Sahilə:** Salam, Vahid bəy. Bu gün kitabınızı aldım. Yol boyu oxumuşam. Yol boyu gözlərim dolub, boşalıb. O qədər gözəl, o qədər təmiz, o qədər olduğu kimi, o qədər tam, o qədər içdən, o qədər səmimi təsvir etmisiz ki, hər şeyi. İlahi, gözümü kitabdan ayırmaq istəmirdim, sanki ayıran kimi yenidən ayrı düşəcəkdim cənnətimdən. O illəri yaşadım hər sözdə, hər cümlədə, hər sətirdə. Küçələrini qarış-qarış gəzdim, havasını sinəmə çəkdim. Məni o illərə qaytardınız. Bunun mənim üçün nə olduğunu anlada bilmirəm. Dönə-dönə minnətdaram. Amma hələ yarıyacan oxumuşam. Bilirəm ki, sona qədər oxuyandan sonra bir şeylər də yazacam. Gözlərimin yaşını axıda-axıda. Allah sizə dəyməsin.

***

**Babək Haqverdi oğlu:** Mən 1969-cu ildə Seyidli kəndində anadan olmuşam. Demək olar ki, sizinlə yaşıdıq. Mən sizin adını çəkdiyiniz Qazılı məhəlləsində yaşamışam. Fərhad kişinin nəvəsi və Haqverdi müəllimin oğluyam. Adım Babəkdir. Sizin kitabı mənə atam bağışlayıb, kitaba bu

sözləri yazıb “Ağdamı və məni xatırla”.  Bu sözlər məni çox düşündürdü, sizcə bunları unutmaq olarmı? Sizin təsvir etdiyiniz hadisələr mənim də gözlərim önündədir. Mənim kimi əsəbləri sakit olan adamı bu kitab bir neçə dəfə kövrəltdi…

***

**Sahibə Əliyeva:** Həqiqətən də, çox təsirli xatirələr var bu kitabda. Oxuduqca sanki nə zamansa yaşadığın nağıllar dünyasına qayıdırsan, özünə qayıdırsan. Oxuyub başa çatdıqdan sonra isə əllərin titrəyir. Gözlərindən yaş axır, bağlamaq istəmirsən kitabı, çünki qorxursan ki, yenidən Ağdamsız qalacaqsan, yurdsuz olacaqsan...

***

**Türkan Nağıyeva:** Vahid müəllim, kitabı əldə etdim, nəhayət. Yol boyu oxuduqca dilə gətirə bilməyəcəyim hisslər yasayırdim, inanın. Baxmayaraq ki, mən heç Ağdamı görməmişəm, amma göz önündə tamam canlandırdım hər şeyi.

***

**Günel Musayeva:** Vahid Qazi ismi və rəsmi düz iki ildir ki, mənə tanış idi. Ara-sıra yazılarını da oxuyurdum. Amma Vahid müəllimin simasında mən bu gün başqa şeylər hiss etdim. Mən bu gün Vahid Qazinin simasında ağrının cizgilərini gördüm. Dərdin xəritəsini gördüm. Ağdama gedən yolların bağlı olduğuna gözlərinin qaldırdığı üsyanı gördüm. Və ...bir də ümid gördüm. O ümid ki, bəlkə də, ondan indi çoxlarımız əlimizi üzüb, o gələcəyi "getdilər" siyahısına qatmışıq. Ağdamın viran qalmış halına mən bu gün ağladım, bu göz yaşlarımı saxlaya bilməzdim. Vahid Qazi haqqında bu iki saatda o qədər şey öyrəndim ki, çəkinmədən deyə bilərəm: onun hisslərindən roman yaza bilərəm. Nə yaxşı ki, sizlər varsınız biz gənclərin ümid çıraqlarını söndürməyə çalışan təəssüf küləklərinin qarşısını alırsınız. Var olun.

# Şeirlərdən seçmələr

**Esmira Məhiqızı. Çiyin-çiyinə (Vahid Qaziyə):**

Göz-gözə, üz-üzə, çiyinə-çiyinə.
Gəl verək əl-ələ, dərdlərdən keçək.
Yenə Qarabağın çıxıb seyrinə,
Dağılan yerlərdən, yurdlardan keçək.
Yüyürək Ağdamın küçələrindən,
Külək tozumuza çata bilməsin.
Burulaq tinindən, döngələrindən
Həsrət bizi qovsun, tuta bilməsin...

***

**Qabil Hüseynov. Xəyalımın şəhəri**
*Ağdamı görməyən gənclər adından Vahid bəy Qazinin "Ruhlar Şəhəri" kitabına:*

...Hey, atamdan, anamdan onu soraqlayardım,
Xatirələr axtarıb, tapıb qucaqlayardım,
Özümdə Ağdam haqda fikir yaratmaq üçün,
Neçə kitab səhfəsin açıb varaqlayardım.

Bu kitablar içində xəyallarım azırdı,
Hər kitab düşüncəmi bir mənaya yozurdu,
Bir gün bir kitab tapdım, adı "Ruhlar şəhəri",
Mənim yuxularımdan, xəyalımdan yazırdı.

...Artıq o yuxularla fərqli bir səhərim var,
Xəyalda ağ atıma minməyə yəhərim var,
Mənim şəhərim yoxdu, Qazinin sayəsində,
Xəyalımda yaşayan ruhlardan şəhərim var…

***

**Sahibə Rəşid. Vahid Qazinin "Ruhlar şəhəri"nə:**

Baharın bir daha görməyəcəmsə,
Ətirli çiçəyin dərməyəcəmsə,
Vətən, sənə bir də gəlməyəcəmsə,
Ölüm, görüşünə ruh kimi gəlim,
Gəlim, Ağdamımda gəzim, dincəlim.

...Ömürdən sayılmaz yurdsuz illərim,
Ağdamımda qaldı əziz günlərim,
Vahid də söylədi "RUHLAR ŞƏHƏRİM"
Mən də ölüm daha,
 ruh kimi gedim,
Gedim Ağdamımda gəzim, dincəlim…